1. İqxaləvəzləmə siyasəti iqtisadiyyatda struktur dəyişikliklərin həyata keçirilməsi üçün münbit şərait yaradır;
2. İqxaləvəzləmə siyasəti vasitəsilə iqtisadi inkişafda keyfiyyətli dəyişikliklər baş verir, belə ki, milli istehsalçıların rəqabət qabiliyyəti artır və milli iqtisadiayyatın strukturunda təkminləşmə baş verir.
3. İdxaləvəzlənmə siyasəti ölkənin innovativ inkişafına kömək edir, belə ki, mütərəqqi inkişafa nail olmaq üçün idxaləvəzləmə siyasəti milli bazar üçün yüksək əlavə dəyərli istehsal sahələrinin yaradılmasında təməl formalaşdırmalıdır, həmçinin qabaqçıl elmi nailiyyətlərin istifadə edilməsi və elmi-texniki geriləmələrin aradan qaldırılması məqsədilə texnolo-jiyaların transfertini təşkil etməlidir **(5).**

Yuxarıda qeyd edilən fikirləri nəzərə alsaq, idxaləvəzləmənin tam tərifini vermək olar.

**İdvaləvəzləmə-**milli iqtisadiyyatın inkişafının elə bir vəziyyətidir ki, ölkədə istehsal olunan əmtəələr idxal olunan əmtəələrlə müqayisədə daxili bazarda daha yüksək rəqabət üstünlüyünə malikdir (7).

Müasir mərhələdə idxaləvəzləmənin aktuallığını qeyd etmək zəruridir, çünki məhz bu siyasətin köməyilə dövlət davamlı iqtisadi inkişaf templərinə, iqtisadi təhlükəsizliyə və ölkənin dünya birliyində mövqelərini möhkəmləndirməsinə nail olur.

İdxaləvəzləmə strategiyasının ən mühim vəzifəsi stimullaşdırma obyektinin seçilməsidir. Stimulaşdırma obyektinin iki variantını qeyd edək:

1. Zəif inkişaf etmiş istehsal sahələrinin stimullaşdırılması;
2. Xarici rəqiblərlə mübarizə apara bilən inkişaf etmiş istehsal sahələrinin stimullşadırılması.

Birinci variantda xarici istehsalçılarla mübarizə apara bilməyən istehsal sahələrinin inkişafı nəzərdə tutulur. Bu strategiya daxili bazarda milli məhsulun payının artırılmasına yönəldilibdir.

İkinci variantda isə əsas məqsəd inkişaf etmiş sahələrdə istehsal olunan əmtəələrin rəqabətliyinin yüksəldilməsidir, həmçinin onların xarici bazarlarda təsirlərinin genişləndirilməsidir.

İdxaləvəzləmə strategiyasını üç növə təsnifləşdirmək olar:

1. Dövlət tərəfindən milli iqtisadiyyatda yeni istehsal sahələrinin yaradılması strategiyası. Bu strategiyanı həyata keçirərkən məlum olur ki, yeni sahə-lərdə fəaliyyət göstərən şirkətlərin dövlət dəstəyinə ehtiyacları vardır, belə ki, yeni sahələrdə istehsal olunan əmtəələrin qiymət üstünlüyünə nail olmaq üçün idxal olunan anoloji əmtəələrin gömrük rüsumları artırılmalıdır.Əsas məqsəd milli bazarın milli məsullarla zənginləş-dirilməsidir, dünya bazarına çıxış isə gələcəkdə nəzərdə tutulubdur.Yeni sahələrin inkişafının ikinci mərhələsində dövlət yalnız rəqabət qabiliyyətli şirkətləri dəstəkləyir,digər şirkətlər isə dövlətin dəstəyi olmadan fəaliyyət göstərirlər və nəticədə bir çoxları iflasa uğrayırlar.Üçinci mərhələdə isə dövlət dəstəyi tamamilə kəsilir.Bu vaxta qədər rəqabət qabiliyyətli şirkətlər gəlirli istehsalın qurulmasını başa çatdırmalıdırlar.Bir vaxtlar bu strategiya Şərqi Asiya ölkələrində geniş istifadə edilirdi;
2. Bu və ya digər səbəbdən (iqtisadi, geosiyasi, iqlim) ölkədə istehsal oluna bilməyən əmtəələrdən başqa digər əmtəələrin idxalına qadağaların qoyulması sstrategiyası. Dövlət çalışır ki, hər növ məsullar istehsal etsin. SSRİ, Çin, Cənubi Amerika ölkələri bu strategiyadan geniş istifadə edirdilər;
3. Uğurlu sahələrin stimullşadırılması strategiyası.

Sənaye siyasətinin əsas elementi hesab edilən idxaləvəzləmənin köməyilə ölkəyə tədbiq edilən iqtisadi sanksiyaların mənfi təsirləri minimuma endirilir. İdxaləvəzləmə strategiyasının əsas məqsədləri Şəkil 1 əks etdirilibdir




**Şəkil1:İdxaləvəzləmənin təməl məqsədləri**

İdxaləvəzləmə siyasətinin müsbət təsirləri nəticəsində aşağıdakı dəyişikliklər baş verir:

1. Əhalinin məşqulluğu artır, nəticədə işsizliyin səviyyəsi aşağı düşür və insanların yaşayış səviyyəsi yüksəlir;
2. ETT aktivləşir və təhsilin səviyyəsi yüksəlir;
3. Ölkənin iqtisadi və hərbi təhlükəsizliyi möhkəmlənir;
4. Milli istehsal məhsullarına tələbat artır;
5. İstehsal gücləri genişlənir **(6).**

Siyasi və maliyyə qeyri-sabitliyi ilə xarakterizə olunan dünya vəziyyətini nəzərə alsaq, məlun olur ki, əksər ölkələr iqtisadi təhlükəsizliyi təmin edə bilmirlər.İqtisadi təhlükəsizlik milli təhlükəsizlik sisteminin əsas komponentidir, buna görədə milli maraqlar iqtisadi imkanlar, stabil iqtisadi artım və iqtisadi inkişaf hesabına həyata keçirilməlidir. Dünya təcrübəsi göstərir ki, ölkənin iqtisadi təhlükəsizliyi nəinki onun müstəqilliyinin zəamanətidir, həmçinin cəmiyyətin rifahıdır. Bu fikirləri nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, iqtisadi təhlükəsizliyin təmin eidlməsi hər bir ölkə üçün mütləq vəzifədir.

İqtisadi təhlükəsizlik iqtisadiyyatın normal fəaliyyətini pozan və əhalinin həyat səviyyəsini aşağı salan amillərdən milli iqtisadiyyatı qorumaqdır .Milli iqtisadiyyata təhlükə yaradan əsas hadisələr isə şəkil 2 təsnifləşdirilibdir.




**Şəkil 2.Milli iqtisadiyyat üçün əsas daxili və xarici təhlüklər (8.)**

Həddindən artıq idxal, dövlətin liberal siyasəti və idxal olunan məhsulların yüksək rəqabət qabiliyyəti daxili bazarda idxalın böyük təsirinə gətirib çıxardır və nəticədə yerli istehsalçılar daxili bazara girmək üçün çətinlik çəkirlər.Lakin dövlətin səriştəli idxaləvəzləmə siyasətində və müəyyən idxal məhdudiyyətlərinin (tarif və qeyri tarif məhdudiyyətləri) həyata keçirilməsində xarici istehsalçılarla milli istehsalçılar arasında rəqabəti güclənir,milli istehsalçılar istehsal texnologiyalarını təkmilləşdirirlər və nəticədə daxili bazara keyfiyyətli məhsullar çıxarırlar.

Ölkənin idxaləvəzləmə siyasətinə toxunarkən qeyd etmək lazımdır ki, heç bir ölkə idxaldan tamamilə imtina edə bilməz və öz ərazisində bütün sahələrdə səmərəli istehsal yarada bilməz. Mövcud resursların əhəmiyyətli dərəcədə məhdudlaşdırılması bunu qeyri-mümkün edir, həmçinin milli texnolo-giyaların və sənayenin inkişaf etməməsi və ya olmaması səbəbindən yüksək keyfiyyətli və texnologiyalı idxal olunan məhsullardan imtina etmək məqsədə uyğun hesab edilmir.

Məhdud istehsal imkanları ilə və ya resurslarla öz ərazisində istənilən məhsulun istehsalına başlamaq istəyi idxaldan daha da yüksək səviyyədə asılılığa gətirib çıxarda bilər. Nəticədə istehsal olunan məhsul idxal oluanan məhsuldan çətinki ucuz və rəqabətli olsun. Ona görə də idxaləvəzləmədən danışarkən, ilk növbədə elə sahələrə meyillənmək lazımdır ki, bu sahələrdə ölkənin sahə üstünlüyü olsun və ya onu əldə edə biləcək imkanları olsun.

Beləliklə, milli iqtisadiyyatın inkişafı üçün stimul hesab edilən idxal əvəzləmə strategiyasına dair qeyri-müəyyən münasibətlərə baxmayaraq, inkişafda olan ölkələr bu strategiyanın ağıllı tətbiqi ilə yüksək əlavə dəyər yaradan muasir texnologiyalı istehsalların inkişafına dəstək ola bilər.

Dövlət çalışmalıdır ki, idxaləvəzləmə nəinki daxili bazarı əmtəə və xidmətlərlə təchiz etsin, həmçinin dünya bazarında rəqabətə davam gətirə bilən əmtəə və xidmətlərin istehsalını genişləndirsin.Şübhəsiz ki, idxaləvəzləmə siyasəti məhdud müddətlər və az maliyyələşmə şəraitində əhəmiyyətli dərəcədə çətinliklərə məruz qalır.

Bir çox ekspertlərin fikrincə, idxaləvəzləmənin həyata keçirilməsinə və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına mane olan əsas amillər aşağıdakılardır:

I.Genişmiqyaslı və məqsədli dövlət dəstəyinin olmaması.Dövlətin dəstək paketinə daxildir:

1. müəssisələrə subsidiyaların ayrılması;
2. elmi tədqiqatların birgə maliyyələşdirilməsi;
3. qrantların verilməsi;
4. vergi güzəştləri;
5. dövlət satın-almalarında büdcə zəmanətlərinin və imtiyazlarının verilməsi.

II.Milli iqtisadiyyatın xammal yönümlü olması.Xammal yönümlü milli iqtisadiyyat bir sıra neqativ təsirlər yaradır:

1. sənaye müəssisələrinin xammal təminatının aşağı salınması onların səmərəli fəaliyyətini məhdudlaşdırır;
2. xammal resurslarının hasili və ixracı digər istehsal sahələrinin geridə qalmasına səbəb olur;
3. milli iqtisadiyyat xammal resurslarının dünya qiymətindən asılı vəziyyətdə qalır;

III.Sənayenin zəif olması Xammal resurslarının hasilatı və emalı ilə məşğul olan sənaye sahələrinin üstünlük təşkil etməsi, hərbi sənaye kompleksinin yüksək payı digər sənaye sahələrinin durğunluğuna səbəb oldu. Firmalar rəqabət qabiliyyətli məhsullar istehsal edə bilmirlər, nəticədə belə əmtəələr idxal olunur.

IV.Mövcud əsas fondların köhnəlməsi və onların təkrar istehsalının mümkünsüzlüyü.

V.Mərkəzi Bankın uçot dərəcəsinin yüksək olması. Uçot dərəcəsinin yüksək olması və əsas fondların əhəmiyyətli dərəcədə köhnəlməsi idxaləvəzləmə siyasətinin tam həyata keçirilməsinə imkan vermir.

VI.İnfrastrukturun inkişaf etməməsi. Avtomobil və dəmir yollarının keyfiyyətinin aşağı olması yerli istehsal əmtəələrinin qiymətlərini əhəmiyyətli dərəcədə artıra bilər ki, buda xarici analoqlarla müqayisədə yerli məhsulların rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə azaldacaqdır.

VII.Müəssisələr tərəfindən elmi və innovativ fəaliyyətin zəif dəstəklənməsi. Bu fakt milli iqtisadiyyatın texnoloji geriləməsinə və nəticədə yerli məhsulların rəqabət qabiliyyətinin aşağı düşməsinə gətirib çıxardır.

VIII.Yüksək ixtisaslı elmi, texniki və fəhlə kadırların çatışmamazlığı. Keyfiyyətsiz təhsil nəticəsində savadsız kadırlar yetişdirilir və ya ölkədə əmək haqqının aşağı olması nəticəsində savadlı kadırlar ölkəni tərk edirlər.Fəhlə qüvvəsinin çatışmamazlığı xüsusi orta təhsilin dəbdə olmamsı ilə izah edilir.

IX.İdxal əmtəələrinin digər idxal əmtəələrilə əvəzlnməsi.2015-ci ildə Russiya hərbi təyyarəsinin Türkiyə tərəfindən vurulması nəticəsində,Ruussiya höküməti Türkiyyədən idxal olunan məhsullara qadağa qoydu. Misir isə türk məhsullarının öz məhsulları ilə əvəzlənməsi təşəbüsünü irəli sürdü.

Yekun olaraq qeyd etmək lazımdır ki, bu problemlərin həlli üçün hökumət ölkədəki iqtisadi vəziyyəti sabitləşdirən köklü tədbirlər görməlidir, bu da idxaləvəzləmə siyasətinin inkişafının effektivliyindən birbaşa asılıdır.

## ƏDƏBİYYAT

1.E.B.Mardaliyeva, M.X.Kambulatova-İdxaləvəzlənmə-Gənc alim-2015-№11;s. 907-909.
2.V.K.Falçman-Yeni geosiyasi şəraitdə idxaləvəzlənmənin sürətləndirilməsi-Proqnozlaşdırmanın problemləri-2015-№1;s.21-23
3.O.B.Berezinskaya, A.L.Vedev-Rusiya sənayesinin idxaldan istehsal asılılığı və strateji idxaləvəzlənmə mexanizmi-İqtisadiyyatın sualları-2015-№1;s.114-115
4.E.F.Baranov-RF xarici ticarət dinamikasında idxaləvəzlənmə-İqtisadi elmlər- 2013-№ 7; s.104.
5.Q.A.Fedoseyeva-İdxaləvəzlənmə nəzəriyyəsinin mahiyyəti və inkişafı-Xəbərlər-Sank-Peterburq Dövlət İqtisad Universiteti-2015-№ 3 (93); s.144-148.
6.S.D.Bodrunov-İdxaləvəzlənmənin nəzəriyyəsi və praktikası-Monoqrafiya-2015;s.78-81.
7.P.A.Yerşov-İdxaləvəzlənmə və idxaləvəzlənmə siyasəti:Anlayışın tərif edilməsində nəzəri yanaşma-Carçı-Russiya Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu-2/2017;s.150-151.
8.O.M.Düjilova-Ölkəninvə regionun iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsinin xüsusiyyətləri-Carçı-TvQU-Seriya:İqtisadiyyat və idarə etmə-2014-Buraxılış 23;s.234-235

**РЕЗЮМЕ**
**ХИКМЕТ ГАСАНОВ**
**ИМПОРТОЗАМЕЩЕНИЕ-КАК ОСНОВНАЯ МАКРОЭКОНОМИЧЕСКАЯ СТРАТЕГИЯ РАЗВИВАЮЩИХСЯ СТРАН.**

В современном периоде увеличение объемов импорта создает угрозы не только экономической безопасности страны, но и национальной безопасности в целом. В такой ситуации необходима реализация государством политики импортозамещения. В статье систематизированы различные подходы к трактовке категории импортозамещения. Выявлен ряд отличительных особенностей, характерных для процесса импортозамещения.

**Ключевые слова**: *импортозамещение, импорт, политика импорто-замещения, экономическое развитие, экономическая безопасность.*

**SUMMARY**
**HIKMAT HASANOV**
**İMPORT SUBSTITUTION AS THE MAIN MACROECONOMIC STRATEGY OF DEVELOPING COUNTRIES**

In the modern world, the increase in the volume of imports creates threats not only to the economic security of the country, but also to the national security as a whole. In such a situation, it is necessary to implement the policy of import substitution by the state. İn the article, various approaches to the interpretation of the category of import substitution are systematized and a number of distinct features specific to the import substitution process have been identified.

**Keywords**: *import substitution, import. import substitution policy, economic development, economic security.*

*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov  tərəfindən təqdim edilmişdir)*

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

UOT:336

**ZAKİR MƏMMƏDOV**
“Naxçıvan” Universiteti
baş müəllim

**SEVİNC ƏMİRƏLİYEVA**
Naxçıvan Dövlət Universiteti
Biznesin təşkili və idarə edilməsi, II kurs
sevinceliyeva568@gmail.com
DOI: 10.5281/zenodo.10979496

# MÜASİR ŞƏRAİTDƏ REGİONAL BANK SİSTEMİNİN İNKİŞAFİ PROSESİ

## XÜLASƏ

*Məqalədə respublikamızda müasir bank sisteminin fəaliyyət mexanizmindən bəhs edilmiş, günümüz reallığında regional bank sisteminin inkişaf prosesi tədqiq edilmiş, iqtisadçı alimlərin araşdırmalarına diqqət yetirilmiş, bu araşdırmaların zəif və güclü tərəflər analiz edilmişdir. Yanaşmalarda ikipilləli və üçpilləli bankların fərqli və üstün cəhətlərinə diqqət yetirilmiş, regional bank sisteminin inkişafını özündə xarakterizə edən təkliflər irəli sürülmüşdür.*

*Elmi məqalədə tərəfimizdən aparılan tədqiqatlar nəticəsində regional bank sistemlərinin təhlili üçün göstəricilər sistemi hazırlanmış və təsnifatlandırılmışdır.*

***Açar sözlər:** bank, Mərkəzi Bank, regional bank sistemi, bank sektoru, kredit təşkilatları, kommersiya bankları.*

Müasir Azərbaycan reallığında mühüm sosial-iqtisadi problemlərdən biri müxtəlif ərazi qurumlarının inkişafındakı qeyri-mütənasiblikdə özünü göstərən regional asimmetriyadır. Bu bazar iqtisadiyyatı şəraitində tənzimləmə aləti regional bank sektoru olan səmərəli regional siyasətin xüsusi əhəmiyyətini şərtləndirir. Parantez açaraq bir nüansı da vurğulayaq ki, milli bank sisteminin inkişafına həsr olunmuş müasir analitik əsərlər və praktiki işləmələr bank sektorunun regional xüsusiyyətlərini öyrənmir.

Qeyd etmək lazımdır ki, bu günə qədər regional bank sistemlərinin inkişaf səviyyəsinin təhlilinə vahid yanaşma hazırlanmamışdır. Regional bank sistemlərinin inkişaf səviyyəsinin diaqnostikasını və səciyyələndirilməsini, onların milli bank sistemində yerini müəyyən edə bilən, ayrı-ayrı regionların bank sektorlarının müqayisəli təhlilini apara bilən göstəricilərin müəyyənləşdirilməsi metodologiyası mövcud deyildir.

Regional bank sisteminin tədqiqi üçün nəzəri və metodoloji əsasların kifayət qədər inkişaf etdirilməməsi, onun Azərbaycan Respublikası bank sistemi, regionun və milli iqtisadiyyatın iqtisadi inkişafı üçün əhəmiyyətinin lazımi səviyyədə qiymətləndirilməməsi məqalədəki tədqiqatımızın aktuallığını müəyyən edir.

Müasir Azərbaycan reallığında, ilk növbədə Mərkəzi Bank və bir sıra kredit təşkilatları ilə təmsil olunan iki səviyyəli bazar tipli bank sistemi inkişaf etmişdir. Onlar praktiki olaraq fasiləsiz olaraq iqtisadiyyatın bütün bölmələri arasında hesablaşmaları təmin edir, müvəqqəti sərbəst pul vəsaitlərini yenidən bölüşdürür, digər bank funksiyalarını yerinə yetirir, bazarda bir-biri ilə və xarici mühitlə daimi və sıx qarşılıqlı əlaqədə olurlar. Sadalanan komponentlər ümumi funksiyalar və məqsədlərlə birləşən sistemi təşkil edir. Bundan əlavə, ümumi hüquqi bazanın - bank sisteminin ayrı-ayrı elementlərinin hüquqi vəziyyətini, onların bir-biri ilə qarşılıqlı əlaqə üsullarını tənzimləyən, habelə elementlər arasında müxtəlif növ əlaqələrin qurulmasını tənzimləyən bank qanunvericiliyinin mövcudluğu yuxarıdakı elementlərin birləşməsinin bir sistem təşkil etdiyini göstərir.

Milli iqtisadi sistemin fəaliyyət göstərməsi prosesində region iqtisadiyyatları formalaşır. İqtisadiyyatın ərazi xüsusiyyətlərinə uyğun olaraq regionlarda mərkəzi bank sisteminin bölmələri yaradılaraq regional bank sistemi formalaşdırılır. Lakin bütün bunlara baxmayaraq bu gün “regional bank sistemi” anlayışının ümumi qəbul edilmiş tərifinin olmamasından danışa bilərik ki, onsuz regional bank sistemlərinin inkişafının hərtərəfli öyrənilməsi və təhlili çox problemlidir.

Bir sıra yerli iqtisadçıların fikrincə, regional bank sistemi bank sisteminin xarici və daxili təşkili amillərinin təsiri altında regionda təcrid olunmuş, hər biri ayrı-ayrılıqda xüsusi funksiyaları

yerinə yetirən, bunun nəticəsində sistemin bütün funksiyalarının həyata keçirildiyi və bir-biri ilə və xarici mühitlə sıx əlaqədə olunduğu bank subyektlərinin məcmusudur [3]. Bu tərifdən belə nəticəyə gəlmək olar ki, regional bank sistemi vahid mərkəzi bank sisteminə daxildir.

Regional bank sisteminin strukturuna müxtəlif yanaşmalar mövcuddur. Beləliklə, R.A.Bəşirov öz araşdırmalarında iki səviyyədən ibarət bank sistemi təklif edir: "Birincisi, Azərbaycan Respublikası Mərkəzi Bankının ərazi filialı, ikincisi isə regionda fəaliyyət göstərən kommersiya bankları və onların digər regionlardakı bank filialları" [1]. Fikrimizcə, bu sistemdə regionda yerləşə biləcək xarici bankların filialları yoxdur.

Bir çox iqtisadi əsərlərdə regional bank sistemlərini təsvir edərkən əsas diqqət element tərkibinin dəqiqləşdirilməsinə deyil, onların struktur elementlərinə təyin edilmiş funksiyaların spektrinə yönəldilir. Belə ki, M.F.Əliyev regional bank sistemini ölkənin bank sisteminin bir hissəsi kimi müəyyən edərək bildirmişdir ki, "regional bank sistemi – regional resurslardan səmərəli istifadəni təmin etmək, regional iqtisadiyyatı dəstəkləmək və daxili regional məhsulun yaradılmasına vasitəçilik etmək üçün nəzərdə tutulan, regionda qeydiyyatdan keçmiş kredit təşkilatları və digər regionlardakı kredit təşkilatlarının filialları, bank infrastrukturudur" [2]. Parantez açaraq bir fakta diqqət yetirək ki, fikrimizcə, bu tərif bank infrastrukturunun məzmununu tam aydınlığı ilə açıqlamır.

Digər variant isə regionda üç pilləli bank sistemini təqdim edən iqtisad elmləri doktoru, professor E.M.Sadiqov tərəfindən təklif edilmişdir. E.M.Sadiqova görə, üçüncü səviyyədə "Azərbaycan Respublikasının iqtisadi rayonlarının ərazisində yerləşən yerli bankların filialları fəaliyyət göstərir" [4]. Birinci səviyyəyə isə bu regiondan kənarda mərkəzi ofisi olan bankların bütün bölmələri daxildir. Beləliklə, eyni səviyyədə Azərbaycan Respublikası Mərkəzi Bankının ərazi filialı, xarici banklar və digər regional bankların filialları var. Fikrimizcə, Azərbaycan Respublikasının bank sisteminin hazırkı vəziyyəti nöqteyi-nəzərindən bu yanaşma səhvdir və göstərilən element bankların müxtəlif statusuna görə qəbuledilməzdir.

Regionun bank sisteminin strukturuna başqa bir yanaşma – ikipilləli yanaşma daha çox inkişaf etmişdir. Birincisi, Azərbaycan Respublikası Mərkəzi Bankının ərazi administrasiyası, ikincisi, bütün digər kredit təşkilatları [5]. Bu yanaşma ən məqbul yanaşma kimi görünür, lakin digərləri kimi onun da müsbət və mənfi cəhətləri var. Müsbət cəhət, fikrimizcə, "region və inzibati ərazi vahidi" bankı kimi bir elementin ayrılıqda çıxış etməsidir. Onun mövcudluğu həm bütövlükdə regionun, həm də yerli bankların maraqlarına uyğun olaraq bütün regional bank sisteminin fəaliyyətinin koordinasiyasının artırılmasını nəzərdə tutur. İşin mənfi tərəfi odur ki, qurulmuş strukturlara görə, regionun bank sistemi əslində müəllifin özünün müəyyən etdiyi kimi ikipilləli deyil, üçpilləli olur.

Üçüncü səviyyə "region və inzibati ərazi vahidi" adlanan bankın bütün digər regional kommersiya banklarından yuxarı struktura ayrılması ilə əlaqədardır. Fikrimizcə, "region və inzibati ərazi vahidi" bankının xüsusi statusu təkcə onun hüquqları ilə deyil, həm də regional bank sistemi daxilindəki öhdəlikləri ilə qanun çərçivəsində müəyyən edilməlidir. Onu da qeyd etmək lazımdır ki, bu banka xüsusi səlahiyyətlərin verilməsi digər regional bankların fəaliyyət dairəsini müəyyən dərəcədə məhdudlaşdıracaq, baxmayaraq ki, bu məsələnin bütün aspektlərinin düzgün əlaqələndirilməsi ilə regional bank sisteminin işində müsbət nəticələr əldə ediləcəkdir.

Fikrimizcə, regional bank sistemi ölkənin vahid bank sisteminin alt sistemi kimi qəbul edilməli və ona görə də onun əsas xüsusiyyətlərini və xassələrini qoruyub saxlamalıdır. Eyni zamanda, regional bank sistemi regional fəaliyyət şəraiti (sosial, iqtisadi, siyasi və s.) ilə müəyyən edilmiş spesifik xüsusiyyətlərə malikdir. Beləliklə, regional bank sistemi regional fəaliyyət şəraiti (geostrateji yerləşmə, investisiya cəlbediciliyi, iqtisadi ixtisaslaşma, əhali gəlirləri və s.) ilə müəyyən edilmiş ümumi (iki səviyyəli və universal) və spesifik xüsusiyyətlərə malik olan sistemli bir qurumdur, bütövlüyü milli sistemlə eyni xarakter daşıyır və əlaqələrin nizamlılığı mərkəzi bankın şaquliliyi ilə təmin edilir.

Regional bank sisteminin formalaşması bankların, o cümlədən resurs potensialının formalaşmasının ərazi prinsipi ilə, regional səviyyədə bank sisteminin idarə edilməsinin ərazi

səviyyəsini və bankların regional iqtisadiyyatın subyektləri ilə əlaqələrini işıqlandıran şaquli idarəetmə strukturu ilə müəyyən edilir. Bu prinsiplər regional bank sisteminin ikipilləli strukturunu müəyyən edir. Birincisi, Azərbaycan Respublikası Mərkəzi Bankının regional filialları, ikincisi - yerli (regional) kommersiya bankları, qeyri-regional bankların filialları və nümayəndəlikləri, bu ərazidə açılmış xarici banklar, bank olmayan kredit təşkilatlarıdır (sxem 1).

Fikrimizcə, regional bank sisteminin qurulması üçün əsas prinsiplər aşağıdakılardan ibarət olmalıdır:

- ilk növbədə, regionun iqtisadiyyatına və xarici mühitə münasibətdə, ikincisi, regional bank sisteminin digər elementlərinə münasibətdə adekvat inkişafı təmin etməlidir;
- regional bank sistemi, inkişafı təmin edən daxili hərəkət mənbələrindən istifadə etməklə özünü inkişaf etdirməyi nəzərdə tutmalıdır;
- iri, orta və kiçik bankların optimal birləşməsi və regional bank sisteminin elementləri arasında münasibətlərin müxtəlif formalarının inkişafını təmin etməlidir.

Həm milli, həm də regional bank sistemlərinin səmərəli fəaliyyəti üçün gərəkli şəraiti təmin edən bir-biri ilə əlaqəli elementlər kompleksi kimi bazar bank infrastrukturu regional bank sisteminin zəruri elementidir. Bazar bank infrastrukturu, fikrimizcə, regional bank sistemlərinin və bütövlükdə milli bank sisteminin fasiləsiz fəaliyyəti üçün ümumi şərtləri təmin edən bir-biri ilə əlaqəli strukturların məcmusudur.

Sxem 1. Regional bank sisteminin strukturu




Bu zaman regional bank sistemi və onun strukturu regionun bazar bank infrastrukturunun elementləri ilə qarşılıqlı əlaqədə (milli bank sisteminin bank infrastrukturunun elementləri ilə analoji olaraq) nəzərdən keçirilməlidir (sxem 2).

Sxem 2. Bazar bank infrastrukturu




Beləliklə, respublikamızda regional bank sistemlərinin sistemli yanaşma nöqteyi-nəzərindən müəyyənləşdirilməsi, ilk növbədə, mürəkkəb bir təşkilat kimi ölkənin bank sisteminə xas olan xüsusiyyətlərlə əlaqəli təşkilati və iqtisadi ilkin şərtlər, digər tərəfdən Azərbaycan iqtisadiyyatındakı struktur dəyişiklikləri ilə diktə olunur.

Hazırda regional bank sistemlərinin inkişafının təhlili metodlarının kifayət qədər işlənib hazırlanmadığı qeyd olunur. Bu baxımdan milli bank sisteminin elementləri kimi regional bank sistemlərinin formalaşma şəraitini, mövcud vəziyyətini və inkişaf perspektivlərini təhlil etməyə imkan verən milli bank sisteminin regional kontekstdə elmi tədqiqinin aparılması aktuallaşır. Bank sektorunun tədqiqat obyekti kimi sistemli şəkildə təqdimatı sistem təhlilin klassik üsullarından istifadə etməyə və təhlil edilən sistemin xüsusiyyətlərindən asılı olaraq onların seçilməsinə imkan verir. Parantez açaraq qeyd edək ki, məhz bu baxımdan məqalədə regional bank sektorunun sistem təhlilinin əsas mərhələlərini, hər bir mərhələnin məqsədlərini, vəzifələrini və məzmununu, onların əlaqələri və qarşılıqlı asılılıqlarını müəyyən edən tədqiqat metodologiyası işlənib hazırlanmışdır. Sistemli yanaşma əsas əməliyyat parametrlərinin tənzimlənməsi üçün tövsiyələrin sonrakı işlənməsi ilə regional bank sisteminin diaqnostikasının aparılmasına yönəldilmişdir.

Regional bank sistemlərinin öyrənilməsinin ən vacib və mühüm mərhələlərindən biri onun parametrləşdirilməsi, yəni sistemin fəaliyyətinin ən əhatəli göstəricilərinin müəyyənləşdirilməsidir. Regional bank sektorunun inkişafını xarakterizə edən müasir elmi nəşrlər bank fəaliyyətinin əsas aspektlərini təhlil etmək üçün müxtəlif metodoloji yanaşmalardan, ölçü və göstəricilərdən istifadə edir. Lakin əksər nəzəri və praktiki tədqiqatlarda bank sektorunun spesifik ərazi xüsusiyyətlərini bərabərləşdirən və ya tənzimləyən makroiqtisadi yanaşma üstünlük təşkil edir. Ayrı-ayrı kredit təşkilatının bank idarəçiliyində istifadə olunan göstəricilərinin əsassız olaraq bütövlükdə regional bank sisteminin təhlil alətlərinə daxil edilməsi və s. kimi yanaşmaları göstərə bilərik.

Fikrimizcə, regional bank sektorlarının inkişaf səviyyəsini aşağıdakı bir sıra parametrlərlə xarakterizə edə bilərik:

- bank seqmentlərinin regional iqtisadiyyatdakı rolu nəzərə alınmaqla sistem kimi fiziki cəhətdən yenidən qurulması;
- fəaliyyətin maliyyə-iqtisadi aspektləri (maliyyə resurslarının cəlb edilməsi, toplanmış vəsaitlərin yerləşdirilməsi);
- regional bank sistemlərinin ödəmə qabiliyyətini saxlamaq və onların işinin fasiləsizliyini qorumaq üçün səfərbər edilmiş və ayrılmış vəsaitlər arasında müəyyən edilmiş proporsiyaların saxlanılması;
- investisiyaların səmərəliliyinin qiymətləndirilməsi;

- orta respublika səviyyəsi ilə müqayisədə sistemin işləməsinin qiymətləndirilməsi.

Tərəfimizdən aparılan araşdırma nəticəsində hazırlanmış metodoloji yanaşma regional bank sistemlərinin əsas fəaliyyət istiqamətlərinin vəziyyətinin və inkişaf səviyyəsinin diaqnostikasını aparan beş bloku özündə birləşdirir. Həmçinin, bu metodoloji yanaşma regional bank sistemlərinin inkişaf səviyyəsinin hərtərəfli qiymətləndirilməsi məqsədilə göstəricilər sisteminin qurulması üçün əsas təşkil edir (cədvəl 1).

Cədvəl 1. Regional bank sistemlərinin təhlili üçün təklif olunan göstəricilər sistemi

| | |
|---|---|
| **1. Regional bank sisteminin institusional inkişafı göstəriciləri** | |
| 1.1. Regionda fəaliyyət göstərən müstəqil kredit təşkilatlarının sayı | Mütləq dəyər |
| 1.2. Fəaliyyət göstərən müstəqil kredit təşkilatlarının əsas kredit təşkilatı ilə birlikdə regionda yerləşən filiallarının sayı | Mütləq dəyər |
| 1.3. Baş bankları regiondan kənarda yerləşən filialların sayı | Mütləq dəyər |
| 1.4. Satış məntəqələrinin sayı (kredit təşkilatlarının şəbəkə xarakteri) | Regionda fəaliyyət göstərən müstəqil kredit təşkilatlarının və onların region ərazisində yerləşən filiallarının, baş bankları region hüdudlarından kənarda yerləşən filiallarının, region üzrə kredit təşkilatlarının kassalarından kənar əlavə ofis, kredit-kassa və əməliyyat kassalarının ümumi sayı |
| 1.5. Regionda kredit təşkilatına düşən satış məntəqələrinin sayı | Satış məntəqələrinin sayının regiondakı müstəqil kredit təşkilatlarının və xarici bankların filiallarının sayına nisbəti |
| 1.6. Filial şəbəkəsi göstəricisi | Regionda müstəqil kredit təşkilatlarının filiallarının onların sayına nisbəti |
| 1.7. “ Ekspansiya (genişləndirmə)” göstəricisi | Qeyri-regional bankların filiallarının sayının regiondakı müstəqil kredit təşkilatlarının və onların regionda yerləşən filiallarının sayına nisbəti |
| **2. Regional bank sisteminin region iqtisadiyyatında rolunu xarakterizə edən göstəricilər** | |
| 2.1. Regionda bank xidmətlərinin yayılması intensivliyi | Satış məntəqələrinin sayına və region əhalisinin nisbətinə görə müəyyən edilir (regionun hər 100 min sakininə) |
| 2.2. Regionun bank xidmətləri ilə maliyyə təminatı göstəricisi (aktivlər üzrə) | Bank sektorunun aktivləri ilə ümumi regional məhsulun nisbəti əsasında müəyyən edilir |
| 2.3. Regionun bank xidmətləri ilə maliyyə təminatı göstəricisi (kreditlər üzrə) | Verilmiş kreditlərin həcminə və ümumi regional məhsula nisbəti ilə müəyyən edilir |
| 2.4. Regionda əmanətlərin inkişafı göstəricisi | Adambaşına düşən fərdi əmanətlərin əhali gəlirlərinə nisbəti ilə müəyyən edilir |
| **3. Regional bank sistemlərinin fəaliyyətinin maliyyə-iqtisadi aspektlərini xarakterizə edən göstəricilər** | |
| 3.1. Kredit təşkilatlarının öz vəsaitlərinin həcmi | Mütləq dəyər |
| 3.2. Kredit təşkilatlarından cəlb edilmiş vəsaitlərin həcmi | Mütləq dəyər |

| | |
|---|---|
| 3.3. Məcmu passivlərdə öhdəliklərin payı | Region üzrə kredit təşkilatlarının cəlb etdiyi maliyyə resurslarının məbləğinin onların ümumi passivlərinin məbləğinə nisbəti |
| 3.4. Depozitlərin ümumi öhdəliklərdə payı | Kredit təşkilatlarının fiziki və hüquqi şəxslərdən əmanət və depozit şəklində cəlb etdiyi maliyyə vəsaitlərinin məbləğinin kredit təşkilatlarının ümumi öhdəliklərinə nisbəti kimi hesablanır. |
| 3.5. Emissiya edilmiş qiymətli kağızlardan vəsaitlərin kredit təşkilatlarının ümumi öhdəliklərində payı | Kredit təşkilatlarının qiymətli kağızların buraxılışından əldə etdikləri maliyyə vəsaitlərinin məbləğinin kredit təşkilatlarının ümumi öhdəliklərinə nisbəti |
| 3.6. Regionun kredit təşkilatlarının ümumi aktivlərinin həcmi | Mütləq dəyər |
| 3.7. Kredit təşkilatı üzrə maliyyə resurslarının təmərküzləşməsi | Kredit təşkilatlarının məcmu aktivlərinin onların sayına nisbəti |
| 3.8. Kreditlərin ümumi aktivlərdə payı | İqtisadiyyat sahələrinin kredit təşkilatlarına region üzrə xalis kredit borcunun ümumi aktivlərə nisbəti kimi hesablanır |
| 3.9. Uzunmüddətli kreditlərin ümumi kredit portfelində payı | Uzunmüddətli kreditlərin həcminin verilmiş kreditlərin ümumi həcminə nisbəti kimi hesablanır |
| 3.10. Kredit təşkilatlarının ümumi aktivlərində səhm portfelinin payı (qiymətli kağızlara investisiyalar) | Qiymətli kağızlara qoyulan investisiyaların məbləğinin kredit təşkilatlarının ümumi aktivlərinə nisbəti kimi hesablanır |
| **4. Fəaliyyətin davamlılığı və gəlirliliyi göstəriciləri** | |
| 4.1. Ümumi likvidlik göstəricisi | Regiondakı kredit təşkilatlarının yüksək likvidli aktivlərinin dəyərinə və onların ümumi öhdəliklərinə nisbəti |
| 4.2. Ümumi rentabellik | Regionda kredit təşkilatlarının əldə etdikləri mənfəətin onların çəkdiyi xərclərə nisbəti |
| 4.3. Aktivlərin rentabelliyi | Regionda kredit təşkilatlarının xalis mənfəətinin ümumi aktivlərə nisbəti |
| 4.4. Kredit portfelinin keyfiyyəti | Kredit portfelində vaxtı keçmiş kreditlərin payı |

| 5. Sistemin performans və ya fəaliyyət göstəriciləri | |
|---|---|
| 5.1. Regionun bank xidmətləri ilə institusional təmin olunma və ya doyma indeksi | Azərbaycan Respublikası üzrə kredit təşkilatlarının və əhalinin sayının orta göstəriciyə nisbəti |
| 5.2. Regionun bank xidmətləri ilə maliyyə təmin olunma və ya doyma indeksi (aktivlər üzrə) | Azərbaycan Respublikası üzrə aktivlərin və ümumi regional məhsulun orta göstəriciyə nisbəti |
| 5.3. Regionun bank xidmətləri ilə maliyyə təmin olunma və ya doyma indeksi (kreditlər üzrə) | Azərbaycan Respublikası üzrə kreditlərin və ümumi regional məhsulun orta göstəriciyə nisbəti |
| 5.4. Regionda əmanətlərin inkişafı indeksi | Azərbaycan Respublikası üzrə fiziki şəxslərin əmanətlərinin orta göstəriciyə münasibətdə gəlirlərinə nisbəti |

Mənbə: Cədvəl müəllif tərəfindən tərtib olunmuşdur.

Regional bank sistemlərinin fəaliyyətinin maliyyə-iqtisadi aspektlərini, fəaliyyətin davamlılığı və gəlirliliyini xarakterizə edən göstəricilər kommersiya banklarının hesablaşma və analitik balanslarının məlumatları əsasında əldə edilə bilər.

İlkin göstəricilərin zaman sırasına əsaslanaraq regional bank sistemlərinin inkişafının hərtərəfli diaqnostikasını aparmaq üçün tərəfimizdən blok-diaqram işlənib hazırlanmış və kredit təşkilatlarının rəsmi hesabatlarından məlumat massivlərinin işlənməsi prosedurları tərtib edilmişdir ki, bu da hesablaşma prosedurunu parametrləşdirməyə imkan verir (sxem 3).

Sxem 3. İnformasiya massivlərinin işlənməsinin blok sxemi






Regional bank sistemlərinin qiymətləndirilməsi sisteminin praktiki tətbiqi müəyyən hesablama çətinliklərini ehtiva edir. Fikrimizcə, onların aradan qaldırılması üçün ilkin məlumatların emalına, hesablaşma və analitik balans maddələrinin yaradılmasına və təklif olunan göstəricilərin hesablanmasına imkan verən "C++" proqramlaşdırma dilində fərdi kompüter proqramı tərtib edilməlidir. Parantez açaraq qeyd edək ki, proqram məhsulunun seçilməsi qərarına aşağıdakı amillər təsir göstərmişdir:

- standart proqram paketlərindən istifadə edərkən daxili proqram prosedurlarından istifadə etməklə informasiya massivlərinin işlənməsini təsvir etmək zərurəti;
- proqramlaşdırmağı bilməyən və ya xüsusi ixtisaslaşdırılmış proqram paketlərində skriptləri redaktə etməyi bilməyən istifadəçinin regional bank sisteminin vəziyyətini dəyərləndirmək üçün zəruri olan göstəricilərin strukturuna və tərkibinə müstəqil şəkildə dəyişiklik etmək imkanının olmaması.

Məqaləni yekunlaşdıraraq qeyd edək ki, tərəfimizdən hazırlanmış proqram məhsulu qarşıya qoyulan hesablama problemlərini tam həll etməyə imkan verir. Parantez açaraq bir nüansı da vurğulayaq ki, proqram məhsulunun analitik maddələrin və yekun göstəricilərin hesablanması alqoritmini təsvir etməkdə çevikliyi istənilən istifadəçiyə Azərbaycandakı kommersiya banklarının hesablar planında dəyişikliklər edildiyi hallarda hesablama metodologiyasına lazımi əlavələri tez bir zamanda etməyə imkan verir.

## ƏDƏBIYYAT

1. Bəşirov R.A. Bank işi. Dərs vəsaiti, Bakı, 2007, 117 səh.
2. Əliyev M.F. Bankların inkişaf istiqamətləri. Monoqrafiya, Bakı, "Şərq-Qərb" nəşriyyat evi, 2011, 120 səh.
3. Məmmədov F.Z. Bank fəaliyyətinin əsasları. Elmi-nəzəri praktiki məlumat kitabı, Bakı, Azərnəşr, 2013, 480 səh.
4. Sadiqov E.M. Bank əməliyyatları. Dərs vəsaiti, Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2010, 212 səh.
5. https://banker.az/must%C9%99qil-az%C9%99rbaycan-respublikasinin-bank-sisteminin-yaranma-tarixi-v%C9%99-olk%C9%99nin-iqtisadi-inkisafinda-rolu/

## РЕЗЮМЕ

ЗАКИР МАМЕДОВ,СЕВИНДЖ АМИРАЛИЕВА

## ПРОЦЕСС РАЗВИТИЯ РЕГИОНАЛЬНОЙ БАНКОВСКОЙ СИСТЕМЫ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

В статье рассмотрено механизм функционирования современной банковской системы в нашей республике, изучено процесс развития региональной банковской системы в сегодняшних реалиях, уделено внимание исследованиям экономистов, а также проанализировано слабые и сильные стороны этих исследований. В подходах обращено внимание на различные и превосходящие стороны двухуровневых и

трехуровневых банков, а также выдвинуты предложения, характеризующие развитие региональной банковской системы.

В результате исследования, проведенного нами в научной статье, была разработана и классифицирована система показателей для анализа региональных банковских систем.

***Ключевые слова:*** *банк, Центральный банк, региональная банковская система, банковский сектор, кредитные организации, коммерческие банки.*

**SUMMARY**

**ZAKIR MAMEDOV, SEVINGH AMIRALIEVA**

**THE PROCESS OF DEVELOPMENT OF THE REGIONAL BANKING SYSTEM IN MODERN CONDITIONS**

The article examines the mechanism of functioning of the modern banking system in our republic, studies the process of development of the regional banking system in today's realities, pays attention to the research of economists, and also analyzes the strengths and weaknesses of these studies. The approaches draw attention to the different and superior aspects of two-tier and three-tier banks, and also put forward proposals characterizing the development of the regional banking system.

As a result of the research we conducted in a scientific article, a system of indicators for the analysis of regional banking systems was developed and classified.

***Key words:*** *bank, Central Bank, regional banking system, banking sector, credit organizations, commercial banks.*

*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov  tərəfindən təqdim edilmişdir)*

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

UOT:33

**TEHRANƏ MƏMMƏDOVA**
“Naxçıvan” Universiteti
“Biznesin idarə edilməsi” ixtisası, (MBA), I kurs
DOI: 10.5281/zenodo.10979304

## RİSK ANLAYIŞININ MAHİYYƏTİ VƏ ONUN KATEQORİYALARI

***Tədqiqatın məqsədi*** *– risk anlayışının sistemli araşdırılması, onun ehtimal və zonaları haqqında ümumi mənzərənin formalaşdırılması, risklərin qiymətləndirilmə yollarının müşahidə altına alınması və uyğun araşdırmaların həyata keçirilməsi.*

***Tədqiqatın metodologiyası*** *– müşahidə, qruplaşdırma, müqayisəli təhlil metodlarından istifadə olunması.*

***Tədqiqatın nəticələri*** *– risk anlayışına sistemli baxışın təmin edilmişdir, atılan ardıcıl araşdırma addımları nəticəsində risklər, onlara təsir komponentlərinin çoxamilli təhlil nəticəsində fərdi və ümumi şəkildə, mərhələlər gözlənilməklə qiymət verilmişdir.*

***Tədqiqatın praktiki əhəmiyyəti*** *– risklərin təcrübi müstəvidə davranış trayektoriyalarının yaranmış situasiyalardan asılı olaraq müşahidə altına alınması, təsir faktorlarının qruplaşdırılması və təsirlərinin təhlil edilməsi.*

***Tədqiqatın orijinallığı və elmi yeniliyi*** *– risklərin sistemli tədqiqi bzasında yarana biləcək situasiyaların qruplaşdırılması, hər risk qrupu üzrə minimallaşdırma işlərinin həyata keçirilməsi üçün kompleks tədbirlərin hazırlanması.*

***Açar sözlər:*** *risk, risk kateqoriyaları, risk ehtimalı, risk zonaları, riskin qiymətləndirilməsi*

### GİRİŞ

Müasir iqtisadi şərait istehsal və xidmət sferasında hadisələrin və yaranmış situasiyaların rəngarəngliyi ilə fərqlənir. Bir tərəfdən təchizat, istehsalın təşkili və həyata keçirilməsi, digər tərəfdən isə rallaşdırma mərhələsinin bərqərar olması dişər şərtlərlə yanaşı işgüzar risklərin mövcudluğu ilə müşayət olunur.

Bazar iqtisadiyyatında biznes fəaliyyəti risksiz mümkün deyildir. Əgər biznesmen riskə getmirsə, son nəticədə, o iflasa uğrayır. Risk amillərinin mövcudluğu biznesmenlərin vəsait və resurslara qənaət etməsi üçün güclü stimuldur. Risk amilləri biznesmenləri layihələrin rentabelliyini əsaslı surətdə təhlil etməyə, investisiya smetalarını işləyib hazırlamağa, müvafiq kadrları işə götürməyə məcbur edir. Biz-nesmenin hər bir fəaliyyəti özündə müvəffəqiyyətsizlik və itki mümkünlüyü daşıyır.

Risk – itki ehtimalıdır və ya proqnozda, planda, layihə və proqramda nəzərdə tutulmuş variantla müqayisədə gəlirlərin əldə edilə bilməməsidir. Riski müxtəlif əlamətlərə görə təsnifatlandırmaq olar:

1. *Əmələgəlmə mənbəsinə görə*. Riski əmələgəlmə mənbəsinə görə ayırırlar:
   a) insanın şəxsiyyəti ilə bağlı olan təsərrüfat riskləri;
   b) təbii amillərlə şərtləndirilmiş risklər.
2. *Başvermə səbəbinə görə*. Başvermə səbəbinə görə riskləri aşağıdakı qruplarda ifadə etmək mümkündür:
   a) gələcəyin qeyri-müəyyənliyinin;
   b) informasiyanın çatışmamazlığının;
   c) partnyorların davranışının bilinməməsinin nəticəsi kimi risklərə ayırmaq məqsədəuyğundur.

Biznes fəaliyyətinin inkişafının əks tərəfi riskin güclənməsidir. Qeyd edək ki, ölkədə bazar münasibətlərinin inkişafı dərəcəsinə görə rəqabət güclənir, kəskinləşir. Kəskin rəqabət şəraitində yaşamaq üçün yenilik axtarışına getmək lazımdır ki, bu da riski qaçınılmaz olaraq gücləndirir. Qeyd edək ki, riskdən qaçmaq yox, hadisələri proqnozlaşdırmağı bacarmaq, onu qiymətləndirmək və yol verylən həddi keçməmək lazımdır.

Riskin təhlili onun mənbələri və səbəblərinin aşkara çıxarılmasından başlayır. Bu zaman hansı

mənbələrin üstünlük təşkil etdiyini müəyyənləşdirmək vacibdir. Həmçinin mümkün itkiləri və xeyirləri qarşılaşdırmaq, müqayisə etmək lazımdır. Hesablama ilə əsaslandırılmamış, birdən baş verən risk həmişə xərclərlə və məğlubiyyətlə nəticələnə bilər ki, işə ağıllı, düşünülmüş münasibət onlardan qaçmağa imkan verir. Bununla yanaşı riskin qiymətləndirilməsi zamanı intuisiyasız keçinmək olmaz. İntiuisiya xüsusən riskin hesablanması üçün informasiyanın çatışmamazlığı halında lazımdır. İntiuisiya insanın keçmişdəki təcrübəsinə və ağıllılığına əsaslanır. İntiuisiya və hesablamalar bir-birini qarşılıqlı tamamlayır.

**RİSK – EHTİMAL KATEQORİYASI KİMİ**

Risk – ehtimal kateqoriyasıdır və onu müəyyən səviyyədə itki ehtimalı kimi ölçürlər. Hər bir biz-nesmen özü üçün yol verilən (mümkün olan) risk səviyyəsi müəyyən edir.

Risk bu və ya digər səviyyədə itkinin meydana gəlməsi ehtimalı ilə qiymətləndirilir. İş haqqında dü-şünərkən, layihə və planları işləyib hazırlayarkən biznesmen bu və ya digər itki ehtimalını qabaqcadan görməli, qiymətləndirməli və hesablamalıdır. Əgər itki ehtimalı gözlənilən gəliri ötüb keçirsə, kifayət qədər hiss edilirsə, ehtiyatlı biznesmen bu cür işdən imtina etməlidir. Əks halda, o olduqca çox şey itir-mək riski daşıyır. Eyni zamanda yol verilən, cüzi risk mümkündür və qaçınılmazdır. Biznesdə özünü sı-ğorta etmə gəlirin (mənfəətin) əldə edilməsinin qaçırılmış imkanlarına aparır. Qeyd edək ki, digərlərində olduğu kimi risk strategiyasında da "qızıl orta"nı tutmaq lazımdır.

Riski fəaliyyətin daha az təhlükəli və rasional variantını seçməklə, əməliyyatları hesablamaqla və diqqətli öyrənməklə azaltmaq olar. Riskdən qaçmaq lazım deyil, əksinə onu qabaqcadan görmək və mümkün, ən aşağı səviyyəyə qədər azaltmağa can atmaq lazımdır.

Risk dərəcəsi natural yaxud dəyər ifadəsində ölçülən mümkün resurs itkilərinin mütləq və nisbi böyüklüyü ilə qiymətləndirilir.

Biznes riskinə itkilərin aşağıdakı növləri aiddir:

a) maddi resurslar və zaman itkisi;

b) əmək və pul itkisi.

İtkilərin xüsusi növləri də mövcuddur ki, onlar özünü insanların həyat və sağlamlığına, ətraf mühitə, biznesmenin nüfuzuna zərər vurulması halında biruzə verir və arzu olunmayan sosial və mənəvi-psixo-loji nəticələrə aparıb çıxarır. Bu cür itkilər dəyər, pul ifadəsində çətinliklə qiymətləndirilir.

Risk şəraitində biznesmenin davranış strategiyasını işləyib hazırlayarkən gəlirdəki, mədaxildəki və əmlakın vəziyyətindəki gözlənilən riskin böyüklüyündən asılı olaraq risk zonasını fərqləndirmək və ayırmaq məqsədəuyğundur (sxem 1).

*Sxem1.Gözlənilən itkilərin böyüklüyü və risk zonası asılılığı*



Biznesmen üçün daha münasib fəaliyyət variantı gözlənilən, ehtimal edilən itkinin mənfəəti ötüb keçməməsidir. Bu zaman biznesmeni qorxudan ən pis hal – mənfəətdən məhrum olmaqdır. Əməliyyatın bu cür nəticəsi uğursuzdur, ancaq yol veriləndir. Buna görə də ehtimal edilən itkilərin həcminin sıfırdan mənfəətin hesablanmış qiymətinə qədər dəyişməsini yol verilən risk zonası adlandıracağıq. Ehtiyatlı biz-nesmenlər bu şəkildə fəaliyyət göstərərək itkinin mümkün həcminin yol verilən risk zonası hüquqla-rından kənara çıxmamasına çalışırlar.

**BÖHRANLI RİSK ZONASININ MAHİYYƏTİ**

Növbəti, daha təhlükəli zonanı böhranlı risk zonası adlandıraq. Böhranlı risk itkinin mənfəətin həc-mindən yüksək olması ilə xarakterizə olunur. Böhranlı risk zonası biznesmenin təkcə mənfəətini deyil, eyni zamanda,onun bütün işə qoyduğu vəsaiti itirmək təhlükəsi ilə xarakterizə olu-nur. Adətən bu cür vəziyyət əmtəənin satılmaması ilə bağlıdır. Biznesmen bu halda birbaşa itki (zərər) daşıyır, onun işə qoyduğu vəsait, çəkdiyi xərclər məhsuldar olmur.

Bir qayda olaraq, biznesmen böhranlı risk zonasına düşmə ehtimalı hiss edilən əməliyyatlardan, layihələrdən qaçmalıdır.

Daha dəhşətli zona fəlakətli risk zonasıdır. Əgər gözlənilən, ehtimal edilən itkilər əməliyyatdan daxil olan mədaxili ötüb keçərsə və biznesmenin bütün əmlakının dəyəri həcminə çatarsa, bu riski fəlakətli risk adlandıracağıq. Reallıqda bu o deməkdir ki, biznesmen təkcə əməliyyata qoyulmuş vəsaitləri deyil, həmçinin əmlakını da itirir.

Məsələn, müəssisə öz əmlakını girov qoyaraq gəmi icarəyə götürmüşdür. Əgər gəmi batarsa, onda müəssisə iflasa uğrayacaqdır. Müəssisənin əmlakı itkinin ödənilməsi üçün satılacaqdır. Fəlakətli risklərə insanların həyatı üçün təhlükənin yaranması ilə bağlı olan riskləri aid edirlər. Ancaq avanturist biznes-menlər fəlakətli risklərə getməyə qadirdirlər.

Risk kateqoriyalarının keyfiyyət təyin edilmələrindən (təriflərindən) hər biri onun kəmiyyət para-metrlərinin xarakteristikasına uyğun gəlir. Belə göstəricilər ola bilər:

1. itkinin müəyyən səviyyədə ehtimalı;
2. itkinin müəyyən olunmuş səviyyədən yuxarı olması ehtimalı.

Hər iki yanaşmaya ətraflı baxaq.

İtki ehtimalının biznes fəaliyyətinə görə tipik əyri paylanmasını quraq. Bu cür əyrinin nümunəvi for-ması sxem 2-də göstərilmişdir.

*2. İtkinin müəyyən səviyyədə ehtimalı əyrisi*

*İtkinin müəyyən səviyyədə ehtimalı*




İtki ehtimalının paylanması əyrisini quran zaman aşağıdakı ehtimalı irəli sürək:

- ✓ <u>sıfır itki ehtimalı</u> praktik olaraq sıfra bərabərdir. Belə ki, minimal həddə itkilər həmişə möv-cuddur.
- ✓ <u>son dərəcə böyük itki ehtimalı</u> praktik olaraq sıfra bərabərdir. Belə ki, itkilər də müəyyən yuxarı həddə malikdir.

- ✓ <u>müəyyən səviyyədə itkinin son maksimal ehtimalı</u> mövcuddur ki, bu halda i<1 olur və itkinin belə səviyyəsinin mümkünlüyünü təxmin etmək olar. İtki ehtimalı mümkün itki səviyyəsindən asılı olaraq dəyişir.

Təsvir olunmuş ehtimalın paylanması əyrisində 4 xarakterik nöqtəni seçək. Birinci nöqtə itkinin ya-ranması ehtimalına ($E_M$) uyğun gəlir ki, onun böyüklüyü (həcmi) $i_M$-ə bərabərdir. İkinci nöqtə yol very-lən risk ehtimalına ($E_y$) uyğun gəlir. Bu zaman itkilər $İ_y$ həcminə və gözlənilən mən-fəətə bərabər olacaq-dır. Bu yol verilən itki ehtimalıdır. Üçüncü nöqtə böhranlı risk ehtimalına ($E_b$) uyğundur. Bu zaman itki-lər mədaxil (satışdan daxil olan pul) məbləğində ola bilər. $E_b$ -yə bərabər olan bu cür itki ehtimalını böhranlı itki ehtimalı adlandıraq. Dördüncü nöqtə fəlakətli risk ehtimalını xarakterizə edir. Bu zaman $E_F$ biznesmenin bütün əmlakına bərabər olacaqdır. Əgər riskin qiymətləndirilməsi zamanı 4 xarakterik nöq-təni müəyyən etməyə müyəssər olarıqsa, onda riskin qiymətləndirilməsi məsələsinin müvəffəqiyyətlə həll olunduğu qənaətinə gəlmək olar.

## İTKİLƏRİN SƏVİYYƏSİ ANLAYIŞI

Biznes riskinin məqsədəuyğunluğu və mümkünlüyü haqqında qərar qəbul edən zaman təkcə müəyyən səviyyədə itki ehtimalını bilmək vacib deyil, həmçinin itkilərin bəzi səviyyələrdən böyük olacağı ehtimalını da bilmək gərəklidir. Məntiqə görə bu riskin əsas göstəricisidir. Ona görə də sxem 3-də göstə-rilmiş müəyyən səviyyədə itkini üstələyən ehtimal əyrisinin xarakteristikasını bilmək vacibdir.

*Sxem 3. Müəyyən səviyyədə itkini üstələyən ehtimal əyrisi*




Riskin qiymətləndirilməsi insanın individual dərketməsindən, mənimsəməsindən asılıdır. Riskin seçilməsi biznesmenin uğursuzluqdan qorxmasından və ya müvəffəqiyyətə can atmasından asılıdır. Əgər biznesmen icraçıların professionallığına əmindirsə, çətin vəziyyətdə riskli qərarların qəbuluna daha meyllidir. Mütəxəssislər hesab edirlər ki, riskin yol verilən (mümkün) səviyyəsi bu fəaliyyətdə iştirak edən şəxslərin sayına tərs proporsionaldır. Biznesmenin müəyyən dərəcədə riskə getmək hazırlığı ilk əvvəllər qeyri-müəyyənlik şəraitində qəbul edilmiş qərarların reallaşdırılması nəticələri ilə müəyyən olunur. Analoji vəziyyətdə buraxılmış itkilər daha ehtiyatlı strategiyaların seçilməsini diktə edir. Ancaq uğur qazanmaq meyli riskə getməyə təhrik edir.

İki variantdan ibarət nümunəyə baxaq: birinci variant 1000 dolların 100%-li əldə edilməsi ehtima-lını, ikinci variant isə 2000 dolların 50%-li əldə edilməsi ehtimalını və 100 dolların 50%-li əldə edilməsi ehtimalını nəzərdə tutur. Siz hansı variantı üstün tutursunuz. Əgər birinci variant seçilibsə, onda siz riskdən qaçırsınız, yox əgər ikinci variant seçilibsə, onda siz risk etməyə meyllisiniz. İnsanların böyük əksəriyyəti risksiz layihələrə üstünlük verirlər. Bunu sərvətin xe-yirlilik həddini aşağı salan qanunun fəaliyyəti ilə izah etmək olar. Sərvəti müəyyən həddə olan insanlar riskdən qaçmağa üstünlük verirlər. Əgər investisiya qərarlarını müəyyənlik şəraitində qəbul etmək lazım gəlirsə, onda bu qərarın qəbul edilməsinə ancaq bir dəyişən – verimliliyin həcmi təsir göstərir.

Məsələn, əgər A layihəsi 18%-lik, B layihəsi isə 16%-lik verimliliyə malikdirsə, onda bərabər şərtlər şəraitində seçim aydındır. Risk şəraitində investisiya qərarlarının seçilməsi iki əsas göstərici (dəyişən) ilə verimlilik və risklə müəyyən olunur. Deyilən misala uyğun cədvəl 1-in rəqəmlərinə nəzər salaq.

*Cədvəl 1.İnvestisiya layihələrinin göstəriciləri*

| ***Göstəricilər*** | ***Layihə 1*** | ***Layihə 2*** |
|---|---|---|
| Gözlənilən verimlilik, % | 18 | 16 |
| Risk, % | 11 | 9 |

Cədvəldən görürük ki, A layihəsi böyük verimliliyə, eyni zamanda, böyük riskə malikdir. Bu cür şəraitdə qərarın qəbul edilməsi üçün alternativ variantlarda risklə verimlilik arasındakı qarşılıqlı mü-nasibəti öyrənmək lazımdır. Qeyd edək ki, investisiya layihələrinin seçilməsi zamanı risk və verimlilik arasındakı qarşılıqlı əlaqənin dərəcəsini bilmək vacibdir.

## NƏTİCƏ

Məqalədə fəaliyyət riskləri ilə bağlı işiqlandırılan məsələlər özünün sistemliliyi və əhəmiyyəti ilə fərqlənməkdədir. Belə ki, ilk növbədə risk anlayışına komplesk anlayış təqdim olunur. Məhs ona əsasən risklərə baxış ilk növbədə əmələgəlmə mənbələrinə və başvermə səbəblərinə görə daxili tərkib elementlərinə ayrılması , riskləri yaradan səbəblərin “sahə - istiqamət”, “fəaliyyət növü və mexanizmləri” və digər prinsiplər bazasında  qruplaşdırılması müşahidə altına alınmışdır. Müvafiq proseslərin bəlli təsnifatlar şəklinə salınması sonrakı təhlil işlərinə yol açır, onların zəruriliyini şərtləndirir.

Digər tərəfdən, mövzu üzrə risklərin araşdırmalarında ehtimallar anlayışına müraciət olunmuşdur. Belə ki, öyrənilmə prosesində risklərə ehtimal kateqoriyası kimi baxılması, onların reallıqlarla hansı dərəcədə üst-üstə düşməsi, risklərin mümkün, böhranlı və fəlakətli növlərinin çərçivələrinin zaman parametrləri daxilində müəyyənləşdirilməsi qarşıya qoyulan mühüm vəzifələrdən hesab olunmuşdur və zəruri əyani təsvir vasitələri ilə ifadə edilmişdir.

Yarana biləcək risklərin yön və istiqamətlərinin müəyyən edilməsində onun kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməsi, bu sahədə müvafiq qiymətləndirmə işlərinin icrası, ümumi və spesifik səbəblərin aydınlaşdırılması zəruridir.

Böhranlı risk anlayışı və onun zonası digər iki növdən fərqli olaraq kifayət qədər əsaslı müddəalarla çıxış etməkdədir. Belə ki, tədqiqatlarda risklərin öncədə müəyyən olunmuş səviyyəyə uyğunluğu, yaxud onun hüdudlarından artıqlığı, yaranmış vəziyyətdə isə vurula bilən zərərin həcmlərinin müəyyən edilməsi zəruridir. Bu zaman istifadə olunacaq üsul və mexanizmlərin seçimi və əsaslandırılması özünün əhəmiyyəti ilə fərqlənməkdədir.

Risklərin səviyyə anlayışı, onların qiymətləndirilməsi və çıxış yollarının araşdırılması risklərin idarə olunması proseslərində özünü əyani şəkildə ifadə etməkdədir. Belə ki, “zaman-məkan” müstəvisinin düzgün idarə edilməsi, müvafiq istiqamətdə şoxamilli konbinasiyalardan istifadə olunması  fəaliyyətin risklilik dərəcəsinin aşağı salınmasına səbəb olmaqdadır.

### ƏDƏBİYYAT


1. Bağırov M.S. Makroiqtisadi tarazlıq: problemlər, qiymətləndirmə və təhlil fəaliyyəti. Naxçıvan: Əcəmi, 2023, 216s..
2. Bağırov M.S. Müəssisə vəsaitləri mühasibat uçotunda. Naxçıvan: Əcəmi, 2022,
3. Bağırov M.S. Statistikanın təməl bilikləri. Naxçıvan, Əcəmi,  2020. 525s.
4. Mahmudov C.İ. Biznes: əsasları, təşkili və iadrə edilməsi. Naxçıvan, İdeya, 2011. 318s.
5. Mahmudov C.İ. Biznesin əsasları. Bakı, AzTU-nun nəşriyyatı, 2008. 220s.
6. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı, “Zaman”, 2002. 618s.
7. Quliyev T.F. Menecmentin (idarəetmənin) əsasları. Bakı, ADİU-nun nəşriyyatı, 2006. 691s

**РЕЗЮМЕ**
**ТЕХРАНА МАМЕДОВА**
**СУЩНОСТЬ КАТЕГОРИИ РИСКА И ЕГО КАТЕГОРИИ**

***Цель исследования*** – системное изучение понятия риска, формирование его вероятности и зон, взятие под наблюдение путей оценивания рисков и претворение в жизнь соответствующих исследований

***Методология исследования*** **–** использование методов наблюдения, группирования, сопоставительного анализа.

***Результаты исследования*** **–** обеспечен системный подход к понятию риска, в результате применения последовательных исследовательских шагов риски и их компоненты влияния были подвергнуты многофакторному анализу как индивидуально, так и в общем виде, дана соответствующая оценка с учетом требований стадий.

***Практическое значение исследования*** **–** принятие под наблюдение рисков с учетом ситуаций, формируюшихся на основе траекторий их поведения в практической плоскости, группирование факторов влияния и их анализирование.

***Оригинальность и научная новизна исследования*** **–** группирование ситуаций на базе системного изучения рисков, подготовка комплексных мероприятий для минимализации вредов от рисков каждой из групп.

***Ключевые слова***: риск, категории риска, вероятность риска, зоны риска, оценивание риска

**SUMMARY**
**TEHRANA MAMMADOVA**
**THE ESSENCE OF THE COCEPT OF RISK AND ITS CATEGORIES**

***The purpose of the research*** - is to systematically examine the concept of risk, to form a general picture of its probability and zones, to observ the ways of risk assessment and to carry out appropriate research

***Research methodology*** - observation, grouping, comparive analysis methods are used

***The results of the study*** – a systematic view of the concept of risk was provided as result of the successive research stepstaken the risks were eveluated indiviudally and generally as a resut of the multifactorial analysis of the of the components of their influence, with the expectation of stages

***The practical significance of the research*** - is the observation of behavioral trajectories f risks at the experimental level depending on the situations that have arisen the grouping of influencing factors and the analysis of their effects

***Originality and scientific novelty of research*** - groping of situations that may arise in the systematic study of risks preparation of complex measures for the implementation of minimization works for each risk group

***Keywords:*** risk, risk categories, risk probability, risk zones, risk assessment

*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)*

"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

UOT:33

**ELTUN İBRAHİMOV**
Naxçıvan Universiteti
eltunibrahimov@yahoo.com

**YADULLA ZEYNALOV**
Naxçıvan Dövlət Universiteti
aquluzade167@gmail.com
DOI: 10.5281/zenodo.10979140

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SƏNAYENİN İNKİŞAFI XÜSUSİYYƏTLƏRİ

*Sənayenin inkişaf etməsi cəmiyyətdə istehsal gücünün artmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Son vaxtlar muxtar respublika sənaye sahəsində inkişaf etməyə başlamış və burada çalışanların məşğulluq səviyyəsinə təsir göstərmişdir. Regionda sənaye sahəsi üzrə qəbul edilmiş dövlət proqramlarındakı illər üzrə göstəricilərə nəzər saldıqda, görmək olur ki, məhsul istehsalındakı payına görə Naxçıvan MR əvvəlki illərlə müqayisədə xeyli üstün mövqe nümayiş etdirmiş, bu istiqamətdə müasir texnologiyalara əsaslanan sahələr və müəssisələr yaradılmışdır. Sənayenin davamlı inkişafı və yeni məhsul növlərinin istehsalı məqsədilə həyata keçirilən layihələr kiçik və orta sahibkarlığın inkişafında, yerli məhsullar istehsalında, məşğulluğun artırılmasında önəmli rol oynayacaqdır. Məqalədə muxtar respublikada sənaye sahəsinin əsas imkanlardan və başlıca xüsusiyyətlərindən bəhs olunur.*

***Açar sözlər:*** *Naxçıvan Muxtar Respublikası, sənaye, dövlət proqramı, ixrac, sosial-iqtisadi inkişaf*

Ölkəmizdə son illər ərzində yeni dövlət proqramlarının işə düşməsi və strateji yol xəritələrinin hazırlanması sənaye sahələri istiqamətində də geniş perspektivlər yaratmışdır.

Uzun illər boyunca blokada vəziyyətində olan muxtar respublika üçün də sənayenin inkişaf etdirilməsinin böyük əhəmiyyəti vardır. Aqrar bölgə kimi tanınan regionda aparılan genişmiqyaslı islahatlar burada güclü sənaye potensialının yaradılması üçün bir o qədər də çətinliklərin olmadığı əsasını verir. Muxtar respublikada 2022-ci ilin "Sənaye ili" elan edilməsi və bununla bağlı əhatəli Tədbirlər Planının təsdiq edilməsi həm dövlət qurumları, həm də irili-xırdalı təsərrüfat subyektləri, müəssisələr qarşısında geniş vəzifələr müəyyən edir. Əslində, "Sənaye ili" bundan öncəki illərdə elan edilmiş "İxrac ili (2020)", "Şərur sənaye məhəlləsinin" yaradılması və digər görülən işlərin tətbiqini sürətləndirəcək və muxtar respublika iqtisadiyyatı qarşısında yeni səhifələr açacaqdır. Sənayedə ixracyönümlü və rəqabətə davamlı məhsulların istehsalı, yeni texnologiyalara əsaslanan müəssisələrin qurulması və bu istiqamətdə artım tempinin əldə olunması qarşıda duran əsas vəzifələrdir. Muxtar respublika sənaye məhsulu istehsalının artım tempinə, sənayedə qeyri-dövlət sektorunun çəkisinə görə ölkəmizin iqtisadi rayonları arasında ilk yerlərdən birini tutur (2, s. 29).

Muxtar respublikada sənayenin əsas hissəsini təşkil edən emal sənayesində çörəkbişirmə, şəkər, mineral su, spirtli içkilər, siqaret, plastik qapı və pəncərə, plastik su boruları, hörgü və döşəmə üçün kərpic, üzlük daş, sement, gips, gips lövhələr, əhəng, məsaməli beton, karbon qazı, metaləritmə və onlarla digər istehsal sahələri yaradılmışdır. Zaman keçdikcə Naxçıvanda sənaye müəssisələrinin sayının artırılması və onların infrastrukturunun genişləndirilməsi xüsusi diqqət mərkəzində saxlanılır. Təsis olunan bu sənaye müəssisələrində həm daxili bazar üçün məhsul istehsal olunması ilə yanaşı, həm də ixrac yönümlü məhsul istehsalı nəzərdə tutulmuşdur. Ən əsası da son illərin mühüm sənaye müəssisələrinə aid olan Gəmiqaya, Naxçıvan Avtomobil Zavodu, Mebel Fabriki, Dizayn MMC, Ləzzət MMC, Cahan Holdinq, Badamlı və Sirab mineral sular zavodu və s. şirkətlər qrupuna aid olan müəssisələrdə daxili və xarici bazar üçün müasir standartlara uyğun olan mal və məhsullar istehsal olunmaqdadir. Bu müəsissələrin yaradılmasında əsas məqsəd sənayenin düzgün və dayanıqlı inkişafının təmin olunmasından ibarətdir. Qeyd etmək yerinə düşər ki, bu sənaye müəssisələri xarici ölkələrdən gətirilmiş yüksək keyfiyyətli avadanlıqlarla təmin olunmuşdur. Bu da ekoloji mühitin təmizliyini qorumaq və iş mexanizmi üçün yaranacaq maneələrin aradan qaldırılması məqsədinni daşıyır.

Muxtar respublikada bu günə qədər qəbul olunmuş dövlət proqramlarında iqtisadiyyatın bütün digər sahələri ilə yanaşı, sənayedə də infrastruktur təminatının gücləndirilməsi, rəqabətqabiliyyətli müəssisələrin yaradılması yönündə çoxsaylı layihələr həyata keçirilmiş, yeni iş yerləri açılmış, məşğulluq imkanları artırılmışdır. Ümumi sosial-iqtisadi inkişafla bağlı müəyyən illəri əhatə edən əsas layihələr Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər), Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı və Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramıdır. Sadalanan ilk üç proqramın icrası başa çatdırılmış və sənayenin inkişafında əhəmiyyətli nəticələr əldə olunmuşdur. 2005-ci ildə muxtar respublikada istehsal olunmuş sənaye məhsulu orta hesabla 41 milyon, 207 min manat təşkil etmişdir. 2008-ci ildə isə sənaye məhsulunun həcmi 164 milyon 452 min manat olmuşdur. Yəni dövlət proqramının icra olunması dövründə məhsul istehsalı 4 dəfəyə yaxın bir artım göstərmişdir. 2009-2013-cü illəri əhatə edən sosial-iqtisadi inkişafla bağlı növbəti Dövlət Proqramının icrası müddətində sənaye məhsulunun istehsalında 4 dəfədən çox artım qeydə alınmışdır. 2013-cü ildə məhsul istehsalının həcmi 862 milyon 870 min manat olmuşdur. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası dövründə isə, sənaye məhsulunun həcmi yekun ildə 990 milyon 67 min manat məbləğində olmuşdur ki, bu da proqram işə başlayan dövrlə müqayisədə 10 %-ə yaxın artım deməkdir (4).

Hazırda icrası davam edən 2019-2023-cü illəri əhatə edən sosial-iqtisadi inkişaf Dövlət Proqramıdır. Proqramın əhatə dairəsi genişdir və muxtar respublikanın hərtərəfli inkişafında xeyli əhəmiyyətli hesab olunur. Proqramda sənaye sahəsinin daha da inkişaf etdirilməsi üçün çoxlu sayda mühüm vəzifələr qarşıya qoyulmuş və Tədbirlər Planı hazırlanmışdır. Onu da qeyd edək ki, ilk dəfə olaraq 2019-cu ildə muxtar respublikada istehsal olunan sənaye məhsulunun həcmi 1 milyard manatı keçmişdir. Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planında sənaye üzrə bir sıra inkişaf tədbirləri nəzərdə tutulmuşdur. Naxçıvan Muxtar Respublikasında sənaye məhəllələrinin yaradılması və yeni sənaye müəssisələrinin yaradılmasının davam etdirilməsi əsas diqqət mərkəzində saxlanılacaqdır. Şahbuz rayon Badamlı qəsəbəsində Badamlı mineral sular zavodunun tikintisi, xalça istehsalı müəssisəsinin yaradılması, duz istehsalının artırılması üçün yeni şaxtanın açılması, yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin yaradılması 2019-2023-cü illər ərzində görüləcək ən mühüm işlər kimi nəzərdə tutulmuşdur. Artıq Badamlı mineral sular zavodu istifadəyə verilmiş, Duzdağda yeni şaxta açılmış, regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsi üçün bina tikilmiş, “Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi” MMC yaradılmışdır. Bundan başqa, muxtar respublikada fəaliyyəti dayanmış sənaye və emal müəssisələrinin fəaliyyətinin bərpasının dəstəklənməsi də tədbirlər planı çərçivəsində xüsusi nəzarətdə saxlanılmışdır. Görüləcək bu işlərdə əsas icraçılar isə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi və yerli icra hakimiyyəti orqanlarıdır (5).

Sənayedə getdikcə yüksələn artım tempi həm də, bu sahədə çalışan işçilərin sayında da müşahidə olunmaqdadır. Dövlət proqramlarının yekun illərinə nəzər saldıqda görmək olur ki, bu sahə üzrə dövlət və özəl sektorda çalışan işçilərin ümumi sayı 2008-ci ildə 7701 nəfər, 2013-cü ildə 15385 nəfər, 2018-ci ildə 16557 nəfər, 2021-ci ildə 17087 nəfər, 2022-ci ildə isə 17272 nəfər olmuşdur. Halbuki, 2005-ci ildə sənayedə çalışanların sayı 3830 idi (4).

Qeyd etməliyik ki, mənfur qonşumuzun həyata keçirdiyi işğal siyasəti ilə əlaqədar muxtar respublika uzun illərdir ki, blokada vəziyyətində yaşamaqdadır. Bu da regiona maliyyə axınlarını məhdudlaşdırmışdır və bütün sahələrə, xüsusən də sənayenin inkişaf etməsinə maneələr yaratmışdır. Lakin bütün bunlara baxmayaraq Naxçıvanın ölkə iqtisadiyyatında sahib olduğu rol azalmamışdır. Hazırkı şəraitdə də region ərazisində çoxlu sayda innovativ və müasir standartlar əsasında sənaye və istehsal müəssisələri qurulur və ya onların təkmilləşdirilməsi üçün həyata keçirilən işlər artıq yekunlaşmaq üzrədir (1, s. 58-64).

Tikinti infrastrukturunun inkişaf etməsi, mineral su sənayesi bazasının təkmilləşməsi, yeyinti və yüngül sənayenin inkişafı muxtar respublika iqtisadiyyatının canlanmasında və ixrac potensialının güclənməsində əhəmiyyətli rola malikdir. Ölkəmizdə bəzi mühüm xüsusiyyətlərinə

görə fərqlənən mineral sulardan Sirab, Badamlı və Darıdağ bulaqları üzərində yaradılan müəssisələr regionda mühüm sənaye obyektləri kimi iqtisadi inkişafa hərtərəfli töhvələr verirlər (3, s. 18). Bu mineral sular ölkəmizdən başqa, xaricdə də xeyli məşhurdurlar

Respublikamızda qarşıdakı illərdə makroiqtisadi siyasətin əsas istiqaməti qeyri-neft sektorunun canlandırılması olacaq və ÜDM-də sənayenin payının artırılması ön planda saxlanılacaqdır. Nəzərdə tutulmuş gələcək iqtisadi siyasətin əsas məqsədi iqtisadiyyata yerli və xarici mənbələr hesabına investisiyaların cəlb edilməsidir ki, bu investisiyaların köməyi ilə qeyri-neft sahələrini inkişaf etdirmək, sahibkarlıq infrastrukturunu təkmilləşdirmək və regionlarda iqtisadi fəallığı gücləndirmək mümkün olacaqdır.

## ƏDƏBİYYAT


1. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatın prioritetləri: İqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 452 s.
2. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı. Naxçıvan: Əcəmi, 2020, 224 s
3. Naxçıvan MR-nın tarixi, siyasi, iqtisadi bələdçi kitabı. Naxçıvan: Qeyrət, 1998, 64
4. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. http://www.statistika.nmr.az/
5. “Şərq qapısı” qəzetinin rəsmi internet səhifəsi. http://www.serqqapisi.az


## РЕЗЮМЕ

**ЕЛТУН ИБРАГИМОВ, ЗЕЙНАЛОВ ЯДУЛЛА**

**ХАРАКТЕРИСТИКА РАЗВИТИЯ ПРОМЫШЛЕННОСТИ В НАХЧИВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ**

Развитие промышленности оказывает существенное влияние на увеличение производственных мощностей. В последнее время автономная республика начала развиваться в промышленном секторе, что сказалось на уровне занятости здесь. Если посмотреть на показатели государственных программ, принятых в промышленной сфере региона, то можно увидеть, что по доле в производстве продукции Нахчыванская МР показала гораздо более высокие позиции по сравнению с предыдущими годами. В этом направлении создано множество месторождений и предприятий, основанных на современных технологиях. Проекты, реализуемые с целью устойчивого развития промышленности и производства новых видов продукции, сыграют важную роль в развитии малого и среднего предпринимательства, производстве местной продукции, увеличении занятости. В статье говорится об основных возможностях и особенностях отрасли в автономной республике.

***Ключевые слова:*** *Нахчыванская Автономная Республика, промышленность, госпрограмма, экспорт, социально-экономическое развитие*

## SUMMARY

**ELTUN İBRAHİMOV, ZEYNALOV YADULLA**

**CHARACTERISTICS OF DEVELOPMENT OF THE INDUSTRY IN THE NAKCHIVAN AUTONOMOUS REPUBLIC**

The development of industry has a significant impact on the increase of production capacity. Recently, the autonomous republic began to develop in the industrial sector, which affected the level of employment here. If we look at the indicators of the state programs adopted in the industrial field in the region, it can be seen that due to the share in product production, Nakhchivan MR has shown a much superior position compared to previous years. İn this direction, many fields and enterprises based on modern technologies have been established. The projects implemented for the purpose of sustainable development of the industry and the production of new types of products will play an important role in the development of small and medium enterprises, in fabrication of local products, and in increasing employment. The article discusses about the main opportunities and features of the industry in the autonomous republic.

***Keywords:*** *Nakhchivan Autonomous Republic, industry, state program, export, socio-economic development*

*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)*

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

UOT:33

**İLAHƏ HÜSEYNOVA**
“Naxçıvan” Universiteti
“Biznesin idarə edilməsi” ixtisası, (MBA), I kurs
DOI: 10.5281/zenodo.10979257

# BİZNES KONSEPSİYALARI VƏ BİZNESİN STRATEJİ TƏMƏLLƏRİ

***Tədqiqatın məqsədi*** *– biznes konsepsiyalarına və biznes strategiyalarına sistemli baxışın təmin edilməsi, biznesin konseptual əsaslarının müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi yolunda elmi mühit təmsilçilərinin uyğun fikir və düşüncələrinə müraciət olunması, biznesin konseptual əsaslarının bazar mühitinin formalaşmasına təsirinin qiymətləndirilməsi*

***Tədqiqatın metodologiyası*** *– müşahidə, qruplaşdırma, müqayisəli təhlil metodlarından istifadə olunması.*

***Tədqiqatın nəticələri*** *– biznes konsepsiyaları və bisnesin strateji təməlləri ilə bağlı yekunlaşdırılmış fikrilərin bildirilməsi, qarşılıqlı əlaqə və asılılıq şəraitində biznesin konseptual əsaslarına çoxamilli yanaşmanın təmin edilməsi, tələbat kateqoriyasının araşdırılması.*

***Tədqiqatın praktiki əhəmiyyəti*** *– təcrübi müstəvidə biznesin konseptial əsaslarının və biznes strateji “xəttlərinin” müəyyən edilməsi və əsaslandırılması*

***Tədqiqatın orijinallığı və elmi yeniliyi*** *– biznes mühitinin formalaşmasında “iştirakçı” sifətilə çıxış edən biznes konsepsiyalarının, onun təşkili və həyata keçirilməsinin məqsədləri, vəzifələri, prinsip və vasitələri, kənar amillərlə əlaqələndirilmiş şəkildə vahid müstəvidə öyrənilməsi.*

***Açar sözlər:*** *biznes, biznes konsepsiyaları, biznes strategiyası, biznes taktikası, biznes monitorinqləri, biznes konsepsiyalarının komponentləri*

## GİRİŞ

Insan cəmiyyətinin mövcudluğu və sonrakı təkamül mərhələləri onun daimi fəaliyyətini tələb etməkdədir. Zamanla inkişaf edən düşüncə tərzi özünü istehsal üsulunun transformasiyalarında, əmək alətlərinin təkmilləşdirilməsində, fəaliyyətin təşkilinin mütərəqqi üsul və mexanizmlərinin yaradılmasında və sonrakı təkmilləşdirmələrində biruzə verməkdə idi. Həmin proseslərin cari dövrdə yeni müstəvilərə keçidi istehsalın avtomatlaşdlrma və mexanikləşdirmə səviyyələrinin yüksəlməsinə təsir etməklə yanaşı yaradılan məhsulların növ-tərkib ifadəsinin genişləndirilməsinə, xammal və materiallar sahəsində diversifikasiyalara, istehsal proseslərinin mümkün olan sahə və istiqamətlərdə konvergensiyalara, “yaşıl” adı altında birləşən komponentlərin daha böyük əhatə dairəsində malik olmasına şərait yaratmaqdadır. [1; 36]

Müşahidə altına alınan və tədqiqata məruz qalan obyektlər ilk növbədə işgüzarlıq mühitinin yaradılması, onların yön və istiqamətləri üzrə dəqiqləşdirmə, qiymətləndirmə və təhlil fəaliyyətinin təmin edilməsi araşdrımalar üçün zəruri “mərkəzlərin” yaradılmasını tələb etməkdədir. Bu sırada söhbətın açılması, fikir və mülahizələrin bildirilməsi ilə fərqlənən obyektlər tərkib elementi baxımından özünün çoxnövlülüyü ilə fərqlənməkdədir. Onların tərkibində menecment (idarəetmə), marketinq, tənzimləmə, spesifik və ümumi quruluş təşkilatlanmaları təyinatlı icraatların həyata keçirilməsi araşdırılan məsələlərin nə dərəcədə dərin, çoxqütblü, aktual və əhəmiyyətli olduğunu təsdiqləməkdədir.

Çoxamilli tədqiqatların sistemli və kompleks şəkildə, “nəzəriyyədən → təcrübəyə” qaydasında, zəruri qruplaşdırmalar həyata keçirilməklə mümkün olması araşdırmaların mərhələlər üzrə reallaşdırılmasına şərait yaradır. Ardıcıl qaydada araşdırma elementlərinə, onların xarakter və xassələrinə, bu zaman istifadə olunan mexanizmlərə aydınlıq gətirilməsi də mühümlüyü ilə seçilməkdədir. Digər tərəfdən, işgüzar fəaliyyətin təşkilinin sahibkarlıq hissinin formalaşması və nümayişi ilə də sıx əlaqəlidir. [4: 28]

Fərdlərin qabiliyyətlərinin təzahürü mülkiyyət formasından, sahəvi təyinatdan və digər spesifik cəhətlərdən asılı olmayaraq, müxtəlif miqyaslı subyektlərdə mümkün olması istehsal mərhələlərini də obyekt olaraq seçməkdədir. Mütərəqqi yeniliklərin əhatə dairəsinin müəyyənləşdirilməsində əsas istehsalat vahidləri ilə yanaşı köməkçi bölmələr, infrastruktur-logistika elementləri və digər “iştirakçı” vahidlər çıxış etməkdədir.

## BİZNES ANLAYIŞI VƏ ONUN TƏZAHÜRLƏRİ

Giriş hissəsində bəhs olunan ümumi fikir və düşüncələr bizi "biznes" anlayışına yönəlməyi sövq edir. Bu anlayışın sistemli öyrənilməsi "sahibkarlıq" anlayışına daha əhatəli yanaşmanın mümkünlüyünü şərtləndirməkdədir.

İqtisadçı alimlər sırasında özünəməxsus dəsti-xətti ilə fərqlənən Ş.Mizesin fikrincə "*biznes* – istehlakçıların tələbatlarının ödənilməsi və gəlirin əldə edilməsi məqsədilə təşəbbüskar insanların həyata keçirdikləri işgüzar münasibıətlərin məcmusu" kimi çıxış etməkdədir. [7; 19]

Biznes fəaliyyətinin icrasında aşağıdakı istiqamətlərin həyata keçirilməsi nümunəvi qaydada ortaya çıxmaqdadır:

1. Maddi (xüsusilə də təbii) ehtiyatları istehsalı (hasili);
2. Malların ərsəyə (kondisiyaya) çatdırılması və ya fərqli yollarla əldə edilməsi;
3. Nəqliyyat-logistika sisteminin təşkili, məhsulun xarakter və xassələrindən asılı olaraq onların saxlanılma və daşıma əməliyyatlarının mümkünlüyünün təmin edilməsi;
4. Yuxarıdakı iki maddədə təsbit olunanların reallaşdırılması və ya qarşılıqlı mübadiləsinin aparılması;
5. İş və xidmətlərin ixtisaslaşdırılmış şəkildə təşkili, onların daim təkmilləşdirilməsi və transformasiyasının həyata keçirilməsi və s.[6; 217]

Qeyd etmək yerinə düşər ki, istər cəmiyyətin (fərdlərin) ümumilikdə, istərsə də daxildə məskunlaşmış istehsalın istehlakını qarşılamaq məqsədilə işgüzar müstəvidə vahid planların və istiqamətlərndirilmiş təşviq işlərinin həyata keçirilməsi zəruridir. Lakin hər bir ölkə (region) məhsul istehsalında və ya xidmətlərin göstərilməsində bir sıra ixtisaslaşma prinsiplərini və ya reallıqlarını tərənnüm etdirməkdədir.

Digər tərəfdən, bisnes fəaliyyətinin təşkilində məhsul istehsalı (və ya xidmətlərin göstərilməsini) şərtlərdən biri (birincisi) kimi çıxış etməkdədirsə, digər mühüm şərt onun bəlli müddətlərdə keyfiyyətinə zərəri minimallaşdırmaqla son istehlakçılara (və ya mübadilə məkalarına) çatdırılmasıdır. Bu məqsədlə məhsulların "hərəkəretmə" ehtiyaclarını qarşılayan ümumi və xüsusiləşdirilmiş nəqliyyat vasitələrinin subyektin özündə yaxud regionda mövcud olması, onların şəxsi sərəncamla və ya kirayə formasında məhsul istehsalında iştirakının təmin edilməsi, zəruri yükləmə, daşıma boşaltma kimi proseslərinin kütləviliyinin təmin edilməsi, uyğu  xidmətlərin göstərilməsində  logistika imkanlarının formalaşdırılması və reallıqların sistemləşdirilməsi kimi proseslərin və onlara uyğun mərhələlərin mövcudluğu məqsədəuyğun hesab edilməkdədir.

Burada rayonlararası (regionlararası, ölkələrarası) əmtəə mübadiləsini gözardı etməmək zəruridir. Belə ki, həmin ərazi "miqyaslarında" mövcud olan istehsal-xidmət ixtisaslaşmaları məhsul mübadilələrinin xarakter və xassələrinə diqqəti çəkməkdədir.

Biznes fəaliyyətinin təşkilində gəlirlərin əldə olunması ən ön planda durmaqdadır. Bununla belə sosial xarakterli biznes fəaliyyətinin təşkilinə də bu fəaliyyətdə rastlanmaqdadır.

Biznesin bərqərar olması və sistemli şəkildə təşəkkülü digər şərtlərlə yanaşı "sahibkarlıq" anlayışının məzmunu ilə "üzvi" əlaqələndirməni nəzərdə tutur. Sahibkarlıq fəaliyyəti özündə məqsəd "mərkəzindən" irəli gələn bütün işgüzarlıq istiqamətlərinin məcmusu kimi çıxış etməkdədir.

Sahibkarlıq fəaliyyətini məzmununa diqqət yetirdikdə idarəetmə-təşkilati, tənzimləmə-nəzarət və digər spesifik (aqrotexniki, seleksiya, konsaltinq və s.) istiqamətlərin özündə birləşdirilməsini tələb etməkdədir. Məzmundan asılı olaraq həmin yönlərdə fərqli üsul, bacarıq və mexanizmlərin təcrübi tətbiqini nəzərdə tutmaqdadır.

Bir birlə sıx sürətdə əlaqəsi olan hər iki məvhum çoxsaylı ümumi cəhətlərə malikdir ki, onların sırasında da nümunəvi qaydada aşağıdakı sadalamaq mümkündür:

a) İstər biznesin, istərsə də sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində bazar elementinin mövcudluğu danılmazdır;
b) Bu məvhumların son məqsədləri sırasında gəlirin (mənfəətin) əldə olunması mühüm əhəmiyyətə malik olması ilə fərqlənməkdədir;

c) Məhsul istehsalı, xidmətlərin göstərilməsi və işlərin icrası zamanı şəxsi maraqların mövcudluğu mütləq şərt kimi çıxış etməkdədir;
d) Müasir şəraitdə onların tammənalı bərqərar olması inklüziv inkişaf mühiti ilə fərqlənməkdədir;
e) Bəhs olunan fəaliyyətlərin həyata keçirilməsində azadlıq prinsiplərinin gözlənilməsini tələb etməkdədir və s.[2; 92-93]

## BİZNES KONSEPSİYALARININ MƏZMUNU VƏ XARAKTERİK CƏHƏTLƏRİ

Biznes fəaliyyətinin təşkili digər yön və istiqamətlərlə, xarakter və xassələrlə yanaşı biznes konsepsiyaları özünün əhəmiyyətini qorumaqdadır. Biznes konsepsiyaları ümumi şəkildə biznesin fəaliyyət “xəttini” ifadə etməkdədir. Onlar biznes strategiyaları ilə məcmu halında çıxış edərək təsərrüfat subyektlərinin iş planlarının hazırlanmasında mühüm rol oynamaqdadır.

Biznes fəaliyyətinin həyata keçirilməsində ardıcıl marketinq və menecment addımlarının atılması aktuallıq və əhəmiyyət baxımından mühüm rol oynamaqdadır. Belə ki, bazar monitorinqlərinin aparılması, onun “boşluqlarının”, çatışmayan elementlərinin müəyyənləşdirilməsi, istehlakda işritak edən məhsul, əmtəə, xidmət və işlərinin düzgün təsnifləşdirilməsi bazasında “kəsir” həlqələrin istehsalının təşkili və ya mübadiləsinin reallaşması yolu ilə tamamlanması yollarında mümkün səmərəli olanları seçilməkdədir.

Biznesin təşkili və həyata keçirilməsində əsasən nəzəri aspektləri ilə önə çıxan konsepsiyalar mühüm rol oynamaqddır. Konsepsiya özündə ilk növbədə aşağıdakı xarakterik cəhətləri cəmləməkdədir:

1. Təsərrüfat subyektlərinin bütün fəaliyyət yönlərini özündə birləşdirən, onun icra etditi vəzifələri məcmu şəklində ifadə edən davranışlar (hərəkətlər) toplusudur;
2. Onlarsız hər hansı forma ilə fərqlənən təsərrüfat vahidlər öz fəaliyyətini qurması və həyat keçirməsi, həmçinin mübadilə proseslərində möhkəmlənməsi mümkün deyildir.

Biznes konsepsiyasının tərkib elementləri sırasında aşağıdakı komponentələrin mövcudluğu danılmazdır (sxem 1.)

**Sxem 1. Biznes konsepsiyalarının zəruri komponentləri**




Sxem 1-dən də göründüyü kimi, biznes konsepsiyalarının zəruri komponentləri özünün mənşə etibarı ilə təsnifləşdirilməsini müxtəlif aspektlərdən formalaşdırılmaqdadır. Bu sırada biznes fəaliyyətinin təşkilatlanası və həyata keçirilməsinin məqsədləri öz əhəmiyyətini qorumaqdadır. İstənilən işin məqsəd bazası onun nə kimi hədəflərə nail olunması, bu zaman hansı metod və metodologiyanın əsas tutulduğu, biznesin təşkili və həyata keçirilməsində istifadəsi nəzərdə tutulan üsulların və mexanizmlərin əsaslandırılması xüsusi maddələr sırasında bisnes məqsədlərinin tərkibində özünün layiqli yerini tutmaqdadır.

Biznesin məqsədləri onun icrası proseslərində hədəflərin konkretləşdirilməsinə yol açmaqdadır. Belə ki, istənilən fəaliyyət icraatının tərkib elementləri sırasında onun strategiyası və taktikasının müəyyənləşdirilməsinin sistemlilik və kompleksliliyik prinsipləri əsasında hazırlanmasını zəruri

etməkdədir. Əgər strategiya – son məqsədləri, hədələri ifadə edirsə, taktika həmin məqsədlərə nail olunma yollarını göstərməkdədir.

Biznesin ümumi və xüsusi starteji hədələrinin müəyyən edilməsi, onların əsasında məxsusi iqtisadi alət və tətbiq mexanizmlərinin seçilməsi, təcrübi tətbiq əsaslandırmalarının və qiymətləndirmələrinin reallaşdırılması nəzərdə tutulan məhsul istehsalı, xidmətlərin göstərilməsi, yaxud işlərin yerinə yetirilməsi proseslərində fəaliyyət kursunun təşəkkülünə yol açmaqdadır. Eyni incəliklər biznes fəaliyyətinin  taktiki təməllərin seçilməsində də gözlənilməlidir

## BİZNES MƏQSƏDLƏRİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR VƏ BİZNES MƏQSƏDLƏRİNİN SEÇİLMƏSİ

Biznes konsepsiyaları və strategiyalarının müəyyənləşdirilməsi ilə yanaşı onun təşkili proseslərində bir sıra şərtlərin mövcudluğu nəzərə alınmalıdır. Təşkilatlanma-quruluşvermə, həmçinin nizamlanlma və digər xüsusiyyəltərlə fərqlənən həmin amillər fəaliyyət sferasına spesifik “abu-hava” gətirməkdədir, onların şəkilləndirilməsində fərdiləşdirilmiş qaydalarda (özünəməxsus cəhətləri ön plana çəkməklə) iştirak etməkdədir.

Biznes konsepsiyalarını şərtləndirən amillərlə bağlı aidiyyatı fikir və mülahizələrə keçməzdən əvvəl sxem 2-yə nəzər salaq.

**Sxem 2. Biznes konsepsiyalarını şərtləndirilən amillər**

**Biznes konsepsiyalarını şərtləndirən amillər**

- Müəyyən edilmiş və təmin olunmuş tələbat çərçivələri
- Əmtəə istehlakçıları məcmuları
- Buraxılan məhsullar (göstərilən xidmətlər, görülən işlər)
- Təsərrüfat subyektlərinin rəqabət qabiliyyətliliyi və onun müqayisəliliyinin təmin edilməsi s.

Sxem 2-dən də göründüyü kimi, biznes konsepsiyalarını şərtləndirən amillər özünün rəngarəngliyi ilə fərqlənməkdədir. Bu sırada təsərrüfat subyektlərinin ixtisaslaşma yönünün müəyyən edilməsi, bazarın həmin yon nəzərə alınmaqla araşdırılması və tələbat ifadələrinə aydınlığın gətirilməsi ilk yeri tutmaqdadır.

Tələbat göstəricisini xarakterizə edən məhşur iqtisadçı Y.Şumpeter aşağıdakı bəndləri xüsusi şəkildə işəqlandırır:

1. tələbat - insanların  və təsərrüfat subyektlərinin ehtiyaclarının məcmusudur;
2. onun araşdırılmasında daxili və xarici mənbələrin mövcudluğu kəmiyyət-keyfiyyət parametrləri üzrə fərqləndirilməkdədir;
3. onun ödənilməsi sahəsində faktiki reallığa çevrilən və çevrilməsini gözləyən hissələr fərqləndirilməkdədir;
4. tələbatın ödənilmə dərəcəsinin müəyyən edilməsi müxtəlif üsullarla mümkündür ki, bu sırada tələbat obyektinə və subyektinə aydınlıq gətirilməsi mühüm rol oynamaqdadır və s.[5; 41-42]

Özünün social və iqtisadi cəhətləri ilə fərqlənən tələbatın həcmi müəxtəlif üsullarla müəyyən edilməkdədir (məsələn insanların ərzaq məhsullarına olan tələbatı fizioloji normalarla, istehsal subyektlərinin tələbatı əsasən sadə say göstəriciləri ilə və s.). İstənilən fəaliyyətin biznes müstəvisinə “daşınması” öz növbəsində məqbul ölçüləri, maksimal hədləri və real istifadə imkanlarını təmərküzləşdirməkdədir  Belə toplu regional və ya ölkə müstəvisində tələbatın hansı yöndə qarşılanmasına aydınlıq gətirir. Çünki məhsulun növündən və istifadə xarakterindən, xidmət və işlərin

ixtisaslaşma və digər cəhətlərindən asılı olaraq toplanan informasiya müvafiq tələbat obyektlərinin aktiv iqisadi dövriyyəyə cəlb olunma həcmləri və sürətləri haqqında təsəvvür yaratmaqla mükəlləfdir.

Digər tərəfdən, hər hansı tələbat obyektlərinin istifadə proseslərində yarımfabrikat və ya hazır məhsul şəklində istifadəni xarakterizə etməlidir. Bəzi məhsullar üzrə (xüsusilə də aqrar sahədə) məövsüm, növ-çeşid, istehsal proseslərinin təkmilləşdirilməsi və transformasiyası, həmçinin digər amillər nəzərə alınmaqla xüsusi fəaliyyət "yollarına" müraciət oluna bilər.

Digər tərəfdən, tələbatın ödənilməsində hazır əmtəələrin iştirak dərəcəsinin qiymətləndirilməsi, onun ayrı-ayrı tələbat istiqamətləri üzrə ödənmə dərəcələrinin fərdi paylar şəklində müəyyən edilməsi, əmtəə və xidmətlərin tələbatı üstələyən faktiki kənarlaşma ölçülərinin digər istiqamətlərə (ölkənin digər regionlara, beynəlxalq mübadilə məkanlarına, xüsusilə də sərhədyanıticarətə və s.) yönəldilməsi məsələləri də araşdırılan problemlərdə səmərəli və optimal bölgülərin edilməsinə şərait yaratmaqdadır.

Bisnes konsepsiyası əsas bisnes elementləri ilə yanaşı onun infrastrukturu və logistika sistemi, əmtəə və xidmətlərin "keyfiyyət – qiymət" müstəvisində diversifikasiyası müxtəlif variantlarda olan konseptual əsaslara müraciəti və çeniş çeşidli biznes qərarlarının qəbulunu şərtləndirmıkdədir.

## NƏTİCƏ

Məqalənin adından və onun bölmələrində nəzərdən keçirilən məsələlrdən göründüyü kimi, biznes işinin təşkili və biznes konsepsiyaları özünün yüksək əhəmiyyəti və aktuallığı ilə fərqlənməkdədir. İstər tarixi aspektdə, istərsə də cari dövrün reallıqlarında onun cəmiyyətin inkişafında oynadığı rolun qiymətləndirilməsi, ehtiyaclarının qarşılanmasında attığı addımlar bazar mühitinin zənginləşməsinə səbəb olmaqdadır.

Buznes konsepsiyaları ilk növbədə "olmalıdır" sualına cavab verməklə yanaşı, "vardır" mühitinin sistemli və kompleks şəkildə zənginləşməsinə səbəb olmaqdadır. Onlar biznes strategiya və taktikaları ilə, biznesin məqsəd və vəzifələri ilə, təşkilatlanma və fəaliyyət göstərilməsinin prinsip və üsulları ilə, tətbiq olunan mexanizmlərlə vahid işgüzarlıq mühitinin formalaşmasına töhvələrini verməkdədir.

Biznes konsepsiyalarının araşdırılması prosesləri "sahə - istiqamət" müstəvisi nəzərə alınmaqla istehsal olunan əmtəələrin və göstərilən xidmətlərin fərdi qaydada şəkilləndirilməsini tələb etməkdədir. Deyilən fikirlərin ilk növbədə insanların və təsərrüfat subyektlərinin tələbatlarının müəyyənləşməsi və ödənilməsi problemlərin ilə əlaqədar olmaqdadır.

Ümumi və xüsusiləşdirilmiş ehtiyacların ödənilməsinə yönəldilən əmtəələrin və xidmətlərin istehsalı bazar mühitinin yenidən formalaşmasına təsir etməklə yanaşı, rəqabət mühitinin formalaşmasına və zamanla dərinləşməsinə də təsir etməkdədir. Digər tərəfdən, əmətəələrin mübadilə proseslərinin öyrənilməsi və elmi-iqtisadi əsaslarla təşkili tədqiqatın obyektinə çevriləcək əmtəə və xidmətlərin mütəmadi şəkildə və proqramlaşdırılmaış sürətlərlə təkmilləşdirilməsinə də yol açmaqdadır.

### ƏDƏBİYYAT

8. Bağırov M.S. Makroiqtisadi tarazlıq: problemlər, qiymətləndirmə və təhlil fəaliyyəti. Naxçıvan: Əcəmi, 2023, 216s..
9. Bağırov M.S. Müəssisə vəsaitləri mühasibat uçotunda. Naxçıvan: Əcəmi, 2022,
10. Bağırov M.S. Statistikanın təməl bilikləri. Naxçıvan, Əcəmi, 2020. 525s.
11. Mahmudov C.İ. Biznes: əsasları, təşkili və iadrə edilməsi. Naxçıvan, İdeya, 2011. 318s.
12. Mahmudov C.İ. Biznesin əsasları. Bakı, AzTU-nun nəşriyyatı, 2008. 220s.
13. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı, "Zaman", 2002. 618s.
14. Quliyev T.F. Menecmentin (idarəetmənin) əsasları. Bakı, ADİU-nun nəşriyyatı, 2006. 691s
15. www.economy.gov.az

**РЕЗЮМЕ**
**ИЛАХА ГУСЕЙНОВА**
**БИЗНЕС - КОНЦЕПЦИИ И ОСНОВЫ БИЗНЕСОВОЙ СТРАТЕГИИ**

**Цель исследования** – обеспечение системного подхода к концепциям и стратегиям бизнеса, обращение к мыслям и задумкам преставитей научной среды, проведших определение и уточнение концептуальных основ бизнеса, оценивание влияния формирования основ концепций бизнесана рыночную среду.

**Методология исследования** – использование методов наблюдения, группирования, сопоставительного анализа.

**Результаты исследования** – выражение обобщенных мыслей, связанных с бизнес-концепциями и основами стратегий бизнеса, обеспечение многофакторного подхода к концептуальным основам бизнеса, исследование категории потребления.

**Практическое значение исследования -** выявление и обоснование концептуальных основ и стратегических «путей» бизнеса в практической плоскости.

**Оригинальность и научная новизна исследования –** изучение в единой плоскости бизнес – концепций, принимающих участие в формировании среды бизнеса, а также их целей, задач, принципов и средств организации и претворения в жизнь, в том числе сопредельно взаимосвязанных с ними посторонних факторов.

***Ключевые слова:*** *бизнес, бизнес-концепции, стратегия бизнеса, тактика бизнеса, бизнес-мониторинги, компоненты концепций бизнеса*.



**SUMMARY**
**ILAHA HUSEYNOVA**
**BUSINESS CONCEPTS AND BUSINESS STRATEGIC BASICS**

***The purpose of research*** – providing a systematic view of business concepts and business strategies, addressing the relevant ideas and thoughts of representatives of the scientific environment in the way of defining and clarifying the conceptual bases of business, the assessment of the impact of the conceptual foundations of business on the formation of the market environment.

***The* methodology of research** – the use of observation, grouping, and comparative analysis methods,

**The results of reseach-** Providing final opinions on business concepts and strategic foundations of business, providing a multi-factorial approach to the conceptual foundations of business in conditions of interaction and dependence, researching of demand category

The practical importance of research – defining and justifying the conceptual basis of business and business strategic "lines" at the practical level

The originality and scientific innovation of research – the study of business concepts that act as a "participant" in the formation of the business environment, the goals, tasks, principles and means of its organization and implementation, coordinated with external factors, on a single level.

***Key words:*** *business, business concepts, business strategy, business tactics, business monitoring, components of business concepts*


*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)*

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 1

UOT:33

**KƏNAN SEYIDOV**
“Naxçıvan” Universiteti
Bank işi” ixtisası üzrə magistr
Kenanseyidov01@gmail.com
DOI: 10.5281/zenodo.10983580

## BANK MARKETİNQİNİN MAHİYYƏTİ, FUNKSİYALARI VƏ ƏSAS İSTİQAMƏTLƏRİ

*Bildiyimiz kimi, son illərdə Azərbaycanda bank, bank riskləri, bank marketinqi və s. ilə əlaqədar bir sıra tədqiqat işləri aparılır. Təqdim etdiyim bu məqalədə bank marketinqinin mahiyyəti, onun funksiyaları və əsas istiqamətləri tədqiqata cəlb edilərək araşdırılmışdır.*

*Məqalədə həmçinin, bankın vəzifələrindən və bankın inkişaf strategiyasından bəhs olunur. Praktiki cəhətdən bütün banklar marketinq strategiyasına malikdirlər. Lakin buna baxmayaraq hər bir bankın marketinq strategiyası rəsmi qəbul edilir və dəqiq ifadə olunaraq strategiyanın bütün təbəqələrinə şamil edilir.*

**Açar sözlər:** *bank marketinqi, bankın tarixi, bank strategiyası, bankın funksiyaları,* bankdaxili *mədəniyyət.*

### GİRİŞ

Bank marketinqi iqtisadi psixologiya ilə sıx surətdə əlaqəlidir. Marketinq fiziki və hüquqi şəxslərin tələbatlarının aşkar edilməsi və ödənilməsi prosesi olaraq iqtisadiyyatın istənilən sektorunun, o cümlədən bank sektorunun müəssisələrinin fə aliyyətinin mühüm tərkib hissəsi kimi çıxış edir. Bank bu piramidanın zirvə sində yerləşir. Ehtimal olunur ki, bank marketinqinə çoxsaylı təriflərin verilməsi marketinqin təkamülü və bu təkamül prosesində marketinqin məzmununun, onun yönümünün və istinad etdiyi elementin dəyişməsi ilə əlaqədardır. F. Kotler marketinqin təkamülünün aşağıdakı 5 mərhələsini qeyd edir:

1. İstehsalın təkmilləşdirilməsi konsepsiyası və ya istehsal yönümlü marketinq.
2. Məhsulların təkmilləşdirilməsi konsepsiyası və ya məhsul yönümlü marketinq.
3. Kommersiya amillərinin intensivləşdirilməsi konsepsiyası və ya satış yönümlü marketinq.
4. Marketinq konsepsiyası və ya istehlakçı yönümlü marketinq.
5. Sosial-etik marketinq konsepsiyası və ya sosial məsuliyyət yönümlü marketinq.

Bank özünün inkişaf strategiyasını rəsmi proqram bəyanatı ilə möhkəmləndirir. Bankın rəsmi proqram bəyanatından irəli gələn vəzifələri bankın vazifələri adlanır. Onlar sonradan detallaşdırılaraq və konkretləşdirildikdən bankın vəzifələrinin realizasiyasına yönəldilən marketinq vəzifələrinə çevrilir. Marketinqin vəzifəsini və məqsədini nəzərə almaqla kifayət qədər konkret marketinq strategiyası formalaşdırılır.

Bankın vəzifələrinin müəyyən edilməsi marketinq fəaliyyətinin ən məsuliyyətli mərhələlərindən biridir. Vəzifələrin müəyyən edilməsinə aşağıdakı amillər təsir edir:

1. Bankın tarixi.
2. Bankdaxili mədəniyyət.
3. Bankın təşkilatı quruluşu.
4. Qərar qəbul edən rəhbər şəxslərin xarakteriskası.

Yuxarıda izah edilənlərdən çıxış edərək bank marketinqinin vəzifələrini aşağıdakı kimi formalaşdıra bilərik:

1. Bank fəaliyyətinin strateji və operativ planlaşdırılmasının effektli sisteminin yaradılması;
2. Bankın bazar fəaliyyə tini xarakterizə edən bütün göstəriciləri, həmçinin rəqiblərin, müştərilərn, işgüzar tərəfdaşların və s. hərtərəfli tə hlilini və öyrənilməsini əhatə edən marketinq tədqiqatlarının aparılması;
3. Müştərilərin bank xidmətlərinə olan tələbinin struktur, kəmiyyət və keyfiyyətcə

maksimum ödənilməsi. Bu, işgüzar münasibətlərin dayanıqlığı üçün zəruri şərait yaradır.

4. Bankın məhsul siyasətinin təkmilləşdirilməsi, marketinq kompleksinin yaradılması və inkişaf etdirilməsi, müəyyən edilmiş vaxt, mövcud resurslar və istehsal gücləri çərçivəsində mənfəətin əldə edilməsi, həmçinin planlaşdırılan bazar payının tə min edilməsi;

5. Bankın kollektivinin kommersiya, təşkilati və sosial problemlərinin kompleks formada həll edilməsi;

6. Seçilmiş inkişaf strategiyasına uyğun gələn effektli kommunikasiya siyasətinin hazırlanması və inkişaf etdirilməsi və bankın imicinin yaradılması; bankın marketinq fəaliyyətinin daima nəzarət edilməsi və onun auditi.

**Bank marketinqinin funksiyaları.**

Marketinqə aid ədəbiyyatda marketinqin funksiyasına aid vahid fikir yoxdur. Lakin ədəiyyatda marketinqin ən çox rast gəlinən *funksiyaları* aşağıdakılardır:

1. Marketinq tədqiqatları. Bu funkusiyanın məqsədi istehlakçının tələbatı, alış motivi və davranışı; ödənilməmiş tələbatlar və tələbatların ödə nilmə sə viyyəsi; marketinq mühiti; bazarın məhsul və firma strukturu; satışın həcmi və bazar payı; onların də yişmə meyllə ri; m ə h sulların bölüşdürülmə si və satışı kanalları; reklam fəaliyyəti; rəqiblər və rəqabət mühiti; qiymətlər və onların də yişmə meyli; texniki xidmə tin təşkili və s. haqqında informasiyanın toplanması və tə dqiqatın aparılmasıdır.

2. Məhsul çeşidinin planlaşdırılması. Marketinqin bu funksiyası çərçivəsində müə ssisə nin mə hsul siyasə tinin hazırlanması; istehsal edilə n və istehsal edilmə si nəzərdə tutulan məhsul çeşidlərinin və növlərinin müəyyən edilməsi; məhsulların texniki-istismar, funksional, estetik və digər parametrlərinin istehlakçıların tələbatlarına uyğunlaşdırılması; məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi üzrə tədbirlərin hazırlanması və bu kimi digər işlər həyata keçirilir.

3. Məhsulların bölüşdürülməsi və satışı. Bu funksiyanın yerinə yetirilməsi sayəsində məhsulların bölüşdürülməsi və satışı siyasəti hazırlanır; satış və bölüşdürmə kanallarının seçilməsi həyata keçirilir; ticarət-bölüşdürmə şəbəkəsi təşkil edilir; satışın həcmi və bazar payı müəyyən edilir; məhsulların anbarlarda yerləşdirilməsi və nəql edilməsi təşkil olunur; ehtiyatların həcmi müəyyən edilir və onun idarə edilməsi həyata keçirilir; satış büdcəsi tərtib edilir və s.

4. Reklam və satışın həvəsləndirilməsi. Bu funksiyanın yerin yetirilmə sinin məqsədi istehlakçıya təsir etməklə onu daha çox məhsul almağa sövq edən və bunun sayəsində satışın həcminin artırılmasına nail olmağa imkan verən tədbirlər kompleksinin hazırlanmasıdır.

5. Marketinqin qiymətqoyma funksiyası daxilində müəssisənin qiymətqoyma strategiyası və taktikası hazırlanır; qiymə tqoyma metodları seçilir; hər bir bazar üzrə məhsulun həyat dövranına uyğun olaraq mə hsulların qiyməti müəyyənləşdirilir; qiymətin dəyişmə mexanizmi hazırlanır və müəssisənin qiymət siyasətinə aid olan digər əmə liyyatlar həyata keçirilir.

Marketinqin funksiyaları yerinə yetirilərkən onun əsasını təşkil edən, mahiyyə tini və tə yinatını açan və marketinqin prinsiplə ri adlanan əsas müddəalara, hallara və tələblərə əməl etmək lazım gəlir.

Banкın marкetinq strategiyası öz inкişaf sahəsində bir sıra məhdudiyyətlərə maliкdir. Bu, hər şeydən əvvəl, ölкədə banк fəaliyyətinin tənzimlənməsi səviyyəsidir. Bundan əlavə, banкların fəaliyyətinin iqtisadi məhdudiyyətlərini də nəzərə almaq lazımdır. Banкlar daxili və xarici risкləri aradan qaldırmaq və ya minimuma endirməк üçün sığorta fondları yaratmalıdır. Banкların fəaliyyətində məhdudiyyətdən ibarət olan rəqabət də banкların fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Banкlararası və eləcə də banкlar və qeyri-banк tipli кredit institutları arasında rəqabətin artması banкları laqeyd qoya bilməz. Onlar bu rəqabəti nəzərə almaqla özlərinin marкetinq strategiyasını işləyib hazırlamağa məcburdur. Banкlar təsərrüfatın кapitaltutumlu sahəsidir, belə ki, onlar, eyni zamanda, həm xidmət sahəsinin müəssisələri кimi, həm də ən yeni texnologiyaların iri istehlaкçıları кimi çıxış edir. Banкın yuxarıda qeyd edilmiş fəaliyyət məhdudiyyətləri banкın marкetinq strategiyasının işlənib hazırlanması zamanı nəzərə alınmalıdır.

Yuxarıda deyilənlərdən belə qənaətə gəlməк olar:
Ümumi iqtisadi qeyri-sabitliк, artan banкlararası rəqabət və кlassiк banк əməliyyatları gəlirinin azalması şəraitində banкlar öz fəaliyyətində marкetinq üsullarından istifadə etməyə məcburdur.
Banк təcrübəsinə marкetinqin tədbiq edilməsi üzrə Qərb ölкələri banкlarının çoxilliк təcrübəsini nəzərə alaraq bazarda bu sahədə ən qabaqcıl və proqressiv təcrübədən istifadə edilməsi daha məqsədəuyğundur.
Banкın fəaliyyəti fiziкi şəxslərə (əhaliyə) və кorporativ müştərilərə (təşкilatlara, müəssisələrə və s.) xidmət göstərilməsinə istiqamətləndirilmişdir.
Müştərini banк xidmətindən istifadə etməyə sövq edən əlamətlər:
Gəlir və qənaət, yəni banк xidməti əldə etməк istəyən müştərinin məqsədi gəlir əldə edilməsindən və əmanətlərinin yığılmasından ibarətdir;
İqtisadi təhlüкəsizliк;
Xidmətlərin кeyfiyyəti;
Xidmətlərin elastiкliyi;
Sürət;
Zəmanətli xidmət;
Rahatlıq;
Etibar.

***Bank marketinqinin əsas istiqamətləri.***

Marketinqin əsas məqsədi istehsalçını istehlakçının konkret ehtiyaclarına istiqamətləndirməkdən ibarətdir. İstehsalçı marketinqin prinsipləri əsasında fəaliyyət göstərərək öz strategiyasını istehlakçının tələblərinin qeydiyyatına yönəldir və istehlakçı ilə münasibətlərin qurulması haqqında fikirləşir.

Qeyd edim ki, bank sistemində marketinqin prinsiplərinin genişlənməsi və marketinqin strateji bank planlaşdırılmasına daxil edilməsi 80-ci illərdən start götürməyə başladı. Uzun müddət banklar öz iş ənənələrinə əsaslanaraq strateji planlaşdırmaya və marketinqə lazımi əhəmiyyət vermirdilər. 60-cı illərin ortasına qədər banklar iş fəaliyyətində praktiki olaraq reklam ilə məşğul olmurdular. Bu dövrün sonuna yaxın reklam kompaniyası keçirildi və bunun da məqsədi hər hansı bir konkret banka diqqətin cəlb edilməsi deyil, sadəcə bank fəaliyyətinin məşhurlaşması idi. Yalnız 70-ci illərdə müxtəlif banklar öz müəssisələrinin və onların fəaliyyətinin reklamına ciddi yanaşdılar. Məhz bu zaman bank xidmətləri arasında marketinq xidmətindən söhbət açmaq mümkün oldu. 80-cı ildə banklar marketinqin bütün üsullarına yiyələndilər və öz fəaliyyətinin strateji planlaşdırılması ilə fəal məşğul olmağa başladılar. 80-ci illərin ikinci yarısında ABŞ-da bank marketinqi kommersiya bankının idarə sistemində bütövlük təşkil edirdi. Bu müasir şərait onunla səciyyələnirdi ki, banklar bu problemə diqqəti artırırdılar. Bu prosesin əsasında iki ənənə dururdu ki, bu da bütün dünya iqtisadiyyatı üçün xarakterikdir:

– bank institutlarının və xidmətlərinin beynəlmilləşdirilməsi,
– maliyyə bazarının ikili tənzimlənməsi.

Xarici bankların təcrübəsində bank öz marketinqinə istehlakçı tapılmasının aləti kimi yanaşmır.

Bank marketinqi aşağıdakı məsələləri həll edir:

1. Mövcud və potensial bazarların bank fəaliyyətinin müəyyənləşdirilməsi;
2. Konkret bazarların seçilməsi və sifarişçinin ehtiyaclarının müəyyənləşdirilməsi;
3. Mövcud və yeni xidmət növlərinin uzun və qısamüddətli məqsədlərinin müəyyənləşdirməsi;
4. Yeni xidmət növlərinin təcrübədə tətbiqi və bankın həmin proqramın reallaşdırılmasına nəzarəti.

Bank xidmətləri bazarının və onların potensial istehlakçılarının öyrənilməsi üçün banklar ənənəvi olan tipoloji və seqmentləşmə kimi sənaye marketinqi üsulundan istifadə edirlər. Tipləşdirmə sosial xüsusiyyətlər əsasında istehlakçıları, eləcə də sosial-iqtisadi və demoqrafik amilləri aşkar edir.

Bazar seqmentləşməsi onu ayrı-ayrı sahələrə bölür, bu da istehkçıların spesefik tələbi kimi xarakterizə olunur. Burada təklifin spesifik tərəfləri də nəzərə alınır. Seqmentləşmənin məqsədi- ayrı-ayrı istehlalkçılar dəstəsinin konkret xidmət növlərinə olan münasibətlərini ayırd etməkdir. Bazarın seqmentlərə bölünməsi xidmətlər təklifini istehlak və potensial bazarlar ilə uyğunlaşdıraraq idarə etməyə imkan verir. Bu eləcə də uzunmüddətli bazar strategiyasını işləyib hazırlamağa da şərait yaradır.

Bazarın seqmentləşməsi ilə banklar iki əsas prinsip vasitəsilə istehsal prosesini qururlar:

- məhsuldar prinsip (buraya kredit xidmətləri bazarı, əməliyyat xidmətləri bazarı, investisiya xidmətləri bazarı, istiqamətləndirilmiş xidmətlər bazarı daxildir).
- sifarişçi və müştəri prinsipi (buraya isə daşınmaz əmlakın sahibləri, korporsiyalar, hakim bazarlar və istiqamətləşdirilmiş şöbələrin müştəriləri aiddir).

Bazarın ayrı-ayrı seqmentlərinin seçilməsinin mənası bankın səylərinin bütün bazar sisteminə boş yerə sərf edilməməsindədir.

Əsas mənanı müəyyən seqmentə istiqamətlənmək təşkil edir. Bazar seqmentini əsasən müştərilər qrupu adlandırırlar ki, onlar da eyni növlü xidmətlərə tələblərini yönəldir və bu tələblərin xərcini ödəməyə qadirdirlər. Bazarı seqmentləşdirərək banklar növbəti mühakimələrə əsaslanırlar:

❖ bazarın seqmentləri daha dəqiq göstərilməlidir:

❖ müxtəlif seqmentlər barəsində toplanmış məlumat onların təhlili və qiymətləndirilməsi üçün kifayət qədər olmalıdır:

❖ seçilmiş seqmentlər banka hiss olunan dərəcədə əhəmiyyətli gəlir gətirməlidir:

❖ seçilmiş seqmentlərin əsasında bankın xidmətlərin inkişafı, əlverişli reklamı ilə bilavasitə məşğul olan bölmələri mövcud olmasıdır və s.

Konserv sənayesi dünya ticarətində sənayenin əsas paya malik məhsullar istehsal edən mühüm sahələrindən biridir. Bu sahənin Azərbaycanda qeyri-neft sektorunun vacib sahələrindən biri kimi inkişaf etməsi qida sənayesinin başlıca məqsədlərindən biridir. Son illərdə konserv sənayesi sektorunda yeni müəssisələrin, şirkətlərin yaranması bu sahəyə fəal maraq göstərildiyini nümayiş etdirir. Sektorun perspektivi ilə bağlı gözləntilər onunla əsaslandırılır ki, ölkənin meyvə və tərəvəzçılık üçün keyfiyyətli torpaq fondu mövcuddur, ərazilərin əksər hissəsi meyvə-tərəvəzçilik üçün əlverişli iqlimə malikdir, müəyyən təcrübəli və texniki-texnoloji potensiallı yerli sənaye müəssisələri yaranıb. Lakin aparılan statistik araşdırmalara görə Azərbaycanın konserv sənayesinin başlıca vəzifəsi ölkənin idxaldan asılılığından azad etmək və daxili tələbatı tam ödənməsidir.

Konserv sənayesi məhsullarının idxal-ixrac potensialının səmərəliliyi eyni zamanda, bunun əhalinin istehlak tələbatına uyğunluq səviyyəsinin öyrənilməsində və konserv sənayesi məhsullarının strukturunda keyfiyyət dəyişmələrindəki tarazlığa görə də müəyyən olunur. Problemin təhlili və proqnozu metodoloji baxımdan yeni yanaşma aspektləri kəsb edir ki, bu məqsədlə hər bir konserv məhsulu üçün istehsal və istehlak həcminin tarazlaşdırılması, həmin məhsulun idxal-ixrac potensialının kəmiyyət və keyfiyyət balanslaşdırılmasını tələb edir. Həmin məhsulun ölkədə istehsal xərcləri, onun xarici ölkələrdən gətirilməsi zamanı meydana çıxan xərclərdən yüksək olduqda, yerli istehsalçıların iqtisadi maraqlarının gözlənlməsi baxımından tənzimləyici tədbirlərin görülməsini zəruriləşdirir ki, bu da idxalın əhəmiyyətliliyini azaldır. Lakin praktiki baxımdan bu istiqamətdə həyata keçirilən tədbirlər bütövlükdə daxili istehsal fəaliyyətinin səmərəliliyinə və inhisarçı qiymət tətbiq etmə meyllərinin qarşısının alınmasında müsbət təsirlərlə müşaiyyət oluna bilər. Qeyd olunan istiqamətlər üzrə zəruri tədbirlər gecikdirilərsə, idxal yönlü məhsulların ölkə ərazisində istehsalı zəifləyər və nəticədə kənd əhalisinin məşğulluq səviyyəsi və gəlirlilik imkanları zəifləmiş olar ki, bu da idxal edən ölkəyə çevrilməsi prosesslərini rallaşdırmış olar [2].

### Azərbaycanda konserv sənayesi məhsullarının müqayisəli təhlili

Aşağıda qeyd olunan cədvəllərdə 2016-2020 - ci illər üzrə meyvə-tərəvəz konservi və şirələrinin istehsal, idxal, ixrac, ərzaq məhsulu kimi istifadə edilməsi, itkilər, ehtiyat və istifadələr

üzrə göstəricilər qeyd olunmuşdur. Ölkə üzrə 2007-2020-ci illərdə isə meyvə-tərəvəz konservlərinin idxal və ixrac dinamikasında nisbətən fərqli dəyişikliklər müşahidə olunmuşdur. İdxal göstəricilərinə nəzər salsaq görərik ki, 2007-ci illə müqayisədə 2020-ci ildə meyvə-tərəvəz konservlərinin idxalı artaraq 66,7% təşkil etməsinə baxmayaraq, ayrı-ayrı dövrlərdə artımlar və azalmalar da müşahidə olunmuşdur. Müqayisə olunan dövrdə meyvə-tərəvəz konservlərinin idxalının ən yüksək artım tempi 2011-ci ildə qeydə alınmışdır ki, bu da 2007-ci illə müqayisədə təqribən 2 dəfədən çox olmuşdur [1]. Növbəti illərdə isə bu artımlar stabil olaraq 2008-ci ildə 6.61 %, 2010-cu ildə 9.4 %, 2015-ci ildə 30.3 % artsa da, 2016-ci ildə 25.1 % azalaraq 16.6 min ton, 2017-ci ildə isə 14.3 % artaraq 19 min ton, 2018-ci ildə 12 % artaraq 21.3 min ton, 2019-cu ildə 2.3 % artaraq 24 min ton təşkil etmişdir. 2020-ci ildə isə meyvə-tərəvəz konservlərinin idxalı 1.44 % azalaraq 23.6 min ton təşkil etmişdir ki, bunu da pandemiya şərati ilə əlaqələndirmək olar [Cədvəl 1]

**Cədvəl 1. Meyvə-tərəvəz konservlərinin ehtiyatları və istifadələri**

| | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|
| | | | **Ehtiyatlar** | | |
| **İlin əv. Qalıq** | 41817 | 57584 | 68690 | 45476 | 45760 |
| **İstehsal** | 140549 | 160771 | 136275 | 157846 | 161012 |
| **İdxal** | 16630 | 19022 | 21305 | 23930 | 23586 |
| **Eht. cəmi** | 198996 | 237377 | 226270 | 227252 | 230358 |
| | | | **İstifadələr** | | |
| **Ərzaq m. kimi istf. ed.** | 131918 | 156678 | 168235 | 168546 | 170508 |
| **İxrac** | 5818 | 6072 | 6899 | 7261 | 7429 |
| **İtkilər** | 3676 | 5937 | 5660 | 5685 | 5762 |
| **İlin son. Qalıq** | 57584 | 68690 | 45476 | 45760 | 46659 |
| **İstif. cəmi** | 198996 | 237377 | 226270 | 227252 | 230358 |

2020-ci illərdə Azərbaycanda meyvə-tərəvəz şirələrinin idxal və ixrac dinamikasında kəskin azalmalar müşahidə olunmuşdur. Aşağıdakı qrafikə nəzər salsaq görərik ki, idxaldan asılılıq ildən ilə azalmışdır [1]. Belə ki, 2007-ci ildə bu göstərici 41.9 min ton təşkil edirdisə, 2010-cu ildə bu rəqəm 75.5 % azalaraq 10.3 min ton, 2015-ci ildə 60 % azalaraq 4.2 min ton, 2016-cı ildə 1.3 % azalaraq 4.1 min ton, 2017-ci ildə 40.1 % azalaraq 2.5 min ton, 2018-ci ildə 27.9 % artaraq 3.1 min ton, 2019-cu ildə 3.36 % artaraq 3.2 min ton, 2020-ci ildə 19.13 % azalaraq 2.6 min ton təşkil etmişdir [Cədvəl 2]

**Meyvə-tərəvəz şirələrinin ehtiyatları və istifadələri**

| | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|
| | | | **Ehtiyatlar** | | |
| **İlin əv. Qalıq** | 9346 | 10590 | 6306 | 11303 | 13637 |
| **İstehsal** | 22223 | 21670 | 28625 | 31386 | 39491 |
| **İdxal** | 4108 | 2463 | 3151 | 3257 | 2634 |
| **Eht. cəmi** | 35677 | 34723 | 38082 | 45946 | 55762 |
| | | | **İstifadələr** | | |
| **Ərzaq m. kimi istf. ed.** | 18461 | 18297 | 18751 | 21787 | 26564 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **İxrac** | 6121 | 9627 | 7487 | 9870 | 11856 |
| **İtkilər** | 505 | 493 | 541 | 652 | 791 |
| **İlin son. Qalıq** | 10590 | 6306 | 11303 | 13637 | 16551 |
| **İstif. cəmi** | 35677 | 34723 | 38082 | 45946 | 55762 |

Aparılan tədqiqatlar göstərir ki, konserv sənayesinin ixtisaslaşmış sahəyə çevrilməsi üçün maneələr var və onların aradan qaldırılması biznesin təşəbbüskarlığı ilə yanaşı dövlətin zəruri dəstəyini, müdaxiləsini tələb edir. Əsasən də bu sahəni xammal asılılığından azad etmək üçün konserv məhsulları xammalının tədarükü üçün stimullaşdırıcı addımların atılması, meyvə-tərəvəzcilikdə məhsuldarlığın səviyyəsinin yüksəldilməsi, sənaye meyvəçiliyinə keçid üçün institutisional mexanizmlərin hazırlanması, meyvə-tərəvəz konservi və şirələri məhsulları üzrə dövlət standartlarının Avropa standartlarına uyğunlaşdırılması kimi addımlar əsas prioritet addımlardır [2].

Tədqiqatda konserv sənayesinin problemləri ilə yanaşı perspektiv inkişaf üçün lazımi təkliflər də təqdim edilir.

1. Konserv sənayesinin potensialının gücləndirilməsi üçün məhsul istehsalının dəyər zəncirinin dərinləşdirilməsi;
2. Konserv sənayesinin xammal tələbatını ödəmək qabiliyyətinin inkişaf etdirilməsi;
3. Regionlarda kiçik və ortaölçülü konserv sənayesi müəssisələri şəbəkəsinin genişləndirilməsi;
4. Əsas meyvə-tərəvəzçilik rayonlarında fəaliyyət göstərən istehsal vasitələri təchizatçıları, emalçılar, istehsalçılar, distribütorlardan ibarət konserv sənayesi fəaliyyətinin dəstəklənməsi [4];
5. Azərbaycanın meyvə-tərəvəz konservlərinin və şirələrinin istehsalı sahəsində rəqabət üstünlüyünə və mövcud ticarət axınları nəzərə alındıqda ölkənin meyvə-tərəvəz məhsullarının emalı üzrə mərkəzə çevrilmək imkanına malikdir. Lakin aparılan tədqiqat çərçivəsində sahənin inkişafı ilə bağlı bir sıra faktorlar mövcuddur. Həmin maneələrnin qarşınının alınmasıölkənin meyvə-tərəvəz emalı məhsullarının idxalından asılılığını qaldırılmasına, bu məhsulların ixracının genişlənməsinə imkan yaradar;
6. Dövlət torpaqların keyfiyyətinin yaxşılaşdırılması, verimliliyin artırılması vasitəsilə meyvə-tərəvəzçilikdə məhsuldarlığın artımını xüsusi hədəf olaraq seçməlidir;
7. Azərbaycanda təbii şirələrin istehlakı səviyyəsi aşağıdır. Bazarın kiçik həcmli olması, istehlak normasının da inkişaf etmiş ölkələrlə müqayisədə aşağı olması bu sektorun rentabelli sahə kimi qalmasını çətinləşdirir və əhalinin alıcılıq qabiliyyəti aşağı düşən zamanda ixtisar olunan məhsullar sırasına daxil edilir [3];
8. Avropa Birliyi ölkələrinə ixrac edilən meyvə şirələrinin ekspertizası və həmin şirələrin hazırlanması ilə bağlı tələblər yerli bazarda şirə istehsalına məcburi olmadığı üçün istehlakçılar arasında yerli brendlərin keyfiyyəti ilə bağlı zəruri səviyyədə inam yoxdur.

Müasir dövrdə meyvə-tərəvəz konservləri və şirələrinin ixacının artırılması üçün potensial imkanlar mövcuddur ki, bu da ölkədə innovasiyalı inkişafa əsaslanan rəqabətqabiliyyətli konserv sənayesi müəssisələrinin yaradılmasını tələb edir. Bunun üçün isə zəruri olan kənd təsərrüfatı istehsalı üçün işçi qüvvəsi, maliyyə, torpaq və digər maddi resursların səfərbər olunması sayəsində aşağıdakı məqsədlərə nail olunması ilə nəticələnəcək tədbirlərin reallaşdırılmasını zəruriləşdirir [5]:

- konserv sənayesinin istehsal strukturunun və texnoloji bazasının təkmilləşdirilməsi;
- konserv sənayesinin ən son texnologiyalar və yeni nəsil avadanlıqlardan istifadəyə yönəlmiş istehsal fəaliyyətlərinin inkişafı;
- resursqoruyucu və elmtutumlu fəaliyyət sahələrinə üstünlük verilməklə, yeni texnologiyalara əsaslanan bioməhsulların istehsalının təşkili;
- konserv sənayesinin istehsal və xidmət infrastrukturlarının təkmil sisteminin yaradılması;
- konserv sənayesinə investisiya qoyuluşlarını stimullaşdırmaqla, yerli xammal və resurslardan səmərəli istifadə etməklə rəqabətədavamlı məhsul istehsalına nail olunması;

- məhsuldarlığın və rəqabətqabiliyyətliliyin artırılmasına əsaslanaraq, istehsalın sahə strukturunun və səmərəliliyin artırılması;
- konserv sənayesi ilə kənd təsərrüfatı, tədarük, nəqliyyat, saxlama, ticarət və digər sahələr arasında təsərrüfat münasibətlərinin təkmilləşdirilməsi;
- konserv sənayesi sahələrində ixraca yönümlü və rəqabətqabiliyyətli məhsulların istehsalına nail olunması;
- konserv sənayesi məhsullarının istehsalında beynəlxalq standartların tətbiq edilməsi;
- sənaye emalında beynəlxalq təcrübəyə əsaslanaraq, texnoloji bazasının genişləndirilməsi və təkrar xammallardan səmərəli istifadə edilməsi [6].

**Nəticə**

Yekunda qeyd edə bilərik ki, Azərbaycan Respublikasının qeyri-neft sənayesində baş verən müsbət inkişaf meylləri konserv sənayesi sektorun perspektiv inkişaf ssenarilərinin konkretləşdirilməsini labüdləşdirir. Perspektivdə konserv sənayesinin inkişaf yollarının müəyyən edilməsində sənaye istehsalının dayanıqlı və yüksək artım templərinin təmin edilməsi, onun strukturunun təkmilləşdirilməsi və səmərəliliyinin artırılması əsasdır. Bu sahədə əsas istiqamətlər istehsal əsas fondlarının yüksək mənəvi və fiziki aşınmasının aradan qaldırılmasından, məhsulun rəqabətqabiliyyətliliyinin, investisiya və innovasiya fəallığının artırılmasından, istehsal müəssisələrinin daha sürətli inkişafından və fəaliyyət növlərinin stimullaşdırılmasından ibarət olmalıdır [6]. Ölkə iqtisadiyyatında ixracın səmərəli təşkilinin şərtləndirici amillərindən biri olan ixracın və idxalın optimal həddini müəyyənləşdirmək, yeni növ məhsullar istehsal etmək, keyfiyyətini yüksəltmək və dünya bazarı standartlarına və qiymətlərinə reallaşmasına şərait yaratmaqdır. Qeyd olunanlardan belə bir nəticəyə gəlirik ki, konserv sənayesi məhsullarının ixrac potensialının yaradılması ilk növbədə ölkə üçün daha effektli aqrar bazarın fəaliyyətinin, ikincisi isə idxal-ixrac üçün daha səmərəli hesab olunan konserv məhsulları istehsalı sahələrinin yaradılmasından ibarətdir.

**ƏDƏBİYYAT**


1. Dövlət Statistika Komitəsi, Azərbaycanın ərzaq balansları, Sənaye emalından keçmiş əsas növ ərzaq məhsullarının balansları, https://www.stat.gov.az/source/food_balances/
2. Kərimli I.A., Süleymanov N.M., Milli iqtisadiyyatın əsasları. Bakı, 2001, 308 s.
3. Abbasov V. H., Qorçiyeva T. K. Qida sənayesi sahələrinin inkişaf prioritetləri, Aqrar tədqiqatlar mərkəzi, Kənd təsərrüfatının iqtisadiyyatı jurnalı, № 1, 2020.
4. Azərbaycanın sənayesi. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2019.
5. Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı, 2001, 176 s.
6. Azər Qurbanzadə. Ərzaq kompleksinin modernizasiyası və dayanıqlı inkişaf problemləri. Bakı, "Kooperasiya" nəşriyyatı, 2017, 191 səh.
7. https://www.stat.gov.az/source/industry/



**РЕЗЮМЕ**

**ЭМИЛЬЯ ШУКУРОВА**

**ТЕКУЩЕЕ СОСТОЯНИЕ КОНСЕРВНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА, ОЦЕНКА ПРОБЛЕМ И ВОЗМОЖНОСТЕЙ**

В статье в сравнительном порядке проанализирована текущая ситуация консервной промышленности в Азербайджане, производственный, импортный, экспортный потенциал, исследованы проблемы в этой области и даны оценки в результате эффекта реализованных мер регулирования. в связи с этими вопросами. Konserv sənayesi məhsullarının ixrac potensialının yaradılmasında ölkə üçün daha effektli aqrar bazarın fəaliyyətinin, idxal-ixrac üçün daha səmərəli hesab olunan konserv məhsulları istehsalı sahələrinin yaradılması tədqiq edilmiş və konserv sənayesi məhsullarının idxal-ixrac sisteminin formalaşması və səmərəliliyinin təmin edilməsinə dair araşdırmalar aparılmışdır.



***Ключевые слова:*** *консервная промышленность, консервы, фруктовые и овощные соки, плодоовощные консервы, импорт, экспорт.*

**SUMMARY**
**EMILYA SHUKUROVA**
**CURRENT SITUATION OF CANNING INDUSTRY IN AZERBAIJAN, ASSESSMENT OF PROBLEMS AND OPPORTUNITIES**

In the article, the current situation of the canning industry in Azerbaijan, production, import, export potential was analyzed in a comparative manner, the problems in this field were investigated, and evaluations were made as a result of the effect of the regulatory measures implemented in connection with these issues. The activities of the agrarian market more effective for the country in creating the export potential of canned industry products, the creation of areas for the production of canned products that are considered more efficient for import and export were studied and research was conducted to ensure the formation and efficiency of the import-export system.

**Key words:** *canning industry, canned products, fruit and vegetable juices, fruit and vegetable preserves, import, export.*

*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov  tərəfindən təqdim edilmişdir)*

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

**UOT:33**

**KƏMİNƏ ORUCƏLİYEVA**
Naxçıvan Dövlət Universiteti
Biznesin təşkili və idarə edilməsi, II kurs
kminorucliyeva@gmail.com
DOI: 10.5281/zenodo.10979801

# BANK FƏALİYYƏTİNDƏ STRATEJİ PLANLAŞDIRMA VƏ ONUN MONİTORİNQİ

**XÜLASƏ**

*Bu gün bank biznesinin mühüm problemlərindən biri də adekvat strateji planlaşdırmanın formalaşması mexanizminə xarici amillərin təsiridir. Effektiv və məlumatlı strateji planlaşdırma diqqətinizi prioritet fəaliyyət sahələrinə cəmləməyə imkan verir. Strateji planlaşdırmanın monitorinqi bu problemin həllində mühüm rol oynayır. Məqalədə balanslaşdırılmış göstəricilər kartı əsasında strateji biznes modeli qurulur və kommersiya banklarının fəaliyyətinin monitorinqi və strateji planlaşdırılmasının mühüm vasitəsi kimi onun mərhələləri göstərilir.*

***Açar sözlər:*** *bank, bank fəaliyyəti, strateji planlaşdırma, balanslaşdırılmış göstəricilər sistemi, bank fəaliyyətinin monitorinqi.*

Qarşıya qoyulmuş məqsədləri həyata keçirmək, planı yerinə yetirmək və biznesini inkişaf etdirmək hər bir rəhbərin arzusudur. Bütün bunlar son dövrlərdə bankların fəal məşğul olmağa başladıqları işlərdir və onlar əməliyyat menecmentinə daxildir. Banklarda səmərəliliyin qiymətləndirilməsinə mövcud yanaşma menecmentin artan tələbatlarını daha az ödəyir. Ona görə ki, o, maliyyə göstəricilərinə əsaslanır. Eyni zamanda bank biznesinin dəyərinə qeyri-maddi aktivlər də təsir göstərir. Digər mühüm problem strateji vəzifələrin yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsi çətinliyindən ibarətdir. Səmərəliliyin mühüm göstəricilər sisteminin qurulması rəhbərlərə imkan verir ki, diqqətlərini fəaliyyətin başlıca və prioritet istiqamətlərinə yönəltsin.

Qərb kompaniyalarının təcrübəsində səmərəliliyin mühüm göstəricilərinin (KPI - *key performance indicators)* tətbiqi çoxdan adət halını almış reallığa çevrilmişdir. Bu göstəricilər vasitəsilə heyətin fəaliyyətinin nəticəliliyi və səmərəliliyi, kompaniyanın idarəedilməsi prosesləri və funksiyaları, konkret olaraq istehsalın, texnoloji və digər fəaliyyətin səmərəliliyi qiymətləndirilir. Bir çox kompaniyalar öz işlərinin səmərəliliyini dəyişmək istəyirlər və bu məqsədlə müxtəlif ölçmə və göstəricilər sistemindən istifadə edirlər. Bu biznesin artım tempinin qiymətləndirilməsinə və plandan mümkün kənarlaşmaları qiymətləndirməyə imkan verir [2].

Araşdırma göstərir ki, müxtəlif ölçmə sistemlərinin həyat qabiliyyətliyində üç əsas çətinlik vardır. Bunlara aşağıdakılar aiddir:

1) müntəzəm və vaxtlı-vaxtında məlumatların toplanması üçün tələb edilən işlərin həcmi;
2) məlumatların əlverişli və asan başa düşülən formada təqdim edilməsi;
3) bu sistemdə idarəetmə ilə bağlı maraqların saxlanması.

Deməli, kompüter proqramını tətbiq edib və müəssisənin özünəməxsus “panel vasitələrindən” istifadə edərək müntəzəm olaraq “ani çəkiliş” etmək və kompaniyanın mühüm səmərəlilik göstəricilərini vaxtlı-vaxtında izləmək olar. Mühüm göstəricilər sistemi menecerə biznes üçün həqiqətən nəyin lazım olduğunu göstərir.

Səmərəliliyin mühüm göstəricilər sisteminin işlənib hazırlanmasının zəruriliyinin başa düşülməsi bütövlükdə bank menecmentinin səviyyəsi, həmçinin fəaliyyətin intuitiv qiymətləndirilməsi, göstəriciləri bütün menecerlər üçün aydın olan daha dəqiq proseslərə keçidin zəruriliyi ilə bağlıdır.

Əksər hallarda qiymətləndirmə maliyyə xidmətinin verdiyi bəzi göstəricilərə əsaslanır. Əgər əməliyyatların sayı artarsa, prosesin mürəkkəbliyi, nəzarət edilən parametrlərin sayı artır və bütün bu göstəricilərin sürətli axını menecmentə istiqamətlənir. Bankda hər bir şöbə və bölmə çoxlu sayda nisbi göstəricilərlə öz hesabatlarını hazırlayır və bu onlar üçün çox vacibdir.

Stabil dövrdə belə böyük sayda göstəricilərin olması mümkündür və fikirləşmək, eyni zamanda, korrelyasiya təhlilini aparmaq üçün əsas vardır. Lakin hadisəyə, bazara ani reaksiya vermək zəruri olan vəziyyətdə yuxarı menecment bütün bunları başa düşməyə müvəffəq olmur və rəqəmlərə əsaslanmayan, intuitiv olaraq hansısa istiqamətə cəhd edir.

Kiçik banklar bölmələrin fəaliyyətini qiymətləndirərkən intuitiv yanaşmadan istifadə edirlər. Belə ki, heyətin sayı azdır və əməkdaşlar göz qabağındadır, rəhbər qiymətləndirməni subyektiv aparmağa üstünlük verir. Balları hesablamaq və əməkdaşların vaxt itirib hansısa formaları doldurması məqsədəuyğun hesab edilmir. Təcrübə göstərir ki, nəticəyə və mühüm göstəricilərə görə idarəetmə istənilən həcmli biznesdə səmərə verir.

Səmərəliliyin balanslaşdırılmış göstəricilər sisteminin yaradıcıları R.Kaplan və D.Nortondur. 1992-ci ildə bu sistemin müəllifləri kompaniyanın qısamüddətli məqsədləri ilə uzunmüddətli perspektivdə strateji məqsədlərinin uzlaşdırılması üçün balanslaşdırılmış göstəricilər sistemi təklif etmişdilər. Bunun üçün onlar dörd əsas ünsürdən, yaxud dörd “perspektivdən” istifadə etmişdir [3]. Bunlara aiddir:

- ✓ maliyyə;
- ✓ müştəri, istehlakçılarla münasibət;
- ✓ daxili, biznes proseslərinin təşkili;
- ✓ perspektiv təhsil və inkişaf.

Əksər kompaniyalar xərclərini, sifarişlərin yerinə yetirilmə müddətini azaldaraq və keyfiyyətlə məşğul olaraq öz işlərinin səmərəliliyini artırmağa cəhd edirlər. Lakin bu zaman onlar həqiqi strateji prosesləri və uyğun olaraq mühüm göstəriciləri fərqləndirmirlər.

Balanslaşdırılmış göstəricilər sistemi ilə işləməyə maraqlı olan çoxlu sayda bazar subyektlərinin olmasına baxmayaraq, onlar bir çox hallarda buna hazır olmurlar. Əslində bu sistemin əsasında kompaniyanın strateji məqsədlərinin formalaşdırılması zəruriliyi durur. Bu da bir çox bazar subyektlərinin səmərəli fəaliyyətinə mənfi təsir göstərir.

Strateji məqsədlərini dəqiq müəyyənləşdirmiş menecerlərə bu göstəricilər sistemi aşağıdakı qeyd edilən bir sıra problemləri həll etməyə kömək edə bilər:

- ✓ mühüm parametrlər üzrə nəzarətin həyata keçirilməsi və məsuliyyətin dəqiqləşdirilməsi. Bu zaman müstəqil bölmələrin rəhbərləri qeyri-sabitliklə əhəmiyyətli şəkildə yüklənir ki, bu da onları prioritetlərə diqqət yönəltməyə məcbur edir;
- ✓ səmərəli büdcənin formalaşdırılması. Konkret ölçülən vəzifələrə nail olmaqla büdcəni tərtib etmək olduqca asandır;
- ✓ heyətin keyfiyyətinin yaxşılaşdırılması. Belə ki, adı çəkilən sistem yaradıcılığı, təşəbbüskarlığı və inkişafetmə istəyini fəallaşdırır, güclü və zəif tərəfləri obyektiv olaraq aşkar etməyə imkan verir;
- ✓ şəxsi strukturun statusunun yüksəldilməsi və qorunub saxlanması;
- ✓ reaksiyadan problemə - planauyğun proqnozlaşdırmaya və məqsədli istiqamətlərin müəyyənləşdirilməsinə keçirilməsi;
- ✓ şəxsən özünün və tabeçiliyində olan strukturların fəaliyyəti üzrə prioritetlərin müəyyənləşdirilməsi.

Balanslaşdırılmış göstəricilər sisteminin tətbiqinin bank rəhbəri üçün mühüm faydası vardır. Bu sistem prioritet vəzifələri müəyyənləşdirməyə və onları idarəetmənin şaquli formada bütün nöqtələrinə ötürməyə, qarşıya qoyulmuş vəzifələrin həll edilməsinə işçiləri həvəsləndirməyə, həmçinin bankın fəaliyyətində arzuolunmaz məqamları vaxtında müəyyənləşdirməyə imkan verir [6].

Balanslaşdırılmış göstəricilər sisteminin əsas prinsipləri iyerarxiklik, sistemlilik və çeviklikdir. İyerarxiklik - idarəetmənin bütün səviyyələrində strategiyanın təfərrüatlığını və tətbiqini, sistemlilik - bankın fəaliyyətinin bir çox obyektləri üçün göstəricilərin müxtəlif tiplərinin nəzərə alınmasını, çeviklik isə bankın xüsusiyyətlərinə görə balanslaşdırılmış göstəricilər sisteminin strukturunun və tələblərinin dəyişməsi imkanlarını özündə əks etdirir.

Araşdırmadan göründüyü kimi, bank strukturlarında idarəetmə səmərəliliyini səciyyələndirməyə imkan verən göstəricilər sisteminin işlənib hazırlanması biznesə müsbət təsir göstərən prinsipləri müəyyən etməyə imkan verir. Bu prinsipləri aşağıdakı kimi sistemləşdirmək olar:

- *bankın strateji prioritetlərinə mərkəzləşmə.* Bu halda göstəricilər mühüm biznes proseslərini və strateji vəzifələri nəzərə almaqla planlaşdırılır.
- *göstəricilərin kompleksliliyinin təmin olunması.* Kompleks yanaşma bankın və onun struktur bölmələrinin bütün funksiyalarını, həmçinin problemli hissələrini nəzərə almağa imkan verir.
- *sistemin dinamikliyinin təmin edilməsi.* Bu prinsip göstəricilərin tərkibinin, onların çəki əmsallarının, normativ qiymətlərinin bank biznesinin prioritetlərindən asılı olaraq vaxt etibarilə dəyişməsini nəzərdə tutur.
- *göstəricilərin çoxsəviyyəli sistemi.* Burada bütün menecerlər üçün ümumi və hər bir struktur bölmə üzrə məsuliyyət göstəricilərinin fərqləndirilməsi nəzərdə tutulur. Bu zaman göstəriciləri qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi və öyrənilən dövrdən asılı olaraq aylıq, rüblük və illik göstəricilərə bölmək olar [5].

Müasir bazar iqtisadiyyatı bankın cari fəaliyyətinə etibarlı nəzarəti təmin etməyə və qəbul edilən strateji qərarların perspektivliyini görməyə qadir yeni idarəetmə metodlarının daimi yaradılmasını və tətbiqini tələb edir.

Araşdırma göstərir ki, müasir dövrdə bir çox bankların fəaliyyətində idarəetmənin təşkili ilə bağlı problemlər vardır. Kommersiya banklarının bir çox düzgün olmayan strateji və taktiki hesablamaları bank idarəçiliyinin peşəkarlıq səviyyəsinin kifayət dərəcədə olmaması ilə bağlıdır. Deməli, idarəetmənin ənənəvi metodlarının imkanları tükənmiş və idarəetmədə yeni yanaşmaların axtarılıb tapılması zərurəti yaranmışdır. Belə yanaşmalardan biri Qərb kompaniyalarının təcrübəsində fəal istifadə edilən proses istiqamətli yanaşmadır [1]. Təcrübədə prosesli yanaşmanı həyata keçirmək üçün strateji məqsədlərə nail olmağa imkan verən səmərəli idarəetmə mexanizminin yaradılması zəruridir. Lakin strateji idarəetmənin əksər klassik yanaşmaları kompaniyanın məqsədlərinin formalaşdırılması ilə onların həyata keçirilməsi tədbirləri, həmçinin bu məqsədlərə nail olmanın nəzarət mexanizmləri arasındakı əlaqələrə kifayət qədər diqqət yetirmirlər.

Beləliklə, araşdırma göstərir ki, balanslaşdırılmış göstəricilər sistemi kommersiya banklarının fəaliyyət monitorinqinin və strateji planlaşdırılmasınm mühüm vasitəsi kimi çıxış edə bilər. Müasir dövrdə əsas məsələlərdən biri bu sistemin metodologiyasının kommersiya banklarının strateji planlaşdırılmasının konkret vəzifələrinə uyğunlaşdırılmasıdır. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, bank fəaliyyətinin əsaslandırılmış qiymətləndirilməsini həyata keçirmək üçün yalnız maliyyə göstəriciləri kifayət etmir. Həmin sistem çərçivəsində bank biznesinə aşağıdakı istiqamətlərdə yanaşıb qiymətləndirməni həyata keçirmək olar:

- risklilik göstəriciləri və yaradılan ehtiyatların gözlənilən itkilərinin müəyyənləşdirilməsi;
- bazarda bankın vəziyyətinin (müştərilərin sayı, bazarda payı və s.) müəyyənləşdirilməsi;
- daxili biznes prosesləri ilə əlaqəliliyin təmin edilməsi;
- bankın kadr resurslarının inkişaf səviyyəsi.

Bu cür yanaşma əsasında bankın maliyyə və qeyri-maliyyə göstəricilərinin balanslaşdırılmış mənzərəsini əldə etmək və onun strateji biznes planı modelinin qurulması mərhələlərini aşağıdakı kimi vermək olar.

Birinici mərhələ strategiyanın işlənib hazırlanmasıdır. Bu mərhələyə bankın missiyası, ona nail olmağa istiqamətlənən məqsədlər iyerarxiyası daxildir. Ən yaxşısı strateji xəritə şəklində qrafik təsvirdir. Məqsədlər bankın fəaliyyətinin aşağıdakı istiqamətləri üzrə müəyyən edilir:

- maliyyə və risk;
- müştəri;
- proses;
- təhsil və intellektual.

Bu aspektlər “aşağıdan-yuxarı” səbəb-nəticə əlaqəsi ilə mənitiqi olaraq bir-biri ilə əlaqədədir. Belə ki, heyətin stimullaşdırılması və təhsilin nəticəsi daxili biznes proseslərinə təsir edir və onların

keyfiyyətini yüksəldir, səmərəli biznes prosesləri müştərilərin tələbatının ödənilməsini yüksəldir və bazar mövqeyini gücləndirir, müştərilərlə və bazarla bağlı nəticələr maliyyə göstəricilərini yaxşılaşdırır.

İkinci mərhələ strateji xəritənin qurulmasıdır. Bu mərhələ özünə fəaliyyət aspektləri üzrə konkret strateji məqsədlərin bölgüsünü və onlar arasındakı səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsini, həmçinin məqsədlərin həyata keçirilməsi üzərində məsuliyyət təyinatlarını daxil edir.

Üçüncü mərhələdə strateji məqsədlərlə bağlı yuxarı səviyyəli balanslaşdırılmış göstəricilər sisteminin müəyyən edilməsi nəzərdə tutulur. Bu zaman məqsədlərə nailolma dərəcəsini qiymətləndirərkən göstəricilərin əhəmiyyətlilik payı (çəkisi) müəyyən edilir. Çəkilərin qiyməti sıfırla bir arasında olur və müəyyənləşdirilmiş məqsədlər üçün bütün balanslaşdırılmış göstəricilərin çəkilərinin cəmi 1-ə bərabər olmalıdır [7]. Modeldə istifadə edilən balanslaşdırılmış göstəricilər dəstinə qarşılıqlı əlaqədə olan aşağıdakı üç qrup parametrlər daxil edilir:

- balans məlumatlarından əldə edilən həcm göstəriciləri;
- bankın gəlir və xərc maddələrini müəyyən edən dəyər göstəriciləri;
- riskin idarəedilməsi tələblərindən irəli gələn struktur göstəricilər.

Dördüncü mərhələ balanslaşdırılmış göstəricilər “ağacını” qurmaqdır. Ənənəvi olaraq burada iki əsas səviyyəyə baxılır. Birinci səviyyə bank rəhbərliyinə aid olan strateji səviyyədir. Bu strategiyanın işlənib hazırlanması və tətbiqinə istiqamətlənir ki, bankın strateji inkişaf planının yerinə yetirilməsi haqqında aylıq hesabatlar əldə edilsin. İkinci səviyyə bankın ümumi strategiyasına uyğun həyata keçirilən əməliyyatların idarəedilməsi səviyyəsidir və real zaman kəsiyində onun yerinə yetirilməsi dərəcəsinin monitorinqi həyata keçirilir. Əməliyyat proseslərinin balanslaşdırılmış göstəriciləri ilə yuxarı səviyyənin balanslaşdırılmış göstəricilərinin əlaqəsi ümumiləşdirmə vasitəsilə həyata keçirilir. Ümumiləşdirmə zamanı səmərəsi maksimum olan məqsədlər ən böyük çəki ilə qiymətləndirilir.

Proseslər səviyyəsində balanslaşdırılmış göstəricilər sisteminin tətbiqi hər bir konkret əməkdaşa fəaliyyətini strateji məqsədlərə nail olmaq üçün istiqamətləndirməyə imkan verir.

Beşinci mərhələ tədbirlər planının işlənib hazırlanmasını əhatə edir. Tədbirlər və onların balanslaşdırılmış göstəriciləri məqsədlərə nailolma əhəmiyyətliyi ilə xarakterizə edilir və onların ranjirləşdirilməsi məqsədlərin prioritetliyi ilə həyata keçirilir. Bu zaman bütün tədbirlərin daha çox məsrəflərin optimallaşdırılması və az əhəmiyyətlilərin aradan qaldırılması baxımından prioritet büdcə - koordinasiya sistemi kontekstində təhlil edilməsi məqsədəuyğundur.

Altıncı mərhələ tətbiq etmədir. Bu sistemin praktiki əhəmiyyəti ondan ibarətdir ki, bankın inkişafının uzunmüddətli strateji planlaşdırılmasının məqsədləri və göstəriciləri bir-biri ilə əlaqəlidir və onların yerinə yetirilməsi monitorinqi operativ büdcələşdirmə prosesində baş verir. Belə ki, birincisi, strateji məqsədlər bankın əməkdaşlarına qədər çatdırılır. Bu zaman müvafiq məqsədlərin müxtəlif səviyyələri üçün balanslaşdırılmış göstəricilər müəyyən edilir, onların səbəb-nəticə əlaqələri aşkar edilir. İkincisi, strateji tədbirlər cari qiymətləri plandan daha çox fərqlənən balanslaşdırılımış göstəricilərə nail olmaqdan başlayır. Bu prosedura uzunmüddətli dövrdə daha mühüm məqsədlərə nailolmanın fəaliyyət proqramı ilə strateji investisiyanı sıx əlaqələndirir. Üçüncüsü, bankın mühüm korporativ tədbirləri elə formalaşdırılmalıdır ki, onların sinergetik səmərəsi strateji məqsədlərə nail olmağa imkan versin. Nəhayət, balanslaşdırılmış göstəricilərin plan kəmiyyəti bankın büdcə sənədlərini yeni bank məhsullarının tətbiqi ilə bağlı konkret büdcə layihələrini müvafiq üfüqi planlaşdırmalarla əlaqələndirir.

Balanslaşdırılmış göstəricilər sistemi prinsip etibarilə yeni strategiyanın işlənib hazırlanması deyil, mövcud strategiyanın tətbiq edilməsi vasitəsidir. Əvvəlcə strategiyanın işlənib hazırlanmasını başa çatdırmaq və sonra bu sistemin yaradılmasına başlamaq lazımdır.

Onun tətbiqindən real və nəzərəçarpan genişmiqyaslı nəticələrin əldə edilməsi yalnız strateji planın həyata keçirilməsindən bir neçə il sonra mümkündür. Eyni zamanda bankın inkişaf səviyyəsi və korporativ mədəniyyəti qeyd edilən sistemin işlənib hazırlanması üçün hazır olmalıdır. Strateji məqsədləri xarakterizə edən konkret göstəricilər deyil, onların özü balanslaşdırılmış göstəricilər

sisteminin əsasını təşkil edir. Əgər göstəricilərin əsasında duran məqsədlər sabit və davamlı inkişafa aparan mükəmməl strategiya deyilsə, onda onlar yaxşı göstərici kimi faydalı ola bilməz [4].

Beləliklə, balanslaşdırılmış göstəricilər sistemi büdcələşdirmə prosesini müxtəlif səviyyələrdə strategiyanın reallaşdırılması ilə əlaqələndirməyə imkan verir və nəticədə bütün resursları kompaniyanın strategiyasının həyata keçirilməsinə yönəldir. Bankın strateji planlaşdırılmasının və onun fəaliyyətinin monitorinqinin vasitəsi kimi balanslaşdırılmış göstəricilər sisteminin tətbiqinin başlıca nəticəsi bütün icraedici səviyyələrdə bankın strategiyasını tam başa düşmək, strateji məqsədlərin yerinə yetirilməsinə real nəzarət əsasında onu ardıcıl həyata keçirməkdir. Deməli, bank bazarında davam edən rəqabət biznes proseslərinin cari və perspektiv vəziyyətini qiymətləndirməyə və proqnozlaşdırmağa qadir adekvat və real tətbiq edilən yeni analitik sistemlərdən istifadəni vacib edəcəkdir. Qeyd edilənləri ümumiləşdirərək aşağıdakı praktiki tövsiyələri formalaşdırmaq olar:

- mühüm biznes proseslərini təsvir və müəyyənləşdirmək üçün balanslaşdırılmış göstəricilər sistemindən istifadə etmək;
- bankın strateji xəritəsini qurmaq və əsas məqsədlərin əhəmiyyətliyinə görə ranjirləşdirilməsini həyata keçirmək;
- məqsədlərə nailolma nəticəliliyinin mühüm göstəricilərinin hesablanması metodunu müəyyən etmək və onları parametrlər kimi dinamik modelə daxil etmək.

**ƏDƏBIYYAT**

1. Ансофф, И. Стратегическое управление. М., Экономика, 1989.
2. Клочков А.К. KPI и мотивация персонала. Полный сборник практических инструментов. М., Эксмо, 2010.
3. Каплан Р., Нортон Д. Награда за блестящую реализацию стратегии. Связь стратегии и операционной деятельности - гарантия конкурентного преимущества. М., Олимп-Бизнес, 2010.
4. Тютюнник А.В., Машонская К.И. Система сбалансированных показателей в банке - миф или необходимость? // Управление в кредитной организации. № 3, 2009.
5.Тысячникова Н.А. Стратегическое планирование в коммерческих банках: концепция, организация, методология. М., КНОРУС: ЦИПСиР, 2013.
6. Стратегия развития современного коммерческого банка: сборник научных статей / РГЭУ «РИНХ». - Ростов н/Д, 2015.
7. Рекомендации и исследования в области стратегического планирования Standard & Poors, Pricewaterhouse Coopers, Ernst & Young, MacKinsey, Boston Consulting Group, Monitor Group

**РЕЗЮМЕ**

**КАМИНА ОРУДЖАЛИЕВА**

**СТРАТЕГИЧЕСКОЕ ПЛАНИРОВАНИЕ В БАНКОВСКОЙ ДЕЯТЕЛЬНОСТИ И ЕГО МОНИТОРИНГ**

На сегодняшний день одной из важных проблем банковского бизнеса является влияние внешних факторов на механизм формирования адекватного стратегического планирования. Эффективное и обоснованное стратегическое планирование позволяет сосредотачивать внимание на приоритетных направлениях деятельности. Мониторинг стратегического планирования играет важную роль в решении этого вопроса. В статье на основе сбалансированной системы показателей строится стратегическая модель бизнеса и указываются его этапы, как важное средство мониторинга деятельности и стратегического планирования коммерческих банков.

***Ключевые слова:*** *банк, банковская деятельность, стратегическое планирование, сбалансированная система показателей, мониторинг банковской деятельности.*

**SUMMARY**

**KAMINA ORUJALIYEVA**

**STRATEGIC PLANNING IN BANKING ACTIVITY AND ITS MONITORING**

Currently, one of the important problems of the banking business is that external factors affect the formation of an adequate strategic planning mechanism. Effective and legitimate strategic planning allows focusing attention on the priorities of activity. Monitoring of strategic planning plays important role in the solution of this problem. In the article they build strategic business model and give its steps on the basis of balanced scorecard, as the important means of activity monitoring and strategic planning of commercial banks.

***Keywords:*** *bank, banking activity, strategic planning, balanced indicator system, monitoring of banking activity.*

*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)*

**"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1**
**"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1**
**УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1**

**UOT:33**

**AYSUN CƏFƏROVA**
Naxçıvan Dövlət Universiteti
Biznesin təşkili və idarə edilməsi, II kurs
DOI: 10.5281/zenodo.10983546

# BİZNES FƏALİYYƏTİNİN TƏŞKİLİNDƏ BANK XİDMƏTLƏRİNİN YERİ VƏ ROLU

**XÜLASƏ**

***Tədqiqatın məqsədi*** *– ölkəmizin iqtisadi potensialının yüksəldilməsi naminə biznes fəaliyyətinin araşdırılması, onun sahə-ərazi və növ-tərkib elementləri üzrə strukturunun öyrənilməsi, "biznes fəaliyyəti – bank xidmətləri" müstəvisində yaranan münasibətlərin tədqiqi.*

***Tədqiqatın metodologiyası*** *– müşahidə, qruplaşdırma, müqayisəli təhlil, zəncirvarı əlaqə və zəncirvarı asılılıq metodlarından istifadə olunması.*

***Tədqiqatın nəticələri*** *– biznes fəaliyyətinin müxtəlif aspektlərdən öyrənilməsi və müvafiq nəticələrin çıxarılması, bu istiqamətdə bankların göstərdiyi xidmətlərin öyrənilməsi, biznes subyektlərinin bank subyektləri ilə tənzimlənməsi istiqamətlərinin və reallıqların qiymətləndirilməsi, bəhs olunan yönlərdə "səbəb-nəticə" əlaqələrinin nəzərdən keçirilməsi.*

***Tədqiqatın praktiki əhəmiyyəti*** *– təcrübi müstəvidə biznes subyektlərinin və bank müəssisələrinin qarşılıqlı əlaqələrinin təşkili və həyata keçirilməsinin spesifik məqamlarının aşkarlanması, bəhs olunan yöndə transformasiya və təkmilləşdirmə imkanlarının nəzarət altına alınması.*

***Tədqiqatın orijinallığı və elmi yeniliyi*** *– ölkəmizdə biznes fəaliyyətinin təşkili və həyata keçirilməsində bank xidmətlərinin reallaşması, müvafiq nağdsız hesablaşmaların mümkünlüyü, həmin fəaliyyətin biznes fəaliyyəti məqsədlərinə maksimal mümkün tabe etdirilməsi baxımından araşdırılması, zəruri iştirakçı amillərin fərdi və qarşılıqlı əlaqə və asılılıqlar yönündə rolunun müəyyən edilməsi.*

***Açar sözlər:*** *biznes, biznes mühiti, biznesin fəaliyyətinin cəhətləri, bank sektoru, bank fəaliyyəti, Azərbaycan Respublikası*

## GİRİŞ

İstənilən ölkənin iqtisadi sistemi (prioritet sahələrinin) onun maddi imkanlarının, qüdrətinin və gücünün ifadə olunması, reallıqlarının nümayiş etdirilməsidir. "Ev təsərrüfatı" mənasını əks etdirən, cəmiyyətin istehsal, xidmət, sosial məişət və digər altsistemlərin məcmusu kimi çıxış edən iqtisadiyyat dövlət sektoru ilə yanaşı sahibkarlıq fəaliyyətinin geniş və dərin tərəqqisini vəhdət halında sərgiləməkdədir. Digər tərəfdən, müasir inkişaf mərhələsi Azərbaycan iqtisadiyyatının elmi prinsiplərə əsaslanan, inklüziv təməllərlə fərqlənən fəaliyyətin tərənnümü kimi çıxış etməkdədir.

Bəhs olunan "mənzərənin" daha yüksək mərhələlərə keçidini təmin etmək, aktiv iqtisadi addımlara, xüsusilə də ixracat və idxaləvəzləmə əməliyyatlarına yönəlik işlərin həyata keçirilmək məqsədilə ölkə daxilində çoxsaylı istiqamətlərin planlaşdırılması, perspektiv dövrlərdə proqnozların hazırlanması, "qəlibi" qurulan sistemin isə təcrübəyə tətbiqi çoxsaylı və rəngarəng fəaliyyətlərin reallaşmasını tələb etməkdədir.

Bəhs olunan müstəvidə əsas yollardan biri kimi ölkədə daha mütərəqqi biznes mühitinin formalaşması və sahibkarlıq fəaliyyətinin geniş vüsət almasına imkan yaratmaqdadır. Biznes mühitinin yaradılması və biznes fəaliyyətinin təşkili ölkənin iqtisadi inkişafında öncül yerlərdə təmərküzləşməkdədir.

Zəruri hüquqi-normativ bazanın yaradılması və mütəmadi təkmilləşdirilməsi digər şərtlərlə yanaşı sahibkarlıq hisslərinin inkişafı üçün yeni "üfüqlərin" açılmasına şərait yaratmaqdadır. Təşkilati, iqtisadi-istehsal, texniki, nəqliyyat-logistik və digər komponentlər qanunvericilik alətləri ilə birlikdə biznes fəaliyyətinin və mübadilə imkanlarının qiymətləndirilməsini, zərurət yarandıqda isə sadə, çarpaz və müqayisəli təhlillərin icrasını tələb etməkdədir ki, burada da məqsəd iqtisadi sistemin həqiqi vəziyyətinin ortaya çıxarılmasından və lazımi nəticələrin sərgilənməsindən ibarətdir. İLk olaraq mənası "iş" kəliməsi ilə xarakterizə olunan "biznes" termini eyni zamanda özünün kifayət qədər yayılma arealı ilə fərqlənməkdədir. Onların sırasında özünün spesifik məzmunu,

iqtisadi sistemin transforamasiya və irəliləməsində mühüm rol oynayan "manqalardan" birini də bank sektoru və bank müəssisələri, onların strktur şəbəkəsi və icra etdiyi əməliyyatlar təşkil etməkdədir.

## BİZNES FALİYYƏTİ, ONUN MƏZMUNU, TƏŞKİLATİ ALƏTLƏR VƏ KONFİQURASİYALAR

Biznesə ümumi baxış bir çox istiqamətlərə aydınlıq gətirməkdədir. Onların əsas məqamlarını aşağıdakı sxemdən görmək mümkündür.(sxem 1)

**Sxem 1. Biznes fəaliyyətinin əsas cəhətləri**

**BİZNES FƏALİYYƏTİNİN ƏSAS CƏHƏTLƏRİ**

- Təşəbbüskar insanların işgüzar qabiliyyətlərinin ortaya çıxarılması
- Fəaliyyətin təşkili üçün məqsədlərin müəyyənləşdirilməsi
- Uyğun mühitin yaradılmasında iştirakçı komponentlərin (təşkilati, hüquqi, texniki və s.)
- Bəlli planlaşdırma addımları əsasında məhsul istehsalı, xidmətlərin göstərilməsi və işlərin görülməsi
- İnformasiya təminatının, konsaltinq və digər məsləhətlərin əlçatanlığı
- Müasir elmi araşdırmaların nəticələrindən xəbərdar olmaq və mütəmadi maariflənmə
- Fəaliyyətin düzgün təşkili nəticəsində mənfəətin (gəlirin) əldə olunması
- İstehlakçıların tələbatlarının ödənilməsi və s.

Mənbə: [6, səh. 14]

Müasir dövrdə iqtisadi mühitin fərdi qaydada xarakterizə edilməsi mümkün deyildir. O, sosial və ekoloji mühitlərlə birlikdə inklüziv inkişafın təməllərini təşkil etməkdədir. Bununla yanaşı biznes mühitinin formalaşmasında "sahibkarlıq fəaliyyəti" elementinin əhəmiyyəti danılmazdır. İnsanlar arasında icra olunan sosioloji tədqiqatlardan aydın olur ki, fərdlərin bir hissəsi kiminsə rəhbərliyi və göstərişləri əsasında fəaliyyət göstərməkdədirsə, digər hissə bir sıra yaradıcılıq, yenilikçilik ideyaları ilə, istehsal proseslərinin təşkili və həyata keçirilməsi bacarıqları ilə fərqlənməkdədir. İkinci qrup insanlar ətarfında bəlli "komanda" toplamaqla məqsədyönlü icraatları reallığa çevirirlər və yekunda ölkənin maddi və mənəvi zənginləşməsində iştirak edirlər.

Azərbaycan Respublikasında mülkiyyət formalarının növ-tərkib ifadəsinin genişləndirilməsi, qanunvericiliklə müəyyən olunmuş istisnalar nəzərə alınmaqla digər sahə və istiqamətlərdə iqtisadi azadlığın mövcudluğu, bank-pul siyasətinin daha yüksək keyfiyyət mərhələlərinə keçidin təmin edilməsi və maliyyələşmə imkanlarının genişləndirilməsi, digər analoji addımların sistemli və məqsədyönlü şəkildə atılması ölkənin iqtisadi qüdrətinin yüksəldilməsinə xidmət etməkdədir.

Biznes fəaliyyəti mütərəqqi texnika və texnologiyaların əldə olunaraq mənimsənilməsini zərurətə çevirməkdədir. Məhsul istehsalının, xidmətlərin göstərilməsini və işlərin yerinə yetirilməsinin əsasını məhsuldar qüvvələr təşkil etməkdədir. Yəni, burada bəlli əmək bilikləri və vərdişləri ilə seçilən insanlar və onların işgüzar vərdişlərinin təsiri ilə fəaliyyət rejiminə keçən texniki alət və vasitələr məcmu şəklində biznes fəaliyyətini aktivləşdirməkdədir. Digər tərəfdən, iqtisadi fəaliyyət insanların sosial vəziyyətinə təsirsiz ötüşməməkdədir.

Elmi müstəvi biznes fəaliyyəti və onun təşkili ilə bağlı çoxsaylı xarici alimlərin mühüm fikir və düşüncələri bəllidir. Bu sırada Y.Şumpeterin, S.Mizesin, F.Xayekin, L.Daşkovun, V.Çernyakın, B.Çipenkonun və digər tanınmış alimlərin adı çəkilə bilər. Adları çəkilən siyahıya Ə.Əlirzayev, N.Haciyev, R.Quliyev, B.Nuriyev kimi azərbaycanlı alimlərin də müvafiq yöndə olan tədqiqatları da əlavə olunmalıdır.

Biznesin xarakterizə olunmasında onun obyekti və subyektinin müəyyən edilməsi və spesifik cəhətlərinin aydınlaşdırılması ilə yanaşı daxili və xarici mühitinə diqqətin yetirilməsi vacibdir. Ümumi təşkilati-hüquqi müstəvidə istehsal, kommersiya və maliyyə biznesindən ibarət olması təsərrüfat subyektlərinin məşğuliyyət istiqamətlərindən irəli gəlməkdədir.

Biznesin öyrənilməsində onun idarə olunması mühüm məsələlərdən hesab olunmaqdadır. Belə yanaşmanın təmin olunması idarəetmənin məqsəd və vəzifələri, onun quruluşu və təşkili prinsipləri haqqında nəzəri və təcrübi müddaları ümumiləşdirməyə imkan verməkdədir.

Biznes adı altında müxtəlif fəaliyyətlər öz əksini tapmaqdadır. Həmin fəaliyyətlərin dərindən öyrənilməsi məqsədilə onun "üfuqi" və "şağuli" müstəvilərdə araşdırılması zəruridir. Belə ki, biznesin təşkilində bir tərəfdən iqtisadi sistemin sahələri üzrə, digər tərəfdən isə icra olunan fəaliyyət istiqamətləri üzrə təsnifləşdirilməlidir.

Biznes fəaliyyətinin həyata keçirilməsində kor-koranə, xaotik addımların atılması məqsədəuyğun hesab edilməkdədir. Məhs bu tələb bznesin daxili məlumatlandırma sisteminin və xarici informasiya təminatının sistemli və kompleks şəkildə yaradılmasını zəruri edir. Belə ki, istehsal yaxud xidmət obyektinin məzmununun nədən ibarət olması və nə kimi xarakter və xassələrlə özünü ifadə etməsi, onların hazır məhsul (yaxud xidmət) şəklinə salınmasında istifadə olunan hansı texniki və texnoloji təməllər mövcuddur və digər bu kimi sualların cavablandırılmasında, həmçinin zəruri hesablamaların aparılmasında tələbləri qarşılayan informasiya təminatının olması məqsədəmüvafiqdir.

Biznes fəaliyyəti hər zaman bəlli kommersiya sirlərinin, texnoloji məxfiliklərin, tətbiq olunan rəqəmsal idarəetmə sistemləri üzrə proseslərin və kəşvlərin qorunması tədbirləri ilə müşayət olunmuşdur. Belə ki, "bilirəm necə?" kəliməsi biznesin təhlükəsizliyi tədbirlərinin önündə gəlib, onun yönləndirilməsinə səbəb olmuşdur. İqtisadi-istehsal təyinatlı tədbirlər sistemi özündə müxtəlif məzmunlu qoruyucu addımları cəmləməkdədir.

Digər tərəfdən, təhlükəsizlik tədbirlərinin bir hissəsi də fəaliyyət riskləri ilə əlaqədardır kı, təcrübədə onları müxtəlif məzmunlu tərkib elementləri üzrə fərqləndirmək mümkündür.

Biznes fəaliyyətinə seçimlərin və araşdırmaların icra olunması, ona qoşulma və həyata keçirilməsi bir çox istiqamətlər və komponentlər nəzərə alınmaqla reallaşmalıdır ki, onlardan da mühüm olanlarına nümunəvi şəkildə aşağıdakı sxem vasitəsilə ifadə etmək mümkündür.(sxem 2)

Sxem 2-dən də göründüyü kimi, biznes fəaliyyəti ilə məşğul olan heç bir təsərrüfat subyekti özünün strateji-taktiki kursunu müəyyənləşdirmədən hər hansı məqsədyönlü proseslərdə tammənalı iştirak edə bilməz. Həmin kurs məhsul və ya xidmət ixtisaslaşması haqqında məlumat verir, məhsulyaratma proseslərinin üsul və mərhələlərinin, alət və mexanizmlərinin seçim və istifadə xüsusiyyətlərini dəqiqləşdirməkdədir. Digər tərəfdən, adətən istehsal prosesləri istehlakçıların tələbatlarını daha əhatəli ödəmək məqsədilə növ-çeşid tərkiblərini genişləndirməkdədir.

Biznes fəaliyyətinin təşkil olunmasında istehsal (xidmət) assortimentinə aydınlıq gətirildikdən sonra konseptual əsasların hazırlanmasına keçilməlidir. Müvafiq əsaslar fəaliyyət prosesində nəyi, necə və hansı şəkildə etməyin mümkün "mənzərəsi" qurulmaqdadır.

İqtisadi sistemin sahələri və istiqamətləri, istehsal olunan məhsulların xüsusiyyətləri müəyyən dövrləşmə əməliyyatlarına da yol açmaqdadır. Belə proseslər kənd təsərrüfatında, həmçinin emal sənayesində daha çox rast gəlinməkdədir. İstehsal dövrünün uzunluğu və mərhələliyi onun dövrləşməsinə təsir etməkdədir.

Dövrləşmənin xarakterizə olunmasında mövsümilik elementi də mühüm rol oynamaqdadır. Sahə və ya fəaliyyət üzrə istehsal dövrü, onun intervallarının və minimal-maksimal ifadələri dövrləşmə intervallarının formalaşmasına səbəb olmaqdadır. Müvafiq dövrləşmənin norma və normativlərlə təmin olunması, həmçinin onun üzərində müxtəlif nəzarət formalarının tətbiqi biznesin məh-

**Sxem 2. Biznes fəaliyyətinin təşkilinin mühüm istiqamətləri və komponentləri**

**BİZNES FƏALİYYƏTİNİN TƏŞKİLİNİN MÜHÜM İSTİQAMƏTLƏRİ VƏ KOMPONENTLƏRİ**

- Biznes üzrə ümumi strategiyanın və ona uyğun taktiki gedişlərin müəyyən edilməsi
- Biznesin konseptual əsaslarının hazırlanması və dəqiqləşdirilməsi
- Biznes fəaliyyətində dövrləşmə proseslərinin nəzarət altına alınması, onun mövsümilik və digər parametrlər baxımından icra olunmasının xüsusiyyətlərinin aşkarlanması
- Biznes fəaliyyətində ümumi və spesifik planlaşdırma proseslərinin həyata keçirilməsi
- Biznes fəaliyyətində etibarlı işçi heyətinin, iş partnyorlarının müəyyənləşdirilməsi
- Biznes fəaliyyəti üzrə istifadə olunan maliyyə göstəricilərinin seçilməsi, onun uçot-hesabat işlərinin tələblərə uyğun təşkili və s.

Mənbə: [4, səh. 156]

suldarlıq, səmərəlilik, optimallıq, təchizat-tədarük və digər istiqamətlərdə mövcud olan prinsiplərdən istifadə etəklə təşkilini şərtləndirməkdədir.

Planlaşdırma prosesləri hər bir bisnes subyektinin istifadə etdiyi iqtisadi alətlərdən hesab olunmaqdadır. Tərkibində strateji və ümumi fəaliyyət istiqamətləri fərqləndirilən planlaşdırma prosesləri təsərrüfat subyektlərinin işgüzarlığını, onun konturlarını və spesifikasını öncədən müəyyənləşdirməkdədir.

Biznes fəaliyyətinin qurulması digər şərtlərlə yanaşı etibarlı işçi heyətinə, həmçinin birgə fəaliyyəti paralel və ya ardıcıl həyata keçirən iş partnyorlarına ehtiyacla da müəyyənləşməkdədir. Belə ki, bir işçinin peşəkarlıq səviyyəsini mütəmadi yüksətməsi və sonra müxtəlif səbəblərdən həmin müəssisəni tərk etməsi mənfi hal kimi qəbul olunmaqdadır. Digər tərəfdən, etibarlı istehsal "tərəfdaşlarına" malikolma bir çox əməliyyat və mərhələnin daha məhsuldar, effektiv baş tutmasına imkan yaratmaqdadır.

Maliyyə-pul amili istənilən biznes fəaliyyətinin "yox" sayıla bilməyəcək komponentlərindəndir. Onun aktiv iştirakının təmin edilməsi, maliyyə imkanlarının mövcudluğu bir çox işlərin daha sürətlə həyata keçməsinə səbəb olmaqla yanaşı alıcı-satıçı əlaqələrində bank xidmətlərinə müraciət olunmanı da şərtləndirməkdədir.

## BANK SEKTORU VƏ ONUN BİZNES FƏALİYYƏTİNDƏ İŞTİRAKI

Bank sektoru iqtisadi sistemin aktivləşməsinin mühüm sahəsi, istehsal (xidmət) sferasının aparıcı "iştirakçı manqasıdır". Onlar müxtəlif əlamətlər əsasında təsnifləşdirmələrə məruz qalır. Qrupalşdırmalar həmçinin onların icra etdiyi əməliyyatlar baxımından da bankların məzmununa aydınlıq gətirməkdədir.

İqtisadi sistemdə müxtəlif ehtiyaclara kredit resurslarını təqdim edən subyektləri kimi xarakterizə olunan banklar iqtisadi sistemin müxtəlif həlqələri üzrə aktivləşmələrə səbəb olmaqdadır. Biznes fəaliyyətində bankların rolu əsasən iki istiqamətdə özünü əyani sürətdə ifadə edir:

1. Kredit əməliyyatları;
2. Bank köçürmə (transfert) əməliyyatları.

Malalanlarla (xidmət istehlakçıları ilə) malsatanlar (xidmət göstərənlər) arasında maliyyə-pul

hesablaşmalarının 80-85% həcmindəki nağdsız şəkildə mövcudluğu məhs banklar vasitəsilə həyata keçirilməkdədir. Həmin əməliyyatlar bir tərəfdən biznes sferasında bərqərar olan müstəqim istehsal-təşkilatlanma sferası ilə (xammal, material, ehtiyat hissələri, konstruksiya və detallar, hazır məhsullar, xidmətlər və s.) və subyektlərin kommunal xərcləri ilə (işıq, su, elektrik enerjisi, rabitə və digər xərclər) əlaqədar olmaqdadır.

Bank sferası mikro, kiçik, orta və iri müəssisələrlə fəaliyyəti əhatə etməkdədir. Bundan başqa, fiziki şəxlər formasında fəaliyyət göstərən subyektlər və fərdlər də özünəməxsus qaydada bank xidmətlərindən istifadə etməkdədir.

Banklar vasitəsilə birşəhərli və başqa şəhərli, həmçinin başqa ölkəli hesablaşmalar həyata keçirilməlidir. Situasiyalarda və əməliyyatların xüsusiyyətlərindən asılı olaraq banklarda hesablaşmaların müxtəlif formalarına (ödəniş tapşırığı, inkasso tələbnamələri, akkreditiv, çeklər vasitəsilə və s.) müraciət olunmaqla maliyyə-pul “axınlarına” razılıq verilməkdədir.

Bank subyeklətinin uyğun xidmətləri təşkil etməsində müxtəlif hesablaşma üsulları vasitəsilə həyata keçirməkdədir. Onların sırasında aşağıdakı fəaliyyət “mənzərələri” sadalana bilər:

- ✓ eyni bankın müştəriləri arasında baş verən hesablaşmalar;
- ✓ fərqli banklarda hesablaşma hesabları olan, müştərilərin biri-digəri ilə banklar arasında müxbir hesablaşmalar vasitəsilə icra olunan birşəhərli və başqaşəhərli hesablaşmalar;
- ✓ analoji üsullarla həyata keçirilən başqaölkəli hesablaşmalar və s.

Bank sektoru biznesin inkişafında “görünməz iştirakçı” olmaqla yanaşı qarşıya qoyulan maddi və qeyri-maddi aktivlərin yaradılmasında birgə iştirak etməklə mükəlləfdir. Zərurət yarandıqda, istehsal və ya xidmət sferasında ixtisaslaşan təsərrüfat subyektlərinin pul vəsaitlərinə olan ehtiyaclarının ödənilməsində təmsil olunmaqdadır.

## NƏTİCƏ

Ökənin iqtisadi sistemi özünün sahə və istiqamətlərinin mövcudluğu və fəaliyyət göstəriciləri ilə təmsil olunmaqdadır. İstehsal, xidmət və sosial sahə və istiqamətlərin məcmusu kimi ifadə edilən bu toplum özündə və fərqli konfiqurasilarla seçilən proses və əməliyyatları birləşdirməkdədir.

Məqalədə spesifik “iştirakçı” kontingentinin mövcudluğu onunla bağlı yanaşma və baxışların formalaşmasına təsir etməkdədir. “Biznes sahələri – banklar” tandemi üzrə formalaşan əlaqələr tərəflərin vəzifələri, məqsədləri və öhdəlikləri ilə tərənnüm olunmaqdadır.

Biznes sahələri məzmun etibarı ilə iqtisadi sistemin bütün həlqə və manqalarını əhatə etmək qabiliyyəti ilə fərqlənməkdədir. Onların əhatə dairəsi madi istehsal sferası ilə yanaşı sosial-mədəni sahələri də (müxtəlif hazırlıq kursları, məsləhət xidmətləri verən subyektlər, mədəniyyət və incəsənət sahəsinə aidiyyatı ilə bilinən fəaliyyət vahidləri və s.) əhatə edə bilər.

Biznes fəaliyyəti məşğulluğun təmin edilməsi, ticarət və iaşə sahələrində dövriyyələrin artırılması, sığorta ayırmalarının və digər analoji ödəmələrin ümumi həcminin artırılması ödənilən pensiya-yardım istiqamətli məbləğlərin yüksəlməsinə səbəb olmaqdadır.

Biznes fəaliyyətinin təşkilində bank xidmətlərinin rolu əvəzolunmazdır. İstər ümumilikdə cəmiyyətdə, istərsə də iqtisadi sahələr üzrə nağdsız hesablaşmaların xüsusi çəkisinin mütəmadi artdığı, həmçinin əhali gəlirlərinin artdığı dövrdə bank xidmətlərinin göstərilməsi sosial-iqtisadi müstəvilərdə aktivləşməsinə səbəb olmaqdadır. Bank xidmətlərinin növ-çeşid ifadələrinin genişlənməsi, müvafiq xidmətlər üzrə diversifikasiya tədbirlərinə gedilməsi müvafiq sektorun baş verə biləcək hadisə və proseslərdə iştirak payını artırmaqdadır.

Banklar ölkənin iqtisadi sistemi üzrə vəziyyətin tarazlaşdırılmasında mühüm rol oynamaqdadır. Valyuta ehtiyaclarının qarşılanması, pul-kredit dövriyyələrinin nizamlanması, fərdlərin əmanətləri bazasında onların gəlilrlərinin həcm və xüsusi kütlələlər baxımından səviyyələrinin yüksəldilməsi sahəsində Mərkəzi və kommersiya bankların əhəmiyyəti danılmazdır.

Əgər biznes sferası fəaliyyət göstərmək, gəlir əldə etmək, cəmiyyətin hər hansı ehtiyac və tələb yönlərinin daha yüksək şəkildə ödənilməsi məqsədini güdməkdədirsə, bank müəssisələrin həmin fəaliyyətlərin maliyyə təminatına cavabdehlik daşımaqdadır, maliyyə-pul sferasında çatışmazlıqları qarşılamaqdadır. Banklar eyni zamanada ölkənin təsərrüfat subyektlərinin özünün

istehsal və xidmət məhsulları, elmi və digər fəaliyyət nəticələri vasitəsilə xarici bazarlara çıxış imkanlarını da genişləndirməkdədir.

## ƏDƏBİYYAT


1. Bağırov M.M. Banklar və bank əməliyyatları. Bakı: “Nurlan”, 2003, 512s.
2. Bağırov M.S. Makroiqtisadi tarazlıq: problemlər, qiymətləndirilmə və təhlil fəaliyyəti. (monoqrafiya). Naxçıvan: “Əcəmi”. 2023, 216s.
3. Bağırov M.S. Statistikanın təməl bilikləri. Naxçıvan: “Əcəmi”, 2020, 525s.
4. Bağırov M.S. Müəssisə vəsaitlərinin uçotunun təşkili və xüsusiyyətləri. (monoqrafiya). Naxçıvan: “Əcəmi”, 2013, 226s.
5. Səmədzadə Z.Ə. Böyük İqtisadi Ensiklopediya. I cild. Bakı: “Şərq – Qərb”, 2012, 612s.
6. Mahmudov C.İ. Biznesin əsasları. Bakı: AzTU-nun mətbəəsi, 2008, 220s.
7. Mahmudov C.İ., Bağırsoylu H.Q. Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması. Naxçıvan: Əcəmi, 2019, 264s.
8. Балабанов И.Т. Банки и банковское дело. СПб: «Питер». 3-е издание, 2014, 319с.
9. Горелая Н.В., Карминский А.М. Основы банковского дела. М: ЮНИТИ, 2018, 262с.
10. Колесников В.И., Кроливецкий Л.П. Банковское дело. (учебник) 6-ое издание. М: «Финансы и статистика», 2017, 536с.
11. Марамыгин М.С. и др. Банковское дело и банковские операции. Екатеринбург: Издательство Уральского Университета. 2021, 567с.
12. Мишура Л.Г. Банковское дело. С-Пб: Из-во «УНИВЕРСИТЕТ ИТМО», 2016, 161с.


## РЕЗЮМЕ
АЙСУН ДЖАФАРОВА
## МЕСТО И РОЛЬ БАНКОВСКИХ УСЛУГ В ОРГАНИЗАЦИИ БИЗНЕС-ДЕЯТЕЛЬНОСТИ


***Цель исследования*** – исследование бизнес-деятельности воимя повышения экономического потенциала нашей страны, изучение его структуры по элементам «отрасль-территория» и «вид-состав», рассмотрение отношений в плоскости «бизнес-деятельность – банковские услуги»

***Методология исследования*** – использование методов наблюдения, группирования, сопоставительного анализа, цепных отношений и епной зависимости.

***Результаты исследования –*** исследование бизнес-деятельности по многои аспектам и делание выводов, изучение в этом направлении услуг, оказываемых банками, оценивание реалий и направлений регулирования бизнес-субъектов банковскими предприятиями, рассмотрение причинно-следственных отношений в повествуемом направлении.

***Практическая значимость исследования*** – выявление специфических моментов организации и претворения в жизнь взаимоотношений бизнес-субъектов и банковских предприятий в практической плоскости, взятие под контроль возможностей по трансформированию и усовершенствованию в повествуемом направлении.

***Оригинальность и научная новизна исследования*** – реализация банковских услуг при организации и управлении бизнес-деятельности в нашей стране, возможности соответствующих безналичных расчетов, исследование этой деятельности с точки зрения максимально возможного его подчинения целям бизнес-деятельности, опреление относительно него роли необходимых «участников», в индивидуальном масштабе и в масштабе взаимоотношений и взаимозависимостей.


**Ключевые слова:** бизнес, сфера бизнеса, черты бизнес-деятельности, банковый сектор, банковая деятельность, Азербайджанская Республика

## SUMMARY
AYSUN JAFAROVA
## PLACE AND ROLE OF BANKING SERVICES IN THE ORGANIZATION OF BUSINESS ACTIVITIES


**The purpose of the study** is the study of business activity in order to increase the economic potential of our country, the study of its structure according to the elements of "industry-territory" and "type-composition", consideration of relations in the plane of "business activity - banking- services».

**The research methodology** is the use of observation methods, grouping, comparative analysis, chain relationships and dependence.

**The results of the study** are a study of business activities on many aspects and drawing conclusions, a study in this area of services provided by banks, an assessment of the realities and directions of regulation of business entities by banking enterprises, consideration of cause-and-effect relationships in the narrated direction.

**The practical significance of the study** is the identification of specific aspects of the organization and implementation of relationships between business entities and banking enterprises in a practical manner, taking control of the possibilities for transformation and improvement in the narrated direction.

**The originality and scientific novelty of the research** is the implementation of banking services in the organization and management of business activities in our country, the possibility of corresponding non-cash payments, the study of this activity from the point of view of its maximum possible subordination to the goals of business activities, the definition of the role of the necessary “participants” in relation to it , on an individual scale and on a scale of relationships and interdependencies.

**Keywords:** business, business sphere, features of business activity, banking sector, Banking activity, Republic of Azerbaijan

*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)*

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

UOT:33

**OĞUZ CƏFƏROV**
Naxçıvan Dövlət Universiteti
İqtisadiyyatın tənzimlənməsi, I kurs
oguzceferli10@gmail.com
DOI: 10.5281/zenodo.10983564

# MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ ƏMƏK BAZARININ İNKİŞAFI XÜSUSİYYƏTLƏRİ

## XÜLASƏ

*Elmi məqalədə əmək bazarının inkişafı anlayışının məzmunu araşdırılmış, əmək bazarının mütərəqqi inkişaf əlamətləri nəzərdən keçirilmişdir.*

*Məqalədə, həmçinin əmək bazarının inkişafı xüsusiyyətləri cəmiyyət-dövlət münasibtləri kontekstində tədqiq edilmişdir.*

**Açar sözlər:** *əmək bazarı, işəgötürənlər, muzdlu işçi, işsizlik səviyyəsi, məşğulluq, əmək şəraiti, beyin axını.*

Məqaləmizdə qarşıya qoyduğumuz məqsədə uyğun olaraq “əmək bazarının inkişafı” anlayışının müəyyənləşdirilməsi prinsipial əhəmiyyət kəsb edir. Fikrimizcə, əmək bazarının inkişafı dedikdə, bazarda baş verən uzunmüddətli, qanunauyğun kəmiyyət və keyfiyyət dəyişiklikləri prosesi başa düşülür. Başqa sözlə desək, əmək bazarının mütərəqqi inkişafı bazarı daha az mükəmməl vəziyyətdən daha mükəmməl vəziyyətə köçürən dəyişikliklər prosesidir. Fikrimizcə, əmək bazarının daha mükəmməl vəziyyətinin əsas meyarı onun subyektlərinin - işəgötürənlərin və muzdlu işçi qüvvəsinin tələbatının daha dolğun ödənilməsidir. Bir qayda olaraq, əmək bazarı subyektlərinin maraqları arasında müəyyən ziddiyyətlər mövcud olduğundan onları praktikada yalnız yumşaltmaq olar, lakin tamamilə aradan qaldırmaq mümkün deyildir. Bu zaman Pareto optimallıq meyarından istifadə etmək daha məqsədəuyğundur. Bu halda əmək bazarının mütərəqqi inkişafı dedikdə, əmək bazarının bəzi subyektlərinin vəziyyətinin yaxşılaşmasının digər subyektlərin vəziyyətinin pisləşməməsi hesabına baş verməsi halı kimi başa düşülür. Yaxud daha yumşaq Kaldor-Hiksin optimallıq meyarından istifadə etsək, o zaman ki, bəzi əmək bazarı subyektlərinin vəziyyətində yaxşılaşma ya digərlərinin vəziyyətinin pisləşməsi hesabına baş vermir, ya da baş verir, lakin birincisi ikincilərin vəziyyətinin pisləşməsi ilə bağlı olan itkiləri tam ödəyə bilir.

Əksinə, əmək bazarının reqressiv inkişafı (deqradasiya) bazar subyektlərinin tələbatının əvvəlkindən daha az ödənildiyi və ya bəzi subyektlərin vəziyyətinin digərlərinin vəziyyətinin pisləşməsi səbəbindən yaxşılaşdığı, birincilərin ikincinin itkilərini “qazandıqlarına” görə kompensasiya edə bilmədiyi dinamikanı əks etdirir.

Qeyd edək ki. əmək bazarının inkişafı tsiklik şəkildə baş verir. Üstəlik, əmək bazarının dinamikası bir çox dövrlərdən asılıdır: əhalinin təbii təkrar istehsalı, texnika və texnologiya nəsilləri, biznes və siyasi dövrlər və s. Tamamilə təbiidir ki, qeyri-xətti proses olmaqla, əmək bazarının inkişafı onun bir sistem kimi müvəqqəti qeyri-sabitləşməsi ilə müşayiət oluna bilər. Bununla belə, əmək bazarında işsizlik səviyyəsinin yüksəldiyi və məşğulluğun azaldığı bu cür qeyri-sabitlik halları adətən müvəqqəti xarakter daşıyır və bu halların öhdəsindən gəlmək olar.

Fikrimizcə, əmək bazarının inkişafı, ilk növbədə, bu bazarın ev təsərrüfatları - muzdlu əmək tədarükçüləri üçün faydalılığını artırmağa kömək etməlidir. Əməyə tələbi olan işəgötürənlər üçün əmək bazarının inkişafı öz növbəsində muzdlu əməyindən istifadə etməklə yaradılan malların (xidmətlərin) satışından əldə olunan gəlirlərin artırılması amili kimi çıxış etməlidir.

Əmək bazarının problemlərinə dair nəzəri inkişafın ümumiləşdirilməsinə əsaslanaraq onun mütərəqqi inkişafının ən bariz əlamətlərini qeyd etmək olar:

1. İşsizlik səviyyəsinin azaldılması. İşsizlik səviyyəsi əmək bazarının vəziyyətinin əsas parametrlərindən biridir, işsizlərin əmək təklifini formalaşdıran ümumi iqtisadi fəal əhalinin

tərkibindəki xüsusi çəkisini əks etdirir və bununla da məşğulluğun artırılması üçün ehtiyatı göstərir. Aydındır ki, işsizliyin azaldılması həm iqtisadi, həm də sosial baxımdan əmək bazarının bütün iştirakçıları üçün faydalı prosesdir.

İşçi qüvvəsinin işsizlikdən məşğulluğa keçidi əmək gəliri əldə etmək imkanı yaradır. İşəgötürənlər üçün məşğulluğun genişləndirilməsi istehsalın həcmini və məhsul satışından əldə olunan gəliri artıran amildir. Makroiqtisadi baxımdan işsizlərin sayının azaldılması və onların məşğul əhali kateqoriyasına keçidi iqtisadi artımın və sosial sabitliyin mənbələrindən biridir.

2. Uyğun bir iş tapmaq üçün sərf olunan vaxtın azaldılması. İşsizlərin sayı və işsizlik səviyyəsi göstəriciləri ilə yanaşı, əmək bazarının vəziyyətinin mühüm göstəricisi işsizliyin müddətidir. Başa düşüləndir ki, iş axtarma vaxtının qısaldılması işsizlərin, eləcə də əlavə iş axtaran işçilərin vəziyyətinin yaxşılaşması deməkdir. Çünki qeyd olunan fakt, yəni iş axtarma vaxtının qısaldılması daha sürətli məşğulluqdan xəbər verir. Beləliklə, uyğun iş tapmaq üçün sərf olunan orta vaxt müddəti azalarsa, əmək bazarında müsbət dəyişikliklər baş verir.

3. İş qüvvəsi çatışmazlığının azaldılması. Əgər işsizlik əmək bazarında təklifin tələbi üstələməsi nəticəsində formalaşırsa, əks halda işçi qüvvəsi çatışmazlığı yaranır. Üstəlik, işsizlik və işçi qüvvəsi çatışmazlığı eyni vaxtda, lakin əmək bazarının müxtəlif sektorlarında müşahidə oluna bilər. Aydındır ki, işsizliyin azaldılması kimi, işçi qüvvəsi çatışmazlığının azaldılması da əmək bazarında tələb və təklif balansını təmin etməyin yoludur. Məhz bu baxımdan bu prosesi əmək bazarında müsbət dinamikanın təzahürü kimi də qiymətləndirmək olar.

4. Yeni iş yerlərinin yaradılması. Əməyə olan tələb, məlum olduğu kimi, həm kəmiyyət, həm də keyfiyyət xüsusiyyətlərinə malikdir. Əməyə tələbin ən mühüm kəmiyyət xarakteristikası onun həcmidir ki, bu da iqtisadiyyatda iş yerlərinin sayı ilə müəyyən edilir. Sonuncunun dinamikası yeni tətbiq edilən və ləğv edilən iş yerlərinin sayının nisbəti ilə xarakterizə olunur. İş yerlərinin sayının artması əmək bazarında müsbət proseslərin getdiyinə sübutdur. Qeyd edək ki, eyni zamanda, dəyişikliklərin keyfiyyət tərəfi də nəzərə alınmalıdır. Əmək bazarının inkişafı iqtisadi cəhətdən məqsədəuyğun iş yerlərinin sayının artması, əmək şəraitinin yaxşılaşdırılması, işçilərin təhlükəsizliyinin artırılması ilə müşayiət olunmalıdır. İş yerlərinin ən uyğun strukturu məsələsi - sənaye, region, mülkiyyət növü və digər xüsusiyyətlər üzrə - xüsusi diqqətə layiqdir. Aydındır ki, bu struktur iqtisadi nöqteyi-nəzərdən milli istehsalın həcmini maksimum dərəcədə artırmağa, sosial baxımdan isə əhalinin həyat səviyyəsinin ən yüksək səviyyəsinə və keyfiyyətinə nail olmağa ideal şəkildə kömək etməlidir.

5. İqtisadiyyatda əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi. Əgər işsizliyin artımını əmək bazarındakı arzuolunmaz dəyişikliklərlə əlaqələndirmək olarsa, o zaman ümumi halda məşğulluq səviyyəsinin yüksəlməsi, xüsusən də maddi nemətlərin və xidmətlərin istehsalında əmək ehtiyatlarından kifayət qədər az istifadə olunduğu şəraitdə əlverişli prosesdir. Bununla belə, güman etmək lazımdır ki, bazar iqtisadiyyatında məşğulluq səviyyəsi yüz faiz ola bilməz, çünki həmişə müəyyən qədər könüllü işsizlik olacaqdır. Bildiyimiz kimi, iqtisadiyyat elmi təbii işsizliyin mövcud olduğu şəraitdə əmək bazarında əldə edilən "tam məşğulluq"u optimal kimi müəyyən edir. Məşğulluq bu həddi aşarsa, bu, onun artıqlığı deməkdir, bunun iqtisadiyyatda uzunmüddətli saxlanmasının mənfi cəhətləri var, məsələn, qadınların istehsalda həddindən artıq məşğulluğu son nəticədə demoqrafik vəziyyətin pisləşməsi ilə nəticələnə bilər.

6. İş axtaran əhalinin ümumi sayında dövlət məşğulluq xidmətində qeydiyyatda olan şəxslərin xüsusi çəkisinin artırılması. Dövlət məşğulluq xidməti əmək bazarında tələb və təklifin tarazlaşdırılmasında böyük rol oynamağa çalışır. Əhali tərəfindən bu xidmətə müraciətlərin artması əmək bazarında əhalinin dövlət qurumlarına inamının artmasından xəbər verir. Tamamilə aydındır ki, vətəndaşın məşğulluq xidməti ilə əlaqə saxlaması prosedurunun özü avtomatik olaraq ona iş tapmaqda real, məhsuldar köməklik göstərmək demək deyil, onun münasib iş tapmaq imkanlarını genişləndirməkdir.

7. Dövlət Məşğulluq Xidmətinə işə düzəlmək üçün kömək məqsədilə müraciət etmiş məşğul əhalinin onun ümumi sayında xüsusi çəkisinin artırılması. İstər dövlət, istərsə də özəl hər hansı məşğulluq xidmətinin fəaliyyətinin ən mühüm göstəricisi müraciət edənlərin ümumi sayında işlə

təmin olunanların faizidir. Bu zaman söhbət dövlət məşğulluq xidmətinin işindən gedir. Əgər məşğulluq səviyyəsi artarsa, bu məşğulluq xidmətinin fəaliyyətinin səmərəliliyinin yüksəldiyini göstərir, yəni əmək bazarı müsbət dinamika ilə xarakterizə olunur.

8. “Geri dönməz beyin axını”nın azaldılması. Ərazi əmək hərəkətliliyi fenomeninin mürəkkəbliyi onu yalnız bir sıra meyarlara uyğun optimallaşdırmağa imkan verir. Onlardan biri əmək resurslarının xarici miqrasiyasına aiddir və xüsusi qeyd edilməlidir. Emiqrasiya işçi qüvvəsinin müxtəlif kateqoriyalarını əhatə edir. İxtisassız işçilərin ölkədən getməsi milli iqtisadiyyat üçün ciddi təhlükə yaratmır, üstəlik, əmək bazarının müəyyən seqmentlərində işçi qüvvəsi çatışmazlığının yaranmasına səbəb olan hallar istisna olmaqla, kütləvi işsizliyin mövcud olduğu şəraitdə bu hal müsbət təsir göstərə bilər. Lakin bu zaman da müvəqqəti, mövsümi emiqrasiyanın öz üstünlükləri var, başqa sözlə desək, xaricə gedən mühacirlərin əmək gəlirləri ölkənin milli gəlirinə daxil edilir. Bu sadə məntiqdən çıxış edərək, bir çox inkişaf etməkdə olan ölkələr xaricdə nisbətən “ucuz” işçi qüvvəsinin aktiv tədarükçüsü kimi çıxış edir və bununla da öz milli sərvətlərini artırırlar.

Ölkə iqtisadiyyatı üçün daha böyük təhlükə “beyin axını” adlanan ən ixtisaslı işçi qüvvəsinin xaricə getməsi ilə əlaqədardır. Bu mövzuda millətin genofondunun kənara axıb getməsindən və ya sızmasından da danışmaq olar. Məsələn, xarici ölkələrin təhsil müəssisələrinə daxil olan azərbaycanlı tələbələr təhsillərini bitirdikdən sonra işləmək üçün xarici ölkələrdə qalırlar. İstənilən halda milli iqtisadiyyat bu cür miqrasiyalar nəticəsində müəyyən itkilər – ilk növbədə gələcək emiqrantların təhsilinə və peşə hazırlığına xərclənən büdcə vəsaitləri kimi itkilər yaşayır. “Beyin axını” yalnız xaricdə iş təcrübəsi qazanmış mütəxəssisin sonrakı qayıdış miqrasiyası halında milli iqtisadiyyata fayda gətirə bilər. Belə ki, öz bilik və peşə bacarıqlarının keyfiyyətini artıraraq vətənə qayıdan işçi qüvvəsi burada öz fəaliyyətini davam etdirir. Beləliklə, əmək bazarının mütərəqqi inkişafını ölkədən “beyin axınının” azaldılması prosesi kimi qiymətləndirmək olar.

9. Əmək bazarının “kölgə” komponentinin miqyasının azaldılması. Alimlərin fikrincə, “kölgə iqtisadiyyatı qeyri-kamil rəqabət forması kimi qəbul edilməlidir. Bu zaman nəinki hüquqi, həm də əxlaqi-etik normalar pozulur” [4, səh. 21]. Kölgə iqtisadiyyatının səbəbləri çoxşaxəlidir və buraya antropoloji, iqtisadi, sosial, hüquqi, etik və siyasi amillər daxildir [4, səh. 19-25]. Kölgə iqtisadiyyatında məşğulluğu – uçota alınmayan, qeyri-rəsmi və kriminal məşğulluğa bölmək olar [1, səh. 33].

10. İş qüvvəsinin keyfiyyətinin yüksəldilməsi. Bizim nöqteyi-nəzərimizdən çox çətin sual budur ki, işçi qüvvəsinin keyfiyyətinin artması əmək bazarının inkişafının əlamətidir, yoxsa bu inkişafda yalnız amil kimi xidmət edir? Şübhəsiz ki, əmək ehtiyatlarının formalaşması adətən maddi nemətlərin və xidmətlərin istehsalı sferasından və əmək bazarından kənarda, yəni ailədə, orta və ali təhsil sistemində başlayan prosesdir. Ancaq müəssisələrdə əmək ehtiyatlarından istifadə, şübhəsiz ki, kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Nəticə etibarı ilə praktikada əmək bazarının müxtəlif institutları, xüsusən də dövlət və kommersiya məşğulluq xidmətləri, habelə müəssisələrin kadr xidmətləri iş qüvvəsinin keyfiyyətinin yüksəldilməsi üçün xidmət təminatçısı kimi çıxış edirlər. Əmək məhsuldarlığının dinamikası və müəyyən dərəcədə işçilərin əməyinin ödənilməsi son nəticədə bu xidmətlərin nə dərəcədə səmərəli olmasından asılıdır.

11. Əmək şəraitinin, iş və istirahət rejimlərinin yaxşılaşdırılması. Bu dəyişikliklər həm işçilər, həm də işəgötürənlər üçün faydalı hesab edilməlidir. Əmək şəraitinin yaxşılaşdırılmasının qiymətləndirilməsi istehsalatda əməyin şiddətinin, xəsarətlərin və peşə xəstəliklərinin dinamikasını müəyyən etməklə mümkündür. Bu qiymətləndirmədə müəssisələrdə aparılan sosioloji tədqiqatlar böyük rol oynayır. Bundan əlavə işçilər üçün əmək prosesinin iş gününün uzunluğu və iş həftəsi, nahar fasiləsi, növbədaxili fasilələrin mövcudluğu və müddəti, iş və istirahət rejimlərinin müəssisə rəhbərliyi tərəfindən tənzimlənmə dərəcəsi və s. kimi parametrləri mühüm əhəmiyyətə malikdir. Müasir şəraitdə evdə işi yerinə yetirmək qabiliyyət və bacarığı getdikcə daha çox əhəmiyyət kəsb edir ki, bu da ilk növbədə zehni işdə çalışan işçilər üçün xarakterikdir. Bu meyara əsaslanan əmək bazarının inkişaf əlamətlərini əsasən müəssisələrdə aparılan sosioloji tədqiqat məlumatlarına əsasən müəyyən etmək olar.

12. Əmək standartlarının təkmilləşdirilməsi. Müəssisələrdə əməyin təşkilinin təkmilləşdirilməsi vəzifəsi əmək normalarının, o cümlədən vaxt, məhsul, işçilərin sayı, xidmət və s. iqtisadi əsaslandırılmasını tələb edir. Bu problemlər birbaşa əmək bazarı ilə bağlıdır, çünki əməyin qiyməti həm onun dəyəri, həm də işəgötürənin tələb etdiyi istehsal nəticələri nəzərə alınmaqla formalaşmalıdır. Əmək standartlarının keyfiyyətinin yüksəldilməsi müəssisələrdə kadr siyasətinin daha yaxşı iqtisadi əsaslandırılmasına gətirib çıxarır və beləliklə, əmək prosesinin parametrlərini optimallaşdırmağa imkan verir. Nəticə etibarı ilə, bu, həm işçi heyətindən daha səmərəli istifadə edə bilən işəgötürənlər, həm də elmi əsaslı standartlar əsasında fəaliyyətinin qiymətləndirilməsi daha dolğun və dəqiq olan işçilər üçün müsbət nəticələr verir.

13. İşçilərin və işəgötürənlərin qanuna tabeçiliyinin yüksəldilməsi. Məlumdur ki, əmək qanunvericiliyi praktikada heç də həmişə tam yerinə yetirilmir. Ümumiyyətlə, biz bütün əmək qanunvericiliyinə, o cümlədən həm qanunlara, həm də qaydalara riayət etməkdən danışmalıyıq. Əmək qanunvericiliyinə tam və ya qismən əməl edilməməsi səmərəsiz nəzarət və dövlət tərəfindən yerinə yetirilməməyə görə təsirli sanksiyaların olmaması ilə bağlı ola bilər. Bu vəziyyətin köklü səbəbini cəmiyyət – dövlət münasibətlərində axtarmaq lazımdır. Parantez açaraq bir faktı qeyd etmək istəyirəm ki, cəmiyyətdə dövlət qurumlarına inamsızlıq yaranarsa, o zaman vətəndaşların qanunu pozma ehtimalı artır və "kölgə" iqtisadiyyatı üçün əlverişli mühit yaranır.

14. Sosial-əmək sferasının birləşməsi (və ya birləşdirilməsi). Yunionizasiya (birləşmə) prosesi ümumiyyətlə müəssisələrdə əmək problemlərinin həllində həmkarlar ittifaqlarının iştirakının genişləndirilməsi kimi təqdim olunur. Birləşmənin kəmiyyət meyarı öz həmkarlar ittifaqı orqanlarına malik olan müəssisələrin nisbətidir. Təbii ki, həmkarlar ittifaqının ilk növbədə müəssisənin ölçüsü ilə bağlı məhdudiyyətləri var. Həmkarlar ittifaqlarında iştirak adətən kiçik müəssisələrin, kəndli (fermer) təsərrüfatlarının işçiləri və fərdi sahibkarlar üçün xarakterik deyildir. Qeyd edək ki, iqtisadiyyatın bu seqmentlərində öz vəzifə və funksiyalarına görə həmkarlar ittifaqlarına çox yaxın olan müxtəlif işçi birlikləri yaratmaq mümkündür.

15. Sosial tərəfdaşlığın inkişafı. Əmək bazarının müsbət dinamikasının diqqətəlayiq təzahürü onun subyektlərinin maraqlarının tarazlığına nail olmağa yönəlmiş sivil və demokratik qarşılıqlı fəaliyyətidir. Bazar şəraitində sosial tərəfdaşlıq sosial-əmək münasibətlərinin ən mütərəqqi növü hesab olunur. Amma onun meydana çıxması üçün bir sıra şərtləri yerinə yetirmək və ilk növbədə bütün tərəflərin qanuna hörməti və ona ciddi riayət edilməsi lazımdır. Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda müasir əmək hüququ standartları əmək məsələlərini tənzimləyən müəssisələrdə ümumi, regional, sahə tarifi, peşə, habelə kollektiv müqavilələr sisteminin vaxtaşırı bağlanmasını təmin edir. Kollektiv müqavilələr xüsusi əhəmiyyət kəsb edir, çünki onları "üçlü partiyanın" bütün strukturunun təməli adlandırmaq olar.

Kollektiv müqavilələrin bağlanması təcrübəsinin genişləndirilməsi sosial tərəfdaşlıq sistemində baş verən dəyişikliklərin kəmiyyət aspektidir. Keyfiyyət aspekti sosial və əmək münasibətlərinin tərəfləri arasında getdikcə daha çox məsələlər üzrə kompromis əldə edilməsi və müqavilələrin icrasının daha yüksək səviyyədə olmasıdır.

16. İstehsalın idarə edilməsində işçilərin iştirakının genişləndirilməsi. Əmək demokratiyasının inkişafı işçilərin səhmlər vasitəsilə müəssisənin ortaq mülkiyyətçisinə çevrilməsi, "keyfiyyət dərnəkləri"nin təşkili və özünüidarəetmə komandalarının formalaşdırılması və s. kimi müxtəlif yollarla mümkündür. Qeyd olunan dəyişikliklər əmək bazarının mütərəqqi inkişafının əlamətləri kimi şərh edilməlidir.

17. Əmək bazarında rəqabətin inkişafı. Rəqabət istənilən bazarın ayrılmaz elementidir. Ancaq əmək bazarında rəqabət bir sıra xüsusiyyətlərə malikdir. Xüsusilə, bu bazarda mükəmməl rəqabət, fikrimizcə, tamamilə istisna edilir, çünki onun əsas xüsusiyyətlərindən biri məhsulun homojenliyidir. İş gücü həmişə fərdi olur. Bundan əlavə, bazar subyektləri, bir qayda olaraq, natamam məlumat və onun asimmetrik paylanması şəraitində fəaliyyət göstərirlər. Bu amil işəgötürənin gələcək işçisi haqqında səthi anlayışı olduğu və o, öz növbəsində, gələcək iş yeri haqqında yalnız ümumi məlumata malik olduğu zaman işçi qüvvəsinin işə qəbulu mərhələsinə münasibətdə xüsusilə aydın görünür. Əmək bazarında həm inhisarların (həmkarlar ittifaqlarının)

gücü və monopsoniya geniş yayılmışdır. Belə ki, ikitərəfli monopoliya vəziyyəti çox yaygındır, təhsil və elmi ədəbiyyatda ətraflı təsvir edilmişdir [2, səh. 173-175]. Demək olar ki, bütün əmək bazarlarında inhisarçılıq bu və ya digər şəkildə mövcud olduğundan, onu tamamilə aradan qaldırmaq üçün səy göstərmək, fikrimizcə, mənasızdır. Bundan əlavə, əmək bazarında inhisarçı gücə malik olan həmkarlar ittifaqının mövcudluğu əməyin tarazlıq qiymətinə təsir edə bildiyi üçün müsbət sosial effekt verir. Tamamilə aydındır ki, həmkarlar ittifaqlarının müəssisələrin idarəçiliyindən asılı olmayan sırf formal struktur kimi çıxış etdiyi hallar istisna olmaqla bu təşkilata üzvlük işçiyə öz əmək hüquqlarını daha yaxşı müdafiə etməyə imkan verir.

Əmək bazarında rəqabətin inkişafı işçilərin və işəgötürənlərin, habelə onların birliklərinin konstruktiv şəkildə qarşılıqlı fəaliyyət göstərdiyi, qanunlara əməl edən və bir-birinin hüquqlarını pozmayan sağlam rəqabət mühitinin formalaşmasına uyğun olaraq baş verməlidir. Praktikada əmək bazarında rəqabətin inkişafı sosial tərəfdaşlığın inkişafına çox yaxın olduğu ortaya çıxır.

18. Əmək məhsuldarlığının yüksəldilməsi. Əgər işçi qüvvəsinin və iş yerlərinin keyfiyyətinin artması əmək bazarında müsbət dinamika üçün mühüm ilkin şərtdirsə, onda onların təbii nəticələri istehsalın səmərəliliyinin, əhalinin həyat səviyyəsinin və keyfiyyətinin yüksəlməsi olmalıdır. Məlumdur ki, müasir iqtisadiyyatda elmi-texniki tərəqqi əmək məhsuldarlığının artırılmasına həlledici töhfə verir. Əmək üsul və metodlarını rasionallaşdırmaqla istehsalın təşkilinin təkmilləşdirilməsi də müəyyən rol oynayır. Ancaq məşğulluğun və ictimai istehsalın səmərəliliyinə tələb və təklifin əlaqələndirilməsi mexanizmi kimi əmək bazarının təsirini qiymətləndirməmək olmaz.

Əmək bazarı səmərəsiz əməyi aradan qaldırır və əksinə, peşəkar təlim keçmiş, yüksək məhsuldar kadrlardan daha geniş istifadəyə şərait yaradır. Şübhəsiz ki, müasir iqtisadiyyatda işəgötürənlərin və muzdlu əməyin maraqlarının tarazlığına nail olmaq üçün nəzərdə tutulmuş mexanizm kimi əmək bazarının səmərəliliyinin artmasına mane olan bir sıra amillər mövcuddur. Bunlara əmək bazarı subyektlərinin inhisarçılığı, orada "kölgə sektorunun" olması, habelə dövlətin sosial-iqtisadi siyasətinin çatışmazlıqları daxildir. Məsələn, inflyasiya ilə mübarizə bəhanəsi ilə minimum əmək haqqının süni olaraq iqtisadi cəhətdən əsaslandırılmamış dövlət tərəfindən məhdudlaşdırılması, son nəticədə əməyin səmərəliliyinin azalması ilə nəticələnir. Eyni zamanda, əmək məhsuldarlığının artması əmək bazarında mütərəqqi dəyişikliklərin bariz əlamətlərindən biridir.

19. Muzdlu işçilərin əmək gəlirlərinin və sosial təminatların artırılması. Əmək məhsuldarlığının dinamikası və onun ödənilməsi adətən sıx əlaqədədir və uzunmüddətli perspektivdə əmək məhsuldarlığının orta artım tempinin real əməyin ödənilməsi dinamikasının orta sürətindən yüksək olması zəruridir. Əks halda, əmək getdikcə bahalaşacaq ki, bu da artıq mənfi nəticələrə, xüsusən də işsizliyin artmasına səbəb ola bilər. Təbii ki, qısa zaman intervallarında əmək məhsuldarlığının real əmək haqqının dinamikasına nisbətən daha sürətli artımı prinsipinə əməl olunmaya bilər [3, səh. 54].

Yuxarıda sadalananlar, fikrimizcə, əmək iqtisadiyyatı nəzəriyyəsini və iqtisadi inkişafın müasir praktikasını rəhbər tutaraq məntiqi əsaslandırmaya çalışdığımız əmək bazarında müsbət dəyişikliklərin ən mühüm əlamətləridir.

**ƏDƏBIYYAT**


1. Буров В.Ю. Теневая экономика и малое предпринимательство: теоретические и методологические основы исследования. Монография, Чита, ЗабГУ, 2014, 204 стр.
2. Ильина Л.О. Рынок труда и управление человеческими ресурсами. Учебник, Ростов-на-Дону, 2008, 412 стр.
3. Овчарова Л. Восстановительный рост доходов населения: эффекты экономического роста и социальной политики. Человек и труд, №12, 2007, стр 53-56.
4. Попов Ю.Н., Тарасов М.Е. Теневая экономика в системе рыночного хозяйства. Учебник, М., Дело, 2005, 240 стр.
5. Экономика и социология труда. Учебник, под ред. проф. А.Я.Кибанова, М., ИНФРА-М, 2003, 448 стр.
6. Экономика образования. Итоги мониторинга, №5 (125), М.: ГУ-ВШЭ, 2018 - https://issek.hse.ru/meo
7. A Global Policy Package to Address the Global Crisis. Policy Brief. International Labour Organisation, Geneva, Switzerland, 2008, 32 pages.
8. Marshall Sahlins. Stone age economics. 1st edition, Routledge, 2017, 376 pages.

**РЕЗЮМЕ**
**ОГУЗ ДЖАФАРОВ**
**ОСОБЕННОСТИ РАЗВИТИЯ РЫНКА ТРУДА В СОВРЕМЕННЫХ ЭКОНОМИЧЕСКИХ УСЛОВИЯХ**

В научной статье исследовано содержание понятия развития рынка труда, а также рассмотрены признаки поступательного развития рынка труда.

В статье, также изучались особенности развития рынка труда в контексте отношений общество-государство.

**Ключевые слова:** рынок труда, работодатели, наемный работник, уровень безработицы, занятость, условия труда, утечка мозгов.

**SUMMARY**
**OGUZ JAFAROV**
**CHARACTERISTICS OF THE DEVELOPMENT OF THE LABOR MARKET IN MODERN ECONOMIC CONDITIONS**

In the scientific article, the content of the concept of the development of the labor market is investigated, and the signs of progressive development of the labor market are considered.

In the article, the peculiarities of the development of the labor market in the context of society-state relations were also studied.

**Keywords:** labor market, employers, wage worker, unemployment rate, employment, working conditions, brain drain.

*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov  tərəfindən təqdim edilmişdir)*

""NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

# FİLOLOGİYA

UOT:80

**SƏDAQƏT HƏSƏNOVA**
"Naxçıvan" Universiteti
Filologiya üzrə elmlər doktoru, professor

**ƏMINƏ ƏHMƏDOVA**
"Naxçıvan" Universiteti, II kurs magistr
DOI: 10.5281/zenodo.10983683

## İLK AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİNDƏ "SİFƏT" MÖVZUSU

### XÜLASƏ

*Məqalədə ilk Azərbaycan dili dərsliklərində "sifət " mövzusunun mövqeyindən danışılır. Bu məqsədlə XIX əsrin dərsliklərinə nəzər salınır. Həmin dərsliklərin çoxu rus dilində yazılmışdır. Ona görə də mövzunun araşdırılması üçün Məhəmməd Əfşarın Azərbaycan dilində yazdığı dərslik təhlil edilir. Dərslikdə "sifət" mövzusu haqqında deyilənlər göstərilir və indiki qrammatik mövzularla müqayisə edilir. Məlum olur ki, sifət haqqında ilk biliklər XIX əsrdə verilsə də, onlar sadə idi və hazırkı məlumatlarla üst-üstə düşmür. Məqalədə irəli sürülən elmi-nəzəri fikirlər faktik materialla əsaslandırılır.*

**Açar sözlər**: *dil, dərs, dərslik, sifət, nitq hissəsi*

### MÜNASİBƏT

Müxtəlif tarixi zamanlarda aparılan tədqiqatlar və linqvistik materiallar göstərir ki, türk dillərində, o cümlədən Azərbaycan dilində bir nitq hissəsi olaraq sifətin xüsusi morfoloji əlamətləri olmamışdır. Hətta bunu qeyd etmək lazımdır ki, dilci alimlər arasında sifətin müstəqil nitq hissəsi kimi varlığı bir sıra mübahisələrə səbəb olmuşdur: "Türk dillərində tarixən sifətin əsas nitq hissəsi olması mübahisə yaratmışdır. Bu da qədimdə sifətin xüsusi şəkilçisinin olmaması ilə əlaqədardır" (4, 97). ADilçilik elmində sifət mövzusuna yeni baxışlar XX yüzillikdən formalaşmışdır. Bu baxışlar hər bir sözün hansısa nitq hissəsinə aidliyinin müxtəlif əlamətlər əsasında təyin edilməsini zəruriləşdirirdi. Əslində, bu fikir rus dilçiliyinin təsiri ilə yaranmışdır. olmuşdur. Morfoloji baxışlarda nitq hissələri nəzəriyyələrindən irəli gələn mülahizələr sözlərin nitq hissələrinə aid edilməsi məsələsində üç meyarı əsas sayılırdı:

1. Morfoloji xüsusiyyət
2. Semantik xüsusiyyət
3. Sintaktik xüsusiyyət

Lakin son zamanlarda nitq hissələrinin, o cümlədən sifətin formalaşmasında yuxarıda göstərilən xüsusiyyətlər yetərli hesab olunmamışdır. Ona görə ki, nitq hissələrinin hamısı sintakyik cəhətlərə malik deyil. Məsələn, yuxarıdakı meyarla yanaşsaq, köməkşi nitq hissələri kənarda qalar. Belə ki, onlar sintaktik rola malik deyil. Bu baxımdan, son dövr qrammatika kitablarında nitq hissələrin qruplaşmasında ümumi qrammatik məna əsas hesab edilir. Bu mənada sifət ümumi qrammatik mənasına görə əlamıət və keyfiyyət bildirir. Sifətlə bağlı bilgilərə hələ XIX əsrə aid olan araşdırma və dərsliklərdə rast gəlirik. Lakin əvvəlki elmi-metodik ədəbiyyatlarda sifətin tərifi indiki səviyyədə olmamışdır. Hər bir elmdə inkişaf özünü göstərdiyi kimi, Azərbaycan dili də zaman-zaman zənginləşərək yeni keyfiyyətlər əldə etmişdir. Bu prosesdən nitq hissələri, o cümlədən sifət də kənarda qalmamaışdır. Sifət haqqındakı məlumatlar get-gedə çoxalmışdır. Lakin sifət mövzusunun yenidən araşdırlmağş, onun elmi tədqiqat və dərslikllərdə hansı səviyyədə işlənməsi haqqında məlumatlara ehtiyac duyulur.

Azərbaycan qrammayikası haqqında ilk dərsliklərin yazılması XIX yüzilliklə bağlıdır. Tarixi məlumat və faktik materiallar göstərir ki, o zamankı dərsliklərin çoxu Azərbaycan dilinin öyrədilməsi məqsədini daşısa da, rus dilində yazılmışdır.

İlk dəfə XIX əsrin II yarısında Xələfi Mirzə Məhəmməd Əfşar öz dilimizdə "Fənni-sərfi-türki" dərsliyini yazmışdır. Dərsliyin birinci hissəsi morfologiya, ikinci hissəsi isə sintaksisi əhatə edir.

Azərbaycan dilçiliyi tarixində özünə məxsus yeri olan Mirzə Məhəmməd Əfşarın "Fənni-sərfü nəhvi-türki" əsəri əvvəllər kitabın birinci hissəsinin adı ilə ("Fənni-sərfi-türki") tanınmışdır. Köhnə dilcilik termini olan "sərf" morfologiya deməkdir. Lakin kitabda sintaksis (arxaikləşmiş terminlə "nəhv") məsələlərinə yer verilmişdir. Kitabı təhlil edən tədqiqatçılar (Vahid Adilov, Rəxşanə Babazadə) "Fənni-sərfi-türki" adının kitabın məzmununu tam əhatə etməməsi haqqında fikirlər irəli sürərək onun "Fənni-sərfü nəhvi-türki" şəklində adlandırmasını uyğun hesab edirlər. Kitabın darülmüəllimin və mədrəsələrdə tədris vəsaiti kimi istifadə edilməsi haqqında məlumatlar vardır. Mirzə Məhəmməd Əfşarın bir zaman Qori müəllimlər seminariyasında şəriət və ana dili müəllimi vəzifəsində çalışmasını nəzərə aldıqda Fənni-sərfü nəhvi-türki" əsərinin həmin seminariyanın tələbələri üçün yazıldığını ehtimal etmək mümkündür. 2025-ci ilə qədər "Fənni-sərfü nəhvi-türki" əsəri haqqında mükəmməl bilgilərə rast gəlmirik. Bir sıra araşdırmalarda əsərin müqəddiməsindən, nitq hissələrinin təsnifat prinsiplərindən və dilçilik terminlərindən qısaca məlumat verilmiş, lakin onunn məzmunu yetərincə işıqlandlırılmamışdır. Təəssüf ki, Azərbaycan dili və onun tədrisinə və azərbaycan məktəb tarixinə aid bəzi kitablarda M. Əfşarın adına da rast gəlmirik. Bu baxımdan, "Azərbaycan dilinin tədrisi tarixi" (2011) adlı dərs vəsaitini örnək göstərmək olar. Halbuli "M. Əfşarın başlıca məqsədi doğma dilimizin qrammatik qanun və qaydaları haqqında bilavasitə azərbaycanlı uşaqlara ətraflı məlumat vermək, Azərbaycan dilinin qrammatik quruluşunun elmi təsvirini vermək və dolayısı ilə bu dilin saflığını qorumaq və dildən istifadənin normativ əsaslarını hazırlamaq olmuşdur" (1, 17).

"Fənni-sərfü nəhvi-türki" əsərinin müəllifin adı, əslində, əsərin müqəddiməsində verilən qeydlərə görə şərti olaraq Mirzə Məhəmməd Əfşar kimi verilir. "M. Əfşarın kimliyini araşdırarkən məlum oldu ki, müəllifinin adı Hacı Mirzə Məhəmməd Əfşar olan, təqribən 1900-cü illərdə Bombeydə nəşr olunduğu qeyd edilən "Bəhrül-irfan" adlı bir kitab var. 287 səhifəlik həmin əsər üç hissədən ibarət olub, İslam dini ayələri və hədislərinə həsr olunmuş və fars dilində yazılmışdır. "Fənni-sərfü nəhvi-türki" əsərinin müəllifi Məhəmməd Əfşarın həm də şəriət müəllimi olduğunu nəzərə alaraq, düşünmək olar ki, hər iki əsər eyni müəllifə aiddir [1, 15]. Təəssüf ki, dilimiz haqqında qiymətli qaynaq sayılan "Fənni-sərfü nəhvi-türki" əsərinin əlimizdə yalnız fotosurəti qalmışdır. Əsərin məzmununun çap olunmasında əməyi keçənlərin işi əsl fədakarlıq örnəyidir. Mənbələrin əksəriyyətində əsərin yazıldığı tarixin dəqiqliyi bilinmir. Lakin dilci alim, akademik A. Axundov "Fənni-sərfü nəhvi-türki" əsərinin 1869-cu ildə yazıldığını göstərir (2). Lakin "Fənni-sərfü nəhvi-türki" əsərinin mətnini fotosurət əsasında hazırlayıb çap etdirən müəlliflər M. Əfşarın qeydlərinə əsasən, onun 1879-cu ildən əvvəl yazılmadığını iddia edirlər. Belə ki, M. Əfşarın qeydləri onun həmin əsəri Qori Müəllimlər Seminariyasında dərs dediyi illərdə yazıldığını göstərir. Hər halda Məhəmməd Əfşarın "Fənni-sərfü nəhvitürki" əsəri tarixən XIX yüzilliyin II yarısına aiddir. Bu əsər "Azərbaycan dilinin qrammatikasına aid azərbaycanlı müəllif tərəfindən azərbaycanca yazılmış ilk əsər olub təxminən XIX əsrin II yarısında, Mirzə Kazım bəyin "Грамматика турецкотатарского языка" (1839), "Общая грамматика турецко-татарского языка" (1846) və Mirzə Əbülhəsən Vəzirovun "Учебник татарско-адербайджанского наречия" (1861) əsərlərindən sonra və Nəriman Nərimanovun "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" (1899) əsərindən əvvəl yazılmışdır" (1, 16). Bu fikri irəli sürən tədqiqatçılar dərsliyin müqəddiməsində verilmiş izahata əsaslanırlar.

Maraqlıdır ki, əsərdə dilci alim mövqeyi ilə qarşılaşırıq. Belə ki, M. Əfşar özündən əvvəl qrammatika ilə bağlı əsər yazanların tənqidinə də müəyyən qədər yer verir. Köhnə təhsil sistemini bəyənməyən müəllif həmin sistemə uyğun yazılmış dərsliklər vasitəsilə ana dilini öyrətməyin mümkünsüzlüyü haqqında fikir söyləmiş, Azərbaycan dilinin qanun və qaydalarını bilməyən şagirdlərin milli kökdən uzaq düşə biləcəyini vurgulamışdır. Bu mənada, o, M. Kazım bəyin və M. Ə. Vəzirovun ruslar üçün yazılmış əsərlərindən istifadənin çətinliyini göstərmişdir. Özündən əvvəliki dərsliklərlə müqayisədə, doğrudan da, M.Əfşarın kitabı təqdirəlayiqdir. "Bu baxımdan

"Fənni-sərfü nəhvi-türki" əsəri azərbaycanlılar üçün Azərbaycan dilində yazılmış yeni tipli ilk qrammatika dərsliyidir" (1, 17).

Həmin zamana qədərki dərsliklərdən fərqli olaraq sifət haqqında nisbətən geniş bilgilərlə Xələfi Mirzə Məhəmməd Əfşarın "Fənni-sərfi-türki" əsərində qarşılaşırıq. Dərsliyin "İsmi-sifət bəyanında" adlı hissəsi başdan-başa sifət haqqındakı bilgilərə həsr olunub. Lakin çağdaş məlumatlardan fərqlıi olaraq sifət isimlə əlaqəli izah olunur, daha doğrusu, ismin bir növü sayılır: "İsmi-sifət bir ismiŋ əhvalından və necəligindən xəbər verən ismdür" (1, 61). Bu tərifdən sonra M.Əfşar sifət haqqındakı məlıumatı bir qədər genişləndirir. "O da ümumən, "üyub və əlvan və hüsn və qübh göstərən kəlmələrdür, məsələn: ağ, qara, kor, kar, gözəl, çirkin kimi" (1, 61). Buradan aydın olur ki, sifət eyiblərin (üyub), rəngləri (əlvan), görkəmi (hüsn) və çirkinliklərin (qübh) necəlıiyini bildirən nitq hissəsidir. Müəllif fikrini isbat etmək üçün şağıdakı örnəkləri göstərir: "adil padişah, məzlum bəniİsrail, əlil şəxs, bəxil adam" (1, 61).

Sifətlə bağlı qeydlərində M.Əfşar göstərir ki, "Türk dilində sifət ilə mövsuf arasında mütabiqət yoxdur, nə sanda, nə cinsdə və nə başqa hallarda" (1, 61). Bununla da müəllif sifətlə adın, cinsin və difər halların təsviri, yəni görüntüsü arasında uyğunluq olmadığını bildirir və sifətin həmişə isim bilditimiz sözlərdən əvvəl gəldiyini göstərərək aşağıdaki misalları verir: yaxşı kişi / kişilər / kişiləriŋ" (1, 61). Maraqlıdır ki, M.Əfşar müasir bilgilərə uyğun olaraq qeyd edir ki, sifətdən sonra gələn isimlər cəmlənə bilər. Yəni cəm isimlərədn əvvəl gələn sifət təkdə olur. Lakin müəllif cəmdə işlənən sifətlərdəmn də danışır ki, bu, indiki qrammatikamızda sifətin isimləşməsi deməkdir. Bu fikir müəllifin misal olaraq göstərdiyi nümunədən məlum olur: "Qaraları ŋ yüzi yumaq ilə ağ olmaz / qaralara, qaraları, qaralar ilə (1, 61).

Xələfi Mirzə Məhəmməd Əfşarın "Fənni-sərfi-türki" əsərində sifətin dərəcələri mövzusuna da diqqət edilir. Müəllif "ismi-sifətin" (sifətin) üç dərəcəsini göstərir ki, bu, say baxımında indiki elmimizə uyğun gəlir: "İsmi-sifət içün üç dərəcə vardur: 1) 'adi; 2) izafi; 3) ə'ladur (1, 61). Müəllif "izafi" dərəcə dedikdə çoxaltma dərəcəsini nəzərdə tutur. O, dərəcələrin yaranma yolları haqqında da məlumat verir: "Dərəceyi-izafi 'əmələ gəlür dərəceyi-'adiyə -raq hissəsini qoşmaq ilə, məsələn: gözəl‒gözəlraq" (1, 61).

Sifət haqqında ilkin məlumatları zənginləşdirən və yeni maraqlı bulgilər verən Xələfi Mirzə Məhəmməd Əfşar çoxaltma dərəcəsini (dərəceyi-izafi) bildirməyin başqa bir yolunu da göstərir: "Və lakin ğalibən dərəceyi-izafini bildürmək içün iki tərəfdən birisi məf'ulun-minh halında, ismi-sifət dərəceyi-'adi halında qoyulur, məsələn: Bu kağız o kağızdan yaxşıdur" (1, 61). Əslində, çağdaş morfoloji bilgilərlə müqayisədə burada heç bir dərəcə əlaməti yoxdur. Sadəcə adi dərəcədə olan sifət xəbər vəzifəsində işlənmişdir. Lakin müəllif müqayisə üsulundan istifadə edərək adi dərəcəni üzə çıxarmaq istəyir. Bundan başqa, müəllif çoxaltma dərəcəsinin özünün də qüvvətlənməsindən danışır və bu məqsədlə "artıq, ziyadə, çox dəxi" sözlərindən istifadə etməyin gərəkli olduğunu göstərir: "Və gah bu surətdə dərəceyi-izafini qüvvətləndirmək içün bu kəlmələri dəxi izafə edirlər, məsələn: artıq // ziyadə // çox // dəxi, məsələn: May istidür, üyun maydan artıq / çox / dəxi istidür" (1, 61). Maraqlıdır ki, Xələfi Mirzə Məhəmməd Əfşarın dərəcə bölgülərində sifət haqqında bugünkü elmimizlə üst-üstə düşməyən cəhətlər vardır. Məsələn, müasir qrammatikamızda çoxaltça dərəcəsinin sintaktik üsulla düzəlməsində iştirak edən vasitələrin bir hissəsini "dərəceyi-əla"ya daxil edir. O bu cəhətdən əla dərəcənin iki yolla düzəldiyini göstərir: "Dərəceyi-ə'la 'əmələ gəlür, əvvəla, 1) ismisifətdən irəlü əŋ ədatını gətürməklə, məsələn: Bu kağız əŋ yaxşı kağızdur; 2) zeyldə yazılan kəlmələrdən birini ismisifətə qoşmaq ilə, məsələn: ziyadə, çox, nəhayətdə, ğayətdə, ifrat və ğeyrə, məsələn: Bu adam ifrat // ğayət də gözəldür. Və gahi ismi-sifətə bir para möhməlat qoşulub mübaliğə andırar, məsələn: qap qara, sap sarı, qup qurı, yam yaşıl, bom boş və ğeyrə" (1, 62).

Xələfi Mirzə Məhəmməd Əfşarın "Fənni-sərfi-türki" əsərində sifət haqqında məlumatlarla başqa bir bölmədə də qarşılaşırıq ki, bu da indiki qrammatik məlumatlarla üst-üstə düşmür. Belə ki, həmin bölmə "İsmi-mənsub bəyanında" adlanır və buradakı "mənsub" sözü, fikrimizcə, aydınlaşdırılmalıdır. Lüğətlərdə "mənsub" sözünün dörd mənasına rast gəlirik: 1. Dikinə basdırılmış, qoyulmuş; 2. Təyin olunmuş, qulluqda olan; 3. ərəb qrammatikasında təsirlik halda olan (isim); 4. Bir şəxsə və ya bir şeyə nisbəti olan, aid olan (3, 356). Bu mənalardan ikisi, yəni üç

və dördüncü mənaları sifətə tətbiq etmək olar. Ona görə də düşünürük ki, M. Əfşar həmin mənalardan birini nəzərdə tutmuşdur və fikrimizcə, bu, dördüncü mənadır. Müəllif həmin morfoloji vahidlər haqqında yazır: "*İsmi-mənsub* o kəlmədür ki, bir zatıŋ bir yerə və ya mütləq bir sifətə nisbətlənməgini ifadə edə. Bu da ʼəmələ gəlür ismiŋ axırına (*-lu* və ya *-li*) ədatını gətürmək ilə, məsələn: *şirvanlu, gəncəli, güclü, qüvvətli*" (1, 63).

Göründüyü kimi, M.Əfşarın haqqında danışdığı sözlər, əsasən , $-lı^4$ şəkilçisi ilə formalaşan düzəltmə sifətlərdir. Sadəcə olaraq müəllif həmin şəkilçi ilə düzələn isimləri də (*şirvanlu, gəncəli*) həmin sırada vermişdir. Bundan başqa, M.Əfşar sifətin quruluşu məsələsinə toxunmamışdır. Halbuki $-lı^4$ şəkilçisi söz yaradıcılığında fəal iştirak edən şəkilçi kimi daha çox sifət düzəldir.

Xələfi Mirzə Məhəmməd Əfşarın "Fənni-sərfi-türki" əsərində sifət haqqındakı məlumatlar çağdaş dövrümüzlə müqayisədə bir qədər bəsit görünsə də, zamanı üçün böyük əhəmiyyət daşıyır. Əsər qrammatikamız haqqında ilkin qiymətli mənbələrdən biri kimi dəyərlidir.

## ƏDƏBİYYAT


1. Adilov V., Babazadə R. Mirzə Məhəmməd Əfşar "Fənni-sərfü nəhvi-türki" (qrammatik oçerk, mətnin transliterasiyası, lüğət və əlyazmanın fotosurəti), Bakı, "Elm və Təhsil", 2015, 260 s.
2. Axundov A.. Azərbaycan dili // «Ədalət» qəzeti, 1 iyun 2010-cu il.
3. Ərəb və fars sözləri lüğəti. Bakı, Yazıçı, 1985, 1036 s.
4. Kazımov İ. Türk dillərinin müqayisəli morfologiyası. Bakı, Elm, 2019, 304 s.



## РЕЗЮМЕ

**АМИНА АХМЕДОВА САДАГАТ ГАСАНОВА**

**ТЕМА « ПРИЛАГАТЕЛЬНОЕ » В ПЕРВЫХ УЧЕБНИКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА**

В статье говорится о положении темы «прилагательное» в первых учебниках азербайджанского языка. С этой целью рецензируются учебники XIX века. Большинство этих учебников написаны на русском языке. Поэтому для исследования темы анализируется учебник, написанный Мохаммедом Афшаром на азербайджанском языке. В учебнике показано, что сказано по теме «прилагательное», и сравнивается с текущими грамматическими темами. Оказывается, хотя первые знания о прилагательном были даны еще в XIX веке, они были простыми и не совпадали с современными сведениями. Научно-теоретические идеи, изложенные в статье, основаны на фактическом материале.



**Ключевые слова**: язык, урок, учебник, прилагательное, часть речи.



## SUMMARY

**AMINA AHMADOVA SADAGAT HASANOVA**

**TOPIC OF "ADJECTIVE" IN FIRST AZERBAIJAN LANGUAGE TEXTBOOKS**

The article talks about the position of the topic "adjective" in the first Azerbaijani language textbooks. For this purpose, textbooks of the 19th century are reviewed. Most of those textbooks are written in Russian. Therefore, the textbook written by Mohammad Afshar in Azerbaijani language is analyzed to investigate the topic. The textbook shows what is said about the topic "adjective" and compares it with current grammar topics. It turns out that although the first knowledge about the adjective was given in the 19th century, they were simple and did not coincide with current information. Scientific-theoretical ideas put forward in the article are based on factual material.



**Key words:** *language, lesson, textbook, adjective, part of speech.*

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova  tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

UOT:80

**İMAN CƏFƏROV**
“Naxçıvan” Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
altay1999@yahoo.com
DOI: 10.5281/zenodo.10983708

## AVROPA ROMANTİZM ƏDƏBİ CƏRƏYANI VƏ HÜSEYN CAVİD

*Qədim əsatirə görə, gözəllik ilahəsi Afrodita məşhur kəməri ilə insan ruhuna təsir edə bilirmiş və Afroditanın sözügedən kəmərini ilk dəfə Homer oğurlamışdır. Azərbaycan ədəbiyyatında belə bir sənət zirvəsi Hüseyn Cavid tərəfindən fəth edilmişdir.*

*Avropa ədəbiyyatında romantizm ədəbi cərəyanının özünəməxsus xüsusiyyətlərindən biri qadının ideallaşdırılması, digəri pafoslu aldatmadır. Eyni xüsusiyyətlər “Bənim Tanrım” şeirində də izlənilməkdədir. Hüseyn Cavid Tanrının gözəllikdən ibarət yaratdığı harmoniyanın mərkəzində məhz sevgilərə layiq qadını qələmə almışdır. Şeirin pafosu isə insanı, ümumiyyətlə, həyatdan ayırmaq gücünə malikdir.*

*Hüseyn Cavidin Tanrısı özünəməxsusdur, gözəllikdən və sevgidən ibarətdir. Başqa sözlə, Hüseyn Cavid aydın şəkildə bildirir ki, həyatda bütün gözəlliklərin yaradıcısı Tanrı, bütün çirkinliklərin səbəbkarı isə insandır.*

*Şeyx Sənanın tarixini, sonuncu Peyğəmbərin tarixini, Səyavuşun tarixini, Xəyyamın tarixini, Əmir Teymurun tarixini, İblisin tarixini yenidən yazan Hüseyn Cavid Avropa realizminin prinsiplərinə uyğunluqla Azərbaycan oxucusuna yeni bir insan təqdim etmişdir.*

*Hüseyn Cavid yaradıcılığında romantizm sadəcə bir düşüncə tərzidir, ifadə formasıdır, mövcud cəmiyyətdə özünə yer tapa bilməyən, təfəkkür imkanları ilə müasirlərindən fərqlənən, çıxış yolunu müəyyən qədər pafoslu aldanışlarda görən bir fikir sahibinin bu günə ünvanlanmış sözdür.*

**Açar sözlər**: *Afrodita, kəmər, pafos, aldanış, qadın, ideallaştırma, təbiət, Xəyyam, gözəllik, Tanrı.*

Azərbaycan romantizm ədəbi cərəyanını dünya ədəbiyyatı müstəvisində təmsil etmək qüdrətinə malik Hüseyn Caviddən söz açmaq sanki son dərəcədə asan, prinsipcə isə son dərəcədə məsuliyyətli bir işdir. İşin məsuliyyəti ondadır ki, Hüseyn Cavid sənəti müxtəlif zaman kəsiklərində Hənəfi Zeynallı, Əli Sultanlı, Məmməd Cəfər, İsa Həbibbəyli, Məsud Əlioğlu, Kamran Əliyev kimi Azərbaycan ədəbiyyatşünaslığının ağırlığını çiyinlərində daşıyan görkəmli ədəbiyyatşünaslar tərəfindən dəyərləndirilmiş, böyük şairin yaradıcılığı haqqında ciddi, qiymətli, elmi və bəzən də tamamilə subyektiv müddəalar irəli sürülmüşdür. Məsələn, Hənəfi Zeynallı 1923-cü ildə “Hüseyn Cavidin yazdığı “Peyğəmbər” haqqında mülahizələrim” əsərində Hüseyn Cavidi ilhamsızlıqda, məcburən əsər yazmaqda günahlandırmış, öz fikirlərini guya belə əsaslandırmışdır: “Sənətdə təfəkkürat ilə bərabər hissiyyat dəxi həmahəng olmalıdır. Yoxsa başı-damağı zorlamaq ilə iş yaramaz. Cavid isə burada (söhbət “Peyğəmbər” əsərindən gedir –İ.C.) qafasını zorlamış, ilham ilə iş yapmamışdır. Ona görə də bu əsər “İblis”dən qat-qat zəif çıxmışdır.

Peyğəmbəri Cavidin gözündə böyüdən Məhəmmədi əfal şəxsiyyəsi isə “Peyğəmbər”i (yəni pyesi) bizim gözümüzdə kiçildən Cavidin ilhamsız və çarpaşıq yazmasıdır.” ( 1, s. 122)

Biz Hənəfi Zeynallının 27 yaşında söylədiyi bu mülahizələrin Hüseyn Cavidi dərk etmək istiqamətində cəhddən başqa bir şey olmadığı qənaətindəyik. Çünki elə 1923-cü ildə Əziz Şərif yazırdı: “Hələ tarix Hüseyn Cavidə əl vurmayıbdır. Şairimiz bir tərəfdə sakit oturub əsərlərini yazır. Tarix isə qulaq asır və gözləyir. Şəksiz ki, tarix vaxtında onu sənət mühakiməsinə alacaq, təbiətin ona verdiyi qüdrət və istedadın hesabını istəyəcəkdir.” ( 9, s. 138)

Prinsip etibarilə, hələ XX əsrin 20-ci illərində estetik düşüncə fərqində olub ki, Hüseyn Cavid yaradıcılığı Avropa romantizm ədəbi cərəyanı müstəvisində fərqli hadisədir, özünəməxsusdur, romantizm ədəbi cərəyanını yeni prinsiplərlə zənginləşdirməkdədir. Budur, “Azərbaycan füqərası” qəzetinin 20 noyabr 1921-ci il tarixli sayında Hacı İbrahim Qasımov “Həqq” imzası ilə mövcud ədəbi-estetik dünyagörüş və Hüseyn Cavid məsələsinə belə aydınlıq gətirirdi: “Azərbaycan ədiblərindən Hüseyn Cavid tərəfindən qələmə alınmış və bir qaç günlərdən bəri qəzetlərdə və dillərdə mövcibi-bəhs olan “Şeyx Sənan” draması ikinci dəfə olaraq cümə gecəsi Dövlət teaatrında tamaşaya qoyuldu. Belə qiymətli ədibin tərəfindən yaradılan bu pyesi görmək

üçün teatra əcələ və əvvəldən axırınadək bu pyesə tamaşa etməklə biz Hüseyn Cavidin pyesini tənqidə cəsarət edəməyiz. Çünki Cavidi tənqid üçün ikinci bir Cavid lazım gəlir ki, o da zənnimizcə bizdə yox kimidir…” (9, s. 117)

Onillər keçsə də, tarix Hüseyn Cavidi sənət mühakiməsinə alıb təbiətin ona verdiyi qüdrət və istedadın hesabını istədikdə o qüdrət və istetadı dəyərləndirməkdə aciz qalması səbəbindən özünün Cavidə borclu olduğunu gördü.

Çağdaş ədəbiyyatşünaslıqda dönə-dönə vurğulanır ki:

“1. Hüseyn Cavid yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında yeni epoxa başlamışdır.

2. Azərbaycan ədəbiyyatında romantizmin epoxasının ən qüdrətli yaradıcısı Hüseyn Caviddir.

3. Bəlkə də, Hüseyn Cavid olmasaydı, Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyana çevrilə bilməyəcəkdi.

4. O, yenitipli romantik poeziyanın və mənzum dramaturgiyanın banisidir.

5. Hüseyn Cavid Füzulidən sonra və Səməd Vurğundan əvvəl Azərbaycan romantik ədəbiyyatının ən böyük zirvəsidir.

6. Mirzə Fətəli Axundzadənin realist ədəbiyyata yol açmaq üçün böyük çətinliklə arxa cərgəyə keçirdiyi romantik poeziyanı Hüseyn Cavid yenidən bərpa etmiş və ədəbiyyatın ön mövqeyinə çıxarmışdır. (4, s. 380)

Yunanlara görə, gözəllik ilahəsi Afrodita məhz məşhur kəməri ilə insan ruhuna təsir edə bilirmiş və Afroditanın sözügedən kəməri Homer tərəfindən oğurlandığından şairin əsərləri Tanrı bəndələrinə güclü təsir göstərirmiş. Belinski yazıb ki, eyni kəməri rus ədəbiyyatında ilk dəfə Puşkin ələ keçirmişdir. Düşünürük ki, bizdə Kipridanın kəmərinə sahiblənmək Hüseyn Cavidin adı ilə bağlıdır. Bəli, Hüseyn Cavid sözünü dinləyərkən insan ruhunun sehrlənməsi və günlərcə həmin sehrin təsirində qalması tamamilə təbiidir. Hüseyn Cavid şeirində Afrodita kəmərinə məxsus sehri görmət üçün “Bənim Tanrım” şeirini oxumaq kifayətdir:

Hər qulun cihanda bir pənahı var,
Hər əhli-halın bir qibləgahı var,
Hər kəsin bir eşqi, bir İlahı var,
Mənim Tanrım gözəllikdir, sevgidir.

…Gözəl sevimlidir, cəllad olsa da;
Sevgi xoşdur, sonu fəryad olsa da,
Uğrunda mənliyim bərbad olsa da,
Son dildarım gözəllikdir, sevgidir.

Gözəlsiz bir gülşən zindana bənzər,
Sevgisiz bir başda əqrəblər gəzər,
Nə görsəm, hanki bəzmə etsəm güzər,
Həp duyduğum gözəllikdir, sevgidir. (6, s. 130)

Qeyd-şərtsiz, dünya ədəbiyyatında romantizm ədəbi cərəyanının özünəməxsus xüsusiyyətlərindən biri qadının ideallaşdırılması, digəri pafoslu aldatmadır. Eyni xüsusiyyətlər “Bənim Tanrım” şeirində də izlənilməkdədir. Bununla belə, Hüseyn Cavid romantizmlə bağlı mövcud konsepsiyaya yenilik gətirmiş, Tanrının gözəllikdən ibarət yaratdığı harmoniyanın mərkəzində məhz sevgilərə layiq qadını qələmə almışdır. Şeirin pafosu isə insanı, ümumiyyətlə, həyatdan ayırmaq gücünə malikdir.

Digər tərəfdən, xatırladaq ki, ingilis romantizminin qüdrətli nümayəndəsi Bayronun “Qabil” poemasında Qabil insan nəslinin əzablar çəkməsi səbəbindən Tanrını günahlandırır. Hüseyn Cavid də Tanrıdan danışanda romantizmi təmsil edir. Lakin şairin Tanrısı özünəməxsusdur, gözəllikdən və sevgidən ibarətdir. Başqa sözlə, Hüseyn Cavid aydın şəkildə bildirir ki, həyatda bütün gözəlliklərin yaradıcısı Tanrı, bütün çirkinliklərin səbəbkarı isə insandır.

Əlbəttə ki, Hüseyn Cavidin “Mənim Tanrım gözəllikdir, sevgidir” deməsi böyük şairin həyatdakı nöqsanlara biganə qalması demək deyil. Elmi ədəbiyyatlarda vurğulanır ki, Hüseyn Cavid arsuladığı həyatı reallıqda tapmadığından ya keçmişə, ya da gələcəyə üz tutmuş, keçmişi ideallaşdırmış, yaxud ideal gələcək arzulamışdır. Şübhəsiz ki, Hüseyn Cavid sənətinə istinadən irəli sürülən bu mülahizələri də təsdiqləmək mümkündür. Bununla belə, Hüseyn Cavidin keçmişi ideallaşdırması gələcək naminədir. Bəzən şair suallarına cavabı nə keçmişdə, nə də hazırkı zamanda tapa bilmir. O suallarsa ictimai bərabərsizliklə, milyonlarla insanların səfalət içərisində yaşaması ilə bağlıdır. Hüseyn Cavidə görə, nə dünənin, nə də bu günün əsarətli həyatına baxaraq səfəlatli həyatdan qurtarmağın yolunu göstərmək mümkün deyil. Bunun üçün ilk növbədə istiqbal əldə edilməli, insanlar cismən və ruhən azadlığa qovuşmalı, daha sonra bütün suallara cavab tapılmalıdır. Düşüncələrimizin təsdiqi üçün “Bakıda” şeirinin sonunda Şəfiqə ilə Məsudun sual-cavabına diqqət yetirmək kifayətdir:

Şəfiqə

Əvət!.. O sərvətü saman içində zənginlər
Kədər nə... bilməyərək istirahət etsinlər!
Fəqət zavallı fəqir orta yerdə qəhr olsun,
Zəhərli qazları yutsun da yıpranıb solsun.
Səbəb nə? Səhhətə düşman o nəmli yerlərdə
Fəqir olan çürüsün!.. Haqqü mə’dələt nerdə?

Məsud

Bu anlaşılmayacaq bir suali-müşkildir
Ki, həll edilməsi zənnimcə, qeyri-qabildir.
Bu fikrə qarşı nə mazi cavab verdi, nə hal;
Sənin bu fikrini kəşf eylər ancaq istiqbal... (6, s. 33)

Şübhəsiz ki, “Bakıda” şeirində sualların Şəfiqə tərəfindən verilməsi, yəni cəmiyyətin məhz qadın tərəfindən düşünməyə səfərbər edilməsi təsadüfi deyil, yenə də romantik şairin qadına ehtiramını təsdiqləyən bədii gedişdir.

Cavid ona görə əlçatmazdır ki, bu qədər bilinənin içərisində bilinməzliyin gözəlliyini vəsf edir. Bu məqamda şair qədim dünya filosofları ilə eyni nəticəyə gəlsə də, romantizmdə onlardan öndədir. Deyilənə görə, Sokrata demişlər ki, Apollon onu dünyanın ən müdrik adamı elan etmişdir. Bu xəbərə Sokratın cavabı belə olmuşdur: “Təkcə onu bilirəm ki, heç nəyi bilmirəm”. “Təkcə onu bilirəm ki, heç nəyi bilmirəm” deyən Sokratın qənaəti ağılla təmasın, Cavidin “Bilmirəm” hökmü qəlblə birliyin ifadəsidir. Bu qədər məchulluğun fonunda Cavidi Təbiətlə insan arasındakı bağlılıq sehirləyir, böyük şair gəlişi ilə buludları sıralayan bir sevdalının gedişiylə şimşək kimi çaxmasından zövq alır, ruhunun alovlara qərq olmasından vəclə söz açaraq vurğunluğunu belə dilə gətirir:

Gəldin də, niçin pənbə buludlar kibi aqdın.
Bilməm, niyə getdin, niyə döndün, niyə baqdın?
Şimşək kibi çaqdın da, niçin könlümü yaqdın.
Bilməm, niyə getdin, niyə döndün, niyə baqdın? (7, s. 25)

O da var ki, romantizm ədəbi cərəyanında təbiətin təntənəsinə ehtiram xüsusi göstərici olaraq dəyərləndirilməkdədir. Bu səbəbdən juxarıdakı bənddə qəlbi alovlandıran bir gözəldən bəhs edildiyi halda göz önündə pənbə buludların, dəhşətli şimşəklərin canlandırılması səbəbsiz deyil.

Cavid romantizminin qüdrəti şair ruhunun yenilməzliyində və yaradıcı insanın öz ilhamını Tanrı sevgisindən almasındadır. Qeyd olunan sevgidə isə səadətgətirici mənəvi məğlubiyyət qaçılmazdır. “Eşqə dil verərkən bəladan bir şey görməyəcəyini” bilə-bilə şair yenə də bir süzgün baxışın əsiri olmaqdan qürur duyur:

Sərpildi alev ruhuma süzgün baqışından,
Sarsıldı da həp bənliyim, ey afəti-devran.
Gəl, gəl olayım səndəki hər cilvəyə qurban.
Bilməm, niyə getdin, niyə döndün, niyə baqdın? (7, s. 25)

Məlumdur ki, bu misralar “Xəyyam” əsərindəndir və yenə də məlumdur ki, Hüseyn Cavidin hər bir əsərində bizə yeni bir Cavid, romantizmin yeni bir keyfiyyəti təqdim edilir. Budur,

“Xəyyam”da Hüseyn Cavidin təqdimi daha aydın, daha dəhşətli, eyni zamanda daha təsəllivericidir. Böyük şair qətiyyətlə elan edir ki, zamanların, məkanların və ölərilərin insan zəkasının qüdrətinə təsir mexanizmi yoxdur, sabahları düşünən zəka da günəş kimi əbədidir:

Getdi, eyvah!.. O fəzilət, o zəka!
Əbədi susdu o qüdrət, o dəha…
Söndü bir anda o sönməz atəş.
Fərqi yoq, batsa da parlaq o günəş! (7, s. 143)

Cavid romantikasının hüdudlarını təsəvvürə gətirmək çox çətindir. Doğrudur, Cavid romantizminin də mənbəyi real həyatdır, lakin səadətlə zillər arasında çırpınan bir həyatdır. Əslində şair varlığın dialektikası ilə barışa bilmir, bəxtiyarlıqdan sonra əzabın gəlişini qəbul etməkdə çətinlik çəkir. Bu səbəbdən şair əksliklərdən uzaq bir həyat arzusundadır. Cavid romantizminə görə, müharibələrin, qırğınların bir-birini əvəzlədiyi, insanın Tanrıya deyil, səfil mənəviyyatına xidmət etdiyi, könüllərin və ruhların zülmət pərdəsi arxasında öləzidiyi bir zaman və məkan daxilində həqiqi eşqə və aşiqə yer yoxdur. Bu məqamda Cavid romantizminin baş qəhrəmanı təlatümlər içərisində çırpınan Tanrı bəndəsidir və həmin baş qəhrəman təsəllini təsdiqdə deyil, inkarda tapır. Ən əhəmiyyətlisi isə Cavid inkarı təsdiq xarakterlidir. Başqa sözlə, Hüseyn Cavid özünün tilsimli sözləri ilə inkarın poetikasını yaradan böyük söz ustadıdır.

Nə eşq olaydı, nə aşiq, nə nazlı afət olaydı!
Nə xəlq olaydı, nə xaliq, nə eşqi-həsrət olaydı!

Nə dərd olaydı, nə dərman, nə sur olaydı, nə matəm!
Nə aşiyaneyi-vüslət, nə bari-firqət olaydı!

Könüldə nuri-məhəbbət, gözümdə pərdeyi-zülmət!
Nə nur olaydı, nə zülmət, nə böylə xilqət olaydı!

…Tükəndi taqətü səbrim, ədalət! Ah, ədalət!
Nə öncə öylə səadət, nə böylə zillət olaydı! (6, s. 127)

Azərbaycan ədəbiyyatşünaslığında bu misralarla əlaqədar çoxsaylı dəyərləndirmələrə rast gəlmək mümkündür. K.Əliyevin qənaətincə isə, eyni misralara yalnız romantizmin prinsiplərindən olan şair fərdiyyətçiliyi nəzərə alınmaqla aydınlıq gətirmək olar: “Bu mahnı korların ağrı və əzabını ifadə edir. Amma ən dəhşətlisi budur ki, korlar Şeyx Sənandan imdad diləyib, gözlərinin açılmasını ondan “iltica” edəndə Şeyx Sənan deyir:

Nəyi görmək dilərsiniz,
Yanıyor od içində həp aləm:
Həm də görməkdə bir məziyyət yox,
Kədər, işgəncə var; məsərrət yox,
Gərçi görmək də başqa nemətdir,
Görməmək ən böyük səadətdir. (2, s. 110-111)

Azərbaycan romantizm ədəbi cərəyanının fədaisi kimi ölməzliyi fəth edən Hüseyn Rasizadənin lirik qəhrəmanı bir məqamda öz sələfinə, daha doğrusu, özünü həyatın Vaqifi elan edən Molla Pənahın lirik qəhrəmanına oxşayır. Hər iki şairin poetik “mən”i “Görmədim” nidası ilə arzularını dilə gətirir. Bununla belə, oxucu Molla Pənahın lirik qəhrəmanına səs vermir. Çünki yaşadığımız cahan mülkündə mütləq doğru halət axtarmaq imkansızdır. Hüseyn Cavidin lirik qəhrəmanı ilə oxucu arasında isə bərabərlik işarəsi qoymaq mümkündür. Çünki oxucu da “səadəti-mənəviyyənin” ardınca qoşmaqda, arzuları ilə həyat arasında keçilməz uçurumlarla qarşılaşmaqdadır:

Bilmədim, uydum bu məcnun könlümün fəryadınə,
Eşqə dil verdim, bəladan başqa bir şey görmədim.
Ruhi-məcruhum gözəllərdən vəfa bəklər yenə,
Mən hənuz əsla cəfadan başqa bir şey görmədim.

… Hər məhəbbət bir xəyanət, hər gülüş bir hiylədir.
Hər səadət rühü oxşar pək sönük bir şölədir.
Bəlkə var səhvim? Fəqət gördüklərim həp böylədir...
Görmədim, əsla bəladən başqa bir şey görmədim. (5, s. 69)

1923-cü ildə Əziz Şərif "Şeyx Sənan" tamaşası ilə bağlı yazdığı məqalədə türk ədəbiyyatı tarixində Hüseyn Cavidin məqamını belə dəyərləndirmişdir: "Onun ilk əsərlərini təhlil edərkən (Əlbəttə ki, söhbət 1913-cü illərdən gedir – İ.Z.) İstambul və Bakı qəzetləri onun parlaq gələcəyindən qabaqcadan xəbər verirdilər. O zaman Hüseyn Cavid ancaq yüksələn ulduz idi. İndi isə o, axtarışlarının dərinliyi, şeirinin gözəlliyi və hissslərinin incəliyi etibarilə türk ədəbiyyatında özünəbərabər qüvvə bilməyən parlaq günəşdir." ( 9, s. 140)

Əslində tarixin qulaq asıb gözlədiyi zamanlarda Hüseyn Cavid heç də sakit oturmadan Azərbaycan ədəbiyyatı tarixini təzələyirdi, qələmə aldığı əsərlərlə romantizm ədəbi cərəyanının prinsiplərini gerçəkləşdirirdi. Hüseyn Cavid zahirən Şeyx Sənanın tarixini, sonuncu Peyğəmbərin tarixini, Səyavuşun tarixini, Xəyyamın tarixini, Əmir Teymurun tarixini, İblisin tarixini yenidən yazır, mahiyyətdə isə ümidsizliyə odalar qoşur, hər dəfə də oxucunu əsrarəngiz bir dünyaya aparır, onu daha ciddi həyat hadisələri ilə baş-başa qoyur, bu zəmində Avropa realizminin prinsiplərinə uyğunluqla Azərbaycan oxucusuna yeni bir insan təqdim edirdi. Hüseyn Cavid oxucunun düşünmək istəmədiyi məsələlər haqqında fikirləşməyə səfərbər edirdi. Fikrimizcə, Hüseyn Cavidin ilk şeirlər məcmuəsinin "Keçmiş günlərdən" adlanması və həmin məcmuədə "Hübuti-Adəm"in ilk olaraq yer tutması təsadüfi deyil. Bəli, zaman-zaman Hüseyn Cavidi günahlandırmışlar ki, şair öz əsərlərində daha çox tarixdən söz açmışdır. Məsələ ondadır ki, şairin müxtəlif əsərlərində tarixə üz tutması da romantizm ədəbi cərəyanının göstəricisidir. Bununla belə, Hüseyn Cavidi hansısa bir tarixi hadisə deyil, ümumiyyətlə insanlıq tarixi və həmin tarixin çağdaş mərhələsi düşündürmüşdür. Budur, "Hübuti-Adəm"də Cavid ilk insandan söz açır, adəmiyyət hissinin güc gəlməsindən, yəni insanın ehtirasa əsir olmasından yaranan faciəni qələmə alır, müasirlərini Adəm-Həvva hekayətindən dərs almağa çağırır. Lakin oxucu yəqinləşdirir ki, Hüseyn Cavidi dünyanın ilk insanın deyil, son insanın taleyi maraqlandırır. Başqa sözlə, böyük ustad fəlakətlər içərisində çırpınan insana üz tutur, çıxış yolunun ülvi ruha sahiblənməkdə olduğunu bildirir. Əslində Cavidin bütün əsərlərinə bir ülvi ruh hakimdir. Cavidə görə, ülvi ruha sahiblənməkdən ötrü insan nəfsin qulu deyil, hakimi olmalıdır. Bu məqamda şairin misraları sadəcə sözlərin poetik düzümündən ibarət deyil, hər bir kəsin ömrü boyu tapınacağı hökmdür: Bəli, "Hübuti-Adəm"in sonundakı misralar mələyin Adəmə müraciəti olduğu kimi, Cavidin insana xitabıdır:

Bu gün əxlaq üçün səndən əmanət
Qalan yalnız fəlakətdir, fəlakət!..
Əmin ol, nerdə nəfs olmuşsa hakim:
Həqiqi eşqi məhv etmiş məzalim,
Kimin ülviysə ruhu, söz onundur,
Əsiri-nəfs olan daim zəbundur. (5, s. 69)

Cavidə görə, İnsan artıq Adəm-Həvva hekayətinə son qoymalı, törətdiyi naqisliklər səbəbindən özünə hesabat verməli, qəfləti özündən uzaqlaşdırmalı, zülmlə sevginin qarşıdurmasında sevginin tərəfində dayanmalıdır. Bu məqamda Hüseyn Cavid romantizminin bəşər övladına dünyanın yaranması və inkişafı haqqında yeni bir fəlsəfi konsepsiya təqdim etməsi də məxsusi vurğulanmalıdır. Prinsipcə, Cavid fəlsəfəsində İblisə yer yoxdur, cəmiyyətlərdəki eybəcərliklərə görə İblis adlı bir varlığı günahlandırmaq doğru deyil. Bəli, Cavid romantizmində İblis heçliyə aid bir məfhumdur, bütün pisliklərin səbəbkarı insandır.

Hüseyn Cavid romantizminin mahiyyətinə nüfuz etməkdən ötrü Azərbaycan romantizminin böyük nəzəriyyəçisi Əli bəy Hüseynzadənin "Füyuzat"ın ilk sayında oxucularla bölüşdüyü aşağıdakı fikirlərə diqqət yetirmək kifayətdir: "...Həyat bir dərəcəyə qədər tərif edilmiş isə də, lakin "həyatın" mənayi-həqiqisi nədir? –sualı cavabsız qalmışdır. Hərəkət, fəaliyyət, rəqabət, mübarizə nə üçündür? Nəşvü nüma, dövri-kəmal nəyə lazımdır? Həyatın mənayi-həqiqisi nədir? Bizə qalırsa, həyatın mənayi-həqiqisi meyli-füyuzatdır!..

"Füyuzat" ləfzən "feyz"in cəmül-cəmi olub rifah və bərəkətə, bolluğa, maddi və mənəvi

nemətlərin bolluğuna, tərəqqiyyat və kəmalatın şəşəəyi-təcəllisinə dəlalət edərsə də, fəqət əsl məfhumu səadət və ələlxüsus səadəti-mənəviyyədir, həqiqi zövq və səfalərdən ibarət bir səadəti-mənəviyyədir." ( 3, s. 2)

Şübhəsiz ki, Azərbaycanda romantizm ədəbi cərəyanını, o cümlədən Hüseyn Cavidin yaradıcılığını bu müddəadan kənarda təsəvvür etmək qeyri-mümkündür. Yəni Hüseyn Cavid romantizmini səciyyələndirən əsas cəhətlərdən biri mənəvi səadət axtarışıdır. Və mənəvi səadətə çatmaq üçün "Hübuti-Adəm"ə görə Adəm övladı nəfsinə hakim olmalı, "Bakıda" şeirinə görə, cəmiyyətlər daxilində ictimai zülmə son qoyacaq ədalət bərqərar edilməli, "Qız məktəbində"nin poetikasına əsasən insanlığı sevməyi öyrənməli, bütün bunlarla bərabər, Vətən adlı bir uca varlığa tapınmağı bacarmalıdır. Nəhayət, böyük Hüseyn Cavidin qənaətincə, insanda mənəvi səadəti şərtləndirən ən böyük amil Vətən dərdi, Vətən eşqi, Vətən xəyalı, Vətən sözü, vüsali-vətəndir.

Olubdu qəlbimə hakim mənim məlali-vətən,
Başımda şur ilə məskən salıb xəyali-vətən.
Vətən, vətən deyərək hər diyarə səs salıram,
Düşərmi bircə dilimdəm mənim məqali-vətən?
Vətən məhəbbətini əmr edibdi peyğəmbər,
Xoş ol kəsə ona həmdəm olub vüsali-vətən...
…Gərəkdi əzm ilə, hümmətlə ittihad etmək!
Sizinlə bağlıdır iqbalü həm zəvali-vətən.
Əgər sual edələr - Salikin xəyalı nədir?
Deyin həqiqəti, ancaq olub maali-vətən. (maal-yüksəliş) (5, s. 69)

Hüseyn Cavidin yaradıcılığında insana və insanlığa məhəbbət mövzusunun geniş bir şəkildə yer tutması müşahidə edilməkdədir. Ədəbiyyatşünas Məmməd Cəfər Cəfərovun"Azərbaycan ədəbiyyatında romantizm" adlı əsərində romantizm ədəbi cərəyanı və məhəbbət probleminə belə aydınlıq gətirilmişdir: "1905-ci ildən başlayaraq birinci dünya müharibəsinə qədər bu cərəyana mənsub olanlar, səsi çox uzaqlardan, qoca Şərqin "incə hikmətlər" fəlsəfəsindən gələn "ümumi məhəbbət" ideyasını təbliğ edirdilər, onu ən böyük xilaskar ideya sayırdılar. Romantik ədəbiyyatda bu, ümumi bir fikir cərəyanı halını almışdı və bu romantizmə mənsub olan elə bir yazıçı yox idi ki, həmin fikir cərəyanına bağlı olmasın, rəğbət göstərməsin. Müharibə bu "ümumi məhəbbət" ideyasının, bu xırda-burjua humanizminin çox-çox köhnəldiyini göstərəndən sonra romantiklərin yenə hamısı bu dəfə başqa bir fikir – "haqqını sən mübarizə ilə ala bilərsən!", "ümumi məhəbbət ancaq məzlumları aldatmaq üçün bir vasitə imiş" fikrini təbliğ etməyə başladı. 1914-1917-ci illərdə romantik ədəbiyyatda bi ideya da ümumi hal almışdı və elə bir romantik yazıçı yox idi ki, bu yeni fikir cərəyanına bağlı olmasın, rəğbət göstərməsin." (8, s. 12 )

Məlum faktdır ki, Hüseyn Cavid "Şeyx Sənan" faciəsini 1914-cü ildə qələmə alıb. Şair hələ 1911-ci ildə Tiflisə getmiş, "Şeyx Sənan" şeirini yazmışdır. Qeyd-şərtsiz, dünya romantizmi ədəbi cərəyanında, bəlkə də, yeganə haldır ki, bir yazarın məqbərəsi önündə onun öz şeirini oxumaq bu qədər yerinə düşür:

Oyan, ey piri-xoşdil! Qalq, ayıl bir xabi-rahətdən!
Qiyamətdir, qiyamət!.. Qalq, oyan, zevq al bu fürsətdən.
Mələklər göydən enmiş, feyz alırlar xaki-pakindən,
Seçilməz şimdi əsla məqbərin gülzari-cənnətdən.
..Uyub sən bir mələksimayə satdın dini, imanı,
Atıb ehkami-Qur'anı, uzaqlaşdın təriqətdən.
Fəqət xoş bir təriqət qoydun, əsla məhv olub getməz,
Cihan durduqca parlar, yüksəlir, düşməz təravətdən.
.."Nədir mə'nası eşqin!?" söyləyənlər nerdə? Bir gəlsin,
Görüb qüdsiyyəti-Sən'anı, lal olsun xəcalətdən.
Məhəbbətsiz bütün mə'nayi-xilqət şübhəsiz hiçdir,
Məhəbbətdir əvət, məqsəd şu pürəfsanə xilqətdən. (5, s. 69)

Bəli, "Şeyx Sənan" şeiri sanki Cavidin özünə yazılıb və bizə Hüseyn Cavid

romantikasını bu qədər gerçəkləşdirən ulu öndər Heydər Əliyev dühası qarşısında baş əymək qalır.

Ən əhəmiyyətlisi isə ondan ibarətdir ki, Hüseyn Cavid romantizmi məhz real həyatın dərkinə hesablanıb. Başqa sözlə, Hüseyn Cavid yaradıcılığında romantizm sadəcə bir düşüncə tərzidir, ifadə formasıdır, mövcud cəmiyyətdə özünə yer tapa bilməyən, təfəkkür imkanları ilə müasirlərindən fərqlənən, çıxış yolunu müəyyən qədər pafoslu aldanışlarda görən bir fikir sahibinin bu günə ünvanlanmış sözdür. Fikirlərimizin təsdiqi üçün şairin "Topal Teymur" əsərindən şair Kirmani ilə Teymurun dialoquna diqqət yetirmək kifayətdir:

"**Şair**: (laübali və yarımsərxoş bir qəhqəhəylə). Şənlik... o da şənlik, bu da şənlik... Qavğa... o da qavğa, bu da qavğa... Yalnız, əvət yalnız arada bir fərq var ki, siz cəngavərlər insan qanına hərissiniz, biz şairlər gülgün şərabə... Onda vəhşət və dəhşət var, bunda zevq və şətarət. ….. Siz insan qafalarını qırarkən, biz də o qafalardan yapılma qədəhləri bir-birinə vururuz. Siz hərb və dəhşət qalibi, biz eşq və məhəbbət məğlubu. Fəqət bizim şu məğlubiyyətimiz o qalibiyyətdən daha üstündür.

**Teymur**: Bəxtiyar şair! Səni sərməst edən tatlı xəyal, yalnız xoş bir təsəllidir. Bununla bərabər sən pək böyüksün, əvət, sənin kibi dəyərli simaların qədr və qiyməti anlaşılsaydı, bənim kibi (cəngavərlər) topallar soldakı sıfır qadar mənasız qalırdı. Siz yarasalar ölkəsində, korlar məmləkətində parlayan bir günəşsiniz. Əfsus ki, insan adını daşıyan ikiayaqlı həşərat pək qaba və pək səfil bir şey... İştə …. onların pas tutmuş kirli vicdanlarını yıqamaq için yalnız Teymur qılıcı lazım... Əvət sevgili şair! İnsanlar mərhəmət və məhəbbətdən ziyadə dəhşət və qüvvətə tapınırlar." (7, s. 260-261)

İlk dəfə Belinski "Puşkinin hər bir misrası gələcək nəslindir" demişdir. Biz də "Hüseyn Cavidin romantizmi bəşəriyyətin sabahı üçündür", - desək, səhv etmərik.

**ƏDƏBİYYAT**


1. Cavidi xatırlarkən (Hüseyn Cavid haqqında məqalə və xatirələr toplusu). Bakı: Zərdabi, 2012
2. Əliyev K. Romantizmin poetikası. Əsərləri, 10 cilddə. II cild. Bakı: Elm və təhsil, 2018
3. Füyuzat (1906-1907). Bakı: Çaşıoğlu, 2007
4. Həbibbəyli İ. Ədəbi şəxsiyyət və zaman. Əsərləri, 10 cilddə, II cild. Bakı: Elm və təhsil, 2017
5. Hüseyn Cavid. Əsərləri. 5 cilddə, I cild, Bakı: Lider nəşriyyat, 2005
6. Hüseyn Cavid. Əsərləri. 5 cilddə, II cild. Bakı: Lider nəşriyyat, 2005
7. Hüseyn Cavid. Əsərləri. 5 cilddə, V cild. Bakı: Lider nəşriyyat, 2005
8. Məmməd Cəfər. Seçilmiş əsərləri. II cild. Bakı: Çinar-Çap. 2003
9. Məmmədli Q. Cavid-ömür boyu. Bakı: Yazıçı, 1982



**РЕЗЮМЕ**

**ИМАН ДЖАФАРОВ**

**ЛИТЕРАТУРНОЕ ТЕЧЕНИЕ ЕВРОПЕЙСКОГО РОМАНТИЗМА И ГУСЕЙН ДЖАВИД**

Согласно древней мифологии, богиня красоты Афродита умела влиять на душу человека своим знаменитым поясом, а Гомер впервые украл упомянутый пояс Афродиты. Столь художественную вершину азербайджанской литературы покорил Гусейн Джавид.

Одна из уникальных особенностей романтического литературного направления в европейской литературе — идеализация женщины, а другая — патетический обман. Те же черты наблюдаются и в стихотворении «Боже мой». Гусейн Джавид написал женщину, достойную любви, в центре созданной Богом гармонии, состоящей из красоты. Пафос поэзии способен отделить человека от жизни вообще.

Бог Гусейна Джавида уникален, создан из красоты и любви. Иными словами, Гусейн Джавид четко утверждает, что Бог – творец всей красоты в жизни, а человек – причина всего уродства.

Гусейн Джавид, переписавший историю Шейха Саны, историю последнего Пророка, историю Саявуша, историю Хайяма, историю Амира Теймура, историю Дьявола, представил азербайджанскому читателю в соответствии с принципами европейского реализма.

В творчестве Гусейна Джавида романтизм – это всего лишь образ мышления, форма выражения, слово, обращенное к сегодняшнему дню носителем идеи, который не может найти себе места в современном обществе, отличается от своих современников своими мыслительными способностями, видит выход в каких-то жалких заблуждениях.

***Ключевые слова**: Афродита, пояс, пафос, заблуждение, женщина, идеализация, природа, Хайям, красота, Бог.*

**SUMMARY**
**IMAN JAFAROV**
**EUROPEAN ROMANTICISM LITERARY TREND AND HUSEYN JAVID**

According to ancient mythology, the goddess of beauty Aphrodite was able to influence the human soul with her famous belt, and Homer stole the said belt of Aphrodite for the first time. Such an artistic peak in Azerbaijani literature was conquered by Huseyn Javid.

One of the unique features of the romantic literary trend in European literature is the idealization of women, and the other is pathetic deception. The same features are observed in the poem "My God". Huseyin Javid wrote a woman worthy of love at the center of the harmony created by God, consisting of beauty. The pathos of poetry has the power to separate a person from life in general.

Huseyin Javid's God is unique, made of beauty and love. In other words, Huseyn Javid clearly states that God is the creator of all beauty in life, and man is the cause of all ugliness.

Huseyin Javid, who rewrote the history of Sheikh Sana, the history of the last Prophet, the history of Sayavush, the history of Khayyam, the history of Amir Teymur, and the history of the Devil, presented a new person to the Azerbaijani reader in accordance with the principles of European realism.

In Huseyn Javid's work, romanticism is just a way of thinking, a form of expression, a word addressed to today by an idea owner who cannot find a place for himself in the current society, differs from his contemporaries with his thinking capabilities, and sees the way out in some pathetic delusions.

***Key words**: Aphrodite, belt, pathos, delusion, woman, idealization, nature, Khayyam, beauty, God.*

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

UOT:82

**XURAMAN HACIZADƏ**
“Naxçıvan” Universiteti
xuraman_hacizade@mail.ru
DOI: 10.5281/zenodo.10983877

# İSLAM SƏFƏRLİNİN ŞEİRLƏRİNDƏ FONETİK ƏVƏZLƏNMƏ

*Akultinativ dillərdən biri kimi Azərbaycan dilində də xüsusən fonetik qanunların, hadisələrin tələbi ilə meydana çıxan fonetik əvəzlənmələr baş verir. Fonetik əvəzlənmələr nitq prosesində danışıq səslərinin fizoloji və akustik keyfiyyətlərində baş verən dəyişikliklərdən törəyən fonetik hadisənin əmələ gətirdiyi nəticələrə əsasən yaranır. Səslərin bu cür kombinator dəyişilməsinə assimilyasiya, dissimilyasiya, səsdüşümü, səsartımı, səslərin yerdəyişməsi və s. kimi hadisələr daxildir. Həm saitlərin, həm də samitlərin fonetik əvəzlənməsi mümkündür. Beləliklə, nitq zamanı səslər bir-biri ilə yaxın əlaqəyə girir, bir-birinə təsir edir, tələffüzü asanlaşdırmaq üçün müəyyən dəyişikliklərə məruz qalır.*

*Azərbaycanın məşhur nəğməkar şairi İ.Səfərlinin şeirlərində də fonetik əvəzlənməyə geniş rast gəlmək olur. Demək olar ki, şeirlərin böyük əksəriyyətində baş verən bu cür fonetik əvəzlənmələr əsərin bədii gücünü bir az da artırmış, fonetik boya yaratmışdır. Xüsusilə tələffüz zamanı yaranan fonetik əvəzlənmələr şeirlərə axıcılıq, poetik gözəllik qatmışdır.*

***Açar sözlər:*** *sait, samit, uyuşma, fonetik əvəzlənmə, fonetik fərq, fonetik hadisə.*

Bütün iltisaqi dillərdə olduğu kimi, Azərbaycan dilində də fonetik əvəzlənmə özünü göstərməkdədir. Fonetik əvəzlənmələr iltisaqi dillərdə xüsusən fonetik qanunların, hadisələrin tələbi ilə meydana çıxır. “Nitq zamanı səslər bir-biri ilə yaxın əlaqəyə girir, bir-birinə təsir edir, tələffüzü asanlaşdırmaq üçün müəyyən dəyişikliklərə məruz qalır. Nitq prosesində danışıq səslərinin fizoloji və akustik keyfiyyətlərində baş verən dəyişikliklər fonetik hadisə adlanır və bu hadisənin əmələ gətirdiyi nəticələrə isə fonetik əvəzlənmələr deyilir” (4, səh.276).

Fonetik əvəzlənmələr Azərbaycan dilində olduqca geniş sahəni özündə birləşdirir. Belə ki, həm saitlərin, həm də samitlərin fonetik əvəzlənməsinə rast gəlirik. “Fonetik hadisələrin bəzisi tam halda ümumi prosesə çevrilərək qanuniləşir, bəzisi isə ümumiləşmiş halda deyil, məhdud dairədə qanunilәşir. Buna görə də belə qanunilәşən fonetik hadisələr orfoqrafik və orfoepik qanun mahiyyəti kəsb edir və fonetik qanun sayılır” (3, səh. 99). Azərbaycan dilində ən mühüm fonetik hadisə ahəng qanunudur ki, həm saitləri, həm də samitləri əhatə edir. Bu fonetik əvəzlənmə digərlərindən öz daimiliyi ilə kəskin fərqləndiyindən o, Azərbaycan dilçiliyində fonetik qanun adlandırılmışdır. Azərbaycan dilində səslərin kombinator dəyişilməsinə isə assimilyasiya, dissimilyasiya, səsdüşümü, səsartımı, səslərin yerdəyişməsi və s. kimi hadisələr daxildir.

Nəğməkar şair İslam Səfərlinin poetik yaradıcılığında xeyli fonetik əvəzlənməyə rast gəlirik. Bu cür fonetik əvəzlənmələr əsərin bədii gücünü bir az da artırmış, fonetik boya yaratmışdır. Şeirlərə axıcılıq, poetik gözəllik qatmışdır.

İ.Səfərli şeirlərində həm sait, həm də samit fonemlərin əvəzlənmələrini müşahidə etmişik.

Saitlərin sözdə düşərək yerini samit səsə verməsi, dəyişilməsi İ.Səfərli yaradıcılığında da öz əksini tapmışdır. Şair “Odlar vətəni” şeirində yazır:

Könlümün tərlanı qalxmış cövlana,
Çıxmışam qoynunda yenə seyrana,
Eşqin cansızı da gətirir cana
Sevda beşiyində bəslədin məni,
Ey odlar vətəni, odlar vətəni!... (6, səh. 14).

Verilmiş şeirdə könlümün, qoynunda sözlərində ikinci hecada sait səs düşərək yerini samit səsə vermişdir. Onu da qeyd edək ki, saitartımından fərqli olaraq, bu əvəzlənmə artıq həm yazıda, həm tələffüzdə qanunlaşmışdır.

Nəğməkar şair İ.Səfərlinin “Nə vaxta qaldı?” şeirində də səsdüşümü hadisəsinə rast gəlirik:

Göyləri ay gəzir, hava bürkülü,
Eyvanda durmuşam boynu bükülü.

Bəlkə, eşqimizin sona bülbülü
Uçub yol üstdəki qovaqda qaldı?.. (6, səh. 148).

Verilmiş şeir parçasının ikinci misrasındakı boynu sözündə ikinci hecadakı sait səs düşmüşdür.

Qeyd edək ki, Müasir Azərbaycan dilində söz köklərində sait fonemlərin əvəzlənmələri yalnız bir səbəbdən-qısalıq-uzunluq səbəbindən irəli gəlir. Lakin bu əlamətlər əvəzlənmədə dilimizin bütün saitlərinə aid deyildir. Bundan başqa, həmin hadisə konkret sözləri əhatə edir. Azərbaycan saitlərinin göstərilən prinsip üzrə olan əvəzlənmələrinə aid bizə əsas etibarilə adi a səsinin uzun a səsi ilə əvəzlənməsi məlumdur. Belə ki, bəzi alınma sözlərin son hecasındakı a saiti həmin sözə saitlə başlayan şəkilçi artırıldıqda öz uzun variantı ilə əvəz olunur. Məsələn: kino-kino:nun, həyat-həya:tın, dünya-dünya:nın və s.

Şifahi Müasir Azərbaycan dilində müşahidə olunan sait əvəzlənmələrindən birinə də açıq saitlə bitən sözlərə y samiti ilə başlanan şəkilçi qoşulduqda rast gəlmək olur. Bu zaman açıq sait qapalı saitlə əvəzlənir. İ.Səfərli "Təhsil illəri" şeirində yazır:

Ey dost, sən Bakıya təzə gələndə,
İpləri ağ yundan corab geyərdin.
Uzanıb yerinə, əlində dəftər,
Payız gecələri mürgüləyərdin... (6, səh. 106).

Verilmiş şeir nümunəsində mürgüləyərdin (mürgülüyərdin) sözündə y samitindən əvvəl gələn ə saiti yerini ü saitinə vermişdir.

Yaxud "Laçın dağlarında" şeirində oxuyuruq:

Otlayır sürüsü göy yaylaqların,
Durmuş şiş qayalar çobansayağı.
Qurbanı olduğum qarlı dağların
Üşüyür zirvəsi, yanır ayağı.
Dərədən iti keç, dolaydan asta,
Qoy səhər küləyi dəysin alnıma.
Odur, moruq yığır yol üstdə,
Birisi bənzəyir öz nişanlıma (6, səh. 117).

Birinci misrada otlayır (otduyur), sonuncu misrada isə bənzəyir (bənziyir) sözlərində açıq sait qapalı saitlə əvəzlənmişdir. Və yaxud şairin "İlk xatirələr" şeirində oxuyuruq:

Gözələ göz dəyər,
Qəlbə söz dəyər.
Hicrana düşən, gülüm,
Vüsal gözləyər... (6, səh. 138).

Verilmiş şeir parçasında gözləyər sözü (gözdüyər) kimi tələffüz olunur. Burada da ikinci hecada açıq ə səsi yerini qapalı ü səsinə verir.

Azərbaycan dilində bir çox alınma sözlərdə o dodaq saitinin a damaq saiti ilə əvəzlənməsi xarakterik haldır. Eyni hadisəyə İ.Səfərlinin şeirlərində də rastlaşırıq. O, "Aqronom oğlan" şeirində yazır:

Kəndimizə gələn, aqronom oğlan,
Tarlalar əlinlə gülzara dönür.
Kolxozun çölləri yamyaşıl görünür! (6, səh. 150).

Burada aqronom (aqranom) sözünün ikinci hecasındakı o səsi, kolxoz (k'alxoz) sözünün isə birinci hecasındakı o səsi a səsi ilə əvəzlənir.

İ.Səfərli şeirlərində ədəbi dildə baş verməyən, Azərbaycan dialekt şivələrində işlənən fonetik əvəzlənməyə də rast gəlmək olur. Şairin "Yadıma düşdü" şeirində işlətdiyi "baxt" sözündə bu sait əvəzlənməsini görürük.

Dəydi saçlarıma bahar küləyi,
Nazəndə sevgilim, yadıma düşdün.
Hərənin baxtına bir gözəl düşər,

Sən də təkcə mənim adıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün (6, səh. 147).

Burada bəxtinə sözünün yerinə şair baxtına işlətmişdir. Sözdəki dilönü incə ə səsinin yerinə dilarxası qalın a saiti işlənmişdir. Ahəng qanununun tələbinə görə də şəkilçi təkibindəki sait səs də özündən əvvəl səslə uyğunlaşmışdır. Beləliklə, baxt sözünə qoşulan şəkilçidə də qalın saitdir.

İ.Səfərlinin baxt sözünü "Bir parça bulud" şeirində də işlətmişdir:

Qalxıb göy üzünün qurur taxtına,
Günəş arxalandı qızıl baxtına.
Ayağı od tökdü, başı zər seli,
Axdı alınlardan yenə tər seli (6, səh. 146).

M.Şirəliyev "Azərbaycan dialektologiyasının əsasları" kitabında qeyd etdiyimiz fonetik əvəzlənməni bu cür izah edir: "Ə səsinin a səsi ilə əvəzlənməsi hadisəsi ən çox ahəngi gözləyən qərb dialekt və şivələrinə aiddir. Lakin bu hadisəyə Şahbuz və Şərur, Zaqatala-Qax, Muğan şivələrində, Bakı və Qubanın müəyyən kənd şivələrində də təsadüf edilir. Bu hadisəyə sözün müxtəlif yerlərində və bir çox hallarda ərəb, fars mənşəli sözlərdə də rast gəlmək olar.

Heydar (Qaz., Qar., Şər.), hayat (Qaz., Şər., Şah., Muğ.), tuşman (Qaz., Muğ.), ciyar (Qaz., ., Muğ., Qar., G., Şər., Şah., Q.-Xur.,)..." (8, səh. 40).

Gördüyümüz kimi, şairin nitqində öz əksini tapan baxt sözündəki sait əvəzlənməsi Naxçıvan dialekt və şivələrində də işlənən fonetik hadisədir.

İ.Səfərli şeirlərində sait əvəzlənmələri ilə müqayisədə samit fonemlərin əvəzlənmələrini daha çox müşahidə etmişik. Şair "Sənə qurban canım, Azərbaycanım" şeirində yazır:

Torpağın ətrini sinəmə çəkdim, dodağım gül açdı,
Ürəyim çiçək.
Xəzər sahilində bir çinar əkdim, söyüdlər nazlandı
Gülümsəyərək (6, səh. 13).

Verilmiş şeir parçasında xeyli fonetik əvəzlənmə vardır. Belə ki, birinci misrada çəkdim, ikinci misrada çiçək, üçüncü misrada əkdim sözlərindəki k fonemi yerini $x^1$ foneminə vermişdir. Müasir Azərbaycan dilinin ədəbi tələffüz qaydasına görə çəkdim-(ə$x^1$dim), çiçək-(çiçə$x^1$), əkdim-(ə$x^1$dim) kimi tələffüz olunur. Gördüyümüz kimi, hər üç sözdə əmələ gəlmə üsuluna görə kipləşən samiti novlu samit əvəz etmişdir.

Eyni zamanda birinci misradakı açdı (aşdı) sözündə ç qovuşuq (affrikat) samit ş novlu, üçüncü misradakı nazlandı (nazdandı) sözündə isə l novlu samiti d kipləşən samiti ilə əvəzlənmişdir. Əslində birinci sözdə dissimilyasiya hadisəsi baş vermişdir. Onu da qeyd edək ki, ç foneminin ş ilə əvəzlənməsi dialekt və şivələrdə də müşahidə olunmaqdadır: "Dissimilyasiyanın bu növündə d səsi özündən əvvəl gələn qovuşuq ç səsinə təsir edərək, onun parçalanmasına səbəb olmuş və nəhayət, geri dissimilyasiya hadisəsinə görə t səsi düşmüşdür: qaçdı-qatşdı-qaşdı, keçdi-ketşdi-keşdi, saçlar-saşdar..." (6, səh. 112).

Dissimilyasia hadisəsinə İ.Səfərlinin sözlərinə mahnı bəstələnən "Ay qaşı, gözü qara qız!" şeirində də rast gəlmək olar:

Göy çəməndə ötür turac,
Sübh açılır, gülür yamac.
Başındakı öpəyi aç,
Saçlarını yan dara, qız,
Ay qaşı, gözü qara qız! (6, səh. 143)

Verilmiş şeir parçasındakı saçlarını sözündə ç samitini ş samiti əvəz edir. Beləliklə, bu söz (saşlarını) kimi tələffüz olunur.

İ.Səfərlinin şeirlərində Azərbaycan dilinin samitlər sistemində geniş yayılmış kombinator fonetik əvəzlənmə olan uyuşmaya daha çox rast gəlirik. "Müasir Azərbaycan dilinin faktik materiallarına və dilçilik ənənəsinə əsasən, samit fonemlərin morfemlər sərhədində əvəzlənmələri üçün aşağıdakı dörd əlaməti əsas götürülür: 1) fəal üzvə görə, 2) əmələ gəlmə üsuluna görə, 3) səs tellərinin iştirakına görə, 4) yumşaq damağın vəziyyətinə görə" (4, səh. 291). Bun bölgü dilçi alim A.Axundova məxsusdur. Alim uyuşmanın bütün növlərinin Azərbsaycan dilində özünü göstərdiyini

qeyd edir. Digər alim Ə. Dəmirçizadə isə yazır: "Dilin əvvəlki səs üçün almış olduğu vəziyyəti dəyişməyib sonrakı səsi də həmin məxrəcə salması nəticəsində və ya əvvəlki səsin tələffüzü anında sonra gələn səs üçün lazım olan vəziyyətə düşməsi nəticəsində də uyuşma baş verə bilər. Buna görə də söz daxilində yanaşı düşən nl, rl, zl, ml, tl səs birləşmələri çox zaman nn, ll, zd, mn, td səs birləşmələri halında tələffüz olunur" (3, səh. 101).

Dəniz mahnısını oxudu sanki, ətəyi ləpəli,
Qırçınlı Bakı...
Kükrədi ilhamım, qaynadı qanım, Sənə qurban canım,
Azərbaycanım!
Ağ bir şərid kimi uzanıb gedir, dumanlı,çiskinli,
günəşli yollar,
Bəzisi həyatdan uzanıb gedir, mənimsə yollarda
hekayətim var (6, səh. 13).

İ.Səfərlinin verilmiş şeir parçasında qırçınlı (qırçınnı), dumanlı (dumannı), çiskinli (çisginni) sözlərində də assimilyasiya hadisəsi baş verir. Şair başqa bir şeirində yazır:

Gülər üzlü həkim qız,
Ey gözləri bənövşə.
Qapımızdan keçəndə
Sarsılıram həmişə (6, səh. 140).

Verilmiş bu şeir parçasında da üzlü (üzdü), gözləri (gözdəri) sözlərində uyuşmaya görə fonetik əvəzlənmə baş vermişdir.

Azərbaycan dilində səs tellərinin iştirakına görə karlıq-cingiltililik əlamətinə əsasən uyuşma hadisəsi nisbətən geniş yayılmışdır. Belə ki, kar və cingiltili samitlərin hamısı müvafik fonetik şəraitdə öz kar və cingiltili qarşılıqları ilə əvəzlənirlər. Ən çox baş verən əvəzlənmələr bunlardır: d-t, z-s, c-ç, g-k, q-x, q-k[1]. İ.Səfərli şeirlərində də bu cür əvəzlənmələr baş verir:

Əziz vətənim, sevdalı diyar,
Ana qoynunda oldum bəxtiyar.
Mingəçevirim nurlu çələngdir.
Doğma Bakımız şərqdə nəhəngdir (6, səh. 26).

"Azərbaycanım" şeirindəki şərqdə (şərk[1]də) sözündə q-k[1], nəhəngdir (nəhənkdir) sözündə isə g-k əvəzlənməsi baş verir.

Uyuşmanın bu növünə "Bakı bir Bakıdır ki..." şeirində də rast gəlmək olar:

Sıx buruqlar meşəsi
Dövrəyə almış səni
Böyük sülh alayı tək,
Şeirimi bəzəyirsən,
Qucağında görünən
Hökümət harayı tək (6, səh. 20).

Bu şeir parçasında isə buruqlar (buruxlar) sözündə q samiti x samiti ilə əvəzlənir.

Azərbaycan dilinin əsas fonetik xüsusiyyətlərindən biri iki saitin yanaşı işlənməməsidir. İki saitin yanaşı işlənməsi əsasən alınma sözlər üçün xarakterik xüsusiyyətdir. Bir qrup sözlər vardır ki, bu sözlərdə iki sait yanaşı işlənərsə, Azərbaycan dilinin ədəbi tələffüz qaydalarının tələbinə əsasən həmin saitlər arasına samit səs artırılır. İ.Səfərlinin şeirlərində də bu cür samitartımına rast gəlmək olur. "Sevgi valsı" şeirində yazır:

Oxuyaq, ey sevgilim,
Nəğməmiz həyat olsun.
Daim ucalmaq üçün
Eşqimiz qanad olsun (6, səh. 140).

Yaxud "Meşəli sahillər" şeirində oxuyuruq:

Təbiətin rəssam əli
İnsan üçün nə çəkməmiş?...

...Ala-toran, sübh açılır, balıqçılar dənizdədir (6, səh. 215).

Birinci şeirdə daim sözü (dayim), ikinci şeirdə isə təbiət sözü (təbiyət) kimi tələffüz olunur. Bu sözlərdəki yanaşı işlənmiş saitlərin arasına y samiti əlavə olunur.

Göründüyü kimi, ədəbi dilimiz üçün xarakterik olan fonetk əvəzlənmələr İ.Səfərlinin şeir dilində də geniş şəkildə öz əksini tapan fonetik hadisədir.

**ƏDƏBİYYAT**

1. Axundov, A.A. Azərbaycan dlinin fonetikası / A.A. Axundov. – Bakı: Maarif, –1984, –392 s.
2. Axundov, A.A. Azərbaycan dilinin fonemlər sistemi / A.A. Axundov. -Bakı: Maarif, -1973, -302 s.
3. Dəmirçizadə, Ə. Müasir Azərbaycan dili (Fonetika. Orfoqrafiya. Orfoepiya) / Ə. Dəmirçizadə. –Bakı: Şərq-Qərb, –2007, –256 s.
4. Müasir Azərbaycan dili (Fonetika və fonologiaya) I cild / Nağısoylu M.Z., Veysəlli F.Y., Kazımov İ. B. [və b.] –Bakı: Elm, –2019, –734 s.
5. Yusifov, M.İ. Azərbaycan dilinin fonetikasının əsasları / M.İ. Yusifov. –Bakı: Elm və təhsil, –2012, –320 s.
6. Səfərli, İ. Seçilmiş əsərləri / İ.Səfərli, –Bakı: "Lider" nəşriyyatı, –2005, –224 s.
7. Sultanov, R. Dil vahidləri və onların xarakterik xüsusiyyətləri haqqında // –Bakı: Azərbaycan Dövlət Universitetinin elmi əsərləri, –1956, №1, –s. 128-136.
8. Şirəliyev, M. Ş. Azərbaycan dialektologiyasının əsasları / M. Ş. Şirəliyev. –Bakı: Şərq-Qərb, –2008, –416 s.
9. Veysəlli, F.Y. Azərbaycan dilinin funksional qrammatiksı: fonemika və morfemika. I cild. / F.Y. Veysəlli. – Bakı: "Prestige çap evi", –2014, –530 s.
10. Veysəlli, F.Y. Fonetika və fonologiya məsələləri / F.Y. Veysəlli. –Bakı: Maarif, –1993, –192 s.
11. Zülfüqarov, R.Ə. Naxçıvan MR Ordubad dialektində sait səslərin əvəzlənməsi // –Naxçıvan: AMEA Naxçıvan Bölməsinin xəbərləri, –№1, –2007, –s. 111-116

**РЕЗЮМЕ.**
**ХУРАМАН ГАДЖИЗАДЕ**
**ФОНЕТИЧЕСКАЯ ЗАМЕНА В СТИХАХ ИСЛАМА САФАРЛИ**

Как один из акултинатических языков, особенно в азербайджанском языке происходят фонетические замены, которые появляются по требованию фонетических законов и событий. Фонетические замены возникают по результатам фонетического явления, возникающего при изменении физиологических и акустических качеств произносимых звуков в процессе речевого процесса. К такому комбинаторному изменению звуков относятся ассимиляция, диссимиляция, редукция голоса, редукция голоса, смещение голоса и т. д.

Таким образом, во время речи звуки вступают в тесную связь друг с другом, влияют друг на друга, претерпевают определенные изменения, облегчающие произношение.

Фонетическая замена широко встречается и в стихах известного азербайджанского поэта И. Сафарли. Можно сказать, что такие фонетические замены, встречающиеся в подавляющем большинстве стихотворений, несколько повысили художественную силу произведения и создали фонетический колорит.

**Ключевые слова:** *гласный, согласный, ассимиляция, фонетическая замена, фонетическое различие, фонетическое событие.*

**SUMMARY**
**KHURAMAN HACIZADA**
**PHONETIC SUBSTITUTION IN ISLAM SAFARLI'S POEMS**

As one of the acultinative languages, phonetic substitutions occur especially in the Azerbaijani language, which appear at the request of phonetic laws and events. Phonetic substitutions arise based on the results of the phonetic phenomenon arising from changes in the physiological and acoustic qualities of spoken sounds during the speech process. Such combinatorial change of sounds includes assimilation, dissimilation, voice reduction, voice reduction, voice displacement, etc. including events such as Phonetic replacement of both vowels and consonants is possible. Thus, during speech, sounds come into close contact with each other, influence each other, undergo certain changes to facilitate pronunciation.

Phonetic replacement is also widely found in the poems of the famous Azerbaijani poet I.Safarli. It can be said that such phonetic substitutions, which occur in the vast majority of poems, have slightly increased the artistic power of the work and created a phonetic color. Phonetic substitutions, especially during pronunciation, add fluidity and poetic beauty to the poems.

**Key words:** *vowel, consonant, assimilation, phonetic substitution, phonetic difference, phonetic event.*

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

UOT: 811.133.1.

**ZEYNƏB HACIYEVA**
Naxçıvan Universiteti
zeynebhaciyeva1980@gmail.com
DOI : 10.5281/zenodo.10984043

## FRANSIZ DILINDƏ TAM MƏNALI VƏ KÖMƏKÇI FEİLLƏR
## LES VERBES SIGNIFICATIFS ET LES VERBES AUXILIAIRES A LA LANGUE FRANÇAISE

*Məqalədə fransız dilinin qrammatikasında tam mənalı və köməkçi feillərdən bəhs olunur. Avoir, etre, faire, aller, venir feilləri həm tam mənalı, həm də köməkçi feillər kimi işlənir. Bu feillər həm müstəqil feil kimi, həm də şəxsiz feil kimi, həm köməkçi feil kimi işlənir. Həm də ifadələr də düzəldə bilir.*

*"Avoir", "etre" köməkçi feilləri passé composé zamanının (yəni bitmiş mürəkkəb keçmiş zamanın) düzəlməsində istifadə edilir.*

*"Aller" feili futur inmediat zamanının (yəni yaxın gələcək zamanın) düzəlməsində işlənir.*

*"Venir" feili passe immediat zamanının (yəni yaxın keçmiş zamanın) düzəlməsində istifadə edilir.*

*" Faire" feili isə felin icbar növünün düzəlməsində işlənir.*

***Açar sözlər :*** *feil, köməkçi, şəxssiz, mürəkkəb, müstəqil*

Fransız dilində feillər III qrupa bölünür. Məsdər şəkilçisi « er » ilə bitən feillər I qrupa aiddir. Ex: parler, entrér, rentrer, commencer, rester, tomber, regarder, aimer, aider və s. Remarque « aller » və « envoyer » feillərinin məsdər şəkilçisi, « er » ilə bitməsinə baxmayaraq bu feillər III qrupa aiddir.

Məsdər şəkilçisi « ir » ilə bitib təsrif zamanı « iss » suffiksini qəbul edən feillər II qrupa aiddir. Ex : finir, choisir, grandir, réussir, réunir, remplir, mûrir, salir bâtir verdir et s.

III qrup feilləri təsrif zamanı ümumi qaydaya tabe olmurlar: onların bir neçə kökü ola bilər Təsrif xüsusiyyətlərinə görə III qrup feilləri əsasən aşağıdakı kimi qruplaşdırılır.

Məsdərdə :

- re ilə bitənlər: entendre, boire, dire.
- ir ilə bitənlər: venir, partir, sortir
- oir ilə bitənlər: savoir, pouvoir, voir
- endre ilə bitənlər: attendre, défendre
- ondre ilə bitənlər : répondre,defendre,descendre
- aître ilə bitənlər : paraitre, disparaitre
- frir ilə bitənlər : souffrir, offrir
- vrir ilə bitənlər : ouvrir, couvrir, découvrir
- uire ilə bitənlər: traduire, conduire.
- eindre ilə bitənlər: eteindre, deteindre
- aindre ilə bitənlər: craindre, plaindre

Fransız dilində elə feillər var ki, onlar həm tam mənalı, həm də köməkçi feillər kimi işlənir. Avoir- malik olmaq, être- olmaq, faire- etmək, aller- getmək, venir- gəlmək, belə feillərdir.

**1**. «Avoir- malik olmaq» feili

1.1. «Avoir» – malik olmaq feili müstəqil feil kimi işlənir.

J'ai,Tu as, Il a, Nous avons, vous avez, İls ont (indiki zaman) présent. J'aurai, tu auras, Il(elle) aura, Nous aurons, Vous aurez, İls(elles) auront (gələcək zaman)futur simple. J'avais, Tu avais, İl(elle) avait, Nous avions, Vous aviez, İls(elles), avaient (bitməmiş keçmiş zaman) Imparfait

ex: Nous avons une leçon de français.

Bizim fransız dili dərsimiz var.

ex :Nous avons un cercle de français.

Bizim fransız dili dərnəyimiz var.

Ex: Vous aurez une leçon de français.

Sizin fransız dili dərsiniz olacaq.

Ex :Vous aurez un cercle de français.
Sizin fransız dili dərnəyiniz olacaq.
Ex: Ils avaient un nouvel appartement.
Onların yeni mənzilləri var idi.
Ex: İls avaient une grande maison.
Onların böyük evləri var idi.

1.2. «Avoir» – malik olmaq feili köməkçi feil kimi işlənir.

J’ai parlé, Tu as parlé,İl(elle) a parlé, Nous avons parlé, Vous avez parlé, İls ont parlé (keçmiş zaman) passé composé .
Ex : Nous avons parlé avec notre maître.
Biz öz müəllimimizlə danışdıq.
Ex : Elles ont parlé de ses amies.
Onlar öz rəfiqələrindən danışdılar.
Ex: Vous avez choisi des livres intéressants.
Siz maraqlı kitablar seçdiniz.
Ex: J’ai fini mes exercices. Mən çalışmalarımı qurtardım.

1.3. «Avoir» – malik olmaq feili şəxsiz feil kimi işlənir.

Ex: Dans cette chambre il ya six lits.
Bu otaqda altı çarpayı var.
Ex: Parmi ces camarades il y avait mes amis.
Bu yoldaşların arasında mənim dostlarım var idi.

1.4. «Avoir» – malik olmaq feili ifadə yarada bilir.

Avoir peur-qorxmaq ex : Les petits enfants ont peur de rester seuls à la maison. Balaca uşaqlar evdə tək qalmaqdan qorxurlar.
Avoir de la fièvre – qızdızması olmaq ex : Ma petite fille a de la fièvre. Mənim balaca qızımın qızdırması var.
Avoir lieu- baş vermək
Ex: Cette, histoire a lieu dans la rue. Bu hadisə küçədə baş verir.
Avoir chaud – istiləmək
Ex: Nous avons chaud, il faut auvrir les fenêtres. Bizə istidir, pəncərələri açmaq lazımdır.
Avoir mal à la tête – Başı ağrımaq, Avoir besoin – ehtiyacı olmaq, Avoir le temps- vaxtı olmaq. Avoir du courage- cəsarəti olmaq, Avoir de la patience- səbri olmaq, Avoir du monde- qonağı olmaq. Avoir mal au pied-Ayağı ağrımaq. Avoir la main verte – Əli yüngül olmaq, Avoir le cafard – qəm çəkmək, Avoir honte de Utanmaq. Avoir raison-haqlı olmaq. Avoir confiance-inami olmaq, Avoir envie de- həvəsi olmaq, Avoir froid- üşümək, Avoir l’air-görünmək. Avoir mal à la gorge -Boğazı ağrımaq,
Les phrases. 1. Vous avez l’air fort. Siz güclü görünürsünüz 2. Il a mal à la tête Onun başı ağrıyır. 3. Nous avous besoin de vous. Bizim sizə ehtiyacımız var.
Ils ont le temps, pour aller au cinéma. Onların kinoya getmək üçün vaxtları var. 2.1. Etre olmaq feili, Etre feili müstəqil feil kimi işlənir.Je suis,Tu es, Il(elle) est, Nous sommes, Vous êtes, Ils (elles) sont (indiki zaman) present Je serai, Tu seras, Il(elle) sera, Nous serons, Vous serez, Ils (elles) seront (gələcək zaman) (futur simple) J’étais, Tu étais, Il(elle) était, Nous étious, Vous étiez, Ils(elles) étaient (bitməmiş keçmiş zaman) Imparfait.
Ex : Il est dans la cour. O, həyətdədir. Ex : Nous sommes dans le cabinet de travail.
Biz iş otağındayıq. Ex: Demain vous serez à Baka. Sabah siz Bakıda olacaqsınız. Ex : Ils seront à hopital. Onlar xəstəxanada olacaqlar.
Ex: Vous étiez chez votre ami. Siz dostunuzgildə idiniz. Ex: J’étais devant le tableau.Mən lövhənin qarşısında idim.

**2.** «Etre- olmaq» feili

2.1. «Etre» feili köməkçi feil kimi işlənir. Je suis venu, Tu es venu. Il est venu. Elle est venue. Nous sommes venus, Vous êtes venus. Ils sont venus. Elles sont venues.

Ex : je suis rentré très tard à la maison. Mən eve çox gec qayıtdım. Ex : Nous sommes entrés dans la salle à manger. Biz yemək otağına daxil olduq. Ex :İls sont des cendus au rez-de-chaussé. Onlar birinci mərtəbəyə düşdülər.

2.2. «Etre» feili əlaqə feili də ola bilər. Yəni ismi xəbərin ad hissəsi ilə mübtəda arasında əlaqə yaradır Azərbaycan dilinə dır[4] xəbər şəkilçisi kimi tərcümə olunur. Ex :C’est un livre – Bu kitabdır.

2.3. «Etre» feili ifadə yarada bilir; Etre attentif – diqqətli olmaq.Ex :. Nous sommes attentifs à toutes les leçons. Biz bütün dərslərdə diqqətli oluruq.

Etre paresseux- tənbəl olmaq.

Ex : Ses fils sont très paresseux. Onun oğlanları çox tənbəldirlər.

Etre polis – Nəzakətli olmaq Ex : Mes enfants sont polis.

– Mənim usaqlarım nəzakətlidirlər. Etre d’accord – razı olmaq. ex :Je suis d’accord, allons au cinéma.

Etre à la mode-dəbdə olmaq.

Etre en bonne passe-yaxşı vəziyyətdo olmaq. Etre sans un sou – pulsuz olmaq

Etre occupé – məsğul olmaq

Etre assis- oturmaq

Etre fidèle – sədaqətli olmaq. Etre en panne – qəzaya uğramaq. Etre fou- dəli olmaq

Etre triste – qəmgin olmaq

Les phrases. Je suis triste, parce que j’ai mal à la tete. Mən qəmginəm,çünki başım ağrıyır. Il était sans sou, il ne vait que faire. O, pulsuz idi, bilmirdi nə etsin. Sa fille aînée est à la mode. Onun böyür qızı dəblə geyinir.

2.4. «Etre» feili şəxsiz feil kimi işlənir.

Ex: Il est cinq heures- Saat 5-dir .İl est tot-tezdir

İl est tard-gecdir.

Bundan az sonra yerli əhali arasında böyük nüfuza malik olan Behbud ağa Şahtaxtinski AK(b)P MK-nin Siyasi və Təşkilat Bürosunun 12 yanvar 1921-ci il tarixli qərarına əsasən Hərbi İnqilab Şurasının mandatı ilə Naxçıvana Komissar təyin olundu (3, s. 178). Behbud ağa Şahtaxtinski komissar kimi ilk olaraq Naxçıvanın muxtariyyəti ilə bağlı mühüm bir addım atdı: 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin iştirakı ilə Naxçıvanda ərazinin Azərbaycanın, yaxud Ermənistanın tərkibinə daxil olması ilə əlaqədar əhali arasında referendum keçirilməsinə nail oldu. Referendumun nəticələrinə əsasən əhalinin 90 faizi bölgənin Azərbaycanın tərkibində qalmasına səs verdi. Behbud ağa Şahtaxtinskinin ciddi səyləri

nəticəsində baş tutan bu referendumun nəticələri gələcəkdə Naxçıvan diyarının ərazi mənsubiyyətinin müəyyən edilməsində çox mühüm siyasi-tarixi sənəd kimi həlledici rol oynadı.

Bu qədim diyara Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsində 1921-ci ildə imzalanan Moskva və Qars müqavilələrinin də böyük rolu oldu. N.Nərimanovun prinsipial mövqeyi, Behbud ağa Şaxtaxtinskinin Moskvada apardığı işlər Naxçıvanın muxtariyyət məsələsində V.İ.Leninin mövqeyinin dəyişməsinə səbəb oldu. 16 mart 1921-ci ildə Moskvada Rusiya ilə Türkiyə arasında imzalanan "Dostluq və qardaşlıq haqqında" müqaviləyə Naxçıvanın Azərbaycanın tərkibində qalması ilə əlaqədar maddə salındı.

Behbud ağa Şahtaxtinski Azərbaycanın taleyüklü məsələləri, xüsusilə ölkə ərazisinin bütövlüyü ilə bağlı məsələlərdə heç bir şeydən, hətta öz iradlarını Sovet dövlətinin banisi və başçısı V.İ.Leninə bildirməkdən, yazdığı məktublarla, göndərdiyi arayışlarla ona əsil həqiqəti çatdırmaqdan çəkinməmişdir. Həmin dövrdə bu sözləri V.İ.Leninə demək və ya yazmaq heç də hər bir şəxsiyyətin və ya vəzifə sahibinin işi deyildi. Bunu ancaq Behbud ağa Şahtaxtinski kimi cəsarətli, qorxmaz, vətənpərvər, ölkəsi və xalqı uğrunda həyatını riskə qoyan şəxsiyyətlər edə bilərdi.

Behbud ağa Şahtaxtinski Azərbaycan, Ermənistan, Gürcüstan hökumətləri ilə Türkiyə Böyük Millət Məclisi hökuməti arasında RSFSR hökumətinin iştirakı ilə Qarsda aparılan danışıqlar zamanı Azərbaycan hökumətinin təmsilçisi kimi iştirak etmişdir. Həm də uzunsürən və çox gərgin keçən müzakirələrdən sonra 13 oktyabrda bağlanan müqaviləni də o imzalamışdır. Bununla da, Behbud ağa Şahtaxtinski Naxçıvanın gələcək siyasi-hüquqi statusunun müəyyən edilməsində cavabdeh şəxs kimi mühüm rol oynamışdır. Burada Türkiyə ilə Naxçıvan arasındakı 11 kilometrlik sərhəd xəttinin əldə edilməsində Behbud ağa Şahtaxtinskinin əvəzsiz xidmətlərini də xatırlamaq lazımdır. Çünki, Qars müqaviləsi, Naxçıvan ərazisində Türkiyə ilə Azərbaycan arasında ortaq sərhədin yaradılması istiqamətində də ilk addım kimi mühüm rol oynadı və Türkiyə ilə Azərbaycan arasında 11 kilometrlik sərhəd xəttinin yaradılmasına imkan verdi. Türk alimi Harun Yılmaz yazır ki, başlanğıcda, Naxçıvan Muxtar Respublikası yaradılarkən Naxçıvan və Türkiyə arasında ümumi sərhəd yox idi. Bu, Mustafa Kamal Atatürk ilə İran şahı Rza Pəhləvi arasında Türkiyə ərazisinin Naxçıvana doğru uzadılaraq cənub tərəfdəki Türkiyə torpaqları ilə dəyişdirilməsi yolu ilə ərazi dəyişikliyi barədə razılaşma əldə edildikdən sonra mümkün oldu. Dəyişiklik 1930-cu illərdə Türkiyə ilə Azərbaycan arasında 11 kilometrlik sərhəd xəttinin yaradılmasına imkan verdi. Türkiyə kompensasiya olaraq özünün cənubdakı bəzi torpaqlarını İrana verdi. Bununla da, 1921-ci ildə bağlanmış Qars müqaviləsi ortaq Türkiyə-Azərbaycan sərhədinin yaradılması istiqamətində ilk addım oldu (8). Ancaq, təəssüf ki, Mustafa Kamal Atatürkün "Türk qapısı", Kazım Qarabəkirin isə "Şərq qapısı" kimi dəyərləndirdiyi bu kiçik sərhəd xətti Sovet hakimiyyəti illərində Türkiyə ilə əlaqələri kəsmək üçün bağlanmışdı. Bu sərhəd xətti, yalnız Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, Araz çayı üzərində salınan körpünün 28 may 1992-ci ildə Türkiyə prezidenti Süleyman Dəmirəlin və xalqımızın Ümummilli lideri Heydər Əliyevin iştirakı ilə istifadəyə verilməsindən sonra açıldı.

Qarsda Türkiyə ilə bağlı bir sıra məsələlərin Türkiyənin xeyrinə həll olunmasında da Behbud ağa Şahtaxtinskinin müəyyən rolu olmuşdur. Məlum olduğu kimi 10 avqust 1920-ci ildə Osmanlı dövləti ilə Birinci Dünya Müharibəsində qalib gəlmiş dövlətlər arasında Sevrdə bağlanmış sülh müqaviləsində osmanlılar üçün bir sıra alçaldıcı şərtlərlə yanaşı cənub-şərqi Anadolunun "Müstəqil Kürdüstan"a, əksər sərhəd ərazilərinin isə Daşnak Ermənistanına verilməsi nəzərdə tutulurdu. Ona görə də Türkiyə üçün çox ağır olan bu müqavilə Türkiyə Böyük Millət Məclisi tərəfindən rədd olunmuşdu. Türkiyə ilə Ermənistan arasında 2 dekabr 1920-ci ildə Gümrüdə bağlanan müqavilədə (5, s. 10-16) Türkiyənin sərhəd məsələləri nisbətən qaydaya salınsa da, Ermənistanda Sovet hakimiyyəti qurulduğu və daşnaklar öz hakimiyyətini bərpa edə bilmədikləri üçün müqavilə qüvvəyə minməmişdi. Bu məsələ 1921-ci ilin martında Moskvada, oktyabrında isə Qarsda imzalanan müqavilələrdə Türkiyənin xeyrinə öz müsbət həllini tapdı. Qars danışıqları zamanı Behbud ağa Şahtaxtinski Ermənistanın tələblərinə qarşı çıxmış, Türkiyə nümayəndə heyətinin təkliflərini müdafiə etmiş, sərhədyanı torpaqların Ermənistana verilməsinə etirazını bildirmişdi. Moskva müqaviləsinin I maddəsinin 1(A) əlavəsi ilə birlikdə (5, s. 25, 26, 31-33), Qars

müqaviləsinin isə 5-ci maddəsinin (5, s. 27) Türkiyənin xeyrinə yazılmasında fəallıq göstərmişdi. Nəticədə, Türkiyənin Ermənistanla sərhədləri indiki şəkildə müəyyənləşdirilmişdi. Buna görə də Qars müqaviləsinin şərtlərindən narazı qalan ermənilər danışıqlar zamanı Behbud ağa Şahtaxtinskinin tutduğu mövqeyi onun türk əsilli olması ilə əlaqələndirmiş, hətta V.İ.Leninə qədər şikayət etmişdilər. Ancaq böyük nüfuza, yüksək təfəkkürə və diplomatik hazırlığa malik olan Behbud ağa Şahtaxtinski bu iddiaların əsassızlığını sübut edə bilmişdi. Ancaq, ermənilər ondan əl çəkməmiş, onu təqib etmiş, 1924-cü ildə dövrün mətbuat orqanlarında “intihar” kimi qiymətləndirilən öldürülməsinin təşkilatçılarından olmuşdular.

Behbud ağa Şahtaxtinski bütün siyasi və diplomatik fəaliyyəti dövründə tərəfsiz mövqe tutmuş, müstəqil fəaliyyət göstərmiş, həyata keçirdiyi tədbirlərdə, apardığı danışıqlarda ümum Azərbaycan mənafeyini ön planda saxlamışdır. O, Naxçıvanın hər hansı bir dövlətin himayəsinə verilməsinin qətiyyətlə əleyhinə çıxmış, bölgənin ancaq Azərbaycanın himayəsi altında olması üçün var qüvvəsi ilə çalışmışdır. Bu cəhətdən onun Qars danışıqları zamanı Naxçıvan haqqında məlumat istəyən Türkiyə nümayəndə heyətinə təqdim etdiyi aşağıdakı məzmunda arayış diqqəti cəlb edir. Arayışda yazılmışdı: “Naxçıvan mahalı Azərbaycanın himayəsi altında Muxtar Xalq Şuralar Cümhuriyyəti elan edilmişdir. Bu Cümhuriyyətin özünün Xalq Komissarları Şurası var. İndiyə kimi Naxçıvanın maliyyə ehtiyacları Azərbaycan tərəfindən təmin edilmişdir. Azərbaycan hökumətinin müəssisə və məktəbləri milliləşdirmək haqqındakı əmrləri tədricən bu bölgədə tətbiq edilir. Məzhəb və vicdan azadlığından danışmağa lüzum yoxdur. Çünki bunlar Sovet idarəetmə sistemindəki mövcud qaydalardan birisidir” (1, s. 430). Onun qətiyyətli mövqeyi sayəsində Qarsda bağlanan müqavilənin 5-ci maddəsi və 3-cü əlavəsi (5, s. 70, 79-80) Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə son qoydu.

Bu müqavilə 3 mart 1922-ci ildə Azərbaycan SSR MİK-si, 16 mart 1922-ci ildə Türkiyə Böyük Millət Məclisi, 20 mart 1922-ci ildə Ermənistan SSR MİK-si, 14 iyun 1922-ci ildə Gürcüstan SSR MİK-si tərəfindən ratifikasiya olundu. Bundan sonra İrəvan şəhərində ratifikasiya sənədlərinin mübadiləsi keçirildi. 11 sentyabr 1922-ci ildə baş tutan bu tədbirlə Qars müqaviləsi qüvvəyə mindi. Qars danışıqlarında Ermənistanı təmsil edən Xarici İşlər Komissarı İ.Mravyanın və Daxili İşlər Komissarı B.Makinzyanın müqaviləyə imza atması ilə Ermənistan dövləti Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusunu tanıdı. Həmçinin, Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi danışıqlarda iştirak edənlərin imzaları ilə təsdiqləndi. Ancaq müasir dövrdə Qars müqaviləsinin ləğv olunmasına çalışan ermənilər buna məhəl qoymurlar. Burada qeyd etmək yerinə düşər ki, Ermənistan 1991-ci ildə öz müstəqilliyini elan edəndə Ermənistan SSR-in varisi olduğunu bəyan etmişdir. Bu öz-özlüyündə müasir Ermənistan Respublikasının Ermənistan SSR tərəfindən bağlanmış bütün müqavilələri, o cümlədən Qars müqaviləsini tanıdığını göstərir. Bundan əlavə, 1992-ci ilin martında BMT üzvlüyünə qəbul edilərkən Ermənistan hakimiyyəti faktiki olaraq bu təşkilatın üzvü olan bütün ölkələrin ərazi bütövlüyünü tanımışdır. Ermənistan de-yure öz qonşuları olan Türkiyə və Azərbaycanın ərazi bütövlüyünü də tanımışdır. Buna görə də, ermənilərin Qars müqaviləsinin ləğv edilməsi ilə əlaqədar qaldırdıqları hay-küy kompaniyası beynəlxalq hüquq nöqteyi-nəzərindən qeyri-qanunidir (6, s. 204).

Behbud ağa Şahtaxtinskinin Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsində müstəsna xidmətləri olmuşdur. O çox qısa ömür yaşasa da, ölkəmizin, xüsusilə onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan bölgəsinin taleyində həlledici rol oynayan Moskva və Qars beynəlxalq müqvilələrinin imzalanmasında göstərdiyi vətənpərvərlik və siyasi uzaqgörənlik onun adının Azərbaycan tarixində yaşamasına kifayət edər. Ancaq çox təəssüflər olsun ki, əvvəldə də qeyd olunduğu kimi belə bir görkəmli şəxsiyyətin həyatı və fəaliyyətinin üstünə uzun müddət qara örtük çəkilmiş, siyasi motivlərə görə tədqiqinə icazə verilməmişdir. Bu səbəbdən də Azərbaycan xalqı, xüsusilə gənclər onun haqqında heç bir bilgiyə malik olmamışdır. Buna görə də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Behbud ağa Şahtaxtinski kimi şəxsiyyətləri nəzərdə tutaraq deyirdi ki, “Bəli, o vaxt o insanlar çox milli qürurlu insanlar olublar. İndi bəziləri onların hamısının kommunist, bolşevik kimi, necə deyərlər, üzərindən qara xətt çəkirlər. Bu ədalətsizlikdir. Mən buna həmişə etiraz etmişəm, bu gün də etiraz edirəm. Hansı

partiyaya, hansı siyasi qüvvəyə mənsubiyyətindən asılı olmayaraq kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalıdırlar və tariximizə daxil olunmalıdırlar. Qars müqaviləsinin altında Behbud ağa Şahtaxtinskinin imzası vardır" (4, s. 152-153).

Yekun olaraq deyə bilərik ki, görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin Naxçıvan ərazisinin muxtariyyəti ilə əlaqədar fəaliyyəti, o cümlədən 1921-ci ilin yanvar ayında referendum keçirməsi, 1921-ci ilin mart ayında imzalanan Moskva müqaviləsi ilə əlaqədar apardığı müxtəlif səviyyəli danışıqlar və Qars müqaviləsinin imzalanması zamanı tutduğu qətiyyətli mövqe Naxçıvan ərazisinin Azərbaycanın tərkibində saxlanmasında və gələcəkdə ona Azərbaycanın tərkibində mutariyyət statusu verilməsində çox mühüm və həlledici rol oynadı.

**ƏDƏBİYYAT**


1. Atnur İ. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: "Əcəmi" NPB, 2013, 496 s.
2. Azərbaycan qəzeti, 12 fevral 1999-cu il.
3. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild. Bakı: Elm, 2000, 568 s.
4. Əliyev H. Müstəqilliyimiz əbədidir.19-cu kitab. Bakı: Azərnəşr, 2006.
5. Gümrü, Moskva və Qars müqavilələri. Naxçıvan, 2004, 140 s.
6. Məmmədov A. Osmanlının çöküşünə Rusiyadan baxış. Bakı: Elgün, 2012, 288 s.
7. Naxçıvan ensiklopediyası. 2 cilddə, cild 2. Naxçıvan, 2005, 381 s.
8. https://www.bbc.com/azeri/azerbaijan/2014/10/141014_kars_agreement


**РЕЗЮМЕ**

**ГАДЖИФАХРЕДДИН САФАРЛИ**

**ВОПРОС АВТОНОМИИ НАХЧЫВАНА И ВЫДАЮЩИЙСЯ ГОСУДАРСТВЕННЫЙ ДЕЯТЕЛЬ БЕХБУД АГА ШАХТАХТИНСКИЙ**

В статье рассматривается вопрос автономии Нахчывана и выдающегося государственного деятеля Бехбуд ага Шахтахтинского. Отмечается, что в 1917 году армяне, воспользовавшись распадом Российской империи, начали захватывать территорию Нахчывана. Упорная борьба передового народа Азербайджана и народа Нахчывана сорвала эти планы армян. Решающую роль в данном случае сыграла референдума, проведенного Бехбуд ага Шахтахтинского в Нахчыване, его деятельность во время переговоров в Москве и подписания Карсского соглашения в качестве представителя Азербайджана. В результате 9 февраля 1924 года была создана Нахчыванская Автономная Республика.

**Ключевые слова:** Азербайджан, Турция, Нахчыван, Москва, Карс, контракт.

**SUMMARY**

**HAJIFAKHRADDIN SAFARLI**

**PROMINENT STATESMAN BEHBUD AGHA SHAHTAKHTINSKI AND THE QUESTION OF AUTONOMY OF NAKHCHIVAN**

The article deals with the issue of the outstanding statesman Behbud Agha Shahtakhtinski and the autonomy of Nakhchivan. It is noted that in 1917, Armenians, taking advantage of the collapse of the Russian Empire, began to take over the territory of Nakhchivan. The leading people of Azerbaijan and the stubborn struggle of Nakhchivan disrupted these plans of the Armenians. Behbud agha Shahtakhtinsky's helding the referendum in Nakhchivan, negotiations in Moscow and the signing of the treaty of Kars as a representative of Azerbaijan played a decisive role in this case. As a result, the Nakhchivan Autonomous Republic was established on February 9, 1924.

**Key words:** Azerbaijan, Turkey, Nakhchivan, Moscow, Kars, treaty.

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

**UOT:**94(479.242).

**VƏLİ BAXŞƏLIYEV**
AMEA Naxçıvan Bölməsi
velibahshaliyev@mail.ru

**ZEYNƏB QULIYEVA**
AMEA Naxçıvan Bölməsi
zeyneb.quliyeva.70@mail.ru
DOI: 10.5281/zenodo.10984142

# NAXÇIVANIN ERKƏN DƏMİR DÖVRÜ MƏDƏNİYYƏTİ İLƏ BAĞLI YENİ TAPINTILAR: PAYA DƏRƏSİ NEKROPOLU

*Paya dərəsi nekropolu 2020-ci ildə, Ordubad rayonu ərazisindəki Aşağı Əylis kəndi yaxınlığındakı ərazidə təsərrüfat işləri görüldüyü zaman aşkar olunmuşdur. Nekropoldakı qəbirlər qurbangahlı daş qutulardan ibarət olmuşdur. Qəbir avadanlığı başlıca olaraq keramika məmulatı və dəmir əşyalardan ibarətdir. Yeni tapıntılar Erkən Dəmir dövrünə aid olmaqla yaxınlıqda yerləşən Muncuqlutəpə nekropolunun maerialları ilə bənzərdir. Muncuqlutəpə qəbirlərinin bənzərləri indiyədək aşkar edilmədiyindən Paya dərəsi nekropolunun materialları bu mədəniyyətin yayılma arealını müəyyənləşdirmək üçün olduqca əhəmiyyətlidir. Müqayisəli təhlillərə əsasən Paya dərəsi nekropolunu e.ə. XI-IX əsrlərə aid etmək olar.*
**Açar sözlər:** *Naxçıvan, Erkən dəmir dövrü, Paya dərəsi nekropolu, keramika.*

**Giriş.** Cənubi Qafqazda, o cümlədən Azərbaycanda bu dövrlə bağlı ilk tapıntılar e.ə. II minilliyin sonu-e.ə. I minilliyin əvvəlləri ilə tarixləndirilmişdir [10, c. 50]. Azərbaycanda, o cümlədən Naxçıvanda Dəmir dövrü abidələri geniş şəkildə öyrənilmişdir. Naxçıvanda Dəmir dövrünə aid ilk tapıntılar ötən əsrdə I Kültəpə, Qızılburun, Şahtaxtı kimi abidələrdən aşkar edilmişdir. XXI əsrdə Şərur, Babək, Şahbuz, Culfa rayonlarındanda qeydə alınan abidələr timsalında bu mədəniyyətin Naxçıvanın bütün bölgələrini əhatə etdiyi müəyyənləşdirilmişdir. 2020-ci ildə Paya dərəsindən tapılan yeni materiallar Erkən Dəmir dövrü mədəniyyətlərinin yayılma arealının öyrənilməsi baxımından əhəmiyyətlidir. Nekropol Ordubad rayonunun Aşağı Əylis kəndinin yaxınlığında, kənddən cənub-qərbdə yerləşir. 2020-ci ildə bu ərazidə tikinti işləri görülərkən təsadüf nəticəsində aşkar olunmuşdur. Qəbirlər qurbangahları olan daş qutulardan ibarətdir. Qəbirlər və onların qarşısında yerləşən qurbangahlar yastı qaya daşlarından inşa edilmişdir (Şəkil 1).




Şəkil 1. Paya dərəsi nekropoluna aid daş qutu qəbirin planı (V.Baxşəliyev).

Burada qeydə alınmış qəbirin planı V.Baxşəliyev tərəfindən çəkilmiş, qəbirlərin materialları, o cümlədən keramika məmulatı, sümük qalıqları və 1 ədəd xəncər fraqmenti götürülərək AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun nəzdində fəaliyyət göstərən Arxeoloji xidmət şöbəsinin I Fonduna təhvil verilmişdir. Keramika məmulatı 10 ədəd bütöv qab və 20-dən çox nümunə isə qabların kiçik ölçülü fraqmentləri ilə təmsil olunmuşdur.

**Keramika məmulatının hazırlanma texnologiyası.** Paya dərəsindən tapılan keramika nümunələri başlıca olaraq qırmızı-çəhrayı rəngli qablara aiddir. Onlar qalın divarlıdır (1-2,5 sm), tərkibində iri qum, ağ rəngli mineral, bəzən də parıltılı qatqılar vardır. Paya dərəsinin bu qrupa aid

keramikası formaca çoxçeşidlidir. Onların içərisində rast gəlinən küpə, küp, kasa, çölmək tipli qablar daha çox bütöv halda aşkar olunmuşdur. Belə qablar yaxşı bişirilmiş, möhkəm və davamlı olduqlarından əksəriyyəti günümüzədək bütöv halda qala bilmişdir.İkinci qrupa qara-boz rəngli nümunələr aiddir. Onlar kiçik ölçülü 18 fraqmentdən ibarətdir. Onlar incə divarlıdır (0,3-0,5). Bu qrupa aid bəzi qabların kəsiyində qara və tünd qəhvəyi rəngli gil təbəqəsi izlənir. Ehtimal ki, onlar müxtəlif gil təbəqələrinin birləşdirilməsi üsülü ilə hazırlanıb. Xaricdən yerləşən qəhvəyi təbəqənin səthi boz-qara çalarlı olmaqla, yalnız kəsikdə aydın şəkildə görünür. Gilin tərkibinə narın qum və az saman qatılıb. Bu tip qabların çeşidi azdır. Onlar yalnız küpə tipli qablarla təmsil olunmuşdur.

**Keramika məmulatının tipoloji xüsusiyyətləri.** Keramika məmulatı tipoloji baxımdan olduqca müxtəlifdir. Hər iki qrupa aid keramika məmulatı həmdövr olduğundan onları tipoloji baxımdan birlikdə təsnif etməyi üstün tutduq. Qablar əsasən küpə, lüləkli qab, çölmək və kasa tipli qablardan ibarətdir. Bütöv qablar içərisində çəhrayı rəngli qablar əsas yer tutduğu halda, fraqmentlər içərisində boz-qara rənglilər üstünlük təşkil edir: 3 çəhrayı, 18 qara rəngli qab fraqmenti vardır. Onlar əldə hazırlanmışdır. Bəzisinin səthi az cilalanmış, bəzilərinin səthi isə sadəcə hamarlanmış, içəridən isə nahamardır. Küpələr 4 nümunə ilə təmsil olunmuşdur. Onlar qabarıq gövdəli və dar boğazlı olub ağızları xaricə doğru genişlənir. Küpələr yastı oturacaqlıdırlar. Bu qablardan biri çəhrayı rəngli olub, gilinə ağ rəngli mineral qatılmış və yaxşı bişirilmişdir (P.d. 2020. AEM-1512). Kiçik ölçülü, qabarıq gövdəli, qıfşəkilli ağızlı və oval oturacaqlı olan bu qabın ağzının diametri 10 smdir (Şəkil 2, 2). Divar qalınlığı ağız hissədə 0,5 sm-dən başlayaraq gövdə və oturacaqda qalınlaşır və 0,7 sm-ə çatır. Digər iki küpə qara rəngli, yastı oturacaqlı, bikonik gövdəlidir. Onlar qara rəngli gildən hazırlanmış, yaxşı bişirilmiş, üzəri cilalanmış, cızma və çərtmələrlə naxışlanmışdır. Yalnız ölçülərinə görə bir-birindən fərqlənən bu küpələrdən birinin ağzının diametri 14,5 sm, oturacağını diametri 10 sm, gövdəsinin diametri 25 sm, divarının qalınlığı 1 sm-dir (P.d.2020, AEM-1540). Onun gövdəsinin yuxarı hissəsinə çərtmə xətlərlə ziqzaqşəkilli ornament çəkilmiş, boğazı isə çərtmə xətlər cərgəsi ilə çevrələnmişdir (Şəkil 2, 1). Qara-boz rəngli digər bir küpə nisbətən kiçik ölçülü olub ağzının diametri 11,5 sm, oturacağının diametri 9 sm, gövdəsinin diametri 22 sm-dir (P.d.2020. AEM-1541). Boğazı 2 cərgə batıq və qabartma xətlərlə çevrələnmişdir. Gövdəsi dalğavari şəkildə yerləşdirilmiş çərtmələrlə əhatə olunmuşdur (Şəkil 2, 3). Bu tip qabların dördüncüsü ağız və boğaz hissəsinin fraqmenti ilə təmsil olunmuşdur. İri ölçüsünə əsasən onu küp olaraq xarakterizə etmək olar. Onun ağzının diametri 60 sm, divarının qalınlığı 1,5-2,5 sm arasında dəyişir (P.d.2020. AEM.1538). Çəhrayı rəngli, qum qarışıqlı gildən hazırlanmış qabarıq gövdəli bu qab ağız kənarının formasına görə də digərlərindən fərqlənir. Digər qablar ağız kənarından gövdəyə doğru qismən qalınlaşdırıldığı halda, bu qabın boğazından başlanan qalınlaşma yuxarıya doğru daha da artmış və ağız kənarı 2,5 sm enində üfüqi şəkildə yanlara doğru əyilmişdir (Şəkil 2,4).




Şəkil 2. Erkən Dəmir dövrünə aid küpələr (V.Baxşəliyev, Z.Quliyeva).

Çölmək tipli qablar 4 ədəddir. Onlardan 3-ü bütövdür. Dördüncü qab ağız və gövdə hissəsnin parçası ilə təmsil olunmuşdur. Birinci nümunə bikonik formalı, lüləkli və qulaqcıqşəkilli rudimentar qulpludur (Şəkil 3, 1). Qırmızı rəngdə bişirilmiş, səthi azca cilalanmışdır. Ağzının altə 1 sm enində batıq xətlə çevrələnib. Ağznın diametri 21 sm, oturacağının diametri 11 sm, lüləyinin diametri 4,5 sm-dir (P.d.2020. AEM-1539). Ağız kənarı ilə qabarıq gövdəsinin arasında şaquli istiqamətdə yerləşdirilmiş qulaqcıq şəkilli kiçik qulpun ölçüsü 3-4 sm arasındadır.

Digər iki çölmək tipli qab da qırmızı-çəhrayı rəngli olub, oturacaqlarında kiçik dairəvi deşik açılmıştır. Hər ikisinin ağız kənarı qalınlaşdırılıb. Onlardan birinin ağız kənarı yana doğru üfüqi şəkildə genişləndirilmişdir (Şəkil 3, 2). Bu çölmək şar gövdəli, oval oturacaqlı, böyük həcmlidir (P.d. 2020. AEM-1551). Ağızının diametri 19 sm, divarının qalınlığı 0,9-1,2 sm, hündürlüyü 24 sm-dir. Oturacağındakı dairəvi deşiyin diametri 1,5 sm-dir. İri qum qatılmış gildən hazırlanmış, qırmızı rəngdə bişirilmiş, hər iki üzdən yüngül cilalanmışdır. Digər çölməyin ağız kənarı xaricə doğru qalınlaşdırılaraq çəpinə kəsilmişdir (Şəkil 3, 3). Oturacağında dairəvi deşik açılmışdır. Çəhrayı rəngdə yaxşı bişirilmiş, xaricdən sarı rənglə anqoblanmışdır. Kəsikdə gilinin tərkibində ağ rəngli mineral qarışığı aydın şəkildə görünür. Divarının qalınlığı 0,5-1 sm, ağızının diametri 16,5 sm, oturacağının diametri 10 sm, oturacağındakı dairəvi deşiyin diametri 0,5 sm-dir (P.d. 2020. AEM-1529). Dördüncü çölmək qırmızı rəngdə yaxşı bişirilmişdir. Bu çölmək Qabarıq gövdəlidir. Ağız hissəd digər digər çölməklər kimi içəriyə doğru yığılıb. Ağznın kənarı üfüqi şəkildə xaricə doğru çıxıntılıdır. Kəsiyində çox sayda rəngli mineral qarışığı izlənməkdədir. Divarının qalınlığı 0,5-1 sm arasındadır (P.d.2020. AEM-1527,1534-1535).




Şəkil 3. Çölmək tipli qablar (V.Baxşəliyev, Z.Quliyeva).

**Kasalar**. Qabarıq və bikonik gövdəli olan bu qabların (4 ədəd) hamısı qum və saman qarışıq gildən hazırlanmış, çəhrayı rəngdə yaxşı bişirilmişdir. Onlardan biri kiçik qulplu və boya naxışlıdır (P.d. 2020. AEM-1543). Qabın xarici səthi qara və qırmızı xətlərlə ziqzaq şəkli ornamentlə naxışlanmışdır. Naxışlar iki parallel xəttin arasına çəkilmişdir. Ağızının diametri 14,5 sm, oturacağının diametri 7,5 sm, qulaqcıqşəkilli qulpunun hündürlüyü 2,5, eni 1 sm-dir. Ağız kənarı xaricdən batıq xətlə əhatə olunmuşdur. Ziqzaqşəkilli boya naxışlar bu xətdən aşağıda yerləşir (Şəkil 4, 1). İkinci kasa qabarıq gövdəli, yastı oturacaqlıdır. Ağız hissədən gövdəyə doğru qalınlaşır (P.d.2020. AEM-1542). Ağzının altı batıq zolaqla əhatə olunmuşdur. Bu kasanın xarici səthi yaxşı çilalanmış və naxışsızdır (Şəkil 4, 2). Gilinin tərkibində az miqdarda saman və ağ rəngli mineral qarışı vardır. Yaxşı bişirilsə də səthində sarı və boz ləkələr var. İçərisi nahamardır. Ağızının diametri 20 sm, oturacağının diametri 9 sm, divarının qalınlığı 0,5-1,2 sm arasındadır. Üçüncü kasanın oturacaq hissəsi sınmışdır (Şəkil 4, 3). Narın qum və az saman qarışığı olan gildən hazırlanmış, qırmızı rəngdə bişirilmişdir. Xarici səthi azacıq cilalanmışdır. Xarici səthinin bəzi yerlərində qara-boz ləkələr var. Ağznın diametri 15 sm, divarının qalınlığı 1 sm-dir. Kəsiyində az sayda ağ rəngli mineral qalığı izlənilir (P.d. 2020. AEM-1526). Dördüncü kasa qabarıq gövdəsi boğaz hissədə enli batıq xətlə çevrələnmiş və ağız kənarı içəriyə doğru qatlanmışdır (Şəkil 4, 4).

Qum qarışıq gildən əldə hazırlanmış, qırmızı rəngdə bişirilmiş, xaricdən cilalanmışdır. Xarici səthində sarı ləkələr vardır. (P.d. 2020. AEM-1532). Ağzının diametri 14,5 sm, divarının qalınlığı 0,6-0,8 sm-dir. Beşinci kasa qalındivarlarlıdır (Şəkil 4, 5). Kasa qırmızı rəngdə bişirilmiş, səthinin bəzi yerləri hislənmişdir. Gilinə iri qum qatılmışdır. Kəsiyində parıltılı mineral qarığışığı var. Xarici səthi nahamardır. (P.d. 2020. AEM-1525). Onun ağızının diametri15,5 sm, oturacağının diametri 9 sm, divarının qalınlığı 0,5-1 sm arasındadır.




Şəkil 4. Kasa tipli qablar (V.Baxşəliyev, Z.Quliyeva).

Paya dərəsi nekropolunun tapıntılarından biri də dəmir xəncər fraqmentindən ibarətdir (P.d. 2020. AEM-1549). Onun hər iki səthi paslanmışdır. Qulpunun yarısı sınsa da əsas işlək hissəsi salamat qalmışdır (Şəkil 5).



Şəkil 5. Dəmir xəncər(V.Baxşəliyev).

Xəncər qısa saplaqlı və yastı tiyəli olub uca doğru daralır. Tiyəsinin ortasından qabarıq xətt keçir. Tiyəsinin uzunluğu 12,5 sm, saplağının uzunluğu isə 3,5 sm-dir. Onun tiyəsinin eni uc hissəsdə 3 sm, saplağa birləşən hissədə isə 5,5 sm-dir. Tiyəsi saplağı ilə birlikdə tökülmüşdür.

**Tapıntıların dövrləşdirilməsi.** Arxeoloji materialların təhlili Paya dərəsi nekropolunun dövrünü və xüsusiyyətlərini müəyyənlədirməyə imkan verir. Əsas təhlillər keramika məmulatı üzərində aparılmışdır. Buradan tapılan iri həcmli təsərrüfat küpü tərkibinə iri qum qarışdırılması, daha çox da boğazının qısa, geniş və ağız kənarının geri bükülmüş və enli olması baxımından I Kültəpənin Dəmir dövrü küpləri ilə bənzərdir [3, 43-cü tablo, 2]. Bu tip ağız kənarı olan qablar Qazax rayonunda yerləşən Sarvantəpədən tapılan iri həcmli təsərrüfat küplərində [14, fig. 1, 2, 8], eyni zamanda Anadolunun Erkən Dəmir dövrü qablarında da izlənir [12, resim 4, 2]. I Kültəpənin ağız diametri 39,5 sm olan bu tip qabları qara və qırmızı rəngdə bişirilmişdir. Bizim nümunə isə çəhrayı rənglidir və ağız diametri daha böyükdür (55-60 sm). Bu cür oxşarlıq kiçik həcmli küpələrin də hazırlanma texnologiyası və formasında izlənilir. I Kültəpənin IV təbəqəsindən tapılan küpələr bu baxımdan tərkibinə narın qum qatılmış, qırmızı və boz-qara rənglidə yaxşı bişirilmiş bizim nümunələrlə bənzərdir. Onlar ağız və gövdəsinin formasına və hazırlanma texnologiyasına görə də

bənzərdir [bax: şəkil 1,2-3; 3, tablo 43, 4]. Lakin I Kültəpədə bu dövrə aid küpələrinin bəzisi nov şəkilli batıq xətlər kompleksi ilə naxışlanmışdır. O.Həbibullayevi bu nümunələri Erkən Dəmir dövrünün başlanğıcına aid etmişdir [3, s. 108]. Boz-qara rəngli olan küpələrin üzərindəki ziqzaq şəkilli ornament Şahtaxtından tapılan qabla, dalğavari ornament isə Qızılburun küpəsi ilə bənzərdir [2, şəkil 3, 12; 1, 16]. Şahtaxtı nekropolu vaxtı ilə e.ə. XII-XI əsrlərlə tarixləndirilmişdir [6, c. 31].

Çölmək tipli qablar qabarıq gövdəli olması, ağız kənarlarının yanlara doğru üfüqi şəkildə əyilməsi və qalınlaşdırılması baxımından Sarıdərə və Kolanı nekropolunun qabları ilə oxşardır [2, şəkil 11, 1-3; 13, 3; 23, 5, 8]. Sarıdərə nekropolu da vaxtı ilə Erkən Dəmir dövrünün əvvəllərinə aid edilmişdir [yenə orada, s. 55]. Ağız kənarında lüləyi olan qabın tarixi də maraqlıdır. Lüləkli qablar I Kütəpənin III-IV təbəqələrindən [39, tablo 36; 43, 6-7], Şahtaxtı [1, tablo 2,5], Sarıdərədərə, Kolanı, Bayəhməd [2, şəkil 12, 9,15; 13, 1-2,5; 27, 9-10; 36,4] və I Dəmirçi nekropollarından tapılmışdır [5, şəkil 1, 5]. Onların hamısı xaricə doğru dimdik şəklində bəzən də boru şəklində çıxıntılıdır. Paya dərəsində cəmi 1 nümunədə təmsil olunan lülək onlardan qısa olması və qabın tam ağız kənarında olması ilə fərqlənir. Qabın forması və lüləyin tam ağız kənarına bitişik olması baxımından onun ən yaxın bənzəri isə Muncuqlutəpə nekropolundan aşkar olunmuşdur [9, şəkil1, 2]. Məlim olduğu kimi, bu tip qablar Tunc dövrünün sonundan geniş yayılmışdır. Bu qab onların nisbətən təkmilləşmiş forması kimi Erkən Dəmir dövrünün inkişaf mərhələsinin məhsulu kimi ortaya çıxmışdır. Altında dairəvi deşikli olan çölməklər də Muncuqlutəpə nekropoluna aid qurbangadan [9, c.53] və I Dəmirçi nekropolundan tapılmışdır [5, s. 23].

Paya dərəsinin küpələri bikonik formaları, bəzən yuvarlaq, bəzən yastı formada təmsil olunmuş oturacaq hissələri ilə, çölməkləri ağız kənarı və şar gövdəli olmaları ilə Sarvantəpə küpələri timsalında Xocalı-Gədəbəy mədəniyyətinə məxsus əlamətləri əks etdirir [14, fig. 2, 6, 10; 2, 3, 5]. Paya dərəsin materiallarının tarixləndirilməsi baxımından buradan tapılan xəncər xüsusi əhəmiyyətə malikdir. Onun bənzərləri vaxtı ilə Qızılburun [4, tablo 14, 1, 3; 11, рис. 38, 41], Şahtaxtı [1, tablo 9, 4], Kolanı, Bayəhməd [2, şəkil 28-29; 36, 14; 38, 25] və Muncuqlutəpə nekropolunda qeydə alınmışdır. Bu tip bütöv tökülmüş xəncərlərə Plovdağın Son tunc və Erkən dəmir dövrü nekropollarında [9, c.47], həmçinin Xocalı-Gədəbəy mədəniyyətinin Qarabağ qrupu abidələrində də rast gəlinir [7, рис. 5]. Bu tip xəncərlərin dəstəyi bir qayda olaraq, konusvari şəbəkəli başlıqla tamamlanmışdır. Bizim nümunənin dəstəyinin yarısı sındığından necə tamamlandığı haqqında konkret fikir söyləmək olmur. Bu xəncərin bənzərləri eyni dövrə aid olan Van gölü hövzəsindəki Evditepe nekropolundan da aşkar edilmişdir [13, fig. 6]. Silahların, xüsusilə dəmirdən hazırlanan nümunələrin ortaya çıxması cəmiyyətin sosial-iqtisadi və ictimai həyatında gedən sürətli dəyişikliklərdən – ibtidai icmadan sinifli cəmiyyətə keçiddən xəbər verirdi hansı ki, Qarabağdakı Qarabulaq, Xocalı, Dovşanlı, Ballıqaya, Sarıçoban, Borsunlu və digər Son-Tunc – Erkən Dəmir dövrünə aid qəbir abidələrində qulların öz təsərrüfat alətləri ilə dəfn olunmasında öz təsdiqini tapmışdır [8, c. 108].

Aparılan müqayisəli təhlillər Paya dərəsinin materiallarının ən yaxın paralellərinin I Kültəpənin IV təbəqəsi, Şahtaxtı, Sarıdərə, Kolanı, Muncuqlutəpə və I Dəmirçi nekropolları içərisində olduğunu göstərmişdir. Bu abidələr Erkən Dəmir dövrünün başlanğıc mərhələsini əks etdirir. Bunları nəzərə alaraq Paya dərəsi nekropolunu e.ə. XI-IX əsrlərə aid etmək olar.

**Nəticə.** Naxçıvanın Erkən Dəmir dövrü abidələri bu vaxtadək daha çox Şərur, Babək, Culfa, Şahbuz və Ordubad bölgəsində kompleks halda qeydə alınmış və onlar əsasında xarakterizə edilmişdir. Paya dərəsindən tapılan yeni materiallar Erkən Dəmir dövrü mədəniyyətinin yayılma arealını bir qədər də genişləndirməyə imkan vermişdir. Yeni tapıntılar Ordubad ərazisində bu mədəniyyətin özünəməxsus xüsusiyyətlərini də üzə çıxarmağa imkan yaradır. Yeni tapıntılar Naxçıvanda Muncuqlutəpə tipli abidələrin yayılma arealının müəyyənləşdirilməsi baxımından, həmçinin artıq sinifli cəmiyyətin xüsusiyyətlərini izləmək baxımından da əhəmiyyətlidir. Bu abidənin geniş tədqiqi Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyətinin yeni səhifələrini üzə çıxarmağa imkan verəcəkdir.

## ƏDƏBIYYAT


1. Ağayev Q. Şahtaxtı: tarixi-arxeoloji tədqiqat. Bakı, "Elm və təhsil", 2019, 176 s.
2. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dovru mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
3. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1959, 134 s.
4. İsmayılzadə Q., İbrahimli B. Qızılburun nekropolu. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013, 120 s.
5. Quliyeva Z. Naxçıvanda Dəmirçi nekropolunun arxeoloji materialları // Qarapapaqlar, 2014, Oktyabr, №10 (86). S. 22-26
6. Абибуллаев О.А. Материалы Шахтахтинского погребения. Azərbaycan SSR E A Xəbərləri. Tarix, Fəlsəfə, Hüquq seriyası, 1961, № 5.
7. Джафарова Д. К вопросу изучения оружия Карабахской группы Ходжалы-Кедабекской культуры // Проблемы археологии Кавказа и Передней Азии. Неолит-поздняя бронза. Баку, 2017, с. 265-279.
8. Джафарова Д. Некоторые вопросы социально-экономической жизни Азербайджана в конце 2 тысячелетия до н.э. (по материалам Карабаха) //Azərbaycan arxeologiyasına dair tədqiqatlar (Q.Qoşqarlının 70 illiyinə həsr olunmuş məqalələr toplusu). Bakı, "Elm və təhsil",2019, s. 104-114.
9. Ибрагимли Б. О погребальных памятниках Нахчывана эпохи поздней бонзы и раннего железа // Azərbaycan arxeologiyası. Azərbaycan arxeologiyası, Cild: 18, №1, Bakı, 2015, s. 47-61.
10. Пиотровский Б.Б. Археология Закавказья. Л., 1949, с. 50
11. Спицын А.А. Некоторые Закавказские могильники // ИАК, вып. 29, Спб., 1909, с. 1-17.
12. Akgül H.Ç.Doğu Karadeniz Dağlarında Erken Demir Çağı Varlığına İlişkin Yeni Buluntular //Anadolu Araştırmaları, 2020, N: 23, s. 91-111.
13. Belli O. Van Bölgesinde Bir Erken Demir Çağ Mezarlığı: Ernis-Evditepe / Türk arkeolojisi ve İstanbul Universitesi (1932-1999. Ankara, 2000)s. 175-180
14. Najafov Sh.N. The Khojaly-Gedabey cultural site-the Sarvantepe settlement // Проблемы археологии Кавказа и Передней Азии. Неолит-поздняя бронза. Баку, 2017, 280 с. 240-264. fig. 1, 2, 8), Пиотровский Б.Б. Археология Закавказья. Л., 1949, с. 50


## РЕЗЮМЕ

**ВЕЛИ БАХШАЛИЕВ,ЗЕЙНЕБ ГУЛИЕВА**

**НОВЫЕ НАХОДКИ О КУЛЬТУРЕ РАННЕГО ЖЕЛЕЗНЕГО ВЕКА НАХЧЫВАНА: НЕКРОПОЛЬ ПАЯ ДЕРЕСИ**

Некрополь Пая дереси выявлен вблизи села Ашагы Айлис Ордубадского района во время хозяйственных работ. Погребения в основном состоят из каменных ящиков с жертвениками. Погребальный инвентарь состоят из керамических изделий и железного кинжала. Новые находки очень аналогичны с погребениями некрополя Мунджуклутепе и относятся к раннему железному веку. В виду того, что аналоги погребений некрополя Мунджуклутепе на территории Нахчывана до сих пор не выявлены, материалы некрополя Пая дереси имеют значения для установления ареал распространения этой культуры. На основе сравнительного анализа некрополя Пая дереси можно датировать XI-IX вв. до н.э.

**Ключевые слова:** Нахчыван, ранний железный век, некрополь Пая дереси, керамика.

## SUMMARY

**VELI BAKHSHALIYEV,ZEYNEB GULIYEVA**

**NEW FINDINGS OF THE EARLY IRON AGE CULTURE OF NAKHCHIVAN: NEKROLIS PAYA DERESI**

The Paya Deresi necropolis was identified near the village of Ashagi Ailis of the Ordubad region during economic work. Burials mainly consist of stone boxes with altars. Burial equipment consists of ceramic products and an iron dagger. The new finds are very similar with the burials of the Munjuklutepe necropolis and date back to the early Iron Age. Due to the fact that analogues of the burials of the Munjuklutepe necropolis in the territory of Nakhchivan have not yet been identified, the materials of the Paya deresi necropolis are important for establishing the distribution area of this culture. Based on comparative analysis of the Paya deresi necropolis, it is possible to date the 11th-9th centuries BC.

**Key words:** Nakhchivan, Early Iron Age, Paya deresi necropolis, ceramics.

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

**UOT: 94(479.242).**

**XƏZƏR HÜSEYNOV**
Naxçıvan Dövlət Universiteti
Naxçıvan Universiteti

**FƏXRİYYƏ HÜSEYNOVA**
Naxçıvan şəhər 10 saylı orta məktəb
xezerhuseynov@gmail.com
DOI: 10.5281/zenodo.10984201

# NAXÇIVAN MUXTAR RESPUBLIKASINDA TƏHSILIN INKIŞAFI (2000-2005-CI ILLƏR)

**XÜLASƏ**

*Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bütün sahələr kimi təhsil sahəsi də özünə məxsus inkişaf mərhələsinə malikdir. Bu inkişaf mərhələsinin biri də 2000-2005-ci illərdir.*

*Məlum olduğu kimi, müstəqilliyin ilk illərində ölkədə təhsilin inkişafında gerilik müşahidə olunurdu. Bütün bunlara baxmayaraq müstəqillik illərində ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi dövründə Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafına ciddi fikir verildi onun maddi-texniki bazası əsaslı surətdə yenidən quruldu və möhkəmləndi.*

*Bəhs edilən illərdə Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etmiş və təhsilin inkişafına böyük diqqət və qayğı göstərmişdir.*

*Naxçıvan Muxtar Respublikasında təhsil sahəsinə göstərilən böyük qayğının nəticəsində ali və orta məktəblərin pedaqoji kollektivləri fəaliyyətlərini tələbələrin və şagirdlərin bilik, bacarıq, maraq və qabiliyyətlərinin inkişaf etdirilməsi istiqamətində yenidən qumuş və uğurlar əldə etmişdilər.*

***Açar sözlər:*** *Azərbaycan, Naxçıvan, İslahat Proqramı, təhsil sistemi, ali təhsil, orta təhsil.*

Naxçıvan Muxtar Respublikasının hərtərəfli və sürətli inkişafında təhsilin xüsusi yeri vardır. Təhsil hər bir millətin gələcəyini müəyyən edir. Millət təhsillə irəli gedir, milli süuru artır, intellektual potensialı yüksəlir.

Xalqların və dövlətlərin sürətli inkişaf yolu təhsildən keçir. Təsadüfi deyildir ki, hələ vaxtı ilə ulu öndər Heydər Əliyev cəmiyyət həyatında təhsilin rolunu yüksək qiymətləndirərək demişdir ki, təhsil millətin gələcəyidir. Ölkə Prezidenti Cənab İham Əliyev təhsilə “Azərbaycanın gələcəyini muəyyən edən prioritet sahə” kimi yüksək dəyər vermişdir **(10, s.479).**

Müstəqillik illərində respublikada yeni məktəblərin tikilməsi, onların maddi-texniki bazasının və kadr təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları və pulsuz dərsliklərlə təmin edilməsi sahəsində ardıcıl iş aparılmışdır.

Təhsilin inkişafını ölkəmizin, xalqımızın gələcəyi hesab edən Heydər Əliyevin bu sahədə müəyyənləşdirdiyi strategiya muxtar respublikamızda uğurla davam etdirilmiş və bugün də davam etdirilir. Blokada şəraitinin çətinliklərinə baxmayaraq muxtar respublikada da təhsilin ayrı-ayrı pillələrində toplanmış potensial onun inkişafına yönəlmişdir. Muxtar respublikada təhsil sisteminin maddi-texniki bazasının gücləndirilməsi, o cümlədən yeni müasir tipli məktəb binalarının inşa edilməsi, mövcud təhsil ocaqlarının yenidən qurulması təhsilin inkişafına öz təsirini göstərməkdədir.

Təhsilin inkişafı yaradıcı ziyalı potensialının yaranması və formalaşması üçün güclü təsirə malikdir. Bu prinsip təkcə paytaxtda deyil, respublikanın digər şəhərlərində də formalaşaraq zamanın tələbinə çevrilirdi.

Bununla bərabər, müstəqil Azərbaycanın yenidən qurulması prosesi Naxçıvanda Heydər Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməyə başladı. Ulu Öndərin müdrikliyi və qətiyyəti sayəsində muxtar respublikada təhsil özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Bəhs edilən illərdə Heydər Əliyev ümumi təhsilin inkişafına xüsusi diqqət yetirir, Naxçıvan Muxtar Respublikasında bu sahənin kəmiyyət və keyfiyyət göstəricilərinin aşağı düşməsinin qarşısını

almağa çalışırdı.

Ümummill lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının ümumtəhsil müəssisələrinə baş çəkir, keçirilən tədbirlərdə iştirak edirdi. Uzaqgörən siyasi xadim gənc nəslin mənəvi tərbiyəsini, vətənpərvərlik ruhunda böyüməsini dövlətin əsas vəzifələrindən biri hesab edirdi. Təhsilin millətin gələcəyi üçün son dərəcə vacib olduğunu diqqətdən qaçırmır, muxtar respublikada təhsilin inkişafı üçün bütün imkanlardan istifadə etməyə çalışırdı. Rəsmi Bakıdan hər hansı kömək ala bilməyən muxtar respublika rəhbərliyi bölgənin sosial-iqtisadi, humanitar problemlərinin həll edilməsi üçün bölgənin geosiyasi mövqeyindən bacarıqla istifadə edirdi. Qonşu Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi, mədəni sahələrlə yanaşı təhsil sahəsində də əlaqələri genişləndirilirdi. Bu sonralar öz müsbət təsirini daha aydın şəkildə göstərdi.

Uulu Öndər Heydər Əliyev Naxçıvanda ümumtəhsil məktəblərinin qazandığı uğurları qeyd etməklə yanaşı, bu sahədə mövcud olan çatışmazlıqlara, nöqsanlara, mənfi hallara da diqqəti cəlb edərək onları qətiyyətlə aradan qaldırmağa çalışmışdı. Heydər Əliyev müəllimlərə, müəllim sənətinə yüksək qiymət verərək demişdir: "Azərbaycan xalqı öz milli azadlığı ilə yanaşı, gərək öz yüksək mənəviyyatına, yüksək əxlaqına sadiqliyini də bundan sonra da əziz tutsun və daha da sübut etsin. Bu sahədə şübhəsiz ki, bizim ali təhsilli ixtisasçıların, mütəxəssislərin, alimlərin, professorların, müəllimlərin rolu çox böyükdür.

Müəllim dövri-qədimdən, hələ vaxtilə əhalinin əksəriyyəti savadsız olduğu bir dövrdən, lap cəmiyyətdə kiçik bir yer tutduğu vaxtdan həmişə ən yüksək mənəviyyata malik olan adam kimi xalq arasında, kütlə arasında, insanlar arasında qəbul olunmuş bir şəxsiyyətdir. Müəllim ali və orta məktəb müəllimidir, ali məktəb müəllimidir, - fərq etməz, bu şöhrətli - şərəfli bir addır. Müəllim - dərs vermək, tərbiyə etmək sahəsidə çalışan adam gərək hər dəqiqə bilsin ki, onun dərs verməyə, təhsil verməyə, tərbiyə etməyə mənəvi hüququ var **(7, s.368-369).**

Azərbaycanda təhsilin mövcud vəziyyətinə dair tənqidi fikirlərini bildirən Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olduğu bir dövrdə qəbul imtahanlarının Naxçıvanda deyil, Bakı təhsil müəsissələrində vermək məcburiyyətində qoyulmasının səhv addım olduğunu vurğulamışdır.

Beləliklə, Heydər Əliyevin muxtar respublikada nail olduğu sabitlik, irəli sürdüyü ideyalar və etdiyi tövsiyələr daxili siyasətin düzgün məcrada inkişaf yoluna çıxacağına və uğurlar əldə ediləcəyinə inamı artırdı. Bu, muxtar respublikada siyasi, sosial-iqtisadi və mədəni sahələrdə olduğu kimi orta təhsil sahəsində də mütərəqqi nəticələrin əldə edilməsinə səbəb oldu. Naxçıvan Muxtar Respublikasında ümumi təhsilin inkişafı üçün mövcud bazanın qorunub saxlanmasına və daha da inkişaf etməsinə nail olmaq üçün möhkəm baza yarandı.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə təhsil sistemində də geriliyə son qoyuldu. Təhsilə göstərilən diqqət və qayğı ilk günlərdən özünü büruzə verməyə başladı. Təhsil sahəsində Heydər Əliyevin qəbul etdiyi strateji xəttin üstünlüyü onda idi ki, təhsil müəssisələrinin normal fəaliyyətinitəmin etməklə, təhsil xalqımızın və milli dövlətimizin tərəqqisinin güclü amilinə çevrildi. Bu məqsədlə hazırlanaraq həyata keçirilən islahatlar mühüm rol oynadı. Ulu Öndər Heydər Əliyevin 1998-ci ilin martında imzaladığı "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" sərəncamı bu sahədə inkişafı nizama saldı.

Bu sahədə 1999-cu ilin iyulunda qəbul edilən "Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı" bu sahədə stimul yaratdı. Yeni və perspektivli olan bu proqramda Azərbaycan təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, eyni zamanda milli təhsil ənənələrinə sədaqət və varisliyə əməl olunması nəzərdə tutulurdu. İslahat Proqramının üç mərhələdə - 1999, 2000-2003-cü illər, 2004-cü ildən sonraki dövr - həyata keçirilməsi nəzərdə tutulurdu. İslahatların icrası üçün hüquqi-normativ bazanın yaradılması məqsədilə müvafiq sənədlər hazırlanaraq təsdiq edilmiş, Təhsil Qanunun yeni layihəsi Milli Məclisin müzakirəsinə təqdim edilmişdi **(3, s.89).**

Heydər Əliyev təhsildə islahatların hərtərəfli düşünülmüş şəkildə aparılmasını yüksək qiymətləndirirdi: "İslahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir. Dəb naminə yox, yalnız və yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı

qalxmaq üçün təhsilin səmərəliliyini, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır”.

Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, “xalqımızın tarixi taleyi elə imkan yaratmışdır ki, ötən yüzillikdə Azərbaycan köhnə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, təhsil intibah yolunu tutmuşdur. Elliklə maariflənməsini uğurla başa vurmuşdur. Kütləvi surətdə savadlanmaq, elmə, mədəniyyətə, təhsilə can atmaq Azərbaycan xalqının mənəviyyatını da, həyat tərzini də, xarici görünüşünü də dəyişmiş, onu inkişaf edən dünyaya qovuşdurmuşdur. Azərbaycan xalqı sözün həm həqiqi, həm də məcazi mənasında işıqlı, nurlu bir aləmə çıxmışdır” **(3, s.14).**

İslahat proqramının tələblərinin yerinə yetirilməsinin təmin olunması, onun səmərəliliyinin yüksəldilməsi və təhsil sisteminin strukturunun yeniləşdirilməsi məqsədilə Ulu Öndər Heydər Əliyev “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 2000-ci il 13 iyun tarixində 349 nömrəli Fərman imzalamışdır. Bu fərman təhsilin inkişaf istiqamətlərini müəyyən etməklə təhsil işçilərinin fəaliyyəti üçün stimul yaratmışdır **(6, s.112).**

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının təhsil sistemi Heydər Əliyevin diqqət və qayğısı sayəsində yenidən dirçəlməyə və sürətlə inkişaf etməyə başlamışdı. Təsadüfi deyil ki, Naxçıvan Muxtar Respublikasında təhsilin sürətli inkişafı Heydər Əliyevin adı və fəaliyyəti ilə bilvasitə bağlı olaraq qiymətləndirilir.

2001-ci ildə muxtar respublikada 2 dövlət, 1 özəl ali təhsil müəssisəsi, 3 orta ixtisas təhsil müəssisəsi fəaliyyət göstərmişdir. Ali və orta ixtisas məktəblərində tam ştat vahidi ilə 754 professor müəllim heyəti çalışmışdır **(11, s.142).**

Qeyd etmək lazımdır ki, 2001-2002-ci tədris ilində muxtar respublikanın orta ümumtəhsil məktəblərini bitirən 4731 nəfər məzundan 1451 nəfəri ali və orta ixtisas məktəblərinə daxil olmuşdu. Bu da muxtar respublikada təhsilin inkişafına xüsusi diqqət olduğunu göstərir. 2001-ci ildə ali məktəblərə qəbul 23,7 % təşkil etdiyi halda, 2002-ci ildə bu göstərici 33,4 % olmuşdur.

Muxtar respublika üzrə təhsilin müasir tələblərə uyğunlaşdırılması, keyfiyyətcə yaxşılaşması, ümumtəhsil göstəricilərinin artması ilə nəticələnmişdir. 1979-cu ildə Naxçıvanda əhalinin hər 10 min nəfərinə 227 nəfər ali təhsilli düşürdüsə, bundan fərqli olaraq 1995-ci ildə 544, 2001-ci ildə 619 nəfər ali təhsilli düşmüşdür. Naxçıvandan 1995-ci ildə ali məktəblərə 647 nəfər, 2001-ci ildə 1237 nəfər abituriyent qəbul olunmuşdur. Bu dövrdə muxtar respublikanın ali təhsil müəssisələrində təhsil alanların sayı müvafiq olaraq 2254 nəfərdən 4129 nəfərə çatmışdır.

Naxçıvan Muxtar Respublikasının büdcəsindən təhsilə ayrılan xərclərin artırılması ümumi təhsilin inkişafını sürətləndirmişdir. Bu xərclər 2002-ci ildə 52,3% təşkil etmişdir. Bu göstərici bir il əvvəl - 2001-ci ildə muxtar respublika üzrə 40,2% olmuşdur. Büdcədən təhsilə ayrılan vəsait 1995-ci ilə nisbətən 2002-ci ildə 79,2% artmışdır **(12, 11 aprel 2002).**

Müstəqillik illərində muxtar respublikanın ümumtəhsil məktəblərində çalışan müəllimlərin sayı da ilbəil artmışdır. Belə ki, 1990-cı ildə 7200, 2003-cü ildə 8687, 2005-ci ildə isə 8496 nəfər olmuşdur ki, onların da 93 faizi ali təhsillilər idi **(4, s.60).**

Yuxarıda qeyd edilənlər deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafına yüksək şəkildə diqqət və qayğı göstərilmişdir.

2003-cü ildə muxtar respublikada “Heydər Əliyev ili” elan edilmişdir. Bu qərar Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı böyük xidmətlərinin və anadan olmasının 80 illiyini layiqincə qeyd etmək üçün qəbul edilmişdi. Bu, eyni zamanda Naxçıvan Muxtar Respublikasında təhsil işçiləri qarşısında da böyük vəzifələrin qoyulmasına xidmət etmişdir.

Muxtar respublikada 2003-cü ildə 3 dövlət və 1 qeyri-dövlət orta ixtisas təhsil müəssisəsi-Naxçıvan “Tekis” tibb kolleci fəaliyyət göstərmişdir. Bu təhsil ocağında 2003-cü ildə 66 nəfər təhsil almışdır **(9, s.40).** Dövlət orta ixtisas təhsil müəssisələrində isə 1161 nəfər təhsil almışdır**.** Bəhs edilən ildə muxtar respublikada 3 ali təhsil müəssisəsi (2-si dövlət, 1-i qeyri dövlət) fəaliyyət göstərmişdir. 2003-cü ildə həmin təhsil ocaqlarında 4390 tələbə (3152 nəfər əyani, 1238 nəfər qiyabi şöbələrdə) təhsil almışdır **(3, s.111).**

2003-cü ildə muxtar respublikada dövlət qayğısının artması nəticəsində ümumtəhsilin inkişafına xərclər də artırılmış və uğurlu nəticələr əldə edilmişdir. Rəsmi hesablamalara görə 2002-ci illə müqayisədə 2003-cü ildə büdcə xərcləri 69,4 % artaraq 201 milyard manat təşkil etmişdi. Büdcə vəsaitinin 59,3 milyard manatı (29,5 %-i) təhsilə yönəldilmişdi. Ümumiyyətlə, təhsil

sahəsində görülən işlər və ümumtəhsilin inkişafı quruculuq xəttinin böyük bir hissəsini təşkil etmişdir.

2000-2005-ci illərdə muxtar respublikada tikilən məktəblərin sayı 59, şagird yerlərinin sayı isə 17770 nəfər olmuşdur **(4, s.60).**

2003-cü ildə muxtar respublikada 232 gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, bunun da tərkibində 10 ibtidai, 19 əsas, 202 orta təhsil və 1 xüsusi məktəb var idi. Şagirdlərin sayı isə 72179-a çatırdı **(5, s.160).**

Muxtar respublikada qəbul imtahanlarını müvvəffəqiyyətlə verilməklə ali və orta ixtisas təhsili məktəblərinə qəbulun səviyyəsi aşağıdakı kimi olmuşdur: 2002-ci ildə qəbul imtahanlarında iştirak etmiş 1609 nəfər abituriyentin, 567 nəfəri ali məktəblərə qəbul olunmuşdursa **(8, s.159),** 2003-cü ildə qəbul imtahanlarında iştirak etmiş 2478 nəfər abituriyentdən 786 nəfəri ali məktəblərə qəbul olunmuşdur. 2003-cü ildə muxtar respublikada orta ixtisas məktəblərinə qəbul olanların sayı 438 nəfər olmuşdur **(3, s.110).**

Maraqlı cəhətlərdən biri də odur ki, Naxçıvan və Culfa şəhərləri abituriyentlərinin kimya fənni üzrə, Şahbuz rayonu abituriyentlərinin isə tarix fənni üzrə göstəricisi Azərbaycan üzrə orta göstəricidən yuxarı olmuşdur.

Ümumtəhsil məktəbləri üzrə keçirilən yarışlarda da Naxçıvan məktəbliləri xeyli uğur qazanmışdır. 2003-cü ildə keçirilən fənn olimpiadalarında muxtar respublikanın 101 məktəblisi iştirak etmiş, onlardan 73 nəfəri fəxri yer tutaraq diplomlara layiq görülmüşlər. Qazaxıstanda keçirilən 17 ölkənin məktəblilərinin təmsil olunduğu beynəlxalq olimpiadada iki nəfər naxçıvanlı şagird gümüş və bürünc medallara layiq görülmüş, 5 nəfər şagirdə isə ABŞ-da təhsilini davam etdirmək hüququ verilmişdir. Azərbaycanda keçirilən "Pedaqoji mühazirələr"də iştirak edən 13 nəfər müəllim müxtəlif dərəcəli fəxri diplomlar almışlar. Muxtar respublika məktəblərində çağırışaqədərki yaşlılar arasında idman oyunlarının keçirilməsi, şagirdlərin inşa yazılarının müsabiqəsi, mahnı və rəqs kollektivlərinin çıxışlarına baxış, şeir müsabiqələri, əl işlərinin sərgisi və s. kimi tədbirlər keçirilmişdir.

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında orta təhsili əla qiymətlərlə başa vurub, fərqlənmə attestatı alan məzunların şərəfinə təntənəli mərasimlərin keçirilməsi ənənə halını almışdır. Muxtar respublikada 2002-2003-cü dərs ilində orta təhsili başa vuran 6082 nəfər şagirddən 65 nəfəri fərqlənmə attestatına layiq görülmüşdür.

Naxçıvan şəhər təhsil şöbəsi üzrə 19 nəfər, Şərur rayon təhsil şöbəsi üzrə 7 nəfər, Babək rayon təhsil şöbəsi üzrə 9 nəfər, Ordubad rayon təhsil şöbəsi üzrə 10 nəfər, Culfa rayon təhsil şöbəsi üzrə 2 nəfər fərqlənmə attestatına layiq görülmüşdür **(12, 19 iyun 2003).**

Bütün bunlar muxtar respublika məktəblilərinin təhsilə daha böyük maraqla yanaşmasına zəmin yaradır.

Məktəblilərin 2003 - 2004-cü dərs ilində keçirilmiş fənn olimpiadalarında qazandığı nailiyyətlər Naxçıvan ümumtəhsil məktəblərinin ümumi səviyyəsini geniş əks etdirir. Belə ki, olimpiadanın rayon mərhələsinin I turunda 47252, II turunda 8826, respublika turunda 958 nəfər iştirak etmişdir.

Muxtar respublikada təhsilin keyfiyyətini yaxşılaşdırmaq məqsədi ilə məktəblərin informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi istiqamətində də səmərəli işlər aparılmışdır. Qeyd etmək lazımdır ki, Azrbaycan Respublikası Prezidentinin sərəncamı ilə 21 avqust 2004-cü il tarixdə təsdiq edilmiş "Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı üzrə Dövlət Proqramı"nın icrasına başlandığı 2005-ci ildən etibarən Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərinin kompüterlərlə təchiz edilməsi ardıcıl davam etdirilmişdir **(4, s.160).**

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir" konsepsiyası isə cəmiyyətin inkişafında yeni zəmin yaratmaqla yanaşı, dövlət başçısının bu uzaqgörən fikirlərini bir daha təsdiqləyir. Təhsil sisteminin qarşısında duran əsas vəzifələri müəyyənləşdirərkən Prezident Cənab İlham Əliyev belə bir vacib məqamı xüsusi vurğulamışdır: "Bizim gələcəyimiz təhsillə bağlıdır. Neft, qaz Tanrıdan

verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez, bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra təmin edəcəkdir. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o ölkənin inkişafında ən aparıcı rol oynayan neft-qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır. Bizdə də belə olmalıdır. Biz də buna hazırıq. Belə gözəl təhsil ocaqları var".

Dahi öndərin: "İstəyirəm ki, mənim arzum, istəklərim Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin" sözləri bu gün də quruculuq işlərinin əsas qayəsi olmaqla yanaşı, muxtar respublikamızı yeni uğurlara doğru aparır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında Ümummilli liderimiz Heydər Əliyev tərəfindən həyata keçirilən təhsil siyasəti bu gün ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: Yeddi cilddə. VII c., Bakı: Elm, 2008, 608 s.
2. "Azərbaycan müəllimi" qəzetinin dövrə aid sayları.
3. Cəfərov H.R. Naxçıvanda təhsil: İnkişaf yolu və imkanları. Bakı: "Elm və təhsil", 2011, 343 s.
4. Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan: "Əcəmi" NPB, 2010, 279 s.
5. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan: "Əcəmi" NPB, 2011, 272 s.
6. Hacıyev İ, İsmayılov B. Naxçıvan Muxtar Respublikası - 90. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2014, 184 s.
7. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş II nəşr. Bakı: "Azərbaycan" nəşriyyaı, 2008, 840 s.
8. M.Məmmədov. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: 2005, 208 s.
9. Naxçıvan Muxtar Respublikası 80. Tarixi-statistik məcmuə. Bakı: Səda, 2004, 212 s
10. Naxçıvan tarixi: Üç cilddə. III c., Naxçıvan: "Əcəmi" NPB, 2015, 560 s.
11. Şahverdiyev Z, Zeynalov İ. Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi və mədəni inkişaf (2001-2012-ci illər). Dərs vəsaiti. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2014, 248 s.
12. "Şərq qapısı" qəzetinin dövrə aid sayları.

**РЕЗЮМЕ**

**ХАЗАР ГУСЕЙНОВ ,ФАХРИЯ ГУСЕЙНОВА**

**РАЗВИТИЕ ОБРАЗОВАНИЯ В НАХЧИВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ (2000-2005 годы)**

В Нахчыванской Автономной Республике, являющейся неотъемлемой частью Азербайджанской Республики, сфера образования, как и все сферы, имеет свой этап развития. Одним из этапов этого развития являются 2000-2005 годы.

Как известно, в первые годы независимости в развитии образования в стране наблюдалось отставание. Несмотря на все это, в годы независимости, во время руководства нашего общенационального лидера Гейдара Алиева, развитию образования в Нахчыванской Автономной Республике уделялось серьезное внимание, существенно перестраивалась и укреплялась ее материально-техническая база.

В указанные годы достойный продолжатель политического курса Гейдара Алиева, Президент Азербайджанской Республики господин Ильхам Алиев считал образование одним из главных приоритетов государственной политики, уделял большое внимание и заботился об его развитии.

В результате большого внимания, уделяемого сфере образования в Нахчыванской Автономной Республике, профессорско-преподавательский состав высших и средних школ перестроил свою деятельность в направлении развития знаний, умений, интересов и способностей учащихся и добился успехов.

**Ключевые слова:** *Азербайджан, Нахчыван, программа реформ, система образования, высшее образование, среднее образование.*

**SUMMARY**

**KHAZAR HUSEYNOV  FAHRIYA HUSEYNOVA**

**DEVELOPMENT OF EDUCATION IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC (2000-2005 years)**

In the Nakhchivan Autonomous Republic, which is an integral part of the Republic of Azerbaijan, the field of education, like all fields, has its own development stage. One of the stages of this development is the years 2000-2005.

As it is known, in the first years of independence, there was a lag in the development of education in the country. Despite all this, in the years of independence, during the leadership of our national leader Heydar Aliyev, serious attention was paid to the development of education in the Nakhchivan Autonomous Republic, its material and technical base was substantially rebuilt and strengthened.

In the mentioned years, Mr. Ilham Aliyev, the worthy follower of Heydar Aliyev's political course, the President of the Republic of Azerbaijan, considered education one of the main priorities of the state policy and gave great attention and cared to its development.

As a result of the great care given to the field of education in the Nakhchivan Autonomous Republic, the teaching staffs of higher and secondary schools restructured their activities in the direction of developing the knowledge, skills, interests and abilities of students and achieved success.

**Keywords:** *Azerbaijan, Nakhchivan, reform program, education system, higher education, secondary education.*

(*Tarix üzrə fəlsəfə doktoru, dosent  E.İsayev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

UOT 94 (479. 24)

**YAŞAR RƏHIMOV**
AMEA Naxçıvan Bölməsi
yasarrahimov@yahoo.com.tr
DOI: 10.5281/zenodo.10984383

## ERMƏNİLƏRİN NAXÇIVANA QARŞI ƏRAZİ İDDİALARI VƏ NAXÇIVANDA ERMƏNİ TƏCAVÜZÜNƏ QARŞI MÜBARİZƏ (1918-1920-Cİ İLLƏR)

*Ermənilər tarix boyu məkrli siyasət yeritmişlər. Hələ 1917-ci ildə Rusiyada baş vermiş inqilabdan və çevrilişdən sonra erməni daşnakları bundan məharətlə istifadə edərək “Böyük Ermənistan” yaratmaq yolunda yenidən fəaliyyətə başladılar. Erməni millətçiləri real həqiqətləri və gerçək vəziyyəti dünya ictimaiyyətinə təhrif olunmuş halda təqdim etməyə çalışmış və ictimai rəyi Naxçıvanın erməni ərazisi olmasına inandırmaq üçün əllərindən gələni etmişlər. Güclü diasporları ilə əlbir fəaliyyət göstərən erməni təşkilatları tarixi fakt və həqiqətləri saxtalaşdırmaq yolu ilə ərzai iddialarını əsaslandırmağa çalışmışlar. Naxçıvanın Ermənistana birləşdirilməsi üçün müxtəlif fitnəyə, çirkin üsul və vasitələrə əl atan ermənilər imzalar toplayaraq mitinq və nümayişlər keçirmişlər. 1918-1920-ci illərdə Naxçıvana sahib olmağa çalışan ermənilər ölkəmizin digər bölgələrini də zəbt etməyi qarşılarına məqsəd qoymuşlar.*

**Açar sözlər***:* *ərazi iddiası, erməni təcavüzü, Naxçıvan bölgəsi, 1918-1920-ci illər, mənbə*

**Giriş.** XX əsrin əvvəllərində Azərbaycanda yaranmış vəziyyətdən istifadə edərək hadisələrə müdaxilə edən ermənilər Naxçıvanda yaşayan azərbaycanlılara divan tutmuş, onları bu ərazidən qovmağa və beləliklə, Naxçıvana sahib olmağa çalışmışlar. Türkiyənin Azərbaycanla münasibətlərini pozaraq Naxçıvana sahib olmağa çalışan ermənilər Türkiyənin köməyindən məhrum olacaq digər Azərbaycan torpaqlarını da zəbt etməyi qarşılarına məqsəd qoymuşdular. Ermənilərin iddialarına görə, Naxçıvan Ermənistanın tarixi ərazisidir. Digər bir iddiaya görə, tarixi erməni torpaqlarının geri qaytarılması üçün ən uyğun vasitələr silahlı mübarizə, qətliam və terrordur.

**Ermənilərin Naxçıvana qarşı ərazi iddiaları və Naxçıvanda erməni təcavüzünə qarşı mübarizə**. Türkiyənin Azərbaycan, Orta Asiya və digər ölkələr ilə əlaqələrini gücləndirən yeganə dəhlizi bağlamaq istəyən ermənilər Naxçıvan bölgəsini ələ keçirməklə həm də geniş münbit torpaqlara sahib olmaq istəyirdilər. Ermənilər üçün Osmanlı və ya Anadolu türkü, Azərbaycan türkü eyni qəlib içərisindədir (22, s.46). Burada ermənilərin Naxçıvana xüsusi önəm verdikləri bir daha nəzərə çatdırılır.

Türk milli mübarizə liderləri Mustafa Kamal paşa və Kazım Qarabəkir paşa Naxçıvanın strateji əhəmiyyətini çox gözəl başa düşürdülər. Kazım Qarabəkir paşaya görə Naxçıvan “Şərq qapısı”, Mustafa Kamal paşaya görə isə “Türk qapısı” idi.

Naxçıvanın çox mühüm strateji əhəmiyyəti aşağıdakı faktorlardır:

1) Naxçıvan Azərbaycana və türk dünyasına açılan yeganə dəhliz idi.

2) Naxçıvan Ermənistana qarşı təşkil ediəcək hücumda strateji bir mövqe daşıyırdı.

3) Naxçıvan Orta Asiyaya açılan qapı mövqeyində idi və türk dünyasını bir-birinə bağlayan körpü vəzifəsini icra edirdi (23, s.69).

Naxçıvana və digər Azərbaycan torpaqlarına əsassız ərazi iddiaları ilə çıxış edən ermənilər beynəlxalq konfranslarda və yığıncaqlarda (Paris sülh konfransı, Moskva danışıqları və s.) ardıcıl və davamlı olaraq Naxçıvanı tələb etmişlər. Xristian mundiri geymiş ermənilər özlərini “zavallı”, “əzabkeş” millət kimi təqdim edərək xristian dövlətlərindən dəstək istəmiş, sərhədləri ətrafında yer alan türk bölgələrini istila və zəbt etməyə çalışmışlar. Paris sülh konfransına da saxta sənədlər, əsassız dəlillərlə gələn ermənilər Qarabağ, Naxçıvan torpaqlarını “erməni əraziləri” kimi təsdiq etməyə çalışaraq hər cür fitnəkarlığa və riyakarlığa əl atırdılar. Konfransda Azəri-türk və erməni nümayəndə heyətləri arasında çox kəskin və sərt mübahisələr gedirdi. Bu mübahisələrdə əsas və başlıca yeri Naxçıvan məsələsi tuturdu.

Mənbələrdən məlum olur ki, Rusiya da Türkiyənin Naxçıvan üzərində himayə hüququna hər vasitə ilə mane olmağa çalışır, türk qüvvələrini ərazidən çıxarmaqla Naxçıvanı Ermənistana verməyə can atırdı. Rus heyəti Türkiyənin Naxçıvan üzərində himayə hüququnu qəbul etmirdi (2, 428-429). Rusiya öz siyasətində Naxçıvanı Türkiyənin himayəsinə verməmək üçün gizli planlar hazırlamışdı. Hər şeydən əvvəl, Rusiya ilə münasibətlərdə Naxçıvan bir mərkəz halına gətirilmişdi. Bundan başqa, Rusiya Azərbaycan və Türkiyə arasında Ermənistan yaradılaraq türk dünyasının bir-birilə əlaqəsini kəsmək və Türkiyə üzərində üstünlük qazanaraq Ermənistanın xeyrinə ərazi iddi-alarını irəli sürmək istəyirdi. Bütün bunlar nəticə etibarılə Rusiyanın zəif Türkiyə dövləti üzərindən Yaxın Şərqə və isti dənizlərə çıxmaq kimi gizli niyyətlərinə səbəb olcaqdı. Rusiya hökuməti Türkiyəni təsir altına almaq üçün ermənilərdən öz məqsədi üçün istifadə etməyə çalışırdı. Ermənistana gətiriləcək ermənilərdən Türkiyəyə qarşı istifadə olunacaqdı. Çünki Moskva Türkiyəyə hücum etməyə hazırlaşırdı və vaxtı gəlincə erməniləri ön planda tutacaqdı (26, s.165). Obyektivcə-sinə bildirilən bu fikirlər çox düzgün və dürüstdür.

“Böyük Ermənistan” ideyasını gerçəkləşdirmək üçün ermənilər məsələyə Naxçıvandan başlamaq niyyətində idilər. Bu bir həqiqətdir ki, Ermənistan Azərbaycanın işğalına Naxçıvandan deyil, Qarabağdan başladı. Əslində Naxçıvandan başlamağa gücləri və cəsarətləri çatmadı. Ermənilər yaxşı bilirdilər ki, Naxçıvanda Ermənistanın işğalçılıq siyasətini dəstəkləyəcək sosial baza yoxdur. Digər tərəfdən naxçıvanlıların qorxmazlığı, igidliyi və dəyanəti məkrli və hiyləgər erməniləri öz yerlərinə oturmağa məcbur etdi. Radikal millətçi fikirləri ilə tanınan daşnak ideoloqu Zori Balayan da özünü erməni xalqı qarşısında günahkar hesab edərək məsələni Naxçıvandan başlamağa cəsarəti çatmadığını etiraf etmişdir. İgid, qəhrəman, öz torpağının qədrini bilən, həm də öz yurdlarının keşiyini çəkməyi bacaran Naxçıvan əhalisi yeri gələrsə canlarından və qanlarından keçməyə hazır olan vətənpərvər insanlardır.

Naxçıvanın Azərbaycana bağlanması belə dəyərləndirilmişdir: “Naxçıvanın Azərbaycana bağlanması Mustafa Kamal paşa tərəfindən müsbət qarşılanmış və Ankaraya qayıdan Yusif Kamal bəy-möhtərm paşam! Naxçıvan üçün əlimizdən gələni etdik-demişdi. Paşa-Yusif Kamal bəy! Qapımız mövcudluğunu mühafizə edir, bizim üçün mühüm olanı budur” cavabını vermişdir (24, s.431). Göründüyü kimi bu cavabda Naxçıvana çox böyük əhəmiyyət verildiyi aydın şəkildə bəyan edilmişdir.

Xəlil paşanın rəhbərliyi ilə türklərin Naxçıvanda erməni hücumlarına qarşı mübarizəsindən bəhs edən bir mənbədə oxuyuruq: “Hələ 1919-cu ildə XV Kolordu komandanı ikən avqustun əvvəllərində Doğubayaziddən və 1918-ci il noyabr ayından bəri “Naxçıvanlı” olaraq orada qalan “Yüzbaşı Xəlil əfəndi” və “dəstəsi” erməni hücumu və qətliamına qarşı Naxçıvan ətrafı ilə birlikdə Araz boyunda “Araz Türk hökuməti”ni keçici olaraq qurmuş və yerli türkləri silahlandırıb, təşkilatına başçı olmuşdu” (24, s.228). Göründüyü kimi burada yüzbaşı Xəlil bəyin Naxçıvanda erməni soyqırımı və qətliamına qarşı fəaliyyəti təsdiqlənir.

Digər bir mənbədə isə Naxçıvanın milli varlığının qorunub saxlanmasından, Azərbaycan hökuməti tərəfindən Kazım Qarabəkir paşaya, Mustafa Kamal paşaya göndərilən servis (yemək qabları) komplektindən bəhs edilir: “Beləcə əl altından Paşanın etdiyi yardımlar sayəsində Naxçıvan bölgəsi milli varlığını qoruya bilmiş və 16 mart 1921-ci il Moskva müqaviləsilə Sovet Azərbaycan Cümhuriyyətinə bağlanma imkanı tapmışdı. Bu təmənnasız milli xidmətlərinə görə Azərbaycan hökuməti bir xatirə olaraq 1921-ci ilin aprelində Şərq cəbhəsi komandanı Kazım Qarabəkir paşaya və Türk Böyük Millət Məclisinin sədri Mustafa Kamal paşaya 800 ayar gümüşdən 24 nəfərlik və 279 hissədən ibarət olan yemək qabları servisini hədiyyə göndərmişdir” (24, s.228).

Ermənilər və erməni məsələsi barədə türk mənbələrində verilən məlumatlar içərisində Kazım Qarabəkir paşanın Amerika heyətinə göndərdiyi raportu diqqəti cəlb edir. Həmin raportda deyilir: “Ermənilər, Qars, Ərdəhan, Naxçıvan, Şərur, İğdır məntəqələrinin işğal etdikdən sonra açıqdan-açığa müsəlmanların tamamilə qırılacağını və yer üzərində müsəlman qoymacaqlarını söyləməyə başlamışlar...” (25, s.192). Bu raport ermənilərin müsəlmanlara qarşı məkrli siyasəti və sərsəm planları haqqında təsəvvür yaradır.

Türk arxiv sənədlərində ermənilər və onların əsassız iddiaları haqqında xeyli məlumatlar vardır. Ərzurum vilayətindən 3-cü ordu müfəttişliyinə göndərilən məktub xarakterli sənəddə deyilir: “Naxçıvan və ətrafında olan müsəlman əhalinin ermənilər tərəfindən silahların toplandırılıb əhalini qırması və ərazidə islamiyyətin tamamilə yox ediləcəyi müsəlmanlara qarşı ermənilər tərəfindən təzyiqlərin gerçəkləşdirilməkdə olduğu müsəlman komitələri bölgə cəmiyyətlərindən bildirilmişdir” (24, s.34-35).

Ermənilərin Naxçıvan və Şərur ətrafında müsəlmanları tamamilə yox etməyi qərarlaşdırdığını təsdiq edən 492 saylı arxiv sənədində yazılır: “Ermənilərin Naxçıvan və Şərur bölgələrində tək bir müsəlman qalmayıncaya qədər bütün müsəlmanları öldürməkdə davam edəcəklərinə və ya hamısını Araza tökəcəklərinə qərar verdikləri, Şərurda soyqırım və qətliam törədərək viran etdikləri 45 kəndin əhalisinin Vediyə sığındıqları, ölümlə pəncələşən Naxçıvanın və Şərurun müsəlman əhalisinin Osmanlı hökumətindən yardım istədikləri, Kazım Qarabəkirin kömək gözləyən əhaliyə qarşı törədilən soyqırımına son verilməsini də heç olmazsa sağ qalanların həyatını təminat almasına dair ifadəsi haqqında” (24, s.45-46).

Naxçıvanın əzəli, əbədi Azərbaycan torpağı olması, ermənilərin əsassız iddiaları haqqında türk mənbələrində, toplularda, arxiv sənədlərində, kitablarda çoxlu məlumatlar vardır. Arxiv sənədləri və materialları bu cəhətdən xüsusilə diqqəti cəlb edir. Naxçıvan vilayət vəkili Harbəy Tağızadə tərəfindən hərbi nazirliyə göndərilmiş bir arxiv sənədi xüsusi maraq doğurur. Həmin sənəddə oxuyuruq: “1. Naxçıvan və Şərur ətrafına qırx beş kəndə ermənilər müxtəlif vasitələrlə hücum etmiş, məhəllələri zirehli vaqonlardan atəşə tutmuşlar. Son alınan xəbərlər islam əhalisinə qarşı törədilən fəlakət və faciələri təsdiq etməkdədir. 2. Böyük Vedi ətrafına iki alayla hücum edilmiş və əhalinin çoxu öldürülmüşdür. 3. Əldə edilən erməni əmrlərində bu cümlələr də vardır: Şəhər əhalisini Araz çayına tökmək üçüncü alay komandanlığının vəzifəsidir. Məqsəd Şahtaxtı və Qıvraq kəndlərini batıraraq müsəlmanları Araz çayına tökməkdir. 4. Naxçıvanda və ətrafında yaşayan islam əhalisi haqqında Bəyaziddən yazılan 12 (7) [13] 35-ci teleqrafnamədə də eyni fikirlər vardır” (24, s. 46-47).

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsi 1918-1920-ci illərdə ağır vəziyyətə düşmüşdü. 1917-ci il inqilabı rus boyunduruğu altındakı millətlərin istiqlalını elan etmələrinə bir fürsət yaratdı (7, s.15). Tarixdən məlum olduğu kimi, bu zaman Naxçıvan regionunu idarə etmək üçün 1918-ci ilin ortalarında Cəfərqulu xan Kəngərlinin başçılığı ilə Naxçıvanın vətənpərvər qüvvələrini, müəllim və ziyalılarını, nüfuzlu şəxslərini birləşdirən ”türk müsəlman milli komitəsi” yaradıldı. Naxçıvanda yaradılan bu “milli komitə” əhalisi azərbaycanlılardan ibarət olan Mehri, Ordubad, Culfa, Şahbuz, Şərur-Dərələyəz bölgələrini öz himayəsi altına aldı. Lakin bu ərazi və torpaqlar üzərində “Böyük Ermənistan” yaratmaq xəyalı ilə yaşayan ermənilər həmin əraziləri işğal etmək niyyətlərindən bir anlıq da olsa əl çəkmək istəmirdilər və indi də istəmirlər. İddia edilən “Böyük Ermənistan” “dövləti”nin gerçəkləşməsi üçün başlanğıc olaraq Naxçıvan hədəf seçilmişdir. Naxçıvanın növbəti daşnak hücumlarından etibarlı müdafiəsi yalnız güclü hərbi qüvvəyə arxalanmaqla təmin oluna bilərdi. Buna görə də o zaman bölgəni və əhalini xain düşmənlərdən müdafiə etmək üçün səfərbərlik elan edilmiş və gənclərdən ibarət Naxçıvanda bir ordu yaradılmışdı. Lakin bu ordunu silahlandırmaq, onu hərbu sursat və ərzaqla təmin etmək bir problem kimi qarşıya çıxmışdı. Xoş bir təsadüf bu problemin həlli üçün əlverişli şərait yaratmışdı. Həmin dövr hadisələrinin canlı şahidi olmuş, həmyerlimiz L.Hüseynzadə bu məsələ ilə bağlı öz xatirələrində aşağıdakıları yazırdı: “Yüksək hərbi təhsil almış Cəfərqulu xan Kəngərlinin oğlu Kalbalı xan Kəngərli bu orduya baş komandan təyin edildi. Bir xoş təsadüf nəticəsi olaraq ordunun silahla təchizi də təmin edildi. Belə ki, İrandan Rusiyaya qayıdan rus əsgərləri Naxçıvanın Culfa keçidindən keçərkən həmin orduda xidmət edən böyük xan adlı (bu onun əsil adı deyildi) bir çeçen və ya avar müsəlman zabiti özünün komandan olduğu və digər hərbi hissələrin silahlarını alaraq (o cümlədən 12 top) müsəlman milli komitəsinin ixtiyarına verdi və özü də bir müddət Naxçıvanda qalaraq ordunun qüvvətlənməsinə yaxından kömək etdi. Müsəlmanlara qarşı kin, ədavət bəsləyən ermənilər “müsəlman milli komitəsi”nə tabe olmadılar və özləri “erməni milli komitəsi” yaratdılar. Bu erməni komitəsi öz imkanlarından istifadə edərək Ermənistandan hərbi ləvazimat və s. yardımçı qüvvələr almağa başladılar. İrəvandan gizli yollarla gələn daşnaq könüllüləri müsəlman ailələrini kənddən

çıxarıb evlərini taladılar, ya qətlə yetirdilər. Acı xəbərlər şəhərdə əhalini həyəcana gətirirdi. Ermənilər çox olan kəndlərdə (daha çox ermənilər köçürülən kəndlərdə-Y.R.) yaşayan müsəlmanlar evlərini tərk edərək müsəlman kəndlərinə köçməyə məcbur oldular. Şəhərdəki müsəlman məhəllələrində yaşayan ermənilər (köçürülmüş ermənilər nəzərdə tutulur-Y.R.) də köçüb erməni məhəllələrində yerləşdilər, vəziyyət get-gedə gərginləşməyə başlayırdı. Kəndlərdə başladıqları qanlı faciələri ermənilər şəhərdə də törətməyə başladılar. 1918-ci ilin əvvəllərində onlar Naxçıvan şəhərində qalmış bir qisim rus əsgərlərini öz tərəflərinə çəkərək müsəlmanlara qarşı atəş açmağa təhrik etdilər. Özləri də onlara yardım etmək məqsədilə şəhərin Şahab, Xoylu, Qala məhəllələrini atəşə tutdular. Naxçıvan əhalisi onlara qarşı ciddi müqavimət göstərdi. Ermənilər ağ bayraq qaldıraraq barış istədiklərini bildirdilər. Beləliklə, onların xahişinə görə atəş kəsilib barış bərpa edildi. Sonra məlum oldu ki, ermənilərin ağ bayraq qaldırmaları, barış istəmələri bir hiylə imiş” (8, s.16-17).

Baş verən 1917-ci il çevrilişindən və Ərzincan müqaviləsinin (18 dekabr 1917-ci il) imzalanmasından sonra ruslar geri çəkilərkən işğal etdikləri əraziləri (Şərqi Anadolu və s.) ermənilərə təslim etməyə çalışır və silahlarını ermənilərə təhvil verirdi (1, s.243). Bolşevik hökumətinin yaxından köməyilə öz ordusunun canlı qüvvəsini 17 minə çatdıran ermənilər 1918-ci ilin əvvəllərində mərkəzi Rəvan olmaqla, Ərzurum, Qars, Van, Bitlis, Muş, Naxçıvan və Zəngəzur daxil olmaqla bölgədə bir erməni dövləti yaratmaq üçün öz birliklərini təşkil etməyə başladı. 1918-1920-ci illərdə ermənilər Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrinə hücum edərək bu qəzalarda dəhşətli cinayətlər törədirdilər. Kəndlərin talan edilməsi, müsəlmanların qılıncdan keçirilməsi, onların yandırılması və mühasirəyə düşməsi haqqında şahid xatirələrində, sənədlərdə və tarixi ədəbiyyatlarda saysız-hesabsız faktlar vardır. Bunlardan bir fakt göstərək. 1918-ci yanvar ayının 17-də Naxçıvan qəzasının Əznəbürd kəndi (indiki Çalxanqala-Y.R.) ermənilər tərəfindən hücuma məruz qalmış, həmin kənddə yaşayan 22 nəfər müsəlman qadın və kişi qətlə yetirilmişdir. Ümumiyyətlə, 1918-ci ilin əvvəllərindən başlayaraq Tiflis daşnak şurasından Naxçıvana göndərilmiş Xorazyan başda olmaqla yerli daşnak erməniləri həm şəhərdə, həm də Naxçıvan qəzasının bir çox kəndlərində müsəlman əhalisinə basqınlar etmiş, minlərlə günahsız insanı qətlə yetirmişlər. Belə bir şəraitdə Naxçıvan əhalisi tələb etdi ki, ermənilərin bölgədə azərbaycanlılara qarşı həyata keçirdiyi vəhşiliyin qarşısı alınmalı və türk ordusu vəziyyətə münasibət bildirməlidir. Bolşevik-sovet ordusundakı bazıpozuqluq və Brest-Litoviskdəki danışıqların nəticəsiz qalması bölgədə vəziyyəti daha da mürəkkəbləşdirdi. Erməni daşnaklarının Naxçıvan qəzasına təcavüzü ilə əlaqədar olaraq Kərim xan İrəvanlının başçılığı ilə 1918-ci ilin iyun ayında Naxçıvan şəhərindən Hacı Mehdi Bağırov, İsgəndər Nağıyev, Hacı Xəlil İmanov və Kərbəlayı Abbas Bayramov Türkiyəyə gedərək Mehmet Vəhib paşadan hərbi qüvvə ilə kömək göstərməyi xahiş etmişdilər. Naxçıvanlılar üçün mövcud olan təhlükəli vəziyyəti aradan qaldırmaq məqsədilə türk komandanlığı tərəfindən bəzi tədbirlər görüldü. Naxçıvan nümayəndələri Türkiyədən qayıtdıqdan bir neçə gün sonra Kazım Qarabəkir paşanın təlimatı və tapşırığı ilə Doğu Bəyaziddə olan yüzbaşı Xəlil bəy 1918-ci il aprel ayının 25-də bir neçə əsgər və zabitlə Şahtaxtı kəndinə gəldi. Bundan başqa, Ənvər paşanın göstərişi ilə topçu komandanı Hüsnü bəy və süvari zabiti Osman Nuri bəy də Naxçıvana göndərildilər. Tərik Vəhib paşanın komandanlığı altında 3-cü türk ordusu təşkil edildi. Türk Qafqaz Ordusunun polkovniki Kazım Qarabəkir paşanın komandanlığı altında aparılan hərbi əməliyyatlardan sonra Ərzincan, Trabzon, Ərzurum, Batum, 1918-ci ilin aprelin 25-də Qars türk qüvvələri tərəfindən işğaldan azad edildi (1, s.244).

Bu dövrdə ən ağır döyüşlər Novruz bayramı ərəfəsi və günlərində olmuşdur. Bu arxiv sənədlərində, Lətif müəllimin xatirələrində, H. Nərimanoğlunun kitabında, Ə.Əliyevin məlumatlarında və b. mənbələrdə də təsdiqlənir. L.Hüseynzadə öz xatirələrində yazırdı: 1918-ci il mart ayının əvvəlləri idi. Eşitdik ki, yaşadığımız Sarvanlar məhəlləsinin yaxınlığında olan edilağa gölünün ətrafında qoyun otaran çobanı ermənilər öldürmüş və qoyunları da aparmışlar. Bu xəbər məhəlləmizdə hamını bərk narahat etdi. Camaat erməni milli komitəsinə şikayət etdi, lakin şikayət nəticəsiz qaldı. Sonra məlum oldu ki, bu qanlı hadisəni Əliabad kəndinin erməniləri etmişlər. Öldürülən çobanın qohumları iki nəfər ermənini öldürməklə intiqam aldılar. Bu hadisələr Naxçıvan

şəhərində erməni və müsəlmanar arasında müharibənin yenidən başlanmasına səbəb oldu (8, s.17). O, digər bir xatirəsində bildirirdi: “Xatırlayıram ki, bütün şəhər əhalisi kimi, məhəlləmizin camaatı da Novruz bayramını keçirmək üçün sevinclə hazırlaşırdı. Mart ayının 15-16-sı idi. Sübh tezdən məhəlləmiz “böyük bağ” istiqamətindən ermənilər tərəfindən atəşə tutuldu. Hamı qorxu və həyəcan içində səhərini açdı. Düşmən güclü silahlanmışdı. Ermənilərin gec-tez belə bir hərəkət edəcəkləri gözlənilməz deyildi. Camaatımız atəşə atəşlə cavab verməyə başladılar. Bu atışma fasilələrlə üç gün davam etdi. Çox itkilərimiz oldu, döyüşən adamlarımız tükənmişdi. Hər gün 10-15 adam öldürülürdü. Məhəlləmiz ermənilərin işğalı, insanlarımız isə ölüm təhlükəsində qalmışdı. Vəziyyət xeyli ağırlaşmışdı. Bir axşam məhəlləni tərk edib Araz çayı kənarındakı Qaraçuğ kəndinə yerləşməyə məcbur olduq. Xəstə bacımı güclə aparırdım. Ermənilər dərhal Sarvanlar məhəlləsini və ona yaxın olan Gomayi və Dizə məhəllələrini taladıqdan sonra evləri və evlərdə qalan xəstə və qocaları diri-diri yandırdılar. Araz kənarından durub yanan evlərimizi bir-birimizə göstərir və göz yaşları ilə bunu izləyirdik. Ermənilər daha başqa məhəllələrə də hücüm etdi və şəhərin Xoşulu, Xoylu məhəllələrini də talayıb yandırdılar” (8, s.17-18).

1918-ci il martın 18-21-nə kimi ermənilər Əlincəçay boyunca müsəlman kəndlərinə: Bənəniyar, Qızılca, Saltax, Noraşen, Xoşkeşin və s. kəndlərə hücum edərək kəndləri yandırmış, qarət etmiş, əhalisini vəhşiliklə qətlə yetirmişlər. Canlarını qurtaranlar isə öz ocaqlarını tərk edərək qonşu kəndlərə, Naxçıvan şəhərinə qaçmışlar (9, v.753).

Bayram gecəsi 10.000 nəfərdən çox erməni silahlı qüvvələri qəflətən hücuma keçib Ordubadın bəzi kəndlərini yandırmış və şəhərə böyük təhlükə yaratmışlar. Naxçıvandan türk zabiti Ədib bəyin (Lətif müəllim onun şəhərdə qalaraq ailə qurduğunu bildirir-Y.R.) başçılığı ilə köməyə gələn 500 nəfərlik hərbi hissə Aza kəndi yaxınlığında düşmənlə vuruşmağa başlamışdı. Ordubada kömək göstərilməsi üçün hətta Təbriz general-qubernatoru Sərdar İntizara müraciət edilmişdi. Arxiv sənədlərindən göründüyü kimi İran tərəfi müəyyən məqsədlər güddüyündən, nəinki heç bir yardım göstərməmiş, əksinə, başqa tədbirlərə əl atmışdı. Ordubadlıların güclü müqaviməti və Naxçıvandan gələn qüvvələrin köməyi nəticəsində ermənilərin Ordubad mahalını ələ keçirmək cəhdləri uğursuzluqla nəticələnmiş, onlar xeyli itki vermişlər. Ordubadlı döyüşçülərdən də yaralananlar olmuş və xeyli kəndlər dağıdılmışdı. Ədib bəyin hazırladığı xüsusi əməliyyatın uğurla qurtarması sayəsində şəhərin mühasirəsinə son qoyulmuş və təhlükə sovuşdurulmuşdu.

Ermənilərlə azərbaycanlılar arasında baş verən qanlı toqquşmaların aradan qaldırılması üçün 15 mart 1918-ci il tarixdə Maku sərdarı Murtuzaqulu xan müsəlmanlarla ermənilər arasında sülh bağlanması üçün erməni Milli Komitəsi adına və Cəfərqulu xan Naxçıvanski adına məktub göndərir. Məktubda göstərir ki, sülh bağlanmasa, günahkar tərəf qoşun bölüyü tərəfindən atəşə tutulub məhv ediləcək. Lakin erməni daşnakları, başda Y.Xarazyan olmaqla bu məktubu saya almayaraq Naxçıvan bölgəsinin bir çox kəndlərində yerli (köçürülənlər-Y.R.) erməniləri müsəlmanlara qarşı cinayətlərə qaldırırlar. Buna misal olaraq, Naxçıvan qəzasının Qaraxanbəyli kənd erməniləri 31 mart 1918-ci ildə azərbaycanlılara atəş açmağa başlayırlar. Bu vuruşmada müsəlmanlar 25 nəfər tələfat verir və döyüş meydanından meyitləri çıxara bilmirlər. Aprelin 3-də müsəlman Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirov erməni Milli Komitəsinə müraciət edərək meyitlərin verilməsini tələb edir və 6 meyit ermənilərdən alınır. Gətirilən meyitlər ermənilər tərəfindən tanınmaz hala salınmış, yandırılmış, hətta Məşədi Rəhim Babayevin başını kəsmişlər (4, s.68-69).

Araşdırılan arxiv sənədlərindən məlum olur ki, 1918-ci ilin əvvəllərindən başlayaraq 1920-ci ilin iyun ayına kimi başda Andranik Ozanyanın, Nijdenin, Dronun, Gibbonun, Doluxanovun və b. başçılıq etdiyi erməni quldur dəstələri tərəfindən təkcə Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzasında 50-dən artıq müsəlman kəndlərinə basqınlar etmiş, dağıtmış, yandırmış, kənd əhalisinin çoxu öldürülmüş, canlarını qurtaranlar isə öz yurdlarından didərgin düşmüşlər (10, v.103-105).

Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan ərazisində də ermənilərin dinc əhaliyə qarşı həyata keçirdiyi soyqırımları dayandırmaq üçün 3-cü türk ordu komandanlığı 1918-ci il mayın 15-də Arpa çayının şərqində yerləşən Gümrünü ələ keçirmək üçün hücuma başladı. Bu zaman Naxçıvanın cənubunda yerləşən ermənilər ingilis və amerikanlardan yardım alaraq türk qüvvələrinə müqavimət göstərməyə çalışırdı. Tezliklə Kazım Qarabəkir paşanın rəhbərliyi altında I Türk Ordu

qrupu Culfanın şimalından hərəkətə keçərək erməniləri bu bölgədən çıxardı. Beləliklə də Araz çayının cənubu ermənilərdən təmizləndi.

Osmanlı ordu qərargahının 28 avqust 1918-ci il tarixli məlumatında göstərilir ki, Naxçıvanın şimal-şərq bölgələrində Andranik səfərbərlik elan edərək 15 yaşdan 45 yaşa qədər ermənilərin hamısını silaha sarılmağa çağırmışdı. O, 5 min erməni ilə Gorusun 10 km cənub-qərbində məskən salıb, 700 piyada, 400 atlı zabit, 4 pulemyot, 2 dağ topu olan erməniləri də ixtilafa çağıraraq müsəlmanları qətlə yetirməyə təşviq edir. Andranik Qafan mis mədənlərində fransızlardan qalan zavodları yenidən işə salaraq partladıcı maddələr, hərbi sursat hazırlayır, bunlardan dinc əhalinin kütləvi məhvində istifadə edirdi.

Andranik hələ Naxçıvana ilk gəldiyi günlərdə erməni milli komitəsi vasitəsilə müsəlman milli komitəsinə nota göndərərək bildirmişdi ki, o, Rusiya hökuməti torpağı olan Naxçıvana Rusiya tərəfindən hakim göndərilmişdir. Naxçıvan şəhərini mühasirədə saxlayan Andranik şəhər əhalisinin təslim olmasını və silahların toplanıb ona verilməsini tələb etmişdir. 1918-ci il iyulun 2-də Andranikin Naxçıvan şəhər əhalisinin təslim olması haqqında ultimatumunu Naxçıvanda fəaliyyət göstərən erməni milli komitəsinin sədri Yero Xarazyan təqdim etmiş və 24 saat möhlət vermişdir. Bu məsələ milli komitədə müzakirə edildikdə onun dediklərinin yalan olduğu isbat edilmiş və onun tərkisilah tələbinə milli komitə sədrinin rədd cavab verməsi qərara alınmışdı. Lakin şəhər əhalisi ermənilərə təslim olmayacaqlarını və axıradək vuruşacaqlarını bildirmişlər (3, s.164).

1918-ci il iyunun 14-də Naxçıvan qəzasına soxulan Andranik bu bölgənin kəndlərinə qarşı kütləvi qırğınlar törətməyə başladı. Onun quldur dəstələri Naxçıvandan başlayaraq Zəngəzur və Şuşayadək olan əraziləri zəbt etməyə can atırdı. Andranikin ilk təcavüzü qəzanın Araz çayı kənarında yerləşən Yaycı, Aşağı Aza və Kərimquludizə kəndləri olmuşdur. Ermənilər Yaycı kəndində 4000 nəfərdən çox müsəlman əhalisini qırmışlar. Yaycı hadisələri ilə bağlı T.Nağdəliyev 14 iyun 1918-ci ildə Naxçıvan Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirovun adına göndərdiyi məktubda yazırdı: “Məlum edirəm ki, Andranikin dəstəsi İrandan Araz körpüsünü keçərək Yayçı kəndinə girmiş, həmin kəndin əhalisini qılıncdan keçirərək kəndi tar-mar etmişlər. Camaldın və Ərəzin kövşəninə erməni qoşunları dolubdur. Lazımi sərəncam verməkdən ötrü xəbərdar edirəm ki, Nehrəm kəndi qorxu içərisindədir” (11, v.49).

Yaycı kəndindəki qanlı hadisələrin canlı şahidlərindən olan L.Hüseynzadə bu faciəni belə xatırlayır: “1918-ci ilin iyun ayının ilk günləri idi. Naxçıvanda nisbi sakitlik hökm sürmək-də idi. Hamı - ermənilər də, müsəlmanlar da bu sakitlikdən razı idi. Lakin bu sakitlik uzun sürmədi. Qaniçən daşnak Andranikin Cənubi Azərbaycanın Maku, Xoy, Səlmas şəhərlərini və bu yerlərdə yol üstündə olan kəndləri talayıb qarşısına çıxan müsəlmanları vəhşicəsinə qətl edərək 15 mindən artiq müsəlləh bir quldur dəstəsilə Naxçıvana doğru gəlməsi xəbəri boyük təşviş yaratdı. Bu xəbərdən sonra məlum oldu ki, Andranik Culfa körpüsünü keçərək şəhər ətrafı ilə gəlib kazarmada əsgərlərini yerləşdirdikdən sonra bir quldur dəstəsilə yenə Culfaya qayıdıb. Culfa körpüsünü, Culfa-Naxçıvan dəmir yolunu dağıtdırmış və dəmir yolunu sökdürmüşdür. Onu təqib edən türk ordusunun qarşısnı almaq niyyətilə və Andranikin bu cinayətkar hərəkətinə qarşı Culfa yaxınlığındakı Yaycı kəndi camaatının etirazina cavab olaraq daşnak quldur dəstələri 700 evlik Yaycı kəndinə hücum edərək kəndi işğal edib, kənd əhalisini vəhşicəsinə qılıncdan keçirib Araz çayına tökdükləri xəbəri bütün Naxçıvan camaatının qəzəbinə səbəb olmuşdu. Andranikin quldur dəstələri Ordubad, Əlincəçay və Şahbuz kəndi əhalisini tərkisilah edib amansızcasına onları qətl etmişdilər. Andranikin əsgərləri şəhər ətrafindaki bağları dağıdır, zəmiləri atlarına yedirirdilər. Bazardan aldıqları şeylərin pulunu vermirdilər, pul istəyəni dərhal öldürürdülər. Onların bu vəhşi hərəkətlərinin qarşısını almaq üçün müsəlman milli komitəsi erməni milli komitəsinə muraciət etdi. Lakin erməni milli komitəsi müsəlmanlanlarin bu tələbi qarşısında “bizim onların işinə qarışmağa ixtiyarımız yoxdur, siz özunüz nə bacarırsınız edin” – dedilər (8, s.28).

İyun ayının axırlarında Andranik Ozanyanın qoşunu Naxçıvan qəzasının ən çox əhaliyə malik olan Nehrəm kəndini mühasirəyə alır. Lakin nehrəmlilər tabor komandiri Kərbəlayı Muxtar Cəfərzadənin və Hacı Mehdinin başçılığı ilə qanlı döyüşə girərək erməni qoşunlarını kəndə

buraxmamış, 3 günlük döyüşdən sonra Andranikin qoşunu xeyli tələfat verərək geri çəkilmiş və Naxçıvan şəhərinin şimalında hərbi düşərgə qurmuşlar (4, s.71).

Naxçıvan MR MDA-da erməni qulduru A.Ozanyanın bu vəhşi təcavüzü haqqında arxiv sənədləri və şahid xatirələri vardır. Andranikin Nehrəmə hücumu haqqında döyüşlərin iştirakçısı Heydərqulu Həsənov öz xatirələrində yazırdı: "Andranikin qoşunları ilə əsas döyüş İmamzada tərəfdə gedirdi. Andranik cəhd edirdi ki, Nehrəm kəndinin kənarından keçib Təzəkəndə toplaşan 300 nəfərlik daşnak silahlı dəstəsi ilə birləşsin. Lakin nehrəmlilər buna imkan vermirdi. Yaxşı silahlanmış dəstələrimiz tabor komandanı Kərbəlayı Muxtar əlində mauzer, kəhər atın belində məhəllələri gəzir, əhalini döyüşə qaldırır, atəş nöqtələrinə patron, çörək, su çatdırırdı" (12, v.205).

Lətif müəllim Nehrəm faciəsi ilə bağlı aşağıdakı xatirələrini yazırdı: Andranikin quldur dəstələri şəhər yolunun kənarında bir istehkam kimi olan Nehrəm kəndini mühasirəyə alıb kəndi bütün gün amansız olaraq top atəşinə tutdular. İşin belə olacağını əvvəlcədən bilən nehrəmlilər kəndin kənarında səngərlər qazıb döyüşə hazır olmuşdular. Ermənilərin hücumu zamanı kəndin ağsaqqalları da, cavanları da səngərlərə gedib cəsarətlə kəndi müdafiə etmişdilər. Heç yerdə görmədiyi müqaviməti burada görən daşnak dəstələri Nehrəm ətrafindakı döyüşü dayandırıb qayıtmağa məcbur olmuşdu. 60 nəfər əsir və çoxlu tələfat verərək Nehrəmi tərk edən Andranikin əsgərləri kəndin obalarna hücum etdilər. Orada olan çobanları və sağıcı qadınları vəhşicəsinə qətl edib, mal qaralarını apardılar. Nehrəmlilərin Andranik qarşısında göstərdikləri şucaət və qəhrəmanlıqlar xalq tərəfindən böyük rəğbətlə qarşılandı və bu döyüşdə qəhrəmanlıq göstərən gənclər haqqında nəğmələr qöşulmuş, şeirlər yazılmışdır ( 8, s.28-29).

Andranikin Güznütdən Naxçıvana gəlmə xəbərini alan Naxçıvan qəza Milli Komitəsi 28 iyun 1918-ci ildə yığıncaq keçirir. Həmin yığıncaqda Andranikin qoşunu ilə Naxçıvana hərbi yürüşü məsələsi müzakirə edilir və şəhərin müdafiəsi məqsədilə tədbirlərin görülməsi üçün qvardiya dəstələrinə lazımi tapşırıqlar verilir.

Naxçıvan şəhərinə yürüş edən Andranikin quldur dəstələri Əlincəçay boyunca olan müsəlman kəndlərinə hücum edərək əhalini tamamilə qırmış və kəndləri yandırmışdır. Xüsusilə 1918-ci il iyun ayının axırlarında Xanağa kəndinə hücum edən erməni qoşunları kənd əhalisini bütövlüklə qılıncdan keçirmişlər. Kənd əhalisindən canlarını qurtaran 2 nəfəri iyul ayının 1-də Naxçıvana gələrək qəza polis komissarı Məmmədəli xan Naxçıvanskiyə bu faciə haqda verdiyi məlumatlarında göstərirdilər ki, Andranikin quldur dəstələri kəndimizə hücum edərək kənd sakinlərini qırmış, əhalinin qismən hissəsi dağlara qaçaraq öz canlarını xilas etmişdilər (4, s.72).

Naxçıvan şəhərini mühasirədə saxlayan Andranik şəhər əhalisinin təslim olmasını və silahların yığılıb verilməsini tələb etmişdir. 1918-ci il iyulun 2-də Andranikin Naxçıvan şəhər əhalisinin təslim olması haqqında ultimatumunu Naxçıvanda fəaliyyət göstərən erməni milli komitəsinin sədri Y.Xarazyan təqdim etmiş və 24 saat möhlət vermişdir. Lakin şəhər əhalisi ermənilərə təslim olmayacaqlarını və axıradək vuruşacaqlarını bildirmişlər (3, s.164). Kalbalı xan Naxçıvanın müdafiəsinə səriştəylə başçılıq etmiş, hər küçə, hər məhəllə, hər ev alınmaz qalaya çevrilmişdi (6, s.68).

Araşdırılan arxiv materiallarından aydın olur ki, Andranikin qoşunları Naxçıvandan qaçarkən Sirab, Qahab və Kərimquludizə kəndlərinin əhalisini qırmış, canlarını qurtaranlar isə öz yurdlarından qaçaraq xilas olmuşlar.

Sonra Andranikin quldur dəstələri Naxçıvanın kəndləri olan Qoşadizə, Şəkərabad, Qahab, Zeynəddin, Sirab, Qara-qala və b. kəndlərinə hücum edib əhalini qıraraq kəndləri talan edir, evləri yandırırlar. Əlacsız qalan kənd əhlisi Sirab dağına pənah gətirir. Ora toplaşmış minlərlə kişi, qadın, uşaq daşnaklar tərəfindən öldürülür. Əhalinin bir hissəsini məscidə toplayıb məscidi yandırmaq fikrində olarkən vəziyyət dəyişir, geri çəkilməli olurlar (13, v.98-105).

II Türk Ordu qrupu Naxçıvanın ermənilərdən azad olunması üçün Türk Ordu komandanlığından əmr aldı. Bu zaman işğal altında olan Naxçıvanda erməni silahlı dəstələrinin tərkibi 3000 piyadadan, 500-600-a qədər süvaridən ibarət idi.

35-ci piyada alayı ilə birlikdə II türk Ordu qrupu 1918-ci il iyulun 20-də Naxçıvana daxil oldu və bundan sonra Andranikin dəstəsi darmadağın edildi. Bundan az sonra Kazım Qarabəkir paşa 1918-ci il ilin avqust ayında qərargahı erməni zülmü və işğalından azad edilmiş Naxçıvana köçürdü.

Uzun müddət davam edən Brest-Litovsk danışıqları nəhayət sülh müqaviləsi imzalanması ilə nəticələndi. Həmin sülhün şərtlərinə görə, 1918-ci iyul ayının 14-də Qars, Ərdəhan və Batum əhalisi arasında səsvermə keçirildi. Səsvermənin nəticəsinə əsasən əhali Osmanlı dövlətinə birləşməyə yekdilliklə razı oldu. Bir ay sonra-həmin il avqust ayının 15-də sultan Vahidəddin Qars, Ərdəhan və Batumun Osmanlıya birləşdirilməsi haqqında fərman imzaladı (1, s.245). 1918-ci il sentyabr ayının 14-də Osmanlı hökumətinin verdiyi qərara əsasən Batumi və Qars vilayətləri təşkil edildi. Bununla da, Naxçıvan Qars nahiyyəsinə daxil oldu.

1918-ci il dekabr ayının 19-da erməni daşnakları Şərur bölgəsinə hücum edirlər. Ermənilərin qarşısını almaq üçün Bəhram xan Naxçıvanskinin komandanlıq etdiyi Naxçıvan taboru Dəmirçi tərəfdən hücum edib, külli miqdarda hərbi sursat, top, ərzaq və bir pulemyot qənimət almış, 20-30 nəfərə kimi erməni əsgərini həlak etmişlər. Ermənilər tab gətirməyərək geri çəkilmişlər (14, v.42).

Türk ordusunun 1918-ci ilin noyabr ayına kimi Naxçıvanda olması müvəqqəti olaraq ermənilərin Naxçıvan qəzasına olan basqınlarını dayandırır. Artıq I Dünya müharibəsinin Osmanlı dövlətinin məğlubiyyətilə nəticələnəcəyi göz qabağında idi. 1918-ci il oktyabr ayının 30-da Mudros sülhündən sonra Əhməd İzzət Paşa kabineti istefaya vermək məcburiyyətində qaldı. Bunun ardınca 1918-ci il dekabr ayının 3-də Türk Ordusunun Qafqaz ərazilərini tərk etməsi barədə qərar imzaladı.

Belə bir gərgin zamanda Baş nazir Əhməd İzzət paşa Gümrü, İğdır və Naxçıvan qəzalarında olan hərbçilərin həmin ərazilərdən geri çəkilməsi əmrini verdi. Bu addımın atılması adı çəkilən ərazilərlə yanaşı, Naxçıvan bölgəsinin müsəlman türk əhalisini erməni işğalı və dəhşətli təhlükə ilə üz-üzə qoymaq demək idi. Mudros müqaviləsinin şərtlərinə uyğun olaraq Türkiyə qoşunlarını Naxçıvandan çıxarmağa məcbur oldu (1, s.246). Bu hadisə bütün Azərbaycan ictimaiyyəti tərəfindən kədərlə qarşılandı.

Çox mürəkkəb bir siyasi şəraitdə naxçıvanlılar 3 əsas istəklə 9-cu Ordu komandanına (komandanı Yaqub Sevgi paşa idi-Y.R.) müraciət etdilər: 1. Osmanlı Ordusu geri çəkilməsin; 2. Əgər əsgərlərin geri çəkilməsi zəruri isə, onda əhalinin mühafizəsi üçün qəzada bir qisim əsgər qalsın; 3. Qəzaya gələcək xristianlar tərəfindən müsəlmanların məhv edilməsinin qarşısı alınsın (1, s.246). Naxçıvan bölgəsi və ətraf ərazilərdə yaşayan əhalinin bu narazılığı haqlı olaraq müsbət hesab edildi və yaranmış vəziyyət dərhal İstanbula bildirildi. Ancaq İstanbuldan müsbət cavab alınmadı.

Bundan az sonra fəallaşan erməni qəsbkarları rus zabiti polkovnik Doluxanovun rəhbərliyi altında güclü silahlı dəstə təşkil edərək Vedibasar bölgəsinin kəndlərində insanlığa sığmayan və görünməmiş vəhşiliklər törədirlər. Cəfərqulu xan Naxçıvanski erməni quldur dəstələrinin bu hücumlarının müdafiəsiz dinc kəndliləri qırmaq məqsədi güdən fasiləsiz maharibə xarakteri aldığını bildirərək yazırdı: “...türklər getdilər, yenə bizdə müsəlman kəndlərinin məhv edilməsi, heç bir günahı olmayan müsəlman qadın və uşaqlarının döyülməsi və öldürülməsi qanlı səhnələri təkrar olunmuşdur. Yenə də İrəvan quberniyasında ermənilər tərəfindən qəddar ölümə məhkum edilmiş on minlərlə müsəlmanın ürək parçalayan qışqırıq və nalələri göyə yüksəldi” (15, v.2).

1919-cu il yanvar ayının axırlarında erməni qoşunları Doluxanovun komandanlığı altında Şərur qəzasına hücum edirlər. Erməni qoşunlarının qarşısını almaq məqsədilə qəzadakı “Qurd qapısı” adlı yerə Kalbalı xan Naxçıvanskinin başçılığı ilə yerli müdafiə dəstələri göndərilir. Şiddətli və qanlı döyüşlərdən sonra Baş-Noraşendən (indiki Cəlilkənd kəndi-Y.R.) yuxarıda Zeyvə kəndində erməni daşnakları məğlub olaraq geri çəkilir (3, s.170). Bu məğlubiyyətlərə baxmayaraq ermənilər 1919-cu ilin yanvar-mart aylarında Naxçıvan, Şərur və Ordubad qəzalarına müxtəlif istiqamətlərdə hücumlar etmiş və böyük qırğınlar törətmişlər (16, v.3).

Azərbaycanın Ermənistandakı nümayəndəsi Məmmədəli xan Təkinski 16 may 1919-cu ildə Azərbaycan DR-nin Baş nazirinə göndərdiyi teleqramında yazırdı: “Mayın 2-də Naxçıvana erməni polkları hücum edib. Ona görə də Ermənistana təzyiq göstərmək lazımdır. Bizim polklarımızın dərhal Ermənistan sərhəddində yerlşdirmələrini məqsədəuyğun hesab edirəm. Naxçıvan rayonun əhalisi müqavimət göstərməyə hazırdır. Mayın 2-də Devi Yerevandan Naxçıvana yola düşüb. Dilicanda natamam tərkibli 4-cü alay dayanıb. Diplomatik nümayəndə Təkinski” (17, v. 88).

Göründüyü kimi, yerli əhalinin öz torpaqlarını müdafiə etməyə can-başla hazır olduqları əminliklə bildirilirdi.

Naxçıvanı bitərəf zona elan edib Ermənistanın hakimiyyətinə vermək məqsədilə Naxçıvana gələn ingilis imperialistləri öz hərbi hissələrini Noraşen (indiki Şərur-Y.R.), Şahtaxtı, Naxçıvan, Culfa dəmiryol stansiyasında və Şərur-Dərələyəz şose yolunda yerləşdirmişlər. 1919-cu il may ayının 5-də Naxçıvan şəhərinə gələn ingilis generalı Devi Naxçıvan və Şərur qəzalarında yaşayan müsəlmanları yığıb mitinq keçirir və bildirir ki, müsəlmanlar Ermənistan hökumətinin rəhbərliyinə tabe olmalıdırlar (18, v.154). ). Türk dünyası arsındakı əlaqələri təmin edən "türk qapısı" Naxçıvanın ingilislər tərəfindən ermənilərə verilməsi cəhdlərini Türk sivilizasiyasına qarşı bir təhdid olaraq da xarakterizə etmək mümkündür (5, s.60).

Ermənilərin Vedibasar, Şərur-Dərələyəz, Naxçıvan və Ordubad bölgələrində törətdikləri qanlı cinayətlərlə bağlı bu bölgələr üzrə "müsəlman yerli cəmiyyətlərinin" keçirdikləri iclasın rəyasət heyəti tərəfindən Azərbaycan parlamentinə 16 iyul 1919-cu il tarixdə göndərdikləri məktublarında yzaırdılar: "Bu rayonların əhalisinin xahişini və Müsəlman Milli Şurasının müsəlmanların soyqırımına etirazını nəzərə alaraq, Vedibasar, Şərur, Naxçıvan və Ordubad rayonlarının müsəlmanlarının birliyi erməni banditlərinin bu rayonlara soxulmasına qəti etirazını bildirir və oradan çıxmasını tələb edir. Biz həddindən artıq inanırıq ki, ingilis komandanlığı buna yol verməyəcək və hüququmuzu özümüzə qaytracaq. Vedibasar, Şərur-Dərələyəz, Naxçıvan və Ordubad rayonları müsəlman yerlilərinin rəyasət heyəti" (19, v.20-21).

1919-cu ilin axırlarından başlayaraq 1920-ci ilin iyun ayına kimi ermənilər Şərur-Dərələyəz, Naxçıvan və Ordubad bölgələrinin demək olar ki, əksər kəndlərinə hücum etmiş, yandırmış, azərbaycanlı əhalinin xeyli hissəsini qıraraq məhv etmiş, əhalinin bir qismi isə ermənilərə qarşı vuruşaraq qüvvələr bərabər olmadığı üçün öz yurdlarını, ocaqlarını tərk etməli olmuşdur (4, s.80).

1920-ci ilin mart ayından başlayaraq erməni qoşunları Vedi, Cüvə və Yaycıdan başlamış Ordubadadək ərazini işğal edib, intensiv surətdə hərbi hazırlıq işləri aparmışlar. Bu vaxt sərhəd sahələrə 6630 nəfər piyada, 1130 nəfər süvari, 66 pulemyot və 26 top toplamışdır. Dro, Nijde və başqa daşnak liderləri Zəngəzurun müdafiəsinə böyük əhəmiyyət verirdilər (20, v.74).

15 aprel 1920-ci il "Azərbaycan" qəzetinin (83) məlumatlarına əsaslanan tarixçi-alim yazır ki, Novruz bayramının ilk günündə-1920-ci il mart ayının 21-də 10 min nəfərdən ibarət erməni daşnakları Ordubad qəzasının müxtəlif kəndlərin hücum edərək yandırmış, qarət etmiş, əhalinin çox hissəsini qırmış və Ordubad şəhərini mühasirə etmişlər. Ordubad ətrafında gedən döyüşlərdə ermənilər tərəfindən çox itkilər olmuşdur. Ordubadda bir neçə bina yanlırılmışdır, lakin ermənilər şəhərə girə bilməmişlər (3, s.184).

1918-1920-cillərdə erməni daşnakları Şərurda 76, Vedibasarda 118, Dərələyəzdə 74 kəndi, Əlincəçay və Gilançay boyunca 80-dən artıq kəndi yerlə yeksan etmiş, yandırmış və əhalisinin çoxunu qırmışlar (21, v.74).

**Nəticə.** 1918-1920-ci illərdə ermənilərin Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrinə hücumları müdafiəsiz dinc əhalini qırmaq məqsədi güdən fasiləsiz müharibə xarakteri almışdır. 1918-1921-ci illərdə Naxçıvan bölgəsində ermənilər tərəfindən 73.727 nəfər azərbaycanlı ən vəhşi formada öldürülmüşdür.

**ƏDƏBİYYAT**


1. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XX əsrin əvvəlləri). Bakı: "Bakı Universitetinin" nəşriyyatı, 2010, 545 s.
2. Atnur İ.E. Muxtariyyət ərəfəsində Naxçıvan. Naxçıvan: 1999, 478 s.
3. Cəfərov F. Naxçıvan qəza polisi (1828-1920-ci illər). Bakı: Nurlan, 2008,192 s.
4. Cəfərov F. XX əsrdə ermənilərin azərbaycanlılara qarşı soyqırımı // "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal. Naxçıvan: Əcəmi, 2005, s.66-83.
5. Emin Arif (Şıxəliyev). İngiltərənin geosiyasi maraqlarında "Erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan: Əcəmi NPB, 2016, 144 s.
6. Əliyev Ə. Əlincə yaddaşı (1914-1992). Bakı: Gənclik, 1997, 304 s.
7. General Veysəl Univar. Naxçıvanda 8 ay bolşeviklərlə üz-üzə (1920-1921). Naxçıvan: Əcəmi, 2014, 94 s.
8. Hüseynzadə L. Araz şahiddir. Türk ordu generalı Kazım Qarabəkir Naxçıvanda (1918-1920). Bakı, 2005, 78 s.

9. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (bundan sonra NMRDA): f.314, siy.5a, iş 84, v.753
10. NMRDA: f.314, siy.5a, iş 74, v.103-105
11. NMRDA: f.314, siy.5a, iş 72, v.49.
12. NMRDA: f.582, siy.1, iş 40, v.205.
13. NMRDA: f.582, siy.1, iş 40, v.98-105.
14. NMRDA: f.314, siy.5a, iş 74, v.42.
15. NMRDA: f.314, siy.5a, iş 73, v.2.
16. NMRDA: f.314, siy.5a, iş 73, v.3.
17. NMRDA: f.314, siy.5a, iş 71, v.88.
18. NMRDA: f.314, siy.5a, iş 74, v.154.
19. NMRDA: f.314, siy.5a, iş 71, v.20-21.
20. NMRDA: f.314, siy.5a, iş 72, v.74.
21. NMRDA: f.582, siy.1, iş 40, v.74.
22. Şıxəliyev E. XX yüzillikdə azərbaycanlıların soyqırımının mahiyyətinə dair// "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal. Naxçıvan: Əcəmi, 2005, s.44-54.
23. Şıxəliyev E. Naxçıvanın problemli zonaya çevrilməsində böyük dövlətlərin maraqları" / Azərbaycanda elmin inkişafı və regional problemlər. Bakı, 2005, s.68-74.
24. Arşiv belgelerine göre Kafkaslarda ve Anadoluda ermeni mezalimi, 11 cild, Ankara, 1995, 460 s.
25. Bakan Metel. Ermeni mezalimi ve gerçekler. IV nəşr, seriya №6, 192 s.
26. (Şıhaliyev) Emin Arif. Kafkasiya jeopolitiginde Rusiya, İran, Türkiye rekabetleri ve ermeni faktörü. Ankara, 2004, 378 s.

**РЕЗЮМЕ**

**ЯШАР РАГИМОВ**

**РЕЗНЯ СОВЕРШЕННЫЕ СО СТОРОНЫ АРМЯН НА ОСНОВАНИИ ЗАЯВЛЕНИЙ СВИДЕТЕЛЕЙ И АРХИВНЫХ ДОКУМЕНТОВ В НАХЧЫВАНЕ (1917-1921ГГ.)**

В статье исследованы резня совершенные со стороны армян на основании заявлений свидетелей и архивных документов Нахчыване в 1917-1921гг. Для реализации "государства" "Великого Армении" армян в качестве отправной точки выбрали Нахчыван. В 1918-1921 гг. самой жестокой формой Нахчыванского региона Азербайджана армянами убиты 73.727 человек. Диаспора, которая имеет сильные финансовые ресурсы для аннекции Нахчывана армяне подделывают фалшивки, проводят митинги и демонстрации.

**Ключевые слова:** территориальные претензии, армянская агрессия, Нахчыванская область, 1918-1920-е годы, источник

**SUMMARY**

**YASHAR RAHIMOV**

**THE MASSACRES COMMITED BY ARMENIANS IN NAKHCHIVAN AT THE WITNESS EXPRESSIONS AND ARCHIVAL DOCUMENTS (IN 1917$^{TH}$-1921$^{ST}$ -YEARS)**

İn the article it had been investigated the massacres committed by Armenians in Nakhchivan in 1918-1920 on the basis of witness statements and archive documents. At the beginning Armenians had selected target Nakhchivan, for becoming true of the "Great Armenian States". In the Nakhchivan region 73,727 persons of Azerbaijanis had killed by Armenians the most brutal form in 1918-1921$^{th}$ years. Armenians act together with diaspora, which has strong financial resources, they falsify, conduct meetings and demonstrations for the annexation of Nakhchivan to Armenia.

**Key words:** territorial claims, Armenian aggression, Nakhchivan region, 1918-1920 years, source

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

““NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

UOT:39

**ELYAZ NOVRUZLU**
“Naxçıvan” Universiteti
elyaz799@gmail.com
DOI: 10.5281/zenodo.10984440

# XX ƏSRIN ƏVVƏLLƏRINDƏ ERMƏNILƏRIN NAXÇIVANDA TÖRƏTDIKLƏRI SOYQIRIMLARIN YENI TƏDQIQAT METODLARI ƏSASINDA ÖYRƏNILMƏSI

*Elmi məqalədə XX əsrin əvvəllərində Naxçıvan bölgəsində ermənilərin törətdikləri soyqırımlar, yerli xalqın və hökumətin soyqırımlara qarşı gördükləri tədbirlər, ermənilərin əsassız torpaq iddiaları, işğalçılıq siyasətləri, özlərinə dövlət qurmaq niyyətləri əks olunmuşdur.*

**Açar sözlər:** *Naxçıvan, soyqırım, işğalçılıq, siyasət*

Çar Rusiyası XVIII-XIX əsrlərdə Türkiyə və İranla apardığı müharibələrdə həm Qara dənizin üzərində çar Rusiyasının nüfuzunu möhkəmlətdi, həm də Qafqazı öz hakimiyyətləri altına aldılar. Çar Rusiyası tutduğu ərazilərdə erməni dövlətinin yaradılmasında maraqlı deyildi. Rusiya İran və Türkiyədən Qafqaza erməniləri köçürməkdə məqsədi öz imperialist məqsədlərini həyata keçirməyə cəhd etmələri idi. XX əsrin əvvəllərində Cənubi Qafqazda çarizmin meyilləndirməsi ilə milli nifaq yaradaraq bu ərazidə uzun bir müddət davam edən etnik münaqişələr yaratmağa başlamışdı. Bu münaqişələr də keçən əsr ərzində özünü ağır nəticəli hadisələrlə göstərdi. Daşnakların XIX əsrin ikinci yarısında Şərqi Anadoluda və Cənubi Azərbaycanda törətdikləri qırğınlarda bu ərazilərə, eləcə də Naxçıvan bölgəsinə köçürülmüş ermənilər aktiv fəallıq göstərmişdilər. Mir Möhsün Nəvvab XIX əsrin ortalarında ermənilərin müsəlman əhaliyə qarşı nifrətlə rəftar etdiklərini, XX əsrin əvvəllərindən isə azərbaycanlı əhaliyə qarşı qətliamlar törətdiklərini yazırdı. Ermənilərin Cənubi Qafqaz ərazisində fəallaşmalarının səbəbi 1903-cü ilin iyun ayının 12-də çar tərəfindən verilmiş sərəncamdan sonra kilsə əmlaklarının əllərindən alınması idi [1, s. 216].

Eyni zamanda ermənilərin terrorçu partiyası olan Daşnaksütyun bu ərazilərdə öz fəaliyyətini gücləndirməkdə idi. XX əsrin ilk illərində Daşnaksütyun partiyasının Rusiyada, Türkiyədə və İranda orqanları fəaliyyət göstərirdi. Cənubi Qafqaz şəhərlərində ermənilərin müxtəlif adlar altında komitələri təsis edilmişdi. Bu komitələrdən axırıncısı Naxçıvan ərazisində təşkil edilmişdi. Ermənilərin Naxçıvan, İrəvan, Şuşa və Qarsda yaradılmış mərkəzi komitələri İrəvan və Qarsda təşkil edilmiş ümumi təşkilatın tabeliyində idilər. Daşnaklar bu ərazidə silahlı qüvvələrinin saylarını çoxaltmışdı. Çar Rusiyasında etirazlar başladığı vaxtda qoşunlarını səfərbər edərək saylarını artırmışdı. 1905-ci ilin fevral ayının əvvəlində daşnaklar Bakıda azərbaycanlı əhaliyə qarşı qətliama başladılar. Bakıda baş verən qarışıqlıq çox keçmədən Naxçıvan, İrəvan və Zəngəzur qəzalarına da yayıldı. Azərbaycanın mərkəzi şəhərində daşnakların törətdiyi qırğınlar Naxçıvan diyarında böyük səs-küyə səbəb olaraq əhali arasında təlaş yaratmışdı. XIX əsrdə Naxçıvan ərazisində məskunlaşdırılmış ermənilərin buranın yerli əhalisinə qarşı davranışları, bu təlaşı daha da artırırdı. Ermənilərin silahlanmaları xəbəri naxçıvanlılar arasında sürətlə yayılırdı. Rusiya tərəfindən Naxçıvana köçürülən ermənilər özlərini bu ərazilərin gerçək sahibi kimi apararaq azərbaycanlılara rişxənd edirdilər. Ermənilərin silahlanmasından Rusiyanın yerli hakimiyyət təşkilatlarının da xəbərləri var idi. Bu yerlərdəki çar məmurlarının özbaşınalıqlara barışdırıcı yanaşması mərkəzi hakimiyyətin etnik çəkişmələrin törədilməsində maraqlı olduğunu göstərirdi. Erməniləri qanunçuluğa çağırmağa cəhd edən məmurları, eləcə də erməni əsilli məmurları ifşa olunacağı barədə hədələyir və öldürürdülər. Qətliamlar olduğu bir vaxtda Naxçıvan ərazisində silahlı erməni dəstələrinin toplanması aydın şəkildə müşahidə edilirdi. Naxçıvan bölgəsində törədilmiş qırğınlar İrəvandan gələn erməni təxribatçıları tərəfindən həyata keçirilmişdi. Təxribatçıların gəlməsi ilə Naxçıvan bölgəsindəki ermənilər qabaqcadan hazırladıqları döyüş silah-sursatlarını törədəcəkləri qətliamlar üçün hazırlıq vəziyyətinə gətirdilər. Naxçıvan kəndlərində yaşayan ermənilərin hamısı da

ermənilərin meyilləndirmələrinin və təxribatlarının təsiri altına düşmürdülər. Badamlı kəndinin erməni sakinləri sakit vəziyyətdə yaşamaq istədiklərini bildirərək müsəlmanlığı da qəbul etmişdilər [1, s. 217-218].

Naxçıvan ərazisində ermənilərin qırğınlara başlamasının məqsədi 1905-ci ilin mayın 5-də Cəhri kəndində yaşayan azərbaycanlının ermənilərin yaşadığı Şıxmahmud kəndi yaxınlarından keçərkən 3 nəfərə hücum edərək ağır yaralaması idi. Baş vermiş bu hadisə yerli əhali arasında təşviş yaradaraq narahatlığı artırdı. Belə bir vaxtda azərbaycanlılarla ermənilərin birlikdə yaşadıqları Naxçıvan şəhəri yaxınlığında yerləşən Tumbul kəndində may ayının 7-də bir nəfər azərbaycanlı öldürüldü. Bu kənddə azərbaycanlılar ermənilərdən sayca çox olsalar da, onların yaxşı silahlanmaları bu qırğınların baş verməsinə səbəb olurdu. İlk vaxtlarda ermənilərin bir neçə qətllə mövcud vəziyyəti ağırlaşdırmasında əsas məqsədləri təxribat yolu bu məsuliyyəti azərbaycanlıların üzərinə ataaq qırğınları artırmaq idi. Azərbaycanın digər ərazilərində olduğu kimi, Naxçıvan ərazisində də əhali ermənilərin bu təxribatına uymadı. 1905-ci il may ayının 8-də İrəvanın vitse-qubernatorunun, İrəvanın şəhər rəisinin və Peterburqdan yenicə qayıtmış Naxçıvan hakiminin şəhərə gəldiyini eşidən əhali onlara qarşı yaxşı rəftar etdilər. Naxçıvanlılar onlara sülhsevər mövqe tutduqlarını bildirmişdilər. Ermənilər şəhər bazarında yerləşən dükanlarını bağlayaraq evlərinə və ya kilsəyə çəkilirdilər. Bunun hiyləli bir plan olduğunu anlayan Naxçıvan əhalisi qətliamlar gücləndirilməmiş ermənilərə bu yolla barışıq təklifi etdilər. Cəhri kəndinin sakinləri isə şəhərdən kəndə gedən yolun erməni silahlı qüvvələrinin nəzarəti altına keçməsindən narahat olaraq vitse-qubernatordan yola hökumət dəstələrinin nəzarətinin təmin edilməsini tələb etdilər. Anca əhalinin bu tələbləri rədd edilərək yerinə yetirilmədi [1, s. 218-219].

1905-ci il hadisələri Naxçıvan bölgəsində bir sıra kəndlərin dağıdılması, xeyli sayda azərbaycanlı əhalinin öldürülməsi ilə nəticələndi. Cəhri kəndinin yandırılmasından əvvəl Naxçıvan və Zəngəzur qəzalarının sərhədindəki kəndlər ermənilər tərəfindən dağıdılaraq yandırılmışdı. Bu qətliamlar XIX-XX əsrlərdə Türkiyə və İran ərazisindən köçürülən ermənilərin daha çox məskunlaşdırıldıqları ərazilərdə törədilmişdi. Azərbaycanlılara qarşı qətliamın törədildiyi ərazilərə Naxçıvan, İrəvan, Zəngəzur və Qarabağ idi. Daşnaksütyun partiyasının 1904-cü ildə keçirilmiş III qurultayında 3 dənizə açılan “Böyük Ermənistan” adlı qondarma dövlətin yaradılması planı irəli sürülmüşdü. Bu planın əsas vəzifəsi Naxçıvan, İrəvan, Zəngəzur və Şuşa qəzalarının, İrəvan və Gəncə quberniyalarının, eləcə də bəzi ərazilərin azərbaycanlı əhalisinin təmizlənməsi idi. Bunun səbəbi olaraq da daşnakların azərbaycanlı əhaliyə qarşı qətliamları 1905-ci illə yekunlaşmadı. Naxçıvan qəzasının bəzi kəndlərində ermənilərin həyata keçirdikləri qanlı qırğınlar 1906-cı ildə də davam etdi. Naxçıvan kəndlərinin bir çox sakini qətlə yetirildi. Bu kəndlərin sağ qalan əhalisi isə digər kəndlərə və Cənubi Azərbaycan ərazisinə sığınırdılar [1, s. 223].

Çar Rusiyasının dəstəyini görən ermənilər daha da yoldan çıxdılar. 1906-cı ilin yayında müxtəlif ərazilərdən səfərbər edilmiş könüllü erməni silahlı dəstələri polklar şəklində təşkil olunaraq Zəngəzur və Ordubadın ermənilər yaşayan kəndlərinə göndərildilər. Ordubadın erməni hərbi şiddətinə məruz qalan Dırnıs, Unus və Pəzməri kəndlərinin əhalisi özlərini qoruya bildilər. XIX əsrdə ermənilər köçürüldükdən sonra yaradılmış Kələki, Danagirt və Aşağı Əylis kəndlərində erməni hərbi qüvvələri yığışmışdılar. Şuşa və ətraf ərazilərdən toplanmış erməni dəstələri iyul ayının 20-də Zəngəzurda mahalının yaxınlığında yerləşən mis mədəninin yanında müvəqqəti məskən saldılar. Şuşa dəstəsinə Aram Nehrəmov, Əylisdəki daşnak dəstələrinə isə Aşot adlı erməni komandirləri başçılıq edirdilər. İyul ayının 29-da Aramın başçılıq etdiyi dəstələr Zəngəzurun Qafan dərəsində yerləşən Karxana kəndinin bütün sakinlərini öldürdülər. Ermənilərin şiddətinə məruz qalan digər kəndlərin sağ qalmış əhalisi Qatar kəndinə pənah apardılar. Avqust ayının 1-dən 9-a qədər Qatar kəndinin müdafiəçiləri ermənilərə qarşı təzyiq göstərmişdilər. Lakin rus kazakları müdafiəçilərin mövqelərini ermənilərə xəbər verdilər. Rus kazaklarının bu hərəkətləri nəticəsində, həmçinin erməni sahibkarının mis mədənində işləyən iranlı fəhlələrin yardımı ilə Qatar kəndi də daşnakların hərbi dəstələri tərəfindən tutuldu [1, s. 224].

1905-1907-ci illərdə ermənilərin törətdikləri qətliamların miqyası, Naxçıvan və onun bir qəzalarında eyni vaxtda təşkil edilmiş hücumlar azərbaycanlı əhalinin öldürülməsini və torpaqların

işğalı edilməsinin qabaqcadan planlaşdırılmış olduğunu açıq-aşkar şəkildə göstərirdi. Onlar Zəngəzuru və Naxçıvanı işğal edib ermənilərin hakimiyyəti altına almağa cəhd etməyə çalışırdılar. Gəncə quberniyasının ərazilərində, eləcə də Şuşa və Cəbrayıl qəzalarında daşnakların azərbaycanlılara qarşı qətliam törətməsi zəngəzurluların Azərbaycanın şərq bölgələrinə yolunu bağladığı üçün onlar daha çox Naxçıvan ərazisinə pənah aparırdılar. XX əsrdə daşnakların azərbaycanlılara qarşı apardığı qətliam və deportasiya siyasətinin ilkin mərhələsi 1905-1907-ci illər qırğınları oldu. Bu illər ərzində Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 100-dən çox Azərbaycan kəndi dağıdılaraq talan edilmişdi. Bu qəzalarda 10 min nəfərə qədər dinc əhali qətlə yetirilmişdi. Naxçıvan, Şərur-Dərələyəz, Qazax qəzalarında, eləcə də Gəncə və Bakı quberniyalarında dağıdılmış kəndlərin və qətlə yetirilmiş insanların sayı bundan dəfələrlə çox idi [1, s. 226].

1918-ci ilin əvvəllərində Naxçıvan bölgəsində ciddi təhlükə yaranmışdı. Türklərə qarşı mübarizə aparmaq adı altında ermənilərin silahlı qüvvələri Naxçıvanın bir çox kəndlərini dağıdaraq, əhalisini qətlə yetirmişdilər. 1918-ci ilin fevral ayında Zaqafqaziya Komissarlığını qanunvericilik orqanı olan Zaqafqaziya seyminin əvəz etməsi, eləcə də Zaqafqaziyanı müstəqil dövlətlərə parçalamaq uğrunda fəaliyyətin güclənməsi Naxçıvan Milli Komitəsindəki ziddiyyətlərin daha da dərinləşməsinə və müsavatçılarla daşnakların birgə fəaliyyəti göstərməsini imkansız etməsinə səbəb oldu. Naxçıvan bölgəsinin digər erməni hücumlarından güvənli müdafiəsi ancaq güclü hərbi dəstəyə bel bağlamaqla baş tuta bilərdi. Bakının ermənilərin və rusların əlində olduğu bir zamanda Naxçıvan Milli Komitəsi əsl yardımı ancaq türklərdən ala bilərdi. 1918-ci ilin yaz aylarında o dövrdə türklərin tabeliyində olan Maku xanlığına gedən Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xan Naxçıvanski Maku xanının vasitəsilə türk komandanlığı ilə əlaqə yaradaraq Naxçıvan ərazisinə türk hərbi qüvvələrinin yeridilməsi haqqında danışıqlar aparmışdı. Naxçıvan əhalisinin təhlükəsizliyinə təminat vermək ixtiyarında olmayan Zaqafqaziya seyminin Naxçıvan qəzasındakı nümayəndəsi Cəfərqulu xan Naxçıvanskinin bu hərəkətindən narazı qalaraq, bunu Naxçıvan xanlarının Zaqafqaziya seymini və Rusiyanı tanımaq istəməməsi kimi qələmə vermişdilər [3, s. 9].

1918-ci ildə Naxçıvan bölgəsinin kəndləri dəfələrlə daşnakların hücumlarına məruz qalmışdılar. Ermənilərin bu hücumları Naxçıvan bölgəsini tutaraq Ermənistana birləşdirmək məqsədi güdürdü. Naxçıvan bölgəsinin zəbt olunmasına xüsusi əhəmiyyət verdikləri erməni quldur dəstələrinin başçılarının bu əraziyə göndərilməsində açıq-aşkar müşahidə edilirdi. 1918-ci ilin may-iyun aylarında erməni quldur dəstələrindən biri olan Andranik Ozanyanın qoşunları Türkiyəni sataraq Naxçıvan istiqamətində irəlilədi. Andranik Şərur və Şahtaxtı ərazilərindən keçərək Naxçıvana gəlmək istəyirdi. Lakin bu ərazi yerli özünümüdafiə dəstələrinin və mayor Xəlil bəyin nəzarəti altında idi. 1918-ci ilin iyun ayının 20-də Naxçıvana gələn Andranikin rəhbərliyi altında olan daşnak dəstəsi tunelləri və körpüləri dağıdaraq türk qoşunlarının Culfaya dəmiryolu ilə gəlməsinə mane olmağa üçün çalışırdılar. İyun ayının 21-də Culfaya gələn Andranik və onun dəstəsi hiylə işlədərək Araz körpüsündən keçdilər. Onun əsas məqsədi ingilis qoşunları ilə birləşmək idi. Ancaq türk ordusu ilə döyüşdə məğlub olan Andranikin dəstələri İrandan ərazisindən Naxçıvana tərəf çəkildilər. Andranik və onun dəstələrinin Culfa, Ordubad və Naxçıvan ərazisinə gəlməsi əhalidə narahatlıq yaratdı. Türk qüvvələri tərəfindən ağır məğlubiyyətə uğrayan Andranik bunun intiqamını Naxçıvanın dic əhalisindən almaq istəyirdi [2, s. 20].

Naxçıvandakı məğlubiyyətin intiqamını öz nüfuzları altında olan müsəlman əhalidən almaq istəyərək ictimaiyyəti sakitləşdirməyə çalışan daşnak dairələri avqust ayından başlayaraq bu istiqamətdə fəaliyyətə başladılar. Ermənilər həm ingilis hərbi dairələrinə İğdır bölgəsində olan Türkiyə zabitləri tərəfindən idarə edilən kürdlərin hücumuna məruz qaldıqları barədə məlumat verir, həm də İğdırda səfərbərlik elan edərək bu əraziyə 10 mindən çox qoşun göndərirdi. Ermənilər həm də kürdlərin tayfa rəislərinə məktub yazaraq, erməni-kürd ortaqlığının və yaxud da əməkdaşlığının yaradılmasına cəhd edirdilər. Kürdlər isə ermənilərə hərbi hissələrini Araz çayının sol tərəfinə geri çəkdikləri təqdirdə əməkdaşlıq edəcəklərini bildirmişdilər. Niyyətləri baş tutmayan erməni dairələri əraziyə göndərdikləri dəstələrə İğdırın ətrafında yerləşən kəndlərə hücum etmələri barədə əmr verdilər. 1919-cu ilin sentyabr ayının 17-də hücumların birinci mərhələsində Oba və Yaycı kəndləri

dağıdıldı. Daha sonra isə Araz çayının sağ və sol tərəflərində, eləcə də İğdırın ətrafında təzyiqlər başladı. Özlərini qoruya bilməyən 30-a yaxın müsəlman kəndi dağıdılaraq talan edildi. Erməni zülmünə qarşı təzyiq göstərən müsəlman əhali hücum edərək İğdıra girdilər. Lakin onlar ermənilərin əks-hücumuna dayana bilməyərək İğdırı tərk etdilər [4, s. 272].

1918-1920-ci illərdə də 1905-1907-ci illərdə olduğu kimi Naxçıvan bölgəsində qətliamlar davam edirdi. Naxçıvan bölgəsinin Ermənistana birləşdirilməsi siyasəti bu ərazini ağır vəziyyət salmışdı ki, bu da çoxlu ermənin bu ərazidən çıxıb getməsinə səbəb olmuşdur. Bu dövrdə ermənilər xaric dövlətlərə arxalanaraq Naxçıvan bölgəsinin ərazilərini ələ keçirməyi təklif etsələr də, buranın yerli əhalisi onların bu təkilifini qəbul etmədilər.

**ƏDƏBİYYAT**

1. “Naxçıvan tarixi”. III cilddə II cild, Naxçıvan, 2014, 528səh.
2. İ. Hacıyev “Araz-Türk Cümhuriyyəti”. Naxçıvan, 2021, 160səh.

3. S. Sadiqov “Naxçıvan Muxtar Respublikası tarixindən”. Bakı, 1995, 144səh.
4. İ.E. Atnur “Muxtariyyat ərəfəsində Naxçıvan”. Naxçıvan, 1999, 438səh.
5. “Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu”. Bakı, 2008, 696səh.
6. M.B. Əliyev “Qanlı günlərimiz”. Bakı, 1993, 142səh.
7. M.Ə. Rəsulzadə “Azərbaycan Xalq Cümhuriyyəti”. Bakı, 1990, 113səh.

**РЕЗЮМЕ**
**ЭЛЬЯЗ НОВРУЗЛУ**
**ПОЛИТИЧЕСКИЕ МЕРЫ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ, СВЯЗАННЫЕ С НАХЧЫВАНОМ ИЗУЧЕНИЕ МАТЕРИАЛОВ ИССЛЕДОВАНИЯ НА ОСНОВЕ СРАВНИТЕЛЬНЫХ МЕТОДОВ ИССЛЕДОВАНИЯ**

В научной статье рассмотрены геноциды, совершенные армянами в Нахчыванском регионе в начале 20-го века, меры, принятые местным населением и правительством против геноцидов, необоснованные земельные претензии армян, оккупационная политика и их намерения основать собственное государство отражены в научной статье.

**Ключевые слова:** *Нахчыван, геноцид, занятие, политика*

**SUMMARY**
**ELYAZ NOVRUZLU**
**POLITICAL MEASURES OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC RELATED TO NAKHCHIVAN STUDY OF RESEARCH MATERIALS BASED ON COMPARATIVE RESEARCH METHODS**

In the scientific article, the genocides committed by Armenians in the Nakhchivan region at the beginning of the 20th century, the measures taken by the local people and the government against the genocides, the Armenians' groundless land claims, occupation policies, and their intentions to establish their own state are reflected.

**Key words:** *Nakhchivan, genocide, occupation, politics*

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

**““NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1**
**“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1**
**УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1**

**UOT 94(479.24)**

**SARA HACIYEVA**
Naxçıvan Müəllimlər İnstitutu
hacyevasara@yahoo.com
DOI: 10.5281/zenodo.10984337

# XVIII-XIX ƏSRLƏRDƏ NAXÇIVAN DİYARINDA SOSİAL-İQTİSADİ VƏZİYYƏT

*Məqalədə XVIII-XIX əsrlər dövründə Naxçıvnda sosial-iqtisadi vəziyyət və onun təsərrüfat həyatına təsirindən bəhs edilmişdir. Qeyd edilmişdir ki, XVIII yüzilliyin əvvəllərindən başlayaraq Çar Rusiyası Şimal-Cənub, Şərq-Qərb ticarət yollarına hakim olmaq məqsədi ilə strateji əhəmiyyət daşıyan bölgələri əldə etmək üçün həm Osmanlı Türkiyəsi, həmdə Qərb dövlətləri ilə müharibələrə başlamışdı. Həmin strateji ərazilərdən ən önəmlisi də Azərbaycan, o cümlədən də onun ayrılmaz bölgəsi olan Naxçıvan idi. Bu strateji əhəmiyyətli bölgələri əldə etmək üçün Rusiyanın uzun müddətli planları hazırlanmışdır. Həmin planları həyata keçirmək üçün Səfəvilər dövlətinin parçalanması və ondan sonra qısa müddətdə hakimiyyətdə olan Əfşarlar və Xanlıqlar dövründə də digər bölgələrdə olduğu kimi Naxçıvan diyarının əhalisinin təsərrüfat həyatında bəzi istisnalar nəzərə alinmaqla, ümumən bölgədə gedən çəkişmələr də sosial –iqtisadi vəziyyətə, insanların yaşam tərzinə mənfi təsir göstərmişdir.*

**Açar sözlər:** *Naxçıvan, sosial, iqtisadi, əhali, vəziyyət,*

Aparılan araşdırmalar göstərir ki, Naxçıvan diyarında mövcud olan əlverişli təbii-coğrafi şərait əvvəlki dövrlərdə olduğu kimi XVIII-XIX yüzilliklərdə də təsərrüfat həyatının bütün növləri ilə məşğul olmağa imkan verirdi. Lakin XVII yüzilliyin ortalarından başlayaraq ölkədə baş verən bir sıra siyasi və iqtisadi amillərlə bağlı olaraq Səfəvilər dövlətinin daxilində baş verən tənəzzülün dərinləşməsi ölkə iqtisadiyyatına və sosial həyata təsirsiz ötüşmədi [19 s. 9]. XVIII əsrin birinci yarısında üç böyük dövlətin siyasi və iqtisadi mənafelərinin toqquşması ilə əlaqədar olaraq Azərbaycan ərazisinə İran, Türkiyə və Rusiya qoşunlarının müdaxiləsi, İran şahlarının iqtisadi və mənəvi təzyiqləri, əhaliyə edilən ikiqat istismar, şübhəsiz ölkənin iqtisadiyyatına ağır zərbə endirdi. Buna baxmayaraq, Azərbaycanın zəngin təbiəti, Avropa ilə Asiya arasındakı əlverişli coğrafi mövqeyi ölkənin iqtisadiyyatının mühüm sahələrindən biri olan ticarətin aparılması üçün az da olsa şərait yaradırdı. İqtisadiyyatda baş verən böhran və dövlətin tənəzzülü şah hakimiyyətinin nüfuzdan düşməsi, rüşvətxorluq, saray idarəçiliyinin səmərəsizliyi, siyasi məsələlərə ruhani təsirinin güclənməsi, saraydaxili çəkişmələr və s. ilə əlaqələndirilirdi. İ.P Petruşevski qeyd edir ki, dövlət adamlarının, bürokratik aparatın və hərbi elitanın səriştəsizliyi nəticəsində ölkədə siyasi və iqtisadi vəziyyəti daha da dözülməz hala gətirib çıxarmışdı [21, s. 44]. Həmin dövrdə Azərbaycanın daxili və xarici ticarətinin həcmi sürətlə azalır, şəhərlərin ölkə həyatında iqtisadi rolu zəyifləyirdi. Feodal zülmünün artması, kəndlilərin onsuz da ağır olan vəziyyətinin daha da dözülməz hala gəlməsi narazılıqların genişlənməsinə səbəb olurdu. Narazılıqlarını yaşadıqları yeri tərk edib getməklə, daha kəskin şəkildə isə üsyanlar və qiyamlar qaldırmaqla bildirən kəndlilərin etirazları Səfəvi dövlətini bütün ərazisini bürümüşdü [4, s. 48].

F.Əliyev mənbələrə əsaslanaraq yazır ki, bu dövr çox mürəkkəb ictimai-siyasi hadisələrlə əlamətdardır. XVII əsrin axırlarından başlamış XVIII əsrin ortalarına qədər olan müddət ərzində Azərbaycanda təsərrüfatın geriliyi getdikcə daha da artmışdır. Belə məlumatlar vardır ki, Nadir şahın hakimiyyəti dövründə Azərbaycan xalqı acınacaqlı həyat sürmüş, buranın təbəələri kiçikdən tutmuş böyüyə qədər vergilərin çoxluğundan əziyyət çəkmişlər, ticarət tənəzzül etmiş, sənətkarlar və kəndlilər isə müflisləşmişlər, anbarlarda buğda ehtiyatı əsla qalmamışdır. Bundan əlavə, hər yerdə aclıq və dilənçilik hökm sürmüş, bir çox şəhər və əyalətlərin əhalisi dözülməz istismarın əlindən öz yurdlarından qaçmışlar, bir sözlə, iş o yerə çatmışdır ki, şəhərlərdə ərzaq malları həddən artıq bahalaşmışdı [3, s. 22-23]. Böyük İpək yolunun əhəmiyyətini itirməsi ilə əlaqədar Səfəvilər dövlətində XVII əsrin sonlarından başlamış iqtisadi böhranın şah Sultan Hüseynin (1694-1722) yarıtmaz siyasəti nəticəsində daha da dərinləşməsi Naxçıvan şəhərindən də yan keçməmişdi. 1727-ci ildə tərtib edilmiş “Naxçıvan sancağının müfəssəl dəftərin”də verilən məlumatlar göstərir ki, J.Şardenin Azərbaycanda olmasından keçən 54 il ərzində Naxçıvan şəhərində yaşayan əhalinin sayı, təxminən 2,5 dəfə azalmışdı. J.Şardenin şəhərdə 2 min evin olması haqqında məlumatı əsas

götürülsə, onda 1673-cü ildə burada 10 min nəfər əhalinin yaşadığını müəyyən etmək olar [10, s. 249-255].

Göstərilən dövrdə Rusiyanın xarici siyasətinin əsas istiqamətlərindən biri Cənubi Qafqazın istilasından ibarət idi. Çarizm Cənubi Qafqazı əlavə gəlir mənbəyinə çevirməyə, Xəzər dənizi hövzəsi üzərində Rusiya ağalığına nail olmağa, Xəzəri Rusiyanın daxili dənizinə çevirməyə can atırdı. Azərbaycanın təbii sərvətləri, xüsusən də faydalı qazıntı yataqları artıq Rusiya elminə məlum idi və təsadüfi deyil ki, II Yekaterina hökuməti bu ölkənin sərvətlərinin mənisənilməsini onun istilası ilə bağlayırdı. Qızıl boya, yun, ipək, pambıq, tütün, yanacaq və s. Rusiya sənayesini xammal və yanacaqla təmin edə bilərdi. Azərbaycanın digər bölgələri kimi Naxçıvan diyarı da yerüstü və yeraltı təbii sərvətlərlə zəngindir. Buna misal olaraq, bəhs olunan dövrdə Culfa karantindən şimal-şərqdə, Ordubad poçt yolundan 7 verst məsafədə mineral maddə olan zenix və ya operment kimi təbii sərvətlər aşkar edilmişdir ki, bu maddədən parçaların rənglənməsində istifadə olunurdu. Yaycı kəndinin əhalisi bu maddəni Naxçıvan şəhərində, eləcə də sərhəddən kənarda da satırdılar. (1 pudu 50 qəpikdən 70 qəpiyədək) Araşdırmalar nəticəsində məlum olmuşdur ki, zenixin (və ya opermentin) yataqları Darıdağ adlanan yerdədir [12, v. 3]. Məhz, bu cür təbii səvətlərin bol olduğu Naxçıvan diyarı da çar Rusiyasının diqqət mərkəzində idi.

Qeyd edildiyi kimi Naxçıvan diyarında yaşayan əhali təsərrüfat həyatının bütün sahələri ilə məşğul olurdu. Bölgədə təsərrüfatın əsas sahələri hesab edilən əkinçilik, maqldarlıq, bağçılıq və bostançılıq, həmçinin sənətkarlığın bütün sahələrinin inkişaf etdirilməsinə maraq göstərirdi. Çünki, bu sahələrin hər birinin inkişafı əhalinin həyat şəraitinin yaxşılaşdırılmasında əsas rol oynayırdı. Naxçıvan diyarında əlverişli iqlim şəraiti, münbit torpaq örtüyü və nəhayət, əsrlər boyu təşəkkül tapmış zəngin istehsal vərdişləri əhalinin bu sahə ilə məşğul olmasına şərait yaradırdı. Tədqiqatçılar əkinçilik mədəniyyətinin inkişafına səbəb olan əsas amillərdən biri kimi, həm də günəşli günlərin bolluğu və torpağın münbitliyi olduğunu qeyd edirlər. Naxçıvanda olan qara torpaq sahələrində, xüsusilə Araz çayından çəkilən süni suvarma sistemi - arx və qanovlar əkinçilərə buğda, arpa, darı və digər dənli bitkiləri yetişdirmək üçün imkan yaradırdı. Dənli bitkilər arasında əsas yeri taxılçılıq tuturdu. Naxçıvanda kənd təsərrüfatının əkinçilik sahəsinə daha çox diqqət göstərilmişdi. Buna görədir ki, Naxçıvan bölgəsi özünün yüksək əkinçilik mədəniyyəti, xüsusilə taxılçılıq – buğda yetişdirilməsi ilə şöhrət qazanmışdı [17, s. 38]. Naxçıvan sancağının müfəssəl dəftərindən bəlli olur ki, burada buğda, arpa, darı, pambıq, gənəgərçək, mərcimək, noxud, çəltik, paxla və s. bitkilər sancağın bütün nahiyələrində əkilirmiş. Ən çox yayılmış dənli bitkilər buğda, arpa, darı, idi. XVIII əsrin 20-ci illərində sancağın elə bir nahiyəsi olmamışdır ki, orada taxılçılıqla məşğul olmasınlar. Həmçinin düyü, mərcimək, maş, noxud və s. dənli bitkilərin əkilib becərilməsinə xüsusi fikir verilmişdir. Bu bitkilər, demək olar ki, əksəriyyət kəndlərdə əkilirdi. Bunun əsas səbəbi isə təbii ki, bu sahədən əldə olunan məhsullara insanların zəruri tələbatının daha çox olması və dövrün çətinliklərinə sinə gərmək üçün şəxsi təsərrüfata üstünlük verilməsi idi. Sancaqdan bəlli olur ki, bölgədə əhali əkinçiliklə məşğul olub, xoş həyat sürmüşdür. Burada dənli bitkilər və vergilərdən əldə edilən gəlir - 4.550 (ağça) olaraq qeyd edilmişdir [13, s.18].

XIX əsrin əvvəllərindən etibarən Azərbaycanın taxılçılıqla məşğul olan bütün rayonlarında dənli bitkilərin əkin sahəsi xeyli genişləndirilmiş və bununla da taxıl məhsulunun ümumi yığımı artmışdır [23]. Bölgədə əkinçilik üçün iki və üç tarlalı əkin sistemlərinin tətbiqinə əlverişli şərait var idi. İkitarlalı əkin sistemlərində tarla bir il əkilir, ikinci il dincə qoyulurdu. Bu sistemdən əkinə yararlı torpaqların bol olduğu ərazilərdə daha çox istifadə edirdilər. İ.Şopen yazırdı ki, İrəvan və Naxçıvan xanlıqlarının dağlıq ərazilərini əhatə edən bir sıra mahallarında “əkin sahələrini bir, iki və hətta üç il dincə qoyurlar” [18, s. 737]. Naxçıvan ərazisinin əksər hissəsi əkinçilik üçün yararlı olduğuna görə burada buğda, arpa, darı, çəltik, pambıq, tütün, mərcimək, noxud əkib-becərir, bağçılıq və bostançılıqla məşğul olurdular. Əkinçilikdə isə əhalinin ərzağa olan tələbatını ödəmək üçün ən vacib olan taxilçılığın inkişafı etdirilməsi idi. Buna görə də bu bölgədə əsasən taxılçılın inkişafına diqqət göstərilirdi. Taxılçılıqla demək olar ki, əhalinin əksəriyyəti məşğul olurdu. Hətta bəzən maldarlar da öz şəxsi istifadələri üçün taxıl əkirdilər. Naxçıvan xanlığının düzənlik

ərazilərində təbii otlaqlar olmadığından əhali süni biçənəklər yaratmağa çalışırdı. Şumlanmış sahələrdə xüsusilə ot-yonca əkirdilər. Yonca atlar üçün ən yaxşı yem sayılırdı [2, s. 34].

Naxçıvan Dövlət Arxiv materiallarında verilən məlumata görə, 1842-ci ildə Sədərək bölgəsində buğda, çaytikanı, pambıq, tütün, kətan, qarğıdalı, zəfəran, boyaqotu, üzüm və s. kimi kənd təsərrüfatı məhsulları əkilib becərilmişdi. Sənəddə iri və xırdabuynuzlu mal-heyvanların da saxlanması haqda məlumatlar vardır. Həmin dövrdə əhalinin təsərrüfatında xirda buynuzlu heyvan sayının 100, iribuynuzlu mal-qaranın 20, at sayının 6, olduğu göstərilir. Kərki kəndində də həmin dövrdə əhali əsasən buğda, arpa əkmiş və iri və xırda buynuzlu heyvanların saxlanılması ilə məşğul olmuşdur. Asni kəndində də arpa, buğda, əkildiyi və 10 hektar torpaq sahəsi olduğu haqda məlumatlar vardır. Qarağac kəndində 20 hektar əkinə yararlı torpaq sahəsindən istifadə olunduğu və burada da kənd əhalisi həmin dövrdə arpa, buğda əkinçiliyi ilə məşğul olunduğu haqda məlumatlar vardır. Arxiv materiallarından bəlli olur ki, həmin dövrdə Sədərək ərazisində 5 dəyirman, Dəmirçi kəndində isə 4 dəyirman fəailiyyət göstərmişdir [11, v. 534].

Tədqiqatçı alimlərin verdiyi məlumatlara görə XIX əsrin 30-cu illərindən etibarən əkinçilik təsərrüfatında nəzərə çarpan dəyişikliklər baş vermişdi. Bu, özünü aparıcı əkinçilik sahəsi olan taxılçılıqda daha çox göstərirdi. Bunun əsas səbəbi isə Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra bölgə iqtisadiyyatının bütün sahələrinə, o cümlədən də əkinçiliyin inkişafına çox ciddi təsirin olması idi. Çar hökuməti ilk növbədə, taxılçılığın inkişaf etdirilməsinə və bu yolla ordu hissələrinin ərzaqla təmin olunmasına çalışırdı. İşğaldan sonra Çar hökuməti Şimali Azərbaycanda taxıl istehsalının artırılması üçün XIX əsrin ortalarında bir sıra mühüm addımlar atmışdı. Məsələn, taxılçılıqda məhsuldarlığın artırılması üçün yerli taxıl növlərinə nisbətən daha çox məhsul əldə etməyə imkan verən xarici buğda, arpa və çəltik növlərinin becərilməsinə təşəbbüs göstərilmişdi. Qafqaz canişinliyi Dövlət əmlakı nazirliyinin yardımıyla Novorossiysk diyarından və xaricdən yüksək məhsuldarlığı ilə seçilən taxıl növləri gətirilmişdi [19, s. 160-171]. Taxılçılığın, eləcə də digər əkinçilik təsərrüfatı sahələrinin inkişafına 1850-ci ildə Tiflisdə yaradılmış Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti də müsbət təsir göstərmişdi. Cəmiyyətin nizamnaməsində yazılmışdı ki, onun məqsədi taxılçılıq və digər sahələrdə yüksək məhsuldarlığa nail olmaq üçün əkinçilik alətlərinin təkmilləşdirilməsinə çalışmaqdır. Cəmiyyət zavod istehsalı olan ağır kotanların və digər təkmil alət və maşınların yerlərdə sınaqlarını keçirir, onların satış sərgilərini təşkil edirdi. Artıq 60-cı illərin başlanğıcında Azərbaycan qəzalarında 86 ədəd Şuman kotanları alınıb əkinçlik təsərrüfatında istifadə edilməyə başlanmışdı [14, s. 126-133].

Qeyd etmək lazımdır ki, əhalinin tələbatı ilə əlaqədar olaraq Naxçıvan diyarının bütün ərazilərində taxılçılıq əsas yer tuturdu. Ona görə də XIX əsrin 80-ci illərində Naxçıvan bölgəsi öz taxılı ilə fərqlənməyə başlayır və kənd təsərrüfatında taxılçılıq aparıcı rol oynayırdı [18, s. 37-43]. XIX əsrin əvvəllərindən etibarən Azərbaycanın taxılçılıqla məşğul olan bütün rayonlarında, o cümlədən Naxçıvna diyarında dənli bitkilərin əkin sahəsi xeyli genişləndirilmiş və bununla da taxıl məhsulunun ümumi yığımı artmışdır. Buğda və arpa dənli bitkilər içərisində öz əkin sahəsinə və məhsul yığımına görə əsas yeri tuturdu. Həmin dövrdən Azərbaycanda becərilməyə başlayan qarğıdalı bitkisi ilk vaxtlar əsasən bostan bitkiləri ilə birlikdə qarışıq əkilirdi. Lakin daha sonralar bu bitki geniş sahələrdə ayrılıqda becərilmişdir. Qarğıdalı bitkisi taxılçılıq təsərrüfatında öz əkin sahəsinə görə geniş yayıla bilməmişdir, lakin yerli əhali onu az və ya çox halda kiçik və ya böyük sahələrdə becərərək yüksək məhsuldarlığına görə həmişə qiymətləndirmişdir. Ona görə də bu bitki xalq arasında “peyğəmbər buğdası” adlanmışdır. Naxçıvan diyarında buğda, arpa, çovdarla yanaşı çəltikçilik də yüksək səviyyədə inkişaf etmişdi. Çəltiyi suyun bol olduğu və düzənlik yerlərdə may ayında əkir və oktyabr - noyabr aylarında məhsulu toplayırdılar [23] Sədərək bölgəsi çəltik istehsalının inkişaf etdirilməsində mühüm rol oynamışdır. Tədqiqatçıların verdiyi məlumatlara görə XIX əsrin 1-ci yarısında Sədərək əhalisinin əsas məşğuliyyəti əkinçilik idi. Onlar arpa, buğda, çəltik, pambıq, tütün, noxud və digər məhsullar əkib becərmişlər. Araz çayı boyu mövcud olan otlaqlar həm də burada maldarlıqın inkişaf etdirilməsinə imkan verib. Səyyahların, tarixçi alimlərin verdiyi məlumatlardan aydın olur ki, Naxçıvan diyarının əhalisi təsərrüfatın bir çox sahələri ilə məşğul olublar. Lakin başlıca məşğuliyyətləri kənd təsərrüfatı məhsullarının istehsalına yönəldilmişdir. Burada taxılçılıq, üzümçülük, meyvə-tərəvəzçilik və maldarlıq inkişaf etmişdir [6, s.

14-15]. Əkinçiliklə məşğul olan insanlar süni suvarma üsullarına yiyələndiyindən çay, arx və ya kanalların ətrafında, maldarlıqla məşğul olanlar isə otlaqlarla zəngin olan çəmənliklərdə məskən salmağa daha çox üstünlük vermişlər. Dağlıq, dağətəyi və düzən torpaq relyefinə malik olan bölgə ərazisində taxıl bitkiləri düzən torpaqlarda süni suvarma, dağlıq ərazilərdə isə dəmyə üsulu ilə yetişdirilirdi [8, s. 18-47].

Aparılan tədqiqatlar göstərir ki, Naxçıvan ərazisinin əlverişli təbii-coğrafi şəraitə malik olması, su hövzələrinə yaxınlığı, geniş otlaq sahələrinin mövcudluğu, iqlimin və relyefin rəngarəngliyi, ərazinin qışlaq və yaylaq maldarlığı üçün əhəmiyyətli olması və s. amillər tarixən burada maldarlığın inkişafına şərait yaradaraq əhalinin təsərrüfat həyatının başlıca sahələrindən birinə çevrilmişdir [7, s. 167-171]. Maldarlığın əsas növləri qoyunçuluq, iribuynuzlu mal-qara, atçılıq idi. Bunlardan başqa, keçi, dəvə, qatır, ulaq və s. saxlanılırdı. Hələ ən qədim dövrlərdən bu diyarda kənd təsərrüfatının digər sahələri ilə yanaşı maldarlığın da mühüm təsərrüfat sahəsi olduğu məlumdur. Bunu arxeoloji tədqiqatlar zamanı dəfələrlə əldə olunan at, dəvə, qoyun, öküz və s. tipli ev heyvanlarına məxsus skelet qalıqlarına, daşdan yonulub hazırlanmış at və qoç heykəllərinə, maldarlıq məhsullarının hazırlanması üçün istifadə olunmuş müxtəlif növ gil qab nümunələrinə, sərniclərə, nehrələrə və s. rast gəlinməsi təsdiq edir [7, s. 167-171]. Heç təsadüfi deyildir ki, bölgədə maldarlığın inkişafına rəvac verən amillər, insanlığın bu təsərrüfat sahəsinə olan böyük ehtiyacından irəli gəlirdi. Belə ki, ətə, yuna, gön-dəriyə, südə, yağa və s. heyvandarlıq məhsullarına cəmiyyət daxilində böyük miqyasda tələbat meydana gəlmişdir. Tələbatın durmadan artması amili isə ərazinin sürətli inkişafından xəbər verirdi. Hələ XIX əsrdə xırdabuynuzlu heyvandarlıq məhsulları, xüsusilə yun getdikcə daha çox satışa çıxarılırdı. Həmin əsrin 60-ci illərində Naxçıvandan hər il 20 min puddan çox yun Rusiya toxuculuq sənayesinin ehtiyaclarını ödəmək üçün göndərilirdi. Hər il Naxçıvandan göndərilən heyvandarlıq məhsullarının qiyməti 75 min rubl təşkil edirdi. XIX əsrin sonları-XX əsrin əvvəllərində satışa çıxarılan heyvandarlıq məhsullarının da miqdarı çoxalmışdı [15, s. 38]. Xanlıqlar dövründə dövlət həm gön-dəri məmulatlarının istehsalına, həm də satışına görə xüsusi vergilər müəyyənləşdirmiş və onların toplanmasını ayrı-ayrı şəxslərə ilti¬zama vermişdi. 1823-cü ildə hazırlanmış iltizam maddələri haq¬qındakı cədvəldə bütün Naxçıvan dairəsi üzrə gön-dəri məmulatı istehsalına görə gümüş pulla 260 rubl [manat] məbləğində vergi toplanılması müəyyənləşdirilmişdi. Həmin qaydalara görə, dab¬baq emal edib satışa çıxardığı hər ədəd camış dərisinə görə 35 qəpik, qoyun dərisinə görə isə 10 qəpik həcmində vergi ödəməli idi [22, s. 112]. Təbii ki, gön-dəri istehsalının inkişaf etdirilməsi üçün maldarlıq təsərrüfatının genişləndirilməsinə şərait yaratmaq lazım idi.

Böyük İpək yolunun Naxçıvan diyarından keçməsi də bu bölgədə kənd təsərrüfatının, o cümlədən də maldarlığın inkişafına mühüm təsir etmişdir. İlk növbədə ticarət yolunun üzərində yerləşən yaşayış məntəqələrində heyvandarlığın qoyunçuluq, maldarlıq, dəvəçilik, atçılıq və b. növləri inkişaf etməyə başlamışdı. Naxçıvanın ekoloji-coğrafi şəraiti köçəri heyvandarlığın inkişafı üçün zəruri idi. Yayda dağlıq və dağətəyi zonaların otlaqlarında, qışda isə aran zona düzənliklərində hevyanların saxlanılması köç üzərindəki yaşayış məntəqələrində də əkinçilik və heyvandarlığın inkişafına təsir edirdi [9, s. 11-12].

Ümumiyyətlə, Naxçıvanda maldarlıqla məşğul olanlar bir neçə qrupa bölünür. Bilavasitə əkinçiliklə və ya kənd təsərrüfatının başqa sahəsi ilə məşğul olanlar üçün maldarlıq ancaq istehlak məqsədi daşıyırdı. Belə ailələrdə mal-qaranın sayı minimum həddə idi. Maldarlıqla müntəzəm məşğul olan kəndlilər üçün əmtəə maldarlığı xüsusi əhəmiyyətə malik idi. Yenə də köçmə maldarlığı maldarların əsas məşğuliyyəti olaraq qalırdı. Yaylaqlar və qışlaqlar əsasən dövlətə məxsus olduğundan maldarlar onları ağır şərtlərlə icarəyə götürürdülər [7, s. 167-171].

Bəhs edilən dövrdə əhalinin sosial-iqtisadi həyatının diqqət çəkən tərəflərindən biri də milli tərkiblə bağlı idi. Bu dövrdə Naxçıvan bölgəsinin ümumi əhalisinin əsas tərkibi Azərbaycan türklərindən ibarət olmuşdur. Lakin azərbaycanlılarla yanaşı, bölgədə ruslar, ermənilər və digər etniq qrupa mənsub olan xalqlar da yaşamışdır. XIX əsrin sonunda Naxçıvan şəhərində əhalinin ümumi sayı 6260 nəfər olmuşdur. Bunun da 4566 nəfəri azərbaycanlılar (2388-i kişi, 2178-i qadın), 1638 nəfəri ermənilər (960-ı kişi, 678-i qadın), 57 nəfərini isə ruslar (53-ü kişi, 4-ü qadın)

təşkil etmişdir [5, s. 27]. Azərbaycanda, o cümlədən də Naxçıvan diyarında XIX əsrin ilk onilliklərindən başlayaraq rus hökumətinin himayəsi ilə bu yerlərə ermənilər köçürülmüşdü. Bu isə zaman-zaman yerli əhalinin sıxışdırılması ilə nəticələnirdi. Çar Rusiyası Naxçıvan Xanlığını işğal etdikdən sonra bölgənin təsərrüfat həyatına diqqət yetirməyə başladı. Əslində bu diqqət çarizmin iqtisadi siyasəti, hər şeydən əvvəl, onun siyasi mahiyyətindən irəli gəlirdi. Bu siyasətin başlıca məqsədi isə çarizmin regionda öz ağalığını möhkəmlətmək məqsədinə xidmət edirdi [16, s. 47-48]. Qeyd etmək olar ki, Rusiyanın xristian əhalisi üçün çar hökuməti tərəfindən Şimali Azərbaycanın müxtəlif regionlarında XIX əsrin II yarısından etibarən kilsələrin tikilməsi də müstəmləkəçilik siyasətinin tərkib hissəsi idi. Çarizmin müstəmləkə siyasətinin nəticəsində rusiyadan Şimali Azərbaycana köçürülən rus əhalisinin iqtisadi və hüquqi vəziyyəti Azərbaycan kəndlisinin vəziyyətindən köklü surətdə yaxşı idi. Rusiyadan köçürülmüş kəndlilər Azərbaycanda çox varlı yaşadıqları halda yerli kəndlilərin nə torpağı becərmək üçün işlək heyvanı, nə də yaşamaq üçün gündəlik tələbatını ödəyən ərzağı yox idi. Lakin onlara yaradılan bütün yaxşı şəraitə baxmayaraq rus kəndlilərinin yad bir ölkədə yaşamaları, vətən həsrəti onların böyük dərdi idi. Ona görə də XX əsrin əvvəllərində, xüsusən 1917-ci ildə Rus imperiyası devrildikdən sonra rus kəndlilərinin hamısı Azərbaycanı tərk edərək öz vətənlərinə qayıtmışlar [1, s. 67].

Nəticə olaraq qeyd etmək olar ki, XVIII-XIX əsrlərdə Naxçıvan diyarında gedən ictimai-siyasi proseslər, İmperialist qüvvələrin bölgədə apardığı müharibələr, əhalinin sosial-iqtisadi vəziyyətinə, təsərrüfat həyatına, maddi rifahının yaxşılaşdırılmasına mənfi təsir göstərmişdir. Lakin bununla yanaşı tarixin bütün zamanlarinda hər bir çətinliyə sinə gərən Naxçıvan əhalisi həmin dövrdə də yaşam həyatını sürdürmək üçün mübarizə aparmışdır.

**ƏDƏBİYYAT**


1. Əhmədov H. XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycanda rus kalonlaşması məsələsinə dair. // Tarix və onun problemləri, N 4 2009 s. 64-68
2. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı: Azərnəşr, 1996, s. 34
3. Əliyev F. XVII əsrin birinci yarısında Azərbaycan şəhərləri. Bakı, 1964. s.
4. Əlizadə O.T. XVIII əsrin birinci yarısında Osmanlı-Səfəvi münasibətləri. Bakı: Elm, 2009, 208 s.
5. Xəlilov T. Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü və inkişafı (XIX əsrin sonu XX əsrin əvvəlləri). Naxçıvan: 2020, 192 s. pdf.
6. İsayev E. Tarixi və müasir İpək yolunun naxçivanin diplomatik, iqtisadi və mədəni həyatinda rolu. Böyük İpək yolu konfransı,([16-17 oktyabr)2015, s. 14-15.
7. Qasımlı V. İlk orta əsrlərdə Naxçivanda maldarliq təsərrüfati. Baki Universiteti xəbərləri, №4, 2010, s. 167-171
8. Quliyev Ş. Naxçıvanda ənənəvi suvarma əkinçiliyi. AEM, V bur. Bakı: Elm, 1985, s 18-47
9. Məhərrəmov S. İpək yolu ticarət əlaqələrinin Naxçıvanda kənd təsərrüfatının inkişafında rolu, / Beynəlxalq İpək yolu konfransı (16-17 oktyabr 2015). Naxçıvan: 2015, s. 11-12
10. Mustafayev C. Naxçıvan şəhərinin sənətkarlıq həyatı (XVIII-XIX əsrlər). AMEA Naxçıvan Bölməsi İncəsənət Dil və Ədəbiyyat İnstitutu. Axtarışlar (Elmi toplu). № 3, 2017 c.7 s 249-256.
11. Naxçıvan Dövlət Arxivi f. 314, s. 6, i. 18, v. 534.
12. Naxçıvan Dövlət Arxivi.Fond: 314, siy. 5 a, iş-41.
13. Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi t.e.n. H.Məmmədov. Tərcümə edənlər akademik Z.Bünyadov və t.e.n. H. Məmmədov. Bakı: Elm, 2001, 376.
14. Paşayev N. Rusiyanin təsiri ilə Şimali Azərbaycanin əkinçilik təsərrüfatinda baş verən dəyişikliklər (XIX-XX əsrin əvvəlləri) // Bakı Universitetinin Xəbərləri, 2010, №2 s. 126-133
15. Şahverdiyev Z. Naxçıvan: Tarixi yaddaş və müasir yüksəliş. Naxçıvan: Əcəmi, NPB, 2017, 520 s.
16. Şahverdiyev z. Çar Rusiyasının Naxçıvanda müstəmləkəçilik modeli və ona qarşı mübarizə tarixindən [XIX-XX əsrin əvvəlləri]. Böyük İpək yolu konfransı, (16-17 oktyabr) 2015, s. 47-48.
17. Мамедов М. Исторические связи Азербайджанского и Армянского народов во второй половине XVII – первой трети XVIII в. Баку: Элм, 1977, 283 с.
18. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединение к Российской империи. СПб., Типография Императорской Академии Наук, 1852, 1231 с.
19. Исмаилов М. Экономическая политика и мероприятия царского правительства в области сельского хозяйства Азербайджана в 30-60-х годах XIX века. // Вопросы истории Азербайджана кануна и периода первой русской революции. Сборник статей. Баку: Элм, 1985, s. 160-171.
20. Мустафазаде Т.Т. Азербайджан и русско –турецкие отношения в первой трети XVIII в.Б.: Элм, 1993, 240 с.

21. Петрушевский И. П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Ленинград: Изд.-во ЛГУ, 1949, 384 с.
22. Статистическое описание Нахичеванской провинции. Составитель В.Григорьев. Санкт-Петербургъ: Типография Департамента Внешней Торговли, 1833, с. 93
23. https://azertağ. az / xeber/ Naxchvan

**РЕЗЮМЕ**

**САРА ГАДЖИЕВА**

**СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ СИТУАЦИЯ В НАХЧИВАНСКОЙ ОБЛАСТИ В XVIII-XIX ВЕКАХ**

В статье обсуждается социально-экономическая ситуация в Нахчыване в XVIII-XIX веках и ее влияние на экономическую жизнь. Было отмечено, что с начала XVIII века царская Россия начала войны как с Османской Турцией, так и со странами Запада с целью завоевания стратегически важных регионов с целью доминирования на торговых путях Север-Юг и Восток-Запад. Самой важной из этих стратегических территорий был Азербайджан, включая его неотъемлемый регион Нахчыван. У России есть долгосрочные планы по приобретению этих стратегически важных регионов. В целях реализации этих планов, в экономической жизни населения Нахчывана, в период Афшаров и Ханлыгов как и в других регионах, с учетом за некоторыми исключениями, конфликты в регионе в целом отрицательно сказались на социально-экономическом положении и образе жизни народа.

Ключевые слова: Нахчыван, социальная, экономическая, население, ситуация,

**SUMMARY**

**SARA HAJIYEVA**

**SOCIO-ECONOMIC SITUATION IN NAKHCHIVAN REGION IN XVIII-XIX CENTURIES**

In the article, the socio-economic situation in Nakhchivan in the XVIII-XIX centuries and its impact on agricultural life were discussed. It was noted that starting from the beginning of the 18th century, Tsarist Russia started wars with both Ottoman Turkey and Western countries in order to gain strategically important regions in order to dominate the North-South and East-West trade routes. The most importat of those strategic territories was Azerbaijan, including its integral region, Nakhchivan. Russia has long-term plans to acquire these strategically important regions. In order to implement those plans, the disintegration of the Safavid state and the Afshars and Khans, who were in power for a short time after that, in the economic life of the population of Nakhchivan, as well as in other regions, taking into account some exceptions, the conflicts in the region in general had a negative impact on the socio-economic situation and the way of life of the people. .

**Keywords:** *Nakhchivan, social, economic, population, situation,*

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

UOT:94

**NƏRGIZ NAĞIYEVA**
Bakı Dövlət Universiteti
nargiz_nagiyeva@mail.ru
DOI: 10.5281/zenodo.10984313

# POSTKOLONİALİZMİN BEYNƏLXALQ MÜNAQİŞƏLƏR SİSTEMİNDƏ YERİ

*XX əsrin ortalarından başlayaraq keçmiş kolonial ölkələr öz ”müstəqilliklərini” milli-azadlıq hərəkatları nəticəsində əldə etməyə başlayıb və XX əsrin sonlarında artıq bu proses demək olar ki, başa çatmışdır (bir necə ölkə hələ də rəsmi koloniyadır). XX əsrin II yarısında yeni fəlsəfi istiqamət - postkolonializm yarandı ki, onun yaradıcıları E.Səid, H.Bhabha və Q.C. Spivak hesab olunurlar. Postkolonial ölkələrdə müharibədən sonra dekolonizasiya və yeni yaranmış milli dövlətlərin formalaşması prosesi dövlətlərin daha da parçalanması, yeni milli dövlətlərin yaranması, çoxlu sayda ərazi mübahisələri prosesi ilə əvəz olundu.*

***Açar sözlər:*** *postkolonializm, kolonilaizm, beynəlxalq münaqişələr, metropoliya, Afrika, Yaxın və Uzaq Şərq.*

XX əsrin II yarısından cəmiyyətin bir çox sahələrində kəskin dəyişikliklər baş vermiş, beynəlxalq münaqişələrin xüsusiyyətləri də dəyişmişdir. Münaqişələrin əsas səbəbləri dəyişməyib. Əvvəla, bu, hələ də resurslar, geosiyasi və demoqrafik amillər, beynəlxalq münasibətlər subyektlərinin maraqlarının toqquşması, etnik və ərazi problemləri uğrunda mübarizədir. XXI əsrdə XX əsrlə müqayisədə dini ziddiyyətlər daha mühüm rol oynamağa başladı. Din müəyyən ölkələr üçün bir növ “ideologiya” rolunu oynayır ki, bu da münaqişəli davranışlarda həvəsləndirici amildir; məsələn, sünnü və şiə ölkələri arasında münaqişədə və ya müxtəlif terror təşkilatları üçün. Müasir dünyada dekolonizasiya baş verdi və müstəmləkəçilik azadlıq müharibələri azad edilmiş xalqlar arasında münaqişələrlə əvəz olundu. (8; 32).

XXI əsrdə isə xalqların öz müqəddəratını təyinetmə hüququ ilə dövlətin ərazi bütövlüyünün qorunması prinsipi arasında əlaqə məsələsi getdikcə aktuallaşır və nəticədə daha çox münaqişələr məhz bu istiqamətdə baş verir.

Müasir dünyada çoxlu sayda münaqişəli vəziyyətlər, beynəlxalq münaqişələr mövcuddur - həm davam edən, həm də "dondurulmuş", hər birinin özünəməxsus xüsusiyyətləri var.

Əksər münaqişələr dini (konfessional) və ya etnik zəmində fərqlənən qruplar arasında zəif dövlətlərdə baş verən daxili münaqişələrdir. Daimi daxili münaqişələr və vətəndaş qarşıdurmaları dövlətlərin daha da zəifləməsinə gətirib çıxarır.

Şübhəsiz ki, postkolonializmi azadlıq kimi düşünmək quru nikbinlikdən başqa bir şey deyildir. Nigeriyada müstəqillik əldə etdikdən dərhal sonra başlayan Biafra müharibəsi, eləcə də Ruanda qırğını və digər Afrika ölkələrində vətəndaş müharibələri göstərir ki, müstəmləkəçiliyin irsi xüsusiyyəti ölkələrin taleyində mühüm yer tutur.

Postkolonial ölkələrin mövcud sərhədləri ərazinin özbaşına bölünməsini əks etdirir, etnik qrupların faktiki məskunlaşmasını, bu ölkələrdə yaşayan xalqların təsərrüfat quruluşunun tarixən formalaşmış xüsusiyyətlərini nəzərə almır. Məsələn, Afrikada yaşayan bir çox xalq hələ də köçəri həyat tərzi ilə xarakterizə olunur, bunun üçün dövlət sərhədlərinin mövcudluğu normal həyata ciddi maneədir. Bir çox ölkələr davamlı olaraq mövsümi miqrasiya prosesi ilə üzləşirlər.

Postkolonial ölkələrdə etnoslar və etnik qruplar müxtəlif sosial-iqtisadi və siyasi inkişaf səviyyələrində birgə yaşayırlar. Bəzi ölkələrdə müxtəlif etnik qrupların sayı 70 və daha çoxdur (məsələn, Konqo, Fil Dişi Sahili, Rusiya).

Müstəmləkəçilik dövrü bu qrupların mövqeyinə və inkişafına müxtəlif təsirlər göstərmişdir.

Suverenlik, dövlət, rasional siyasət, beynəlxalq münasibətlər sistemi kimi anlayışlar - bütün bunlar inkişaf etməkdə olan ölkələrin reallıqları ilə uzlaşmır.

Bəzi analitiklər hesab edirlər ki, beynəlxalq hüquq baxımından formal “suverenlik” olmasına baxmayaraq, bu ölkələrin xarici və daxili siyasətində müstəqillik anlayışı əslində uydurmadır və

inkişaf etməkdə olan bu ölkələrin xarici və daxili siyasətini təhlil etmək üçün suverenlik anlayışı qəbuledilməzdir.

Bir çox ölkələrin iqtisadiyyatı Qərb tərəfdaşlarından, inkişaf etmiş ölkələrin maliyyə yardımlarından və ixrac-idxal axınlarından asılıdır.

İnkişaf etməkdə olan ölkələrin əhəmiyyətli bir hissəsinin siyasi təşkilatı Avropa institutlarının və prinsiplərinin təkrarıdır.

Beynəlxalq əlaqələr üzrə ingilis tədqiqatçısı Barri Buzan qeyd edir: "Üçüncü dünyadakı dövlətlər transplantasiyadır. Bu dövlətlər son iki əsrdə Avropanın qlobal hökmranlığının məhsuludur. Əksəriyyəti yerli siyasi coğrafiyanı dəyişməyə meyilli olan Avropa müstəmləkəçiliyi nəticəsində yaradılmışdır. Avropanın siyasi formasının qəbulu açıq işğala məruz qalan bəziləri üçün müstəqilliyin, ya da yalnız bir neçəsinin - Yaponiya, Tailand, Osmanlı İmperiyası, Efiopiya - müstəqilliklərini qoruyub saxlayanların müstəmləkəçilikdən yayınmasının bədəli idi". [7; 134-158]

Mövcud silahlı münaqişələrin təxminən üçdə ikisini identiklik münaqişələri kimi təyin etmək olar və bəzi hesablamalara görə, 70-ə yaxın müasir siyasi münaqişədə kollektiv identikliyi möhkəmləndirmək üçün rəsmi şəkildə təşkil olunmuş qruplar iştirak edir.

COSIMO layihəsi çərçivəsində aparılan araşdırmalara görə, 1945-1995-ci illərdə ən çox şiddətli münaqişələr Yaxın və Orta Şərqdə - 113, Mərkəzi Afrikada - 102 və Asiyada - 86 baş verib. Bundan başqa, 1970-ci illərin ortalarına qədər beynəlxalq konfliktlər üstünlük təşkil edirdi, lakin sonrakı dövrdə daxili münaqişələr üstünlük təşkil etməyə başlayır. Yaxın və Orta Şərqdə beynəlxalq münaqişələr, Asiya və Afrikada isə daxili münaqişələr üstünlük təşkil edir.

Большое количество пестицидов и фунгицидов, которые ежегодно применяются для борьбы с болезнями и вредителями виноградников, вызывают экологическое загрязнение почвы, посевов и окружающей среды. Применение гормонов, посадка генно-модифицированных сортов вызывает серьезные осложнения в организме человека, что отрицательно влияет на состав и качество продукта. Именно с этой точки зрения органическое земледелие сохраняет свое место благодаря своей актуальности. Экологическое сельское хозяйство также основано на сохранении и улучшении состава и плодородия почвы. В статье говорится о применении органического виноградарства в Нахчыванской МР и выращивании виноградников на агротехнической основе. Рекомендуется использовать только органические удобрения, полностью избегать пестицидов и фунгицидов, принимать меры не против болезней, а против причин заболеваний. За период исследования было установлено, что 18 аборигенных сортов винограда более подходят для органического

выращивания. В результате проведенных нами исследований даны информация и рекомендации садоводам и виноградарям о методах органического выращивания.
**Ключевые слова**: *экосистема, органика, сухая обрезка, органика, сортоселекция, гроздь, болезнь, вредитель, компост, климат.*

**SUMMARY**
**JABBAR NAJAFOV**
**NAKHCHIVAN STATE UNIVERSITY**
**AGROTECHNICAL FUNDAMENTALS OF ORGANIC VINE GROWING IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

The widespread use of pesticides and fungicides in vineyards every year to combat diseases and harmful agents leads to ecological contamination of the soil, produce, and the surrounding environment. The application of hormone treatments and the cultivation of genetically modified varieties have serious adverse effects on the human body, affecting the composition and quality of the crop. It is precisely for these reasons that organic farming remains relevant. Ecological agriculture in rural areas is also based on preserving and improving soil composition and fertility.

This article discusses the application of organic grape cultivation and the agricultural techniques for vineyards in Nakhchivan Autonomous Republic. It emphasizes the use of natural methods, complete avoidance of pesticides and fungicides, and the implementation of measures to combat the causes of diseases rather than the diseases themselves. Research has determined that 18 indigenous grape varieties are more suitable for organic cultivation. The research conducted by us provides information and recommendations to vine growers and grape producers on the methods of organic cultivation.

**Key words:** *ecosystem, organics, dry pruning, organics, variety selection, bunch, disease, pest, compost, climate*

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, №1

UOT 911.3

**MƏMMƏD SADIQOV**
Elm və Təhsil Nazirliyi, akad.H.Əliyev adına Coğrafiya İnstitutu
mammadsadigov78@gmail.com

**İLQAR MƏMMƏDOV**
Bakı Dövlət Universiteti
İlqar.m76@mail.ru

**AYULDUZ ÖZAY**
Elm və Təhsil Nazirliyi, akad.H.Əliyev adına Coğrafiya İnstitutu
Ayulduz.özay@gmail.com
DOI: 10.5281/zenodo.10986232

# KANYON TURİZMİ, TURİZMİN BİR NÖVÜ KİMİ

*Azərbaycanda dağlıq, orta dağlıq və çay dərələrində çoxsaylı, rəngarəng, mövqeyə və təbii şəraitə malik olan ərazisində dağadırmanma, alpinizm, hadisə və təhlükəli turizm növlərini inkişaf etdirmək üçün şərait vardır. Lakin bu füsünkar təbii və estetik gözəlliyə malik turizm- rekreasiya və istirahət növlərindən günün tələbləri səviyyəsində istifadə olunmayıb. Bu baxımdan Azərbaycan üçün yeni olan və turistlərin rəğbətini qazana bilən Kanyon turizm növünü birmənalı qeyd etmək olar. Geoloji, geomorfoloji və hidroloji cəhətdən rəngarəng formaya malik bu təbii təbiət abidələrinə respublikanın dağlıq rayonlarında bir-birindən fərqli olan 10-na yaxın kanyonlara rast gəlmək olar. Bunları nəzərə alıb onların hər biri haqqında tədqiqat aparmaq turizm sənayesi üçün çox məqsədəuyğundur. Artıq ölkəmizdə olan kanyonların turizm kataloquna salıb, istifadə edilməsinin vaxtıdır.*
*Respublikanın şimal-qərbində və şimal şərqində, onun erməni separatçılarından azad edilmiş (2020) zəngin yeraltı və yerüstü ekosistemlərə malik, böyük potensialı olan Qarabağ regionunu turizm baxımından diqqətdə saxlanılmalıdır.*
*Nəticədə, Azərbaycan turizm sənayesinin perspektivində yeni layihələrin yer alması, yenidənqurma və ərazinin abadlıq istiqamətində görüləcək işlərin əsasını təşkil edəcəkdir.*
***Açar sözlər:*** *Turizm, rekreasiya ehtiyatları, turizm növləri, alpinizm, Kanyon turizm, eko-turizm.*

Turizm sənayesində onlarla turizm növləri fəaliyyət göstərir. Dağlıq ərazi ilə bağlı dağa dırmanma, alpinizm, hadisə (təhlükəli) turizmi və s. misal çəkmək olar. Bununla yanaşı məkan baxımından elə ərazilər vardır ki, hazırda turizmin bir neçə növü kor-təbii fəaliyyət göstərir.

Misal olraq qonşu Gürcüstan respublikasının tabeliyində olan Tsalqa (Zəlyə Barmaqsız) inzibati rayonun ərazisində, hansı ki, Tbilisi şəhərinin 80 km-də, Gürcüstan azərbaycanlılarının ən sıx məskunlaşdığı Marneuli şəhərinin 87 km-də və Qara dənizin Gürcüstana aid kompleks turizm-rekreasiya və sanatoriya-kurort müəssisələrindən 300-450 km məsafədə yerləşən “Tsalqa” adlı ərazini göstərmək olar.

Tsalqa turizm istirahət ərazisi 5 ilə yaxındır ki, yerli sakinlər və qonşu rayonların əhalisi tərəfindən istifadə olunur. Lakin bu mənzərəli “kanyon” da (sıldırım yamaclı dar dərələrdə) turizm növünün əks-sədası nəinki, bütün Gürcüstan, eləcə də bəzi qonşu ölkələrdən gəlir.

Biz iyul-avqust aylarında Gürcüstanın Qara dəniz və adı gedən Tsalqa kanyon-turizm ərazisində olduqda bizi ərazinin ekoturizm və turizm rekreasiya ehtiyatlarının rəngarəngliyi, sırf yabanı turizm amilləri, ərazinin təbii şəraiti və iqlim ünsürləri, relyefin parçalanması ilə yanaşı dəniz səviyyəsindən 1350-1800 m yüksəklikdə landşaft ekzotikliyi və iqlim komfortluğu valeh etdi.

Məlumdur ki, Azərbaycan və Gürcüstan əraziləri təbii cəhətdən müəyyən oxşarlığa malikdir. Nisbətən iqlim fərqliliyini nəzərə almasaq, burada relyef və landşaft ehtiyatları eynilik təşkil edir [8,10]. Bu baxımdan Böyük Qafqazın istər Gürcüstan, istərsə də Azərbaycan ərazilərində çoxsaylı müxtəlif tipli çay-dərə formalı kanyonları diqqəti cəlb edir.

Azərbaycan üçün daha maraqlı olan kanyonlar öz təbii mənzərəsi və rəngarəngliyi ilə diqqəti cəlb edir. Burada Böyük və Kiçik Qafqazın yamaclarından axan bəzi çayların dərələri hidroloji və tektoniki amillərin təsiri altında qalın süxur massivlərini yararaq nadir gözəlliyə malik sıldırım divarları olan dar kanyonlar yaratmışdır [17]. Bu kanyonlarıAzərbaycanın geoloji irsinə daxil edib, inkişaf etdirilməsi məqsədəuyğun zəruri olan kanyon turizminin bir növü kimi də dəyərləndirmək

olar.

Kanyonlarda təbii müxtəlifliyin turistlər üçün cəlbedici olmasına və estetik komfortluğuna üstünlük verilir. Burada təbii və antropogen landşaftlar və onun xüsusiyyətlərində mənzərəli təbii abidələri estetik zövqü oxşayan mühit, dağ və çay dərələrinin təbii yolla əmələ gətirdiyi müxtəlif formalı və ölçülü landşaftın uyğunlaşması əsas götürülür [10].

Xəzərin sahilyanı ovalıq hissəsində turizm ehtiyatlarına abrazion relyef formaları, dənizsahili meşə və çimərlik landşaftları, narın qumlu çimərlikləri, dəniz suyunun mövsüm dövründə temperaturu, su hövzələrinin fauna, flora zənginliyi, iqlim komfortluğunu aid etmək olar. Dağ ekosistemlərinə daxil olan əsas komponentlərə isə təbiət abidələri, ekzotik landşaft, meşə və çəmənlik əraziləri aid edilir [15].

AMEA müxbir üzvü T.Kəngərlinin tədqiqatına əsasən hazırda Azərbaycan ərazisində 7-8 məşhur kanyon vardır [1]. Bu kanyonlarda istirahət etmə, ətrafında düşərgə salma və turizm rekreasiya baxımından insanların sağlamlığının bərpa edilməsi XX əsrin ortalarından fəaliyyətə başlamışdır. Şübhəsiz ki, Azərbaycanda olan kanyonların sayı daha çoxdur. Lakin turizm baxımından onların tədqiq edilməsi və qiymətləndirilməsində fəaliyyətdə olanlar daha çox diqqəti cəlb etməkdədir.

T.Kəngərlinin tədqiqatı və bizim elmi-turizm ara.dırmalarından sonra bu qənaətə gəlmək olar ki, bu kanyonlar ğz cəlbediciliyi, təbii mənzərəsi və rəngarəngliyi baxımından bir-birindən müəyyən qədər fərqlənir. Aşağıda onların bəzilərinin əsas xüsusiyyətlərini şərh etmək daha məqsədəuyğundur.

**Təngəaltı kanyonu** Azərbaycanın şimal şərqində yan silsiləni təşkil edən malm-neokom yaşlı əhəngdaşlarını kəsib keçən Vəlvələ çayın yaratdığı təbiət abidəsidir [1]. Dərənin eni 50 m, uzunliğu 500 m, meşə ilə əhatələnmiş hündürlüyü isə 1500 m-dən çoxdur. Vəlvələ çayın hövzəsində yerləşən bir qrup dağ kəndlərini Xəzəryanı ovalıqla birləşdirən yeganə keçid rolu oynayan bu kanyon estetik məziyyətləri ilə yanaşı bütün dövrlərdə hərbi strateji əhəmiyyətə malik olmasıdır [1].



**Şəkil 1.** Təngi kanyonu.

2. **Qudyalçay kanyonu** Böyük Qafqazın şimal-şərq yamacında, eyniadlı çayın orta hövzəsində yerləşir. Burada kanyonun dik yamaclarının hündürlüyü 1000 m-dən çox olan dərin dərəyə malikdir. Onun Yan silsilədən ayırdığı Qızılqaya massivi Cənub-Şərqi Qafqazın təbiətinin bu guşəsinə təkrarsız əzəmət və zövq verən müxtəlif rəngli mərmərləşmiş suxurları malm-neokom yaşlı olub, laylı əhəngdaşlarından təşkil olunmuşdur [1]. Kanyon iki hissədən ibarətdir. Onun uzunluğu 8-10 km Qrızdəhnə hissəsi ekzotik “Minarə” adlı qayadan başlayaraq çay axarının əksinə, cənub-şərq istiqamətində Qudyalçayının sağ qolu Ağçayla qovuşduğu yerədək uzanır. Burada kanyonun dibi boyu inşa edilmiş Quba-Xınalıq nəqliyyat yolu boyu yamacları qalın meşə massivi ilə örtülmüş, orta hissədə isə Alp çəmənliklərinə füsunkar mənzərə açan dairəvi şəkilli geniş Qrızdəhnə çökəkliyi yerləşir.

Kanyonun Qızılqaya əhəngdaşlı massivinin sıldırım yamacları arası ilə 5 km uzanan Qırızın yuxarı hissəsi praktiki olaraq antropogen təsirinə məruz qalmadığından ecazkar əzəmətini qoruyub saxlaya bilmişdir.



**Şəkil 2.** Qudyalçay kanyonu. Qrızdəhnə sahəsi.

**Qaraçay kanyonu** Qudyalçay kanyonundan 30 km cənub-şərqdə yerləşir və ölçülərinə görə ondan geri qalsa da insan əli dəyməmiş kiçik ada formasında ilkin təbii xüsusiyyətlərini hələ də saxlamaqdadır. Bu kanyonda mərmərləşmiş əhəngdaş massivi əmələ gəlmişdir [4]. Geomorfoloji

baxımdan kanyon Cərəkə-Cəngizur ön silsiləsini onun ensiz hissəsini kəsib keçərək 7 km məsafədə uzanır və dirsəkvari şəklində əyilmiş forma əmələ gətirmişdir. Kanyonun ən cazibədar və turisti cəlb etmə funksiyalarından biri burada dağ kəndlərinə və şimal-şərqi Qafqaz aşrımlarına aparan keçid məntəqəsini qorumaq məqsədilə inşa edilmiş orta əsrlərə aid xarabalığın olmasıdır.



**Şəkil 3.** Girdimançay kanyonu.

**Girdimançay kanyonu** Cənub-Şərqi Qafqazın cənub yamacında, eyni adlı çayın orta axarında yerləşərək Lahıc-Namazgah kəndləri arasında Niyaldağ silsiləsini kəsib keçdiyi yerdə əmələ gəlmişdir. Uzunluğu 5 km olan kanyon Orta Təbaşirin Namazgah sinklinoriumunun şimal qanadından təşkil edərək tuf-qumdaşları və tuf-konqlomeratorlarından kəsib keçir. Kanyonun əsas məziyyətlərindən biri XIX-XX əsrlərdə Lahıc kəndini düşməndən qoruyan təbii sədd rolunu oynaması olmuşdur [1].

Belə ki, dərənin yalnız dik şimal yamacından çətin keçilən cığır (onun izlərini indi də görmək olur) olmuşdur ki, o da kanyonun girişi ilə birlikdə ciddi şəkildə qorunarmış. Bu vəziyyət yalnız XX əsrin əvvəllərində dəyişmişdir. Belə ki, at-araba və sonradan avtomobil nəqliyyatına yol salmaq üçün kanyonun sıldırımlı cənub yamacında partlayış üsulu ilə, yol-iz salmaq məqsədi güdmüşdür. Bu metod vasitəsilə Azərbaycanda yol tikintisinin özünəməxsus abidə sayılan ensiz karnizin açılmasıdır. Bu ərazilər daxili turist və qonaqları XX əsrin 60-70-ci illərindən etibarən cəlb etməyə başlamışdır [11]. Hazırda müəyyən abadlıq işlərinin və yol nəqliyyat infrastrukturunun yaradılmasına baxmayaraq hələ ki, xarici turistləri cəlb edə bilməmişdir[14].



**Şəkil 4.** Qaraçay kanyonu. Panorama. Xəzəryanı ovalıq tərəfdən kanyona giriş.



**Şəkil 5.** Qaraçay kanyonu. Panorama. Cənubdan görünüş.

**Zəngiçay (Cülyan) kanyonu** Girdimançay kanyonunundan bir qədər aşağıda onun eyniadlı qolunun ensiz (bəzi yerlərdə bir neçə metr) və bəzən isə dərin (400-500 m) girintili-çıxıntılı dərələri ilə təmsil olunmuşdur. O, şimaldan cənuba Namazgah sinklinoriumunun cənub qanadını kəsir və şimalda bənzərsiz gözəlliyi ilə göz oxşayan və ölçüsünün böyüklüyünə görə güclü təsir bağışlayan dairəvi formalı Müdrü çökəkliyinin bütün sularını özündən keçirir Hələki bu kanyon turizm işçiləri və mütəxəsislərinin və gəlmə turistlərin diqqət mərkəzindən çox-çox uzaqlardadır.



**Şəkil 6.** Zəngiçay kanyonu.

**Qarqarçay kanyonu** Kiçik Qafqazın şərq yamacında eyni adlı çayın dərəsində formalaşmışdır. 10 noyabr 2020-ci ilə dək bu Kanyon Azərbaycanın erməni işğalı altında qalmış çoxsayl geoloji, hidroloji obyektlərindən biridir. Eyniadlı çayın orta axarında yerləşən kanyon cənub-şərqdən şimal-qərb istiqamətində uzanan Qarabağ silsiləsini Üst Yura əhəngdaşlarından təşkil olunmuş Şuşa platformasını kəsib keçir. Uzunluğu 5 km-dən çoxdur [1,5]. Bu ərazilərdə ekoturizm ehtiyatlarının potensialı çox genişdir [5]. Əfsuslar olsun ki, ərazi 30 ilə yaxın erməni işğalı altında olmuş və azad edildikdən sonra bu ərazilərdə yenidən qurma işləri aparılmağa başlamışdır.

Qeyd etmək lazımdır ki, adları çəkilən dağ və çay dərələrindəki kanyonlarla yanaşı Naxçıvan MR ərazisində də bu tipli kanyonlar vardır [13]. Respublikanın ərazisindəki kanyonları fiziki-coğrafi, geoloji-geomorfoloji və hidroloji baxımdan tədqiq etmək ümumi Azərbaycan kanyon və turizm, təbiət obyektləri və irsi abidələrin haqqında çoxlu ətraflı materiallar əldə etmək olar. Bu təbiət, tarixi, mədəni, geomorfoloji və hidroloji abidələr ölkəmizə turist səfərlərinə çıxan insanlar üçün bir vizual baxış mənbəyidir. Onlar ölkəmizin tarixi, coğrafiyası, relyef və iqlimi haqqında yığcam tanışlıq məlumatı əldə edəcəklər[9]. Alimlər və mütəxəsislər isə konkret kanyon turizmini inkişaf etdirmək və respublika turizm kataloquna daxil etdirib, bir sıra yeni tur marşrutların

açılmasına zəmin yaradacaqdır. Yaxın gələcəkdə kanyon turizmi Azərbaycan turizm sənayesinin inkişafında zəruri element kimi sayıla bilər [16, 17].



**Şəkil 7**. Qarqarçay kanyonu.

Məlumdur ki, istər xarici və istərsə də daxili turistləri birmənalı olaraq ölkəmizin ərazisinin coğrafi mövqeyi, onun dərin dərələri, dərələrdə formalaşan biri digərindən fərqlənən müxtəlif rəngli qiymətli süxur laylarından təşkil olunmuş kanyonların və yarğanlı qayaların bir-birini əvəz etməsi, ərazilərin bu kompleks fiziki-coğrafi xüsusiyyətləri baxımından turistlərin cəlbediciliyini daha da artırmış olacaqdır.

## Nəticə

1. Nəticə olaraq, ölkəmizin ərazisində olan kanyonların inkişafı üçün əsaslı turizm infrastrukturları, nəqliyyat yolları və gecələmə obyektləri və s. təşkil edilməlidir. Respublikanın bu tip turizm növünün inkişaf etdirilməsində kompleks işlər həyata keçirilməlidir.
2. Həmçinin, ölkəmizin ərazisinin müxtəlif təsərrüfatlarına insan qayğısı, ərazilərin təsərrüfatlarından daha mütəşəkkil formada istifadəsi, bu ərazilərdə əhalinin maariflənməsinə və regionların ərazisində olan çox saylı turizm növlərini diqqətdən keçirib, bu turizm növləri haqqında ətraflı elmi biliyə yiyələnməklə yanaşı perspektiv planda ölkədə turizm zonalarının planlaşma istiqamətində fundamental işlərə nail olmaq olar.

## ƏDƏBİYYAT


1. Kəngərli T.N., Babayev Ş.A. (2013). Azərbaycan Respublikasının geoloji irsi. Bakı, səh. 31-38. 148 s.
2. Салманов А.А. (1987). Курортно-туристические ресурсы. Природно-ресурный потенциал Большого Кавказа. Баку Элм. с. 117-118. с. 178.
3. Климат Азербайджана (под редакцией Э.М. Шихлинского и А.А. Мадатзаде). (1968). Баку. страница 180-181. с. 344.
4. Кашкай М.А. (1952). Минеральные Источники Азербайджана. Баку. Страница 51-56, 73-74, с. 537.
5. Paşayev N.Ə., Ağakişiyev G.R. (2014). Təbii fəlakətlərin Azərbaycan Respublikasının turizm təsərrüfatının ərazi təşkilinə təsiri. *"Azərbaycan Hava Yolları" QSC. Milli Aviasiya Akademiyasının Elmi Məcmuələr jurnalı. XVI Cild.* 2(1), Bakı, səh. 84-90.
6. Nəbiyev H.L. (2006). Böyük Qafqazın cənub yamacında sellərin statistik təhlili və onların yaranmasının sinoptik-iqlim şəraiti. *Azərbaycan Coğrafiya Cəmiyyəti.* 10(1). Bakı. səh. 538-542.
7. Paşayev N.Ə. (2003). Dağlıq ərazilərdə təbii fəlakətlərin məskunlaşmaya və təsərrüfatın ərazi təşkilinə təsirinin öyrənilməsinin metodoloji və praktik əhəmiyyəti. *Azərbaycan Coğrafiya Cəmiyyəti.* 8(1). Bakı. səh. 153-159.
8. Müseyibov M.A. (1998). Azərbaycanın fiziki coğrafiyası. Bakı, Marif, səh. 76-92. 400 s.

9. Azərbaycanda Kanyon Turizm növünün inkişaf etdirilməsinin məqsədəuyğunluğu. (2020). *Beynəlxalq jurnal*. 9(1), səh. 32-38.
10. Məmmədov Q.Ş. (2012). Azərbaycanın Ekoturizm potensialı. II Cild. Bakı. "Şərq-Qərb" nəşri, səh. 142-205. 420 s.
11. Bilalov B.Ə., Gülalıyev Ç.G. (2015). Turizmin əsasları. Bakı, "QHT Nəşriyyatı", səh. 366-389, 432-436. 496 s.
12. Manuel Ramón González Herreraa, Vinod Sasidharanb, Julian Alberto Álvarez Hernándeza, Luis Daniel Azpeitia Herreraa. (2018). Quality and sustainability of tourism development in Copper Canyon, Mexico: Perceptions of community stakeholders and visitors. *Tourism Management Perspectives.* file:///D:/T-U-R-A-L/Dissertasiya%20i%C5%9Fi/Canyon%20Tourism%20M%20Glez%202018.pdf. 27(1), pp. 91-103.
13. Ni Wayan Rena Mariani və Firlie Lanovia Amir. (2016). Role of Social Media in the Promotion of 'Hidden Canyon' Tourism Object. Advances in Economics, Business and Management Research. *1st International Conference on Tourism Gastronomy and Tourist Destination* (ICTGTD). 28(1), pp. 152-155.
14. Canan Tanrisever, Bilgin Ünal İbret, Duran Aydinözü, Emin Cansiz. (2016). Geomorphologic Features And Tourism Potential Of The Valla CanyonKastamonu (Turkey). *Karadeniz Araşdırmaları*. 50(2), pp. 191-202.
15. Raziye Çakıcıoğlu Oban və Hediye Arzu Gökçe Gündüzoğlu. (2017). The perception of local people about the tourism potential in Ulubey canyon (Usak province). *Journal of Human Sciences.* 14(2), pp. 2078-2089.
16. Naxçıvan abidələri ensiklopediyası. (2008). Naxçıvan, səh. 68, 82-85, 476-477. 521 s.
17. Elnarə İsmayılova. (2017). Tarixi və Mədəni Turizm. Bakı, səh. 175-186, 248-263. 496 s.

## РЕЗЮМЕ

**МАМЕД САДЫГОВ, ИЛЬГАР МАММАДОВ, АЙУЛДУЗ ОЗАЙ**

**КАНЬОННЫЙ ТУРИЗМ, КАК ВИД ТУРИЗМА**

В индустрии туризма существует множество видов туризма, которые сильно отличаются друг от друга. Туризм каньона, самый новый и самый молодой, также привлекает внимание с точки зрения его величия, привлекательности и очарования.

Специалистов по каньоном туризму в Азербайджане практически нет. Эта статья М.О.Садыкова почти как приоритет для Азербайджана шаг новичка. По нашему мнению, эти шаги помогут поднять перспективные проекты индустрии туризма Азербайджана на вершину.

Ключевые слова: Туризм, рекреационные ресурсы, виды туризма, альпинизм, каньон туризм, экотуризм.

## SUMMARY

**MAMMAD SADIGOV, ILQAR MAMMADOV, AYULDUZ OZAY**

**CANYON TOURISM, AS A TYPE OF TOURISM**

There are so many completely different tourism types in the industry. The newest and most recent type is the canyon tourism which draws attention in terms of its majesty, attractiveness and charm.

There are roughly no specialists who work in the Canyon Tourism field of Azerbaijan. M.O. Sadigov's this article can be called as an initial step for Azerbaijan alongside its priority. In our opinion these steps will help to elevate prospect projects of Azerbaijan Tourism Industry to the top.

Key words: Tourism, recreation resources, types of tourism, mountaineering, canyon tourism, ecotourism.

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 1

# PEDAQOGİKA

UOT:37

**ABDULLA MUSTAFAYEV**
Naxçıvan Dövlət Universiteti,
“Ümumi tarix” kafedrasının dosenti
mustafayevabdulla78@gmail.com

**MÜNƏVVƏR SÜLEYMANOVA**
Naxçıvan Dövlət Universiteti
“Ümumi tarix” kafedrasının müəllimi
alexandratarverdiyeva@mail.ru

**NAZLI SEYIDOVA**
Naxçıvan Dövlət Universiteti,
“Ümumi tarix” kafedrasının müəllimi
nazliseyidova2@gmail.com
DOI: 10.5281/zenodo.10986293

## AKTİV (FƏAL) TƏLİM METODLARININ TƏTBİQİNİN NƏZƏRİ PRİNSİPLƏRİ

### XÜLASƏ

*Məqalədə aktiv (fəal) təlim metodlarının tətbiqinin nəzəri prinsipləri araşdırılır. Qeyd olunur ki, bir sıra fənlərin tədrisində olduğu kimi, tarixin tədrisi prosesində də təlimin müxtəlif üsullarından-passiv, aktiv və interaktiv üsullardan istifadə olunur. Hər bir üsulun özünəməxsus xüsusiyyətləri məqalədə təhlil edilmişdir.*

*Göstərilmişdir ki, təlimin fəal metodları yalnız müəllimin deyil, eyni zamanda, şagirdlərin də fəal olmasını tələb edir, yalnız bu zaman onların tədris-idrak fəaliyyəti aktivləşir.*

*Qeyd olunmuşdur ki, müasir dövrdə təhsil prosesində şagirdlərə yalnız bilik verilmir, eyni zamanda onlarda bilik, bacarıq və vərdişlər formalaşır. Ona görə də şagirdlərin şəxsiyyət kimi formalaşmasında ən mühüm amil onlarda təfəkkürün inkişaf etdirilməsidir.*

*Tədris prosesində fəal təlim metodlarından istifadənin dərsin keyfiyyətinin artırılmasında böyük əhəmiyyətə malik olduğu vurğulanır və bu metodların şagirdlər arasında dialoq ünsiyyətinə əsaslandığı göstərilir. Dialoq prosesində isə ünsiyyət bacarıqları ilə yanaşı, problemi kollektiv şəkildə həll etmək bacarığının, ən başlıcası isə şagirdlərdə nitq qabiliyyətinin inkişaf etməsi önə çəkilir.*

*Məqalədə eyni zamanda, fəal təlim metodlarının təlimin məzmununun öyrənilməsi və onun tətbiqinin səmərəliliyinin artırılmasında əhəmiyyəti də araşdırılır. Sonda belə bir nəticəyə gəlinir ki, tədris prosesində fəal təlim metodlarından istifadə şagirdlərdə passivliyi aradan qaldırır, təfəkkürü inkişaf etdirir, yaradıcılıq qabiliyyətini formalaşdırır, təlimin keyfiyyətini yüksəldir.*

***Açar sözlər:*** *Aktiv təlim üsulları; İşgüzar oyun; Tədris prosesi; Tədris-idrak fəaliyyəti; Rollu oyun: İşgüzar oyun*

Pedaqogikada olduğu kimi, tarixin tədrisi prosesində də təlimin passiv, aktiv və interaktiv üsullarından istifadə olunur. Passiv üsullarda şagird təlim prosesinin obyekti kimi çıxış edir. Belə ki, o müəllimin verdiyi materialı qavrayaraq təkrar etməlidir. İnteraktiv üsullarda təlim prosesi qarşılıqlı əlaqə üzərində qurulur və kollektiv, əməkdaşlıq fəaliyyətinə əsaslanır. Aktiv üsullarda isə şagird təlimin subyekti olur. Burada onlar müəllimlə dialoqa girərək yaradıcı tapşırıqları həll edirlər [2, Əmirov. 2011: s. 363-365]. Bu yazıda biz təlimin fəal (aktiv) metodlarının tətbiqinin nəzəri prinsiplərini nəzərdən keçirəcəyik.

Tədris prosesi zamanı tələbələrin fəal təhsil və idrak fəaliyyətinə bilavasitə cəlb edilməsi fəal təlim metodlarının ümumi adını almış texnika və metodlardan istifadə ilə bağlıdır.

Fəal təlim metodları təkcə müəllimin deyil, həm də şagirdlərin fəal olduğu zaman, materialın mənimsənilməsi prosesində onları fəal əqli və praktik fəaliyyətə sövq edən şagirdlərin tədris-idrak fəaliyyətini aktivləşdirmə üsullarıdır. Fəal təlimdə müəllim istiqamət verməklə öyrədir, şagird isə öyrənir və ondan öyrənilir. Burada şagirdlər passiv dinləyici deyil, fəal iştirakçılardır. Burada müəllimlərlə şagirdlər arasında qarşılıqlı əməkdaşlıq vardır [4, s. 10].

Şagird fəaliyyəti onların bilik, bacarıq və vərdişlərinin öyrənilməsi və tətbiqi prosesində intensiv fəaliyyəti və praktiki hazırlığıdır. Təhsildə fəaliyyət bilik, bacarıq və vərdişlərin şüurlu mənimsənilməsi üçün şərtdir. Başqa cür ifadə etsək, müasir dövrümüzdə təhsil prosesi şagirdlərə yalnız bilik verməyi deyil, həmçinin onlarda bilik, bacarıq və vərdişlərin inkişaf etdirilməsini də tələb edir. Bu baxımdan, şagirdlərin şəxsiyyət kimi formalaşmalarında təfəkkürün inkişaf etdirilməsi çox mühüm və vacib amil sayılır [6, Mahmudov. 2019)].

İdrak fəaliyyəti-müstəqil düşünmək, bir vəzifənin (problemin) həllinə öz yanaşmasını tapmaq istəyi, müstəqil bilik əldə etmək istəyi, başqalarını mühakimə etməyə tənqidi yanaşma və öz düşüncələrinin müstəqilliyini formalaşdırmaqdır. Bunun üçün lazımi şərait olmadıqda tələbə fəaliyyəti yox olur. Müasir təlim konsepsiyalarında müəllimin əsas vəzifələrindən biri dərslərin şagirdlərin müstəqil idrak fəaliyyəti əsasında təşkil edilməsidir. Lakin bəzən müəllimlərin bu fəaliyyəti təşkil etməkdə çətinlik çəkdiklərinin şahidi oluruq [1, Əlizadə. 2023].

Beləliklə, aktiv öyrənmə üsulları edərək, etməklə öyrənməkdir. Məhz müəllimin istiqamətləndirdiyi fəal fəaliyyətdə şagirdlər öz peşə fəaliyyəti üçün zəruri bilik, bacarıq və vərdişlərə yiyələnir, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirirlər. Dünyada aparılan təcrübələr sübut edir ki, fəal təlim metodundan istifadə dərsin keyfiyyətinin artırılmasında mühüm əhəmiyyətə malikdir. Belə ki, bu metod şagirdlər üçün cəlbedici olmaqla yanaşı, eyni zamanda maraqlıdır [9,Veysova. 2007: s. 4].

Fəal metodlar həm müəllimlə şagirdlər arasında, həm də tələbələrin özləri arasında dialoq ünsiyyətinə əsaslanır [10]. Dialoq prosesində ünsiyyət bacarıqları, problemləri kollektiv şəkildə həll etmək bacarığı, ən əsası isə şagirdlərin dili inkişaf edir. Fəal təlim metodları tələbələri müstəqil idrak fəaliyyətinə cəlb etməyə, hər hansı idrak tapşırıqlarının həllinə şəxsi maraq oyatmağa, əldə edilmiş bilikləri tətbiq etmək imkanı əldə etməyə yönəldilmişdir. Aktiv və yaxud fəal metodların məqsədi ondan ibarətdir ki, bütün psixi proseslər (dil, yaddaş, təxəyyül və s.) bilik, bacarıq və vərdişlərin mənimsənilməsində iştirak edir.

Fəal təlimin ən böyük üstünlüyü ondadır ki, bu zaman real idrak motivasiyası, yəni tələbələrin biliklərə yiyələnmək həvəsi yaranır ki, bu isə idrak fəaliyyətinin gedişində onların (şagirdlərin, tələbələrin) təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır. Bu ziddiyyətlərdən yaranan emosiyalar isə əqli ehtiyatların səfərbərliyini təmin edir və imkan yaradır ki, diqqət uzun müddət bir yerə cəmlənsin [2,Əmirov. 2011: s.389]. Fəal təlim metodları tələbələri təhsil və idrak fəaliyyətinə cəlb etməyin ən təsirli vasitələrindən biridir. Fəal təlim həm məzmunun öyrənilməsinin, həm də onun tətbiq edilməsinin səmərəliliyini artırır, şagirdlərin dərketmə fəaliyyətini fəallaşdırır [9,Veysova. 2008: s.95-102]. Təqlid etməyən və imitasiyaya bölünən aktiv təlim metodlarının təsnifatını nəzərdən keçirək.

Simulyasiya (və yaxud modelləşdirmə) üsulları oyun və qeyri-oyunlara bölünür. Oyunlar üçün işgüzar oyunların aparılması, oyun dizaynı və s., qeiri-oyunlar üçün isə konkret vəziyyətlərin təhlili, situasiya tapşırıqlarının həlli və s. xarakterikdir [10].

Sxematik olaraq bu təsnifatı aşağıdakı kimi təqdim etmək olar

Şəkil 1: Aktiv təlim metodlarının təsnifatı

| Aktiv öyrənmə üsulları | | |
|---|---|---|
| Təqlid deyil | Təqlid | |
| | Oyun | Qeyri-oyun |
| -problemli mühazirə, planlaşdırılmış səhvlərlə mühazirə, cütlük mühazirə, mühazirə mətbuat konfransı;<br>- evristik söhbət;<br>-təhsil müzakirəsi;<br>-ədəbiyyatla müstəqil iş;<br>-seminar | - iş oyunu;<br>-pedaqoji vəziyyətlər;<br>-pedaqoji vəzifələr;<br>- vəziyyət<br>-müxtəlif fəaliyyətlərin dramatizasiyası | -kollektiv zehni fəaliyyət;<br>-İVHN (İxtiraçı Vəzifələrin Həlli Nəzəriyyəsi); |

Aşağıdakı formaları da oyun simulyasiya formalarına aid etmək olar. İş rolunun icrası ilə staj xüsusi tipli fəal öyrənmənin forma və üsuludur, burada “model” reallığın özüdür, modelləşdirmə isə əsasən rolun (tapşının) yerinə yetirilməsidir. Simulyasiya videooyunu gerçək hadisələri yaxından simulyasiya etmək üçün nəzərdə tutulan videooyunlardır. Belə ki, simulyasiya oyunları müxtəlif məqsədlər üçün real həyatdan götürülmüş müxtəlif hadisələri oyun şəklində təkrarlanır. Bu oyunlar zamanı qarşıya qoyulan dəqiq məqsədlər olmadığı üçün oyunçuya imkan verilir ki, personajı və yaxud da mühiti sərbəst şəkildə təqdim etsin [11]. Müharibə oyunlarını, iş oyunlarını nümunə kimi göstərmək olar.

“Model” anlayışı “tədris metodu” anlayışına çox yaxındır, çünki tədris metodu həm də müəllimlə şagird arasında davamlı qarşılıqlı əlaqəni nəzərdə tutur və bu zaman müəllim şagirdin “tədris metodu” ilə bağlı fəaliyyətini təşkil edir [12].

Modelləşdirmə (ingiliscə elmi modelləşdirmə, simulyasiya) müəyyən bir tədqiqat obyektini (orijinal) başqası ilə əvəz etməyə əsaslanan bilik obyektlərinin (hadisələr, cihazlar, proseslər) tədqiqi üsuludur [13]. Modelləşdirmə bilik obyektlərinin onların modelləri əsasında öyrənilməsi, real obyektlərin, proseslərin və ya hadisələrin izahatlarını əldə etmək, habelə tədqiqatçıları maraqlandıran hadisələri proqnozlaşdırmaq məqsədi ilə real obyektlərin, proseslərin və ya hadisələrin modellərinin qurulması və öyrənilməsidir. Geniş mənada modelləşdirmə (simulyasiya), subyektin bilavasitə idrak obyekti əvəzinə ona bənzər köməkçi əvəzedici obyekti (modeli) seçdiyi və ya yaratdığı, onu tədqiq etdiyi və idrakın əsasını köçürdüyü zaman xüsusi idrak prosesi, nəzəri və praktik vasitəli idrak üsuludur. Modelləşdirmə (simulyasiya) modeli yaratmaq və tədqiq etmək prosesidir, model isə elmi biliyin vasitəsi, formasıdır. Modelləşdirmə (simulyasiya) mürəkkəb, vaxt aparan və məsuliyyətli elmi işdir. Bəzən modellərdən istifadə etməklə tədqiqat texnoloji prosesləri eksperimental şəkildə öyrənmək üçün yeganə mümkün yoldur. Beləliklə, uzun illər davam edən proseslər qısa müddət ərzində modellər üzərində öyrənilə bilər. Əksinə, tez gedən proseslər modellər üzərində daha uzun müddət öyrənilir.

Modelləşdirmə (simulyasiya) müxtəlif xarakterli sistemlərin öyrənilməsində geniş istifadə olunur, lakin sistem yanaşmasının metodologiyası çərçivəsində sosial idarəetmədə xüsusi əhəmiyyət kəsb edir.

Simulyasiya təlimi müxtəlif texniki vasitələr və cihazlarla müəyyən xüsusi bacarıqların və iş vərdişlərinin tətbiqini nəzərdə tutur. Rol oyunu (səhnələşdirmə) və yaxud da rollu oyun komandadakı münasibətlər problemlərinə, liderlik üslubunun və üsullarının təkmilləşdirilməsi problemlərinə əsaslanan xüsusi vəziyyətləri təhlil etməyin oynaq üsuludur. Bu oyun uşaqların özlərinə rol təyin etdikləri və mənimsəyərək oynadıqları bir oyundur. Çoxlu formaları olan bu oyun sadəcə rola girmək kim görsəndə də, inkişafetdirici öyrənmə prosesinin tərkib hissələrindən biridir [7].

Oyun dizaynı praktiki fəaliyyətdir, mahiyyəti reallığı mümkün qədər təkrarlayan mühəndislik, dizayn, texnoloji və digər layihələrin oyun şəraitində inkişafıdır. Didaktik oyun müxtəlif vasitələrdən istifadə etməklə həyata keçirilən bir model, yəni real obyektin, prosesin və ya hadisənin dəyişdirilməsidir. Bu oyun məktəbəqədər yaşda olan uşaqların zehni tərbiyəsində çox mühüm rol oynayır. Bu oyun zamanı şagirdlər təkcə nəinki qazandıqları bilikləri aydınlaşdırır və möhkəmləndirirlər, həmçinin oyun və idrakın birləşməsi sayəsində yeni biliklər əldə edirlər [3].

Bu cür oyunlar şagirdlərdə qavrama, düşüncə və təxəyyül arasında əlaqə yaratmağa, obyektləri dəyişdirməyə və s. kömək edir. Bu zaman şagirdlərdə nəinki dünyanı tanımaq, eyni zamanda onu dəyişdirməyə istək kimi bir mövqe yaranır. Didaktik oyunlar zamanı şagirdlərin bir-birləri ilə ünsiyyət yaratmaları mübahisəli məsələlərin həll edilməsinə imkan yaradır. Bu zaman isə onlarda nitq və diqqət inkişaf edir.

Fəal təlim metodları təhsil prosesinin müxtəlif mərhələlərində istifadə edilə bilər:

1-ci mərhələ-biliklərin ilkin mənimsənilməsi (problemli mühazirə, evristik söhbət, maarifləndirici müzakirə və s.) mərhələsidir.

2-ci mərhələ-biliyə nəzarət (bərkitmə) ( kollektiv zehni fəaliyyət, sınaq və s.) mərhələsidir.

3-cü mərhələ-peşəkar bacarıqların, biliklərə əsaslanan bacarıqların formalaşdırılması və yaradıcılıq qabiliyyətlərinin inkişafı (simulyasiya edilmiş təlim, oyun və qeyri-oyun üsulları) mərhələsidir.

Ən təsirli aktiv (fəal) öyrənmə üsullarından biri işgüzar oyundur. 1932-ci ildə Leninqradda M.M. Birşteyn təhsildə ilk dəfə oyun metodundan (iş oyunu) istifadə etmişdir. 1991-ci ilə qədər dünyada 2000-dən çox işgüzar oyundan istifadə edilmişdir ki, onlardan 1200-dən çoxu yalnız keçmiş SSRİ və ABŞ-da istifadə edilmişdir. Digər ölkələrdə də, məsələn, İngiltərə, Kanada, Yaponiya, Fransa, Almaniya, Polşa, Çexiya, Slovakiya və s. ölkələrdə işgüzar oyunlar yayılmış və həyata keçirilmişdir [10].

İşgüzar oyunlar tədris prosesində tarixi biliklərin mənimsənilməsində çox mühüm əhəmiyyətə malik olan aktiv bir metoddur. Bu oyunlar müəllim tərəfindən verilən tapşırıq əsasında münasib işgüzar qərarın qəbul edilməsini tələb edir. Ona görə də şagirdlər bu zaman tədris prosesində adi bir dinləyici kimi deyil, çox fəal şəkildə iştirak edirlər. İşgüzar oyunların məqsədi şagirdlərdə tarixi bilikləri öyrətməklə yanaşı, bu bilikləri möhkəmləndirməkdir [14]. Bu oyunlar zamanı dil, nitq, qrafiklərdən, cədvəl və sənədlərdən istifadə etməklə reallığı əks etdirəcək bir mühit formalaşdırılılmaqla yanaşı, vaxt baxımından ümumiləşdirilmiş vəziyyət əks etdirilir [8, 2015: s.27].

Tədqiqatçılar müəyyən ediblər ki, material bu formada, yəni, işgüzar oyun formasında təqdim edildikdə məlumatın təxminən 90%-i mənimsənilir. Belə ki, işgüzar oyun zamanı şagirdlərin fəallığı aydın şəkildə təzahür edir, uzunmüddətli xarakter daşıyır və onları fəal olmağa "məcbur edir".

Oyun metodunun üç tətbiq sahəsi var: 1) təhsil sahəsi: oyun üsulları tələbələr üçün təhsil proqramında, peşəkar inkişafda istifadə olunur; 2) tədqiqat sahəsi: qərarların qəbul edilməsinin öyrənilməsi, təşkilati strukturların səmərəliliyinin qiymətləndirilməsi və s. məqsədilə gələcək peşəkar fəaliyyətlərin modelləşdirilməsi üçün istifadə olunur; 3) praktik sfera: oyun metodu konkret sistemlərin elementlərini təhlil etmək, təhsil sisteminin müxtəlif elementlərini inkişaf etdirmək üçün istifadə olunur.

İşgüzar oyunun pedaqoji mahiyyəti tələbələrin təfəkkürünü aktivləşdirmək, gələcək mütəxəssisin müstəqilliyini artırmaq, təhsilə yaradıcılıq ruhunu daxil etmək, onları peşəkar praktik fəaliyyətə hazırlamaqdan ibarətdir. Problemli təlimdə əsas sual "niyə", işgüzar oyunda isə "əgər... nə olardı" sualıdır.

Bu üsul şagirdin şəxsi potensialını üzə çıxarır: hər bir iştirakçı fərdi olaraq, eləcə də digər iştirakçılarla birgə fəaliyyətdə öz imkanlarını diaqnostika edə bilər.

İşgüzar oyunun hazırlanması və keçirilməsi prosesində hər bir iştirakçının özünü təsdiq etmə və özünü inkişaf etdirmək imkanı olmalıdır. Müəllim şagirdə oyunda istədiyi şəxs olmağa, ona ünsiyyət zamanı üzə çıxa bilən ən yaxşı keyfiyyətlərini göstərməyə kömək edir.

İşgüzar oyun idarə olunan sistemdir, çünki oyun proseduru müəllim tərəfindən hazırlanır və düzəldilir. Oyun planlaşdırılmış rejimdə keçərsə, müəllim oyun münasibətinə qarışmaya bilər, yalnız şagirdlərin oyun fəaliyyətini müşahidə edib qiymətləndirə bilər. Amma hərəkətlər plandan kənara çıxarsa, dərsin məqsədini pozarsa, müəllim oyunun istiqamətini və onun emosional vəziyyətini tənzimləyə bilər.

Tədris prosesində işgüzar oyundan istifadə etməzdən əvvəl simulyasiya məşqlərini yerinə yetirmək tövsiyə olunur. Onlar daha kiçik həcm və həll olunan tapşırıqların məhdudlaşdırılması ilə fərqlənirlər.

Simulyasiya məşqləri öyrədici oyunlara daha yaxındır. Onların məqsədi tələbələrə yaradıcı mühitdə müəyyən bacarıqları möhkəmləndirmək, diqqəti müəyyən mühüm konsepsiya, kateqoriya və ya qanuna yönəltmək imkanı verməkdir. Şərtdə məcburi bir ziddiyyət olmalıdır, yəni simulyasiya məşqində çətinlik elementi var. İşgüzar oyunun hazırlanmasında aşağıdakı əməliyyatları ayırd etmək olar:

*Mövzunun seçilməsi və ilkin vəziyyətin diaqnozu.* Oyunun mövzusu təhsil kursunun demək olar ki, hər hansı bir bölməsi ola bilər. Tədris materialının peşəkar fəaliyyət üçün praktiki çıxışı olması arzu edilir.

*Təkcə mövzunu deyil, həm də ilkin vəziyyəti nəzərə alaraq məqsəd və vəzifələrin formalaşdırılması.* Bir vəziyyətdə oyun qurmaq lazımdır.
*Məqsəd, tapşırıqlar, mövzu, iştirakçıların tərkibi nəzərə alınmaqla strukturun müəyyən edilməsi.*
*İşgüzar oyun iştirakçılarının oyun keyfiyyətlərinin diaqnostikası.* Müəllimin hərəkətləri mücərrəd şagirdə deyil, konkret şagirdə və ya qrupa yönəldilsə, məşğələlərin oynaq formada aparılması daha səmərəli olar.
*Obyektiv vəziyyətin diaqnozu.* Oyunun harada, necə, nə vaxt, hansı şəraitdə və hansı əyani vasitələrlə oynanacağı məsələsi nəzərdən keçirilir.

İşgüzar oyun hazırlamaq üçün bütün didaktik üsullardan- izahlı-illüstrativ, reproduktiv, problemin təqdimatı, qismən axtarış, tədqiqat üsullarından istifadə etmək olar. Bu zaman aşağıdakı metodoloji tələblərə riayət etmək lazımdır: 1) Oyun akademik intizamın müəyyən bir nəzəri mövzusunun məntiqi davamı və tamamlanması, bütövlükdə fənnin öyrənilməsinə praktiki əlavə olmalıdır; 2) Real peşəkar şəraitə maksimum yaxınlıq; 3) axtarış və rahatlıq mühitinin yaradılması; 4) tədris və metodiki sənədlərin diqqətlə hazırlanması; 5) göstərilən problemin mümkün həll yollarının müəyyən edilməsi; 6) zəruri əyani vəsaitlərin olması (10).

İşgüzar oyunun istifadəsində müsbət və mənfi məqamları qeyd etmək olar. İşgüzar oyunların tətbiqində müsbət məqamlar bunlardır: yüksək motivasiya, öyrənmə prosesinin emosional doyması; peşə fəaliyyətinə hazırlıq, bilik və bacarıqların formalaşdırılması, öz biliklərinin tətbiqi; oyundan sonrakı müzakirə vasitəsilə biliklərin möhkəmləndirilməsi.

İşgüzar oyunların tətbiqində mənfi məqamlar bunlardır: müəllim üçün dərsin yüksək əmək intensivliyi, o, oyunun gedişində diqqətli və xeyirxah rəhbər olmalıdır; müəllim üçün daha böyük gərginlik, davamlı yaradıcı axtarışa konsentrasiya, aktyorluq məlumatlarının mənimsənilməsi; tələbələrin işgüzar oyundan istifadə etməyə hazır olmaması; oyunu aparan müəllimi əvəz etməkdə çətinliklər.

Azərbaycanda təhsil sisteminin yüksək səviyyədə inkişaf etməsinə baxmayaraq, bu sahədə təkmilləşdirilməsi zəruri olan və dünya təhsil sisteminə inteqrasiya olunması vacib hesab edilən çoxlu görülməli işlər vardır. Bu sahədə aparılan işlər yenilənməni tələb edir və bu proses fəal və interaktiv metodların tətbiq edilməsinin təkmilləşdirilməsini aktuallaşdırır. Tədris prosesinin təşkilinin səmərəliliyinin artırılmasının müxtəlif yolları vardır. Tələbə fəallığının və bütün tədris prosesinin səmərəliliyinin artırılmasının aşağıdakı əsas yollarını müəyyən etmək olar:
- tələbələrin təhsil motivasiyasının daxili və xarici motivlər (stimul motivləri) hesabına gücləndirilməsi;
- yeni və daha yüksək motivasiya formalarının formalaşması üçün şəraitin yaradılması (məsələn, şəxsiyyətin özünü aktuallaşdırmaq istəyi; təlim prosesində özünü ifadə etmək və özünü bilmək istəyi);
- tələbənin yeni fəaliyyət növlərini, bilik və bacarıqlarını fəal şəkildə mənimsəmək niyyətlərini həyata keçirmək üçün yeni və daha effektiv vasitələrlə təmin edilməsi;
- onun məzmununu öyrənmək üçün daha münasib təşkilati formaların və vasitələrin təmin edilməsi;
- dərs vaxtının daha səmərəli istifadəsi hesabına tələbələrin əqli əməyinin intensivləşdirilməsi, tədris prosesinin iştirakçıları arasında ünsiyyətin intensivləşdirilməsi;
- öyrəniləcək materialın məntiqi təhlili və əsas (invariant) məzmununun seçilməsi əsasında elmi əsaslarla seçilməsini təmin etmək;
- tələbələrin fərdi xüsusiyyətlərini nəzərə almaq.

Fəal təlim metodlarının xüsusi versiyalarında öyrənmənin səmərəliliyini artırmaq üçün yuxarıda sadalanan metodlardan birinə və ya bir neçəsinə diqqət yetirilir, lakin məlum metodların heç biri bütün üsullardan eyni dərəcədə istifadə edə bilməz.

Təlim metodlarının seçimi aşağıdakılarla müəyyən edilə bilər: 1) Tələbələrin təhsilinin, tərbiyəsinin, inkişafının və psixoloji hazırlığının ümumi məqsədləri ilə; 2) Konkret təhsil fənninin tədrisi metodikasının xüsusiyyətlərini və onun didaktik metodların seçilməsi üçün tələblərinin xüsusiyyətlərinin nəzərə alınması yolu ilə; 3) Müəyyən bir dərsin məqsədləri, vəzifələri və materialının məzmunu ilə; 4) Bu və ya digər materialın öyrənilməsinə ayrılan vaxt ilə; 5) Tələbələrin hazırlıq səviyyəsi ilə; 6) Maddi təchizat səviyyəsi, avadanlıqların, əyani vəsaitlərin,

texniki vasitələrin mövcudluğu ilə; 7) Müəllimin özünün hazırlıq səviyyəsi və şəxsi keyfiyyətləri ilə.

Beləliklə, tədris prosesində fəal (aktiv) təlim metodundan istifadə edilməsi şagirdlərdə passivliyin aradan qalxmasına, təfəkkürün inkişafına, yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına, təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır [5, Quliyev: (2019), s. 4].

**ƏDƏBİYYAT**


1. Əlizadə H. Müstəqil təlim fəaliyyəti idrak fəallığının başlanğıcı kimi. "Azərbaycan müəllimi" qəzeti, 28 aprel, 2023. https://muallim.edu.az
2. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). Bakı, 2011, 707 səh.
3. Həmidova X. Uşaqlara didaktik oyunlardan istifadə nə verir. https://www.eudi.az
4. Yeni təlim texnologiyaları. Fəal və interaktiv təlim. 99 səh. https://azkurs.org
5. Quliyev Ə. Tədris prosesinin səmərəliləşdirilməsi yolları. SDU, "Elmi xəbərlər". Sosial və humanitar elmlər bölməsi, Bakı, 2019, cild 15, № 1, səh.4
6. Mahmudov V. Təlim-tərbiyə prosesində şagirdlərin idrak fəaliyyətinin inkişaf etdirilməsi. "Azərbaycan müəllimi" qəzeti, 21 aprel, 2019. https://www.muallim.edu.az
7. Rollu oyun nədir və onun faydası https://www.ilk5il.az
8. Tədris prosesində təlim metodlarının tətbiqinə dair Metodiki tövsiyələr. Tədris Mərkəzinin 2 dekabr 2-15-ci il tarixli 159504100218400 nömrəli əmrinə 2 saylı əlavə. Bakı, 2015, 31 səh. https://tedris.taxes.gov.az
9. Veysova Z. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı:2007, 156 səh.

**İnternet saytları:**

10. https://elib.Intu.edu.ua
11. https://az.wikipedia.org
12. https://studfile.net
13. https://uk.wikipedia.org
14. https://zamanintelebi.blogspot.com


**РЕЗЮМЕ**

**АБДУЛЛА МУСТАФАЕВ,ИЛЬГАР КЕНГЕРЛИ,НАЗЛИ СЕИДОВА**

**ТЕОРЕТИЧЕСКИЕ ПРИНЦИПЫ ПРИМЕНЕНИЯ АКТИВНЫХ (АКТИВНЫХ) МЕТОДОВ ОБУЧЕНИЯ**


В статье рассматриваются теоретические основы активных методов обучения. Отмечается, что, как и при преподавании ряда предметов, в процессе преподавания истории используются различные методы обучения – пассивные, активные и интерактивные. В статье анализируются особенности каждого метода.

Показано, что активные методы обучения требуют активности не только преподавателя, но и учащихся, только тогда активизируется их учебно-познавательная деятельность. В активном процессе обучения взаимное сотрудничество учителя и учащихся помогает освоить урок.

Было отмечено, что в современную эпоху учащимся не только даются знания, но одновременно у них формируются знания, умения и навыки. Поэтому важнейшим фактором формирования учащихся как личности является развитие их мышления.

Подчеркивается, что использование в учебном процессе активных методов обучения имеет большое значение в повышении качества урока, и показано, что эти методы основаны на диалогическом общении между учащимися. В процессе общения, помимо коммуникативных навыков, выделяется умение коллективно решать проблемы, а главное, развитие речевой способности учащихся.

При этом в статье рассматривается значение активных методов обучения в усвоении содержания обучения и повышении эффективности его применения. В итоге делается вывод, что использование активных методов обучения в учебном процессе устраняет пассивность учащихся, развивает мышление, формирует творческие способности, повышает качество обучения.


***Ключевые слова:*** *Активные методы обучения; Деловая игра; Учебный процесс; Учебно-познавательная деятельность; Ролевая игра: Деловая игра.*

**SUMMARY**

**ABDULLA MUSTAFAYEV ,ILGAR KANGARLI,NAZLI SEYIDOVA**

**THEORETICAL PRINCIPLES OF APPLICATION OF ACTIVE (ACTIVE) LEARNING METHODS**

The article examines the theoretical principles of active learning methods. It is noted that, as in the teaching of a number of subjects, in the process of teaching history, various methods of training are used - passive, active and interactive methods. The specific features of each method are analyzed in the article.

It has been shown that active methods of training require not only the teacher, but also the students to be active, only then their teaching-cognitive activity becomes active. In the active learning process, mutual cooperation between the teacher and students helps to master the lesson.

It was noted that in the modern era, students are not only given knowledge, but at the same time, knowledge, skills and habits are formed in them. Therefore, the most important factor in the formation of students as a personality is the development of their thinking.

It is emphasized that the use of active learning methods in the teaching process is of great importance in increasing the quality of the lesson, and it is shown that these methods are based on dialogic communication between students. In the process of dialogue, in addition to communication skills, the ability to solve problems collectively, and most importantly, the development of students' speaking ability, is highlighted.

At the same time, the article examines the importance of active training methods in learning the content of training and increasing the efficiency of its application. In the end, it is concluded that the use of active teaching methods in the teaching process eliminates passivity in students, develops thinking, forms creativity, and improves the quality of teaching.

**Keywords:** *Active learning methods; Business game; Teaching process; Educational-cognitive activity; Role-playing game; Business game.*

*Pedaqogika üzrə elmlər doktoru, professor F.Rüstəmov tərəfindən təqdim edilmişdir)*

"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 1

UOT:37

**VÜSALƏ ƏLİZADƏ**
"Naxçıvan" Universiteti
Pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə II kurs magistrant
DOI: 10.5281/zenodo.10986335

# YENİ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ ZAMANI MÜƏLLİMİN METODİKİ FƏALİYYƏTİ

*Məqalədə müasir dərs prosesində müəllimin müasir pedaqoji texnologiyalardan istifadə zamanı metodiki fəaliyyətə hazırlığının nəzəri məsələləri təhlil edilir. Təhsilin müasirləşməsi, dəyişən təhsilə keçid, pedaqoji yaradıcılıq azadlığı müəllimlərdən müxtəlif texnologiya və metodlardan istifadə etməyi, onları adekvat qiymətləndirməyi, məlumatlı seçim etməyi tələb edir. Bütün bunlar müəllimlərin pedaqoji sistemlərin, texnologiyaların, metodların məzmununu dərindən təhlil etmək səriştəsinə malik olduğunu güman edir ki, onlardan təhsil alanların inkişafı üçün məkanın layihələndirilməsi üçün onlardan istifadə etsinlər. Məqalədə metodoloji fəaliyyətin inkişafının məntiqini peşəkar inkişaf mərhələlərindən keçmə prosesi kimi təqdim edirək metodoloji savadlılıq, metodik fəaliyyətə hazırlıq və metodoloji səriştə şərh edilmişdir.*
***Açar söz:*** *metodiki fəaliyyət, müasir dərs, pedaqoji texnologiyalar, metodoloji savadlılıq, metodiki fəaliyyətə hazırlıq, metodoloji səriştə.*

Müasir dövrdə Azərbaycanın dünyəvi, demokratik və hüquqi dövlət kimi formalaşması və iqtisadi münasibətlərin təzahür etdiyi bir şəraitdə onun təhsil sisteminin inkişaf etmiş ölkələrin təhsil sisteminə inteqrasiya etməsi mühüm inkişaf göstəriclərindən biridir. Təhsil sisteminin inkişafı hazırda iqtisadiyyatda və cəmiyyətdə yeni nailiyyətlərin bərqərar olunmasının formalaşma tendensiyası ilə birgə artır.

Dünyada baş verən qloballaşma prosesləri təhsilin də qloballaşmasına səbəb olmuşdur. İqtisadiyyatda və cəmiyyətdə yeni nailiyyətlərin bərqərar olunmasının zəruri amili kimi təhsilin əhəmiyyəti insan kapitalının formalaşma tendensiyası ilə birgə artır.

Hazırda dünyada təhsil inkişaf edir və kadr hazırlığı işi böyük strateji əhəmiyyət daşıyır. Təhsil sisteminin və kadr hazırlığının qarşısında xüsusi vəzifələr, tələblər qoyulur. Gənc nəsil daim texniki dəyişikliklərin əmələ gəlməsini, biliklərin nisbi olmasını bilməli və bu məzmunda hazırlanmalıdır..

Hormonlar, xüsusən də testosteron və estrogen kimi cinsi hormonlar beynin inkişafı və funksiyasının formalaşmasında mühüm rol oynayır. Hormonal dalğalanmaların həyat boyu, prenatal inkişafdan cinsi yetkinliyə və ondan sonrakı dövrlərə təsiri, idrak prosesində, emosional tənzimləmədə və sosial davranışda dəyişikliklərə təsir edir [Gross 354].

Neyroimaging tədqiqatları kişi və qadınların beyinlərində struktur fərqlərini ortaya qoyur. Hipokampus və amigdala kimi spesifik beyin bölgələrinin ölçüsü və əlaqəsindəki dəyişikliklər yaddaş, emosional emal və sosial idrakda dəyişikliklərə təsir edir [Hamann 413].

Beyindəki kimyəvi xəbərçilər olan neyrotransmitterlər də cinsiyyətlə bağlı fərqlər nümayiş etdirirlər. Məsələn, əhval-ruhiyyənin tənzimlənməsi və mükafatın işlənməsi üçün çox vacib olan serotonin və dopamin sistemləri kişilərdə və qadınlarda fərqli fəaliyyət göstərərək əhval pozğunluqlarına və asılılığa həssaslığa təsir göstərirlər [Labouvie-Vief 118].

Tədqiqatlar göstərir ki, kişilər və qadınlar müxtəlif idrak sahələrində üstün ola bilərlər. Kişilər məkan mülahizələrində və riyazi qabiliyyətlərdə güclü tərəflərini göstərə bilsələr də, qadınlar şifahi ünsiyyətdə və çoxlu tapşırıqlarda üstün bacarıqlar nümayiş etdirirlər. Bu dəyişikliklərin təhsil və peşə seçimlərinə təsiri var [Ochsner 1222].

Nevroloji fərqlər kişilərdə və qadınlarda fərqli emosional emallara kömək edir. Qadınlar tez-tez yüksək emosional empatiya nümayiş etdirirlər, kişilər isə, stress amillərinə daha aydın reaksiyalar göstərirlər. Bu fərqləri başa düşmək şəxslərarası münasibətləri və psixi sağlamlıq müdaxilələrini gücləndirir [Wager 524].

Psixoloji xüsusiyyətlərə təsir edən bioloji amillərin tanınması, ənənəvi gender rollarına və stereotiplərə meydan oxuyur. Bu fərqlərin qəbul edilməsi, daha ədalətli təhsil və peşə təcrübələri, fərdiləşdirilmiş səhiyyə yanaşmaları və fərdlərin müxtəlif ehtiyaclarını ödəyən inklüziv sosial siyasətlər haqqında fikirlər formalaşdırır.

**Yekun olaraq**, gender fərqlərinin psixoloji xüsusiyyətlərinə təsir edən bioloji amillərin tədqiqi genetika, hormonlar, beyin strukturu və təkamül tarixi arasında mürəkkəb qarşılıqlı əlaqəni ortaya qoyur. İctimai və mədəni amillər şübhəsiz ki, gender rollarının müxtəlifliyinə kömək etsə də, aydındır ki, biologiya kişi və qadınları fərqləndirən idrak, emosional və davranış xüsusiyyətlərinin formalaşmasında da mühüm rol oynayır.

Genetik təsirlər fərdin cinsiyyətinin əsasını qoyur, psixoloji xüsusiyyətlərə təsir göstərə biləcək xas meyllərə kömək edir. Testosteron və estrogen kimi hormonlar fiziki inkişafdan kənara çıxan, davranış modellərinə və idrak fəaliyyətinə təsir edən mürəkkəb prosesləri idarə edir. Kişilərin və qadınların beyinlərində müşahidə olunan struktur və funksional uyğunsuzluqlar idrak qabiliyyətlərində, emosional emalda və ünsiyyət üslubunda dəyişikliklərə təsir edir.

Təkamül perspektivi anlayışımıza dərinlik qatır, müəyyən psixoloji xüsusiyyətlərin əcdadlarımızın üzləşdiyi problemlərə uyğunlaşan cavablar kimi inkişaf edə biləcəyini təklif edir.

Əcdad cəmiyyətlərində cinslər arasında əmək bölgüsü, ehtimal ki, bu gün də davam edən idrak və davranış meyllərinin formalaşmasında rol oynamışdır.

Bununla belə, mövzuya ətraflı yanaşmaq və hər bir cins daxilində əhəmiyyətli dəyişkənliyi qəbul etmək çox vacibdir. Bioloji amillərlə ətraf mühitin təsirləri arasında qarşılıqlı əlaqə dinamik və çoxşaxəlidir, insan təcrübələrinin müxtəlifliyinə töhfə verir. Bundan əlavə, mədəni və sosial gözləntilərin təsirini qiymətləndirməmək olmaz. Çünki onlar, fərdlərin özlərinə xas olan bioloji meyllərini necə ifadə etdiyini və yaşamasını formalaşdırır.

Gələcək tədqiqatlar gender fərqlərinin mürəkkəblikləri üzə çıxarmaq üçün həm bioloji, həm də ətraf mühit amillərini nəzərə alaraq fənlərarası yanaşma tətbiq etməyə davam etməlidir. Bu yanaşma, insan müxtəlifliyinin daha dəqiq başa düşülməsinə kömək edəcək və genderlə bağlı psixoloji xüsusiyyətlərin zəngin strukturunu həddən artıq sadələşdirən stereotipləri dağıtmağa kömək edəcəkdir.

Gender fərqləri haqqında diskursda biologiya, mədəniyyət və fərdi təcrübələrin qarşılıqlı əlaqəsini dərk etmək vacibdir. Bununla biz, insan davranışlarının və xüsusiyyətlərinin müxtəlifliyinə töhfə verən saysız-hesabsız amillərin daha əhatəli və hərtərəfli başa düşülməsinə kömək edə bilərik.

**ƏDƏBIYYAT**


1. Abrahám, IM, Herbison AE. Major sex differences in non-genomic estrogen actions on intracellular signaling in mouse brain in vivo. Neuroscience - 131: 2005, pp. 945–951.
2. Amin, Z, Epperson C.N, Constable R.T, Canli T. Effects of estrogen variation on neural correlates of emotional response inhibition. NeuroImage -32, - 2006, pp. 457–464.
3. Anderson, L.I, Leipheimer R.E, Dluzen D.E. Effects of neonatal and prepubertal hormonal manipulations upon estrogen neuroprotection of the nigrostriatal dopaminergic system within female and male mice. Neuroscience - 130: 2005, pp. 369–382.
4. Andreano, J.M, Arjomandi H, Cahill L. Menstrual cycle modulation of the relationship between cortisol and long-term memory. Psychoneuroendocrinology 33: 2008, pp. 874–882.
5. Andreano, J.M, Cahill L. Glucocorticoid release and memory consolidation in men and women. Psychol Sci - 17: 2006, pp. 466–470.
6. Arnold, A.P, Burgoyne P.S. Are XX and XY brain cells intrinsically different? Trends Endocrinol Metab – 2004, pp. 15:6–11.
7. Bakker, J, De Mees C, Douhard Q, Balthazart J, Gabant P, Szpirer J, Szpirer C. Alpha-fetoprotein protects the developing female mouse brain from masculinization and defeminization by estrogens. Nat Neurosci - 9: 2006, pp. 220–226.
8. Balthazart, J, Ball GF. Is brain estradiol a hormone or a neurotransmitter? Trends Neurosci - 29: 2006, pp. 241–249.
9. Baron-Cohen S. The Essential Difference: Men, Women and the Extreme Male Brain. Penguin/Basic Books. 2003.
10. Becker, J., Hampson, E., Berkley, K. J., Geary, N., & Herman, J. Sex differences in the brain: From genes to behavior. New York: Oxford University Press 2007.
11. Bocklandt, S, Vilain E. Sex differences in brain and behavior: hormones versus genes. Adv Genet - 59: 2007, pp. 245–266.
12. Bradley, MM, Codispoti M, Sabatinelli D, Lang PJ. Emotion and motivation. II: Sex differences in picture processing. Emotion 1, 2001; pp. 300–319.
13. Brailoiu, E, Dun SL, Brailoiu GC, Mizuo K, Sklar LA, Oprea TI, Prossnitz ER, Dun NJ. Distribution and characterization of estrogen receptor G protein-coupled receptor 30 in the rat central nervous system. J Endocrinol - 193: 2007, pp. 311–321.
14. Breedlove, S. M., Cooke, B. M., & Jordoan, C. L. The orthodox view of brain sexual differentiation. Brain, Behavior and Evolution 54, 1999, pp. 8–14.
15. Caldú, X, Dreher JC. Hormonal and genetic influences on processing reward and social information. Ann NY Acad Sci - 1118: 2007, pp. 43–73.
16. Carruth, L. L., Reisert, I., & Arnold, A. P. Sex chromosome genes directly affect brain sexual differentiation. Nature Neuroscience, 5, 2002, pp. 933–934.
17. Cohen-Bendahan, C.C., Buitelaar, J. K., van Goozen, S. H. M., & Cohen-Kettenis, P. T. Prenatal exposure to testosterone and functional cerebral lateralization: A study in same-sex and opposite-sex twin girls. Psychoneuroendocrinology- 29, 2004, pp. 911–916.
18. Dabbs, J. M., Riad, J. K., & Chance, S. E. Testosterone and ruthless homicide. Personality and Individual Differences, 31, 2001, pp. 599–603.
19. Davies, W., & Wilkinson, L. S. It is not all hormones: Alternative explanations for sex differentiation of the brain. Brain Research, 1126, 2006, pp. 36–45.

20. Daniel, J.M. Effects of oestrogen on cognition: what have we learned from basic research? J Neuroendocrinol - 18: 2006, pp. 787–795.
21. Dennis, C. Brain development: The most important sexual organ. Nature, 427, 2004, pp. 390–392.
22. Dluzen, D.E. Unconventional effects of estrogen uncovered. Trends Pharmacol Sci - 26: 2005, pp. 485–487.
23. Ellis, L. Evolutionary Neuroandrogenic Theory and Universal Gender Differences in Cognition and Behavior. Sex Roles 64, 2011, pp. 707–722
24. Fausto-Sterlinq, A. Sex/Gender: Biology in a Social World. New York: Routledge. 2012
25. Federman, D.D. The biology of human sex differences. N Engl J Med - 354: 2006, pp. 1507–1514
26. Feldman, Barrett L, Lane RD, Sechrest L, Schwartz GE. Sex differences in emotional awareness. Personality and Social Psychology Bulletin - 26, 2000; pp.1027–1035.
27. Fivush, R., Haden, C. A., & Reese, E. Elaborating on elaborations: Role of maternal reminiscingstyle on cognitive and socioemotional development. Child Development, 77, 2006, p. 1568–1588.
28. Forger, N.G. Control of cell number in the sexually dimorphic brain and spinal cord. J Neuroendocrinol - 21: 2009, pp. 393–399.
29. Gard, M.G, Kring A.M. Sex differences in the time course of emotion. Emotion - 2, 2007, pp. 429–437.
30. Goldin, P.R, McRae K, Ramel W, Gross JJ. The neural bases of emotion regulation: Reappraisal and suppression of negative emotion. Biological Psychiatry – 63, 2008; pp.577–586.
31. Gross, J.J, John OP. Individual differences in two emotion regulation processes: Implications for affect, relationships, and well-being. Journal of Personality and Social Psychology - 85, 2003; pp.348–362.
32. Hahn, N., Jansen, P., & Heil, M. Preschoolers' mental rotation: Sex differences in hemispheric asymmetry. Journal of Cognitive Neuroscience, 22, 2010, p. 1244–1250.
33. Hamann, S, Herman R.A, Nolan C.L, Wallen K. Men and women differ in amygdala response to visual sexual stimuli. Nature Neuroscience -7. 2004; pp. 411–416.
34. Hankin, B. L., & Abramson, L. Y. Development of gender differences in depression: An elaborated cognitive vulnerability-transactional stress theory. Psychological Bulletin, 127, 2001, p. 773–796.
35. Kimura, D. Sex and Cognition. Cambridge, 2000
36. Labouvie-Vief, G, Lumley MA, Jain E, Heinze H. Age and gender differences in cardiac reactivity and subjective emotion responses to emotional autobiographical memories. Emotion - 3. 2003; pp.115–126.
37. Martin, Carol L., Diane N. Ruble, & Joel Szkrybalo. "Cognitive theories of gender development." Psychological Bulletin 2002, 128, pp. 903-933.
38. Ochsner, K.N, Bunge S.A, Gross J.J, Gabrieli J.D. Rethinking feelings: An fMRI study of the cognitive regulation of emotion. Journal of Cognitive Neuroscience -14. 2002; pp.1215–1229.
39. Savic-Berglund, I. Sex differences in the human brain. Amsterdam: Elsevier 2010.
40. Silventoinen, K., Kaprio, J., Lahelma, E., Viken, R. J., & Rose, R. J. Sex differences in genetic and environmental factors contributing to body-height. Twin Research and Human Genetics, 4, 2001, p. 25–29.
41. Thornhill, R., & Palmer, C. A natural history of rape: Biological bases of sexual coecion. Cambridge: MIT Press 2000.
42. Wager, TD, Phan KL, Liberzon I, Taylor SF. Valence, gender, and lateralization of functional brain anatomy in emotion: A meta-analysis of findings from neuroimaging. NeuroImage -19. 2003; pp.513–531.
43. Бем, С. Линзы гендера. Трансформация взглядов на проблему неравенства полов / С. Бем. - М., 2004. - 336 с.
44. Ильин, Е.П. Дифференциальная психофизиология мужчины и женщины / Е.П. Ильин. – СПб.: Питер, – 2007.

**SUMMARY**

**SAKHAVAT ALİYEVA**

**PSYCHOLOGICAL CHARACTERISTICS OF MEN AND WOMEN BIOLOGICAL FACTORS AFFECTING**

This article aims to examine the psychological characteristics that distinguish men and women, with special emphasis on the influence of biological factors. Although it is widely accepted that gender differences exist in a variety of domains, understanding the complex interplay between biology and psychology is essential to gaining a comprehensive understanding of these differences. Here, we review existing research on the topic, examining the role of hormonal, neurological, and genetic factors in the formation of psychological differences between men and women.

**Keywords**: hormones, neurological factors, genetic factors, gender differences, biology, gender roles

*(Pedaqogika üzrə elmlər doktoru, professor F.Rüstəmov tərəfindən təqdim edilmişdir)*

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 1

# RİYAZİYYAT

UOT 517.9

**ELŞAD AĞAYEV**
“Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru,dosent
elsad.agayev.56@mail.ru

**SAHIB ƏLIYEV**
“Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru,dosent
sahibaliyev60@mail.ru

**SƏFA ƏLIYEV**
“Naxçıvan” Universiteti
aliyev_sefa8@mail.ru
DOI: 10.5281/zenodo.10983647

## ÜMUMILƏŞMIŞ MƏNADA TÖRƏMƏNIN RIYAZI ANALIZ KURSUNDA TƏLIMI

*Riyazi analiz kursunda kəsilən funksiyaların törəmələrinin tapılması məsələsini funksiyanın klassik mənada törəməsi anlayışı çərçivəsində həll etmək mümkün olmur.Ancaq ümumiləşmiş törəmə anlayışından istifadə etməklə bu məsələni həll etmək olur.Bu nöqteyi nəzərdən məqalədə Delta funksiyasının tətbiqi ilə birinci növ izolə edilmiş kəsilmə nöqtəsinə malik olan funksiyaların törəmələrinin tapılması məsələsi tədqiq edilmişdir.Baxılan məsələnin həllində hissə-hissə kəsilməz funksiyaların birinci tərtib törəmələri üçün riyazi fizikadan məlum olan düsturdan köməkçi riyazi aparat kimi istifadə edilmişdir [5.s.24-28]*

**Açar sözlər :***ümumiləşmiş funksiya***,** *ümumiləşmiş törəmə***,***riyazi analiz, kəsilən funksiya.*

**1. Əsas anlayışlar və təriflər.** Ali təhsilin bakalavr pilləsinin Riyaziyyat, Riyaziyyat-İnformatika və Fizika ixtisaslarında tədris olunan “Riyazi analiz” kursunda klassik funksiya anlayışı daxilində birinci növ kəsilmə nöqtəsi olan funksiyaların törəmələrinin tapılması məsələsi mümkün olmadığından ümumiləşmiş funksiyalar nəzəriyyəsindən köməkçi riyazi aparat kimi istifadə etmək məqsədəuyğun hesab edilir.

Ümumiyyətlə, $\delta(x)$ - Dirak funksiyasinin tətbiqi ilə kəsilən funksiyaların törəmələrinin tapılması məsələsi xüsusi elmi maraq doğurur.

İndi isə kəsilən funksiyaların törəmələrinin tapılmasi məsələlərinə baxaq.

Tutaq ki, f (x) elə hissə-hissə kəsilməz funksiyadır ki,

$$f \in c^{'}(x < x^{0}) \cap c^{'}(x > x^{0})$$

munasibəti ödənir.

Onda $D^{'}(R^{'})$ ümumiləşmiş funksiyalar fəzasında

$$f^{'1} = \left\{ f^{/}(x) \right\} + [f]_{x}^{0}\, \delta(x - x^{0})$$

(1)

bərabərliyi doğrudur. Burada $[f]_{x}^{0}=f(x^{0}+0)-f(x^{0}-0)$ f funkisaysının $x^{0}$ nöqtəsindəki sıçrayışdır, $x^{0}$ isə bu funksiyanın 1-ci növ izolə edilmiş kəsilmə nöqtəsidir. $\left\{ f^{/}(x) \right\}$ simvolu isə ($x_0$ nöqtəsi istisna olmaqla) klassik mənada törəməni göstərir.

Doğrudan da, əgər $\varphi \in D(R^{'})$ olarsa, ($D(R^{'})$ əsas funksiyalar fəzasıdır), onda ümumiləşmiş funksiyanın törəməsinin tərifinə əsasən alarıq:

$$(f^{/}, \varphi) = -(f, \varphi^{/}) = -\int_{-\infty}^{+\infty} f(x)\, \varphi^{'}(x)dx = -\int_{-\infty}^{x^{0}} f(x)\varphi'(x)dx - \int_{x^{0}}^{+\infty} f(x)\varphi'(x)dx = i_{1} + i_{2}$$

Buradan $i_1 = -\int_{-\infty}^{x^0} f(x)\varphi'(x)dx = -\int_{-\infty}^{x^0} f(x)d\varphi(x) = -f(x)\cdot\varphi(x)|_{-\infty}^{x^0} + \int_{-\infty}^{x^0} f'(x)\varphi(x)dx =$

$$-f(x^0-0)\varphi(x^0) + \int_{-\infty}^{x^0}\{f'(x)\}\varphi(x)dx$$

$$i_2 = -\int_{x^0}^{\infty} f(x)\varphi'(x)dx = -\int_{x^0}^{\infty} f(x)d\varphi(x) = -f(x)\cdot\varphi(x)\Big|_{x^0}^{+\infty} + \int_{x^0}^{+\infty}\{\ f'(x)\ \}\varphi(x)dx =$$

$$f(x^0+0)\varphi(x^0) + \int_{x^0}^{+\infty}\{f'(x)\}\varphi(x)dx$$

$i_1$ və $i_2$ ifadələrinin yuxarıdakı qiymətlərini nəzərə alsaq alırıq:

$$(f',\varphi) = i_1 + i_2 = -f(x^0-0) + \int_{-\infty}^{x^0}\{\ f'(x)\ \}\varphi(x)dx + f(x^0+0)\cdot\varphi(x^0) + \int_{x^0}^{+\infty}\{\ f'(x)\ \}\varphi(x)dx =$$

$$[\ f(x^0+0) - f(x^0-0)\ ] + \int_{-\infty}^{x^0}\{f'(x)\}\varphi(x)dx + \int_{x^0}^{+\infty}\{f'(x)\}\varphi(x)dx = [f(x)]_{x=x^0}\phi(x^0) +$$

$$\int_{-\infty}^{+\infty}\{f'(x)\}\phi(x)dx = (\{f'(x)\} + [f(x)]_{x=x^0}\cdot\delta(x-x^0), \varphi(x))$$

Deməli, $f' = \{f'(x)\} + [f]_{x^0}\,\delta(x - x^0)$ bərabərliyi doğrudur.

Xüsusi halda, $f(x) = \theta(x) = \{ {1, x\geq 0 \atop 0, x<0}$ Hevisayd funksiyası olarsa, onda alarıq:

$$\theta'(x) = \{Q'(x)\} + [Q(x)]_{x^0=0}\cdot\delta(x) = 0 + (1-0)\delta(x) = \delta(x)$$

olar.

Burada $\delta(x-x^0)$-tərpənmiş Delta(və ya dirak) funksiyası olub, aşağıdakı qaydada təyin olunur:

$$(\delta(x-x^0), \varphi(x)) = (\delta(x), \varphi(x+x^0)) = \varphi(x^0), \ \ \varphi\in D(R^{/})$$

Başqa sözlə,

$$\theta'(x) = \delta(x) \qquad (2)$$

Burada $\delta(x)$ – Dirak funksiyasıdır.Bu funksiya $\delta(x) = \begin{cases}0, x\neq 0\\ +\infty, x=0\end{cases}$ bərabərliyi ilə təyin olunur və hər bir sonlu a ədədi üçün

$$\int_{-a}^{a}\delta(x)dx = \int_{-a}^{a}\delta(x)\cdot 1dx = 1(0) = 1$$

olur.

$\delta(x)$ funksiyası aşağıdakı xassələrə malikdir:

1) $\delta(-x) = \delta(x)$

2) $\delta(\alpha x) = \frac{1}{\alpha}\delta(x)$

3) $\int_{-\infty}^{+\infty}\varphi(x)\delta(x-x^0) = \varphi(x^0)$

4) $\delta'(x) = \frac{-1}{\alpha}\delta(x)$

5) $\frac{d^n}{dx^n}\delta(x) = (-1)^n\cdot\frac{n!}{x^n}\delta(x)$

Elektrik dövriyyəsi nəzəriyyəsində Hevisayd funksiyası birpilləli funksiya, δ(x) isə vahid impuls adlanır.

$\theta'(x) = \delta(x)$ düsturu təsdiq edir ki, vahid impuls bir pilləli funksiyanın törəməsinə bərabərdir.

**2. Kəsilən funksiyaların törəmələrinin hesablanması**

Misal 1 : $(\operatorname{sgn} x)^{(m)}$, $m \geq 1$ törəməni tapaq.

Bunun üçün (1) düsturunu tətbiq edək:

$$(\operatorname{sgn} x)' = \{\operatorname{sgn} x\}' + [\operatorname{sgn} x]_{x=0} \cdot \delta(x) = 0 + (1-(-1)) \cdot \delta(x) = 2 \cdot \delta(x)$$

$$(\operatorname{sgn} x)'' = 2\,\delta'(x$$

$$(\operatorname{sgn} x)''' = 2\,\delta''(x)$$

----------------------

$$(\operatorname{sgn} x)^{m} = 2\,\delta^{(m-1)}(x)$$

Misal 2: $|x|^{(m)}$, $m \geq 2$ törəməni tapaq.

Bunun üçün $|x|' = \operatorname{sgn} x$ $(x \neq 0)$ doğru bərabərliyindən istifadə edib (1) düsturunu tətbiq edək.Onda alarıq:

$$|x|'' = (\operatorname{sgn} x)' = \{\operatorname{sgn} x\}' + [\operatorname{sgn} x]_{x=0} \cdot \delta(x) = 2 \cdot \delta(x)$$

$$|x|''' = 2 \cdot \delta'(x)$$

$$|x|^{(IV)} = 2 \cdot \delta''(x)$$

-------------------

$$|x|^{(m)} = 2 \cdot \delta^{(m-2)}(x)$$

Misal 3. $y = \begin{cases} x, & x < 1 \\ x-2 & x > 1 \end{cases}$ funksiyasinin törəməsini hesablayaq:

Həlli:

Göründüyü kimi bu funksiya $x = 1$ nöqtəsində kəsilir və bu kəsilmə nöqtəsində sıçrayışı

$$[\,f\,]_{x=1} = y(1+0) - y(1-0) = 1 - 2 - 1 = -2$$




olur. (1) dusturunu tətbiq etsək alarıq:

$$\frac{dy}{dx} = 1 - 2 \cdot \delta(x-1)$$

Misal 4. $y = \begin{cases} -x^2, & x < 1 \\ x^2 & x > 1 \end{cases}$ funksiyasinin törəməsini hesablayaq:

Həlli:

Bu funksiyanin klassik mənada törəməsi

$$y = \begin{cases} -2x \ , & x < 1 \\ 2x & x > 1 \end{cases}$$ olar.

Baxilan funksiya x = 1 nöqtəsində kəsilir və bu kəsilmə nöqtəsində funksiyanin sicrayışı

[ f ] = y ( 1 + 0 ) - y (1 -0) = 1 – (– 1) = 2

İndi isə biz x = 1 nöqtəsini oblastin sol hissəsinə birləşdirə bilərik.

Onda alarıq:




$$y' = \begin{cases} -2x + 2\delta(x-1), & x \le 1 \\ 2x & x > 1 \end{cases}$$

Digər variantla x = 1 nöqtəsini oblastın sağ hissəsinə birləşdirsək, alarıq:

$$y' = \begin{cases} -2x \ , & x < 1 \\ 2x + 2\delta(x-1), & x \ge 1 \end{cases}$$

Beləliklə ,baxilan funksiyanin birinci tərtib törəməsini $y' = \varphi(x) + 2\,\delta(x-1)$ şəklində yazmaq olar.

Burada,

$$\varphi(x) = \begin{cases} -2x \ , & (x < 1) \\ 2x, & (x > 1) \end{cases}$$

**ƏDƏBIYYAT**


1. В.С Владимиров. Уравнения матаматической физики. Москва 1998, 512 с.
2. В.Я Арсенин. Методы математической физики и специальные функции. Москва 1988, 382 с.
3. E.V.Ağayev, S.H.Vəliyev. Riyazi fizikanın üsulları.Metodik vəsait.Bakı 1999,46 s .
4. S.H.Vəliyev, E.V.Ağayev. Diferensial tənliklər. Metodik vəsait. Naxçıvan 2001

5.E.V.Ağayev,N.S.Məmmədova. Dirak funksiyasının tətbiqi ilə n tərtibli sabit əmsallı xətti diferensial tənliklərin fundamental həllinin qurulması. NMİ, Xəbərlər,2009 № 2 (18),

6.Владимиров, В.С. Обобщенные функции в математической физике[Текст] / В.С. Владимиров. – М.: Наука, 1981.

7.Владимиров, В.С. Обобщенные функции и их применение [Текст] / В.С. Владимиров. – М.: Знание, 1990.

8.Дирак, П. Принципы квантовой механики [Текст]/ П.Дирак. - М.: Наука, 1979.

**РЕЗЮМЕ**

**ЭЛЬШАД АГАЕВ , САХИБ АЛИЕВ , СЕFA АЛИЕВ**

**ОБУЧЕНИЕ ОБОБЩЕННЫХ ПРОИЗВОДНЫХ В КУРСЕ МАТЕМАТИЧЕСКОГО АНАЛИЗА.**

В работе были изучены импульсная функция и дельта- функция Дирака. В ходе рассмотрения применений этих функций было установлено их значение в области математического анализа, физики(особенно в разделе механики).

В работе поставленные цел достигнуты, то есть были достаточно подробно рассмотрены математический и физический подходы к определению функции Дирака, причем физический подход к определению осуществлен через решение физических задач об импульсе и плотности материальной точки. Применение функции Дирака для нахождения производных разрывных функций было проиллюстрировано с помощью математических и физических примеров, выявлена целесообразность применения дельта-функции для нахождения производных разрывных функций. Теоретический материал подтверждается решением различных примеров.

Таким образом, функция Дирака – одно из наиболее необходимых и широко применяемых понятий, как в физике, так и в математическом анализе.

**Ключевые слова:** Обобщенная функция, Обобщенные производные,математический анализ,разрывная функция

**SUMMARY**

**ELSHAD AGAYEV , SAHIB ALIYEV , SEFA ALIYEV**

**GENERALIZED DERIVATIVE OF TRAINING IN THE COURSE OF MATHEMATICAL ANALYSIS**

This article deals with the study of impulse function and delta Dirac function. During the process of consideration of application of these functions, their meaning in the field of Mathematical analysis, Physics (and especially in Mechanics) was determined. The aims of the work have been achieved, i.e. mathematical and physical approaches to definition of Dirac function have been properly considered. The physical approach to definition has been realized through solution of problems in Physics about impulse and density of material point.

The application of Dirac function for finding the derivatives of discontinuous functions has been demonstrated with problems in Mathematics and Physics, the expediency of application of delta function for finding derivatives of discontinuous functions. Theoretical material is supported by solution of different examples.

In this way delta Dirac function is one of the most important and widely used definitions both in Physics and in Mathematical analysis.

**Key words:** generalized function, generalized derivative ,mathematical analysis , truncated function

*(Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent M.İsmayılov tərəfindən təqdim edilmişdir)*

"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2024, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, №1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 1

UOT:512

**DAŞQIN SEYİDOV**
*Naxçıvan Dövlət Universiteti*
dasqinseyidov@ndu.edu.az
DOI: 10.5281/zenodo.10983618

# $\sum_3$ YIĞILAN QÜVVƏT SIRALARI CƏBRİNİN REZONANSLI OLMAYAN ENDOMORFİZMLƏRİNİN SPEKTRAL XASSƏLƏRİ

*Bu məqalədə $\sum_3$ yığılan qüvvət sıraları cəbrinin $T:\sum_3 \to \sum_3$ ,$Tf = f \circ \varphi$, $\varphi : C^3 \to C^3$ şəklində rezonanslı olmayan endomorfizmlərin spektral xassələri tədqiq olunmuşdur. Rezonanslı olmayan və rezonans monomları olmayan halda bu operatorun məxsusi qıymətləri hesablanmışdır. Həmçinin alınan məxsusi ədədlərə uyğun məxsusi funksiyaların ümumi forması təyin edilmişdir. Məxsusi ədədə uyğun məxsusi altfəzaların ölçüləri müəyyənləşdirilmişdir.*
***Açar sözlər:*** *endomorfizm, cəbr, qüvvət sırası, spektr, məxsusi ədəd, məxsusi altfəza.*

Klassik müntəzəm cəbrlərin əksəriyyətində və o cümlədən analitik strukturlu funksiyalar cəbrində təsir edən endomorfizmlərin, çəkili endomorfizmlərin spektral xassələrinin araşdırılması formal yığılan qüvvət sıraları vasitəsi ilə aparılır. Belə ki, analitik strukturlu müntəzəm cəbrlərdə müəyyən qeyd olunmuş tərpənməz nöqtədə analitik funksiyaların rüşeymlərinin, yəni bu nöqtənin kiçik ətrafında bir yığılan qüvvət sırasına ekvivalent olan funksiyaların sinfinin tədqiqi sıra vasitəsi ilə aparılır. Bu baxımdan analitik strukturlu müntəzəm cəbrlərdə endomorfizmlərin və çəkili endomorfizmlərin spektral xassələrinin araşdırılması yığılan qüvvət sıralarına əsaslanır. Müntəzəm cəbrlərdə kompakt və kvazi-kompakt çəkili endomorfizmlərin spektrləri bu endomorfizmləri yaradan inikasların tərpənməz nöqtələrində xətti hissələrinin məxsusi ədədləri ilə tədqiq olunur. Qeyd edək ki, [1] işində isbat olunmuş teoremə əsasən bu məxsusi ədədlərdən modulu vahiddən kiçik olanlar, spektirlərin tədqiqində istifadə olunur. Bu işdə biz endomorfizmi doğuran inikasın koordinat başlanğıcında xətti hissəsinin məxsusi ədədlərinin modulca vahiddən kiçik olduğunu nəzərə alacağıq. Təbii ki, *n*-nin bütün mümkün qiymətlərində $\sum_n$ yığılan qüvvət sıraları cəbrində təsir edən endomorfizmin məxsusi ədədlərinin tapılması, məxsusi altfəzalarının araşdırılması mürəkkəb hesablama tələb edir və bəzi hallarda (rezonanslıq monomlarından asılı olaraq) mümkünsüz olur. *n*=2 olduqda $\sum_2$ cəbrində təsir edən endomorfizmin rezonanslı olmayan, rezonanslı monomları olmayan, rezonanslı monomları olan rezonanslı kimi halları [2], [3], [4] işlərində ətraflı şəkildə araşdırılmışdır.

$\sum_3$ cəbri $(z_1, z_2, z_3)$ kompleks dəyişənlərinin formal və ya yığılan adlandırılan qüvvət sıraları cəbridir. Bu cəbrin elementləri $\sum\limits_{n,m,k} z_1^n z_2^m z_3^k$ şəklində formal və yığılan adlandırılan qüvvət sıraları cəbridir. Burada $T:\sum_3 \to \sum_3, f \mapsto f \circ \varphi (f \in \sum_3)$ şəklində endomorfizmin məxsusi ədədlərin, onlara uyğun məxsusi funksiyaları və altfəzaların ölçülərini təyin edəcəyik. $\varphi : C^3 \to C^3$ inikası koordinat başlanğıcında xətti hissəsinin matrisi

$$\begin{pmatrix} \alpha_1 & 0 & 0 \\ 0 & \alpha_2 & 0 \\ 0 & 0 & \alpha_3 \end{pmatrix}$$

şəklində olan inikasdır. $\alpha_1, \alpha_2, \alpha_3$ ədədləri arasında rezonanslıq əlaqəsi mövcud deyil, sıfırdan fərqli və mütləq qiymətcə vahiddən kiçikdirlər. Əvvəlcə $f(z_1, z_2, z_3) = \sum\limits_{nmk} a_{nmk} z_1^n z_2^m z_3^k$ funksiyası üçün

məxsusi ədəd problemini araşdıraq. Təbbi ki, bu halda $(Tf)(z_1, z_{2,} z_3) = \lambda f(z_1, z_2, z_3)$ tənliyini nəzərdən keçirməliyik. Onda

$$(f \circ \varphi)(z_1, z_2, z_3) = \lambda f(z_1, z_2, z_3)$$

$$\sum_{nmk} a_{nmk}(\alpha_1 z_1)^n (\alpha_2 z_2)^m (\alpha_3 z_3)^k = \lambda \sum_{nmk} a_{nmk} z_1^n z_2^m z_3^k$$

$$\sum_{nmk} a_{nmk} \alpha_1{}^n \alpha_2{}^m \alpha_3{}^k z_1^n z_2^m z_3^k = \lambda \sum_{nmk} a_{nmk} z_1^n z_2^m z_3^k$$

olar. Burada $n, m, k \geq 0$ indeksləri üçün $a_{nmk}(\alpha_1^n \alpha_2^m \alpha_3^k - \lambda) = 0$ münasibətini almış oluruq. Hər hansı $a_{n_0 m_0 k_0}$ əmsalı sıfırdan fərqli olarsa, onda biz $\lambda = \alpha_1^{n_0} \alpha_2^{m_0} \alpha_3^{k_0}$ almış oluruq. Təsadüfən başqa bir $\{n_1, m_1, k_1\}$ çoxluğu $\{n_0, m_0, k_0\}$çoxluğundan fərqlənməklə $a_{n_1 m_1 k_1} \neq 0$ olduğu halda $\lambda$ məxsusi qiyməti üçün hədbəhəd müqayisədən $\lambda = \alpha_1^{n_1} \alpha_2^{m_1} \alpha_3^{k_1}$ qiymətidə alınır. Buradan $\alpha_1^{n_0} \alpha_2^{m_0} \alpha_3^{k_0} = \alpha_1^{n_1} \alpha_2^{m_1} \alpha_3^{k_1}$ bərabərliyini almış oluruq. Bu isə $\alpha_1^{n_1 - n_0} \alpha_2^{m_1 - m_0} \alpha_3^{k_1 - k_0} = 1$ olması deməkdir. Belə olduğu halda aşağıdakı şərtlərlə rastlaşmış oluruq.

1) $\alpha_1, \alpha_2, \alpha_3$ məxsusi ədədləri arasında multiplikativ asılılıq münasibəti olmaya bilər. Yəni sıfırdan fərqli bütün indekslər üçün $\alpha_1^n \alpha_2^m \alpha_3^k \neq 1$ olar. Bu halda biz aşağıdakı teoremi almış oluruq

***Teorem 1.*** Əgər $\alpha_1, \alpha_2, \alpha_3$ məxsusi ədədləri rezonanslı deyillərsə və bu ədədlərin multiplikativ asılılığı yoxdursa, onda $T : \sum_3 \to \sum_3$ endomorfizminin məxsusi ədədləri $\lambda = \alpha_1^n\ \alpha_2^m\ \alpha_3^k$ şəklində və uyğun məxsusi funksiyaları $f(z_1, z_2, z_3) = z_1^n z_2^m z_3^k$ formasındadır.

Əgər $\lambda$ məxsusi ədədinə uyğun məxsusi altfəzanın ölçüsünü $\dim E_T(\lambda)$ ilə işarə etsək, bu fəza bir funksiyanın yaratdığı altfəza kimi bir ölçülüdür.

2) Mümkün olan ikinci vəziyyəti nəzərdən keçirək. Bu halda $\alpha_1, \alpha_2, \alpha_3$ məxsusi ədədləri arasında multiplikativ asılılıq mövcuddur. Fərz edək ki, $\{n_0, m_0, k_0\}$ indeksləri sıfırdan fərqli olmaqla $\alpha_1^{n_0} \alpha_2^{m_0} \alpha_3^{k_0} = 1$ olur. Onda

$$\alpha_1^a \alpha_2^b \alpha_3^c = 1, 0 < |\alpha_1|, |\alpha_2|, |\alpha_3| < 1 \qquad (1)$$

tənliyinin tam həllərini təyin etməliyik. Tutaq ki, $\alpha_1, \alpha_2, \alpha_3$ ədədləri uyğun olaraq $\alpha_1 = \rho_1 e^{2\pi t_1}, \alpha_2 = \rho_2 e^{2\pi t_2}, \alpha_3 = \rho_3 e^{2\pi t_3}$ şəklindədirlər. Onda $0 \leq t_1, t_2, t_3 < 1$ şərti ödənilir. Buradan aşağıdakı sistemləri almış olarıq

$$\begin{cases} \rho_1^a \rho_2^b \rho_3^c = 1 \\ at_1 + bt_2 + ct_3 \in Z \end{cases} \qquad (2)$$

$$\begin{cases} a \log \rho_1 + b \log \rho_2 + c \log \rho_3 = 0 \\ at_1 + bt_2 + ct_3 \in Z \end{cases} \qquad (3)$$

Sonuncu (3) sistemindən (1)-in həlli üçün zəruri şərt $\dfrac{\log \rho_1}{\log \rho_3}, \dfrac{\log \rho_2}{\log \rho_3} \in Q$ şəklində almış oluruq. $\dfrac{\log \rho_1}{\log \rho_3} = \dfrac{u_1}{u_2}, \dfrac{\log \rho_2}{\log \rho_3} = \dfrac{u_2}{u_3}, u_1, u_2, u_3 \in Z$ işarələməsini aparaq. Burada $n_0 = \dfrac{-u_2 m_0 - u_3 k_0}{u_1}, m_0 = \dfrac{-u_1 n_0 - u_3 k_0}{u_2} \in Z$ olduğunu nəzərə alsaq $\lambda = \alpha_1^{n_0} \alpha_2^{m_0} \alpha_3^{k_0}$ məxsusi ədədinə uyğun məxsusi funksiya

$$f(z_1,z_2,z_3)=\sum_{\substack{n_0u_1+m_0u_2+k_0u_3=0\\ \frac{-u_2m_0-u_3k_0}{u_1}\geq 0\\ \frac{-u_1n_0-u_3k_0}{u_2}\geq 0\\ u_1,u_2,u_3\in Z}} z_1^{\frac{-u_2m_0-u_3k_0}{u_1}} z_2^{\frac{-u_1n_0-u_3k_0}{u_2}} z_3^{k_0} \qquad (4)$$

şəklinə düşər. Burada $u_1,u_2,u_3$ tam ədədlərinin $Z$ tam ədədlər çoxluğu üzrə qiymətlərini nəzərə aldıqda uyğun məxsusi altfəza $\dim E_T(\alpha_1^{n_0}\alpha_2^{m_0}\alpha_3^{k_0})=\left|Z\cap\left[\frac{-u_2m_0-u_3k_0}{u_1},\frac{-u_1n_0-u_3k_0}{u_2}\right]\right|$ ölçülü olar. Burada $|A|$ simvolu ilə A çoxluğunun gücü işarə edilmişdir. Beləliklə biz aşağıdakı kimi teoremi almış oluruq.

***Teorem 2***. Əgər $\sum_3$ cəbrində təsir edən $T$ endomorfizmini doğuran inikasın xətti hissəsinin $\alpha_1,\alpha_2,\alpha_3$ məxsusi ədədləri arasında rezonanslıq əlaqəsi yoxdursa, lakin bu ədədlər arasında multiplikativ asılılıq varsa, onda bu endomorfizmin məxsusi ədədi $\lambda=\alpha_1^{n_0}\alpha_2^{m_0}\alpha_3^{k_0}$ şəklində, uyğun məxsusi funksiyası (4) şəklində və uyğun məxsusi altfəzanın ölçüsü $\dim E_T(\alpha_1^{n_0}\alpha_2^{m_0}\alpha_3^{k_0})=\left|Z\cap\left[\frac{-u_2m_0-u_3k_0}{u_1},\frac{-u_1n_0-u_3k_0}{u_2}\right]\right|$ ədədinə bərabərdir.

$T$ rezonanslı olmadığı halda $\varphi$ inikasının xətti hissəsinin məxsusi ədədləri $\alpha_1=\alpha_2=\alpha_3=\alpha$ olmaqla bərabər olarsa, onda onun matrisi normal formada olmaqla aşağıdakı kimidir.

$$\begin{pmatrix}\alpha & 0 & 1\\ 0 & \alpha & 1\\ 0 & 0 & \alpha\end{pmatrix}$$

Bu hal rezonans monomu olan hala uyğun olmaqla $\lambda=\alpha^t$ şəklinə düşər [1]. Bu məxsusi ədədə uyğun məxsusi funksiya $f_t(z_1,z_2,z_3)=z_1^{t_1}z_2^{t_2},(t_1+t_2=t)$ kimi olar. Onda $\lambda$ məxsusi ədədinə uyğun məxsusi altfəza bir ölçülü olur.

Endomorfizmi doğuran inikasın koordinat başlanğıcında xətti hissəsinin məxsusi ədədləri sıfra bərabər olduğu halda $\sum_2$ cəbrində tədqiq olunmuşdur[2]. $\sum_3$ cəbrində bu halda $\varphi$ inikasının xətti hissəsinin məxsusi ədədlərindən birinin sıfır olduğu halı nəzərdən keçirək. Bu halda inikasın matrisi

$$\begin{pmatrix}\alpha_1 & 0 & 0\\ 0 & 0 & 0\\ 0 & 0 & \alpha_3\end{pmatrix}$$

şəklində olar. Spektral tənlikdə bunu nəzərə alsaq

$$(Tf)(z_1,z_2,z_3)=\sum_{nmk}a_{nmk}(\alpha_1z_1)^n(\alpha_3z_3)^k=\sum_{nk}a_{n0k}\alpha_1^n\alpha_3^kz_1^nz_3^k.$$

$$\sum_{nk}a_{n0k}\alpha_1^n\alpha_3^kz_1^nz_3^k=\lambda\sum_{nmk}a_{nmk}z_1^nz_2^mz_3^k.$$

Buradan

$$a_{nmk}(-\alpha_1^n\alpha_3^k+\lambda)+\sum_m a_{nmk}z_2^m=0$$

Nəticədə $\lambda = \alpha_1^n \alpha_3^k \neq 0$ alınar və məxsusi funksiya $f(z_1, z_2, z_3) = \sum_{nk} a_{nk} z_1^n z_3^k$ şəklinə düşər. Bu onu göstərir ki, bu halda məxsusi ədədlər $\lambda = \alpha_1^n \alpha_3^k$ şəklində olur və məxsusi funksiyalar $z_1^n z_3^k$ kimi monomlardan ibarətdir. Onda aşağıdakı kimi teorem isbat edilmiş olur.

***Teorem 3.*** Əgər $\sum_3$ cəbrində təsir edən T endomorfizmini doğuran inikasın xətti hissəsinin məxsusi ədədlərindən biri sıfır olarsa, onda onun hər bir məxsusi qiyməti $\lambda = \alpha_1^n \alpha_3^k$ şəklindədir və bu ədədə uyğun məxsusi altfəza bir ölçülüdür.

## ƏDƏBIYYAT


1.Shahbazov A.I., Seyidov D.A. Eigensubspaces of resonancing endomorphisms of algebra of convergent power series, Baku, Caspian journal of Applied Mathematics, Ecology and Economics, 2015,v.3,№2,p.77-84.

2. Shahbazov A.I., Seyidov D.A. Eigensubspaces of endomorphisms of algebra of convergent power series, Barcelona, Mathematica Aeterna, 2017,v.7,№3,p.233-240.

3. Seyidov D.A. Eigensubspaces of resonancing endomorphisms of algebra convergent power series $\sum_n$ ,Modern Problems of Mathematics and Mechanics PROCEDINGS of the International Conference dedicated to the 100-th anniversary of the National Leader Haydar Aliyev, Baku, 2023, p.368-369.

4. Seyidov D.A. Eigensubspaces of resonancing endomorphisms withresonancing monoms of convergent power series, 4[th] international e-conference on mathematical advances and applications, İstanbul, 26-29 may, 2021, p.72


## РЕЗЮМЕ


**ДАШГЫН СЕЙИДОВ**


### СПЕКТРАЛЬНЫЕ СВОЙСТВА НЕРЕЗОНАНСНЫХ ЭНДОМОРФИЗМОВ АЛГЕБРЫ СХОДЯЩИХСЯ СТЕПЕННЫХ РЯДОВ $\sum_3$


В данной статье исследованы спектральные свойства $T: \sum_3 \to \sum_3$ $, Tf = f \circ \varphi,\ \ \varphi : C^3 \to C^3$ образных нерезонансных эндоморфизмов алгебры сходящихся степенных рядов $\sum_3$ Вычислены собственные значения этого оператора в случае нерезонансных и без нерезонансных мономов. Также определьяется общий вид собственных функций, соответстующих полученным собственных значениям. Определены размеры собственных подпространство, соответстующих собственным значениям.



***Ключевые слова:*** эндоморфизм, алгебра, степенные ряд, спектр, собственное значене, собственное подпространство.


## SUMMARY


**DASHQIN SEYIDOV**


### SPECTRAL PROPERTIES OF NONRESONANCING ENDOMORPHISMS OF ALGEBRA CONVERGENT POWER SERIES $\sum_3$


Spectral properties of $T: \sum_3 \to \sum_3$ $, Tf = f \circ \varphi, \varphi : C^3 \to C^3$ -shaped nonresonancing endomorphisms of the algebra convergent power series $\sum_3$ are studied in this paper. Eigenvalues of this endomorphism were calculated in case of nonresonancing and no resonancing monoms. Also, the general form of the eigenfunctions corresponding to the obtained eigenvalues is determined. The dimensions of the eigensubspaces corresponding to the eigenvalue are defined.



***Keywords:*** endomorphism, algebra, power series, spectr, eigenvalue, eigensubspace.

*(Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent M.İsmayılov tərəfindən təqdim edilmişdir)*

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

Jurnalda iqtisadiyyat, filologiya, tarix, coğrafiya, pedaqogika və psixologiya, riyaziyyat üzrə aparılan elmi araşdırmaların nəticələrini əks etdirən başqa nəşrlərdə çap olunmamış məqalələr qəbul olunur.

Məqalənin həcmi qrafik materiallar, fotolar, cədvəllər, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 10-12 səhifədən artıq olmamalıdır.

Məqalə həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.

Məqalənin keyfiyyətinə, orada göstərilən faktların dürüstlüyünə bilavasitə müəllif cavabdehdir.

Məqalələr azərbaycan, rus və ingilis dillərindən birində təqdim oluna bilər.

Məqalənin yuxarı sağ küncündə "12" pt ölçüdə qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı, 1 interval ara verməklə aşağıda işlədiyi təşkilatın adı "12"pt ölçüdə adi və kiçik hərflərlə yazılır. Yenə 1 interval ara verməklə müəllifin (müəlliflərin) elektron poçt adresi göstərilir. Bunlardan sonra 1 sətir boş buraxılaraq ortadan "12"pt ölçüdə qalın və böyük hərflərlə məqalənin adı yazılır.

Daha sonra bir sətir boş buraxılaraq məqalənin yazıldığı dildə, məqalənin sonunda isə digər iki dildə xülasələr verilir. Digər dillərdə verilən xülasələrdən əvvəl sağ tərəfdə "12" pt ölçüdə məqalə müəllifinin (müəlliflərin) adı və soyadı, məqalənin adı isə qalın, böyük hərflərlə yazılır, sonra "12"pt ölçüdə adi hərflərlə xülasələrin mətni verilir. Hər xülasənin sonunda 10 sayda sözü keçməməklə açar sözlər yazılır. "Açar sözlər" söz birləşməsi qalın hərflərlə yazılır.

Xülasələr, ədəbiyyat siyahısı 1, məqalənin mətni 1,5 interval ara ilə yazılmalıdır.

Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. İstifadə olunmuş ədəbiyyat siyahısı, məqalənin sonunda xülasələrdən əvvəl "12" pt ölçüdə 1 interval ara ilə kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. "Ədəbiyyat" sözü səhifənin ortasında"12"pt ölçülü qalın və böyük hərflərlə yazılır.

Redaksiyaya təqdim olunmuş məqalələr (CD və çap variantı) geri qaytarılmır.

Məqalələr müəlliflərin çalışdığı şöbə, kafedra rəhbərlərinin razılıq məktubu ilə yaxud AMEA-nın həqiqi, müxbir üzvlərinin rəyi ilə birgə təqdim olunmalıdır.

Məqalələr, xülasə və açar sözlər WinWord proqramında, yalnız Times New Roman şriftində yazılaraq kompakt diskdə (CD) və A4 vərəqində təqdim olunmalıdır.

**Redaksiyanın ünvanı:**
**Naxçıvan - Az 7000**
**Babək məhəlləsi. "Naxçıvan"**
**Universiteti şəhərciyi**
**Tel: (+99436) 550 83 41**
**E.mail:elmieserler@nu.edu.az**

## К СВЕДНИЮ АВТОРОВ

В наш журнал принимаются не опубликованные в других изданиях статьи, являющиеся результатами научных исследований по экономике, филологии, истории, географии, математике, педагогики и психологии.

Общий объем статьи включая графические материалы, фотографии, таблицы, список литературы и резюме не должен превышать 10-12 страниц.

Не желательно чтобы число соавторов превышало трех лиц.

Автор несет непосредственную ответственность за качество статьи и достоверность представленных в нем фактов.

Статьи могут быть представлены на азербайджанском, русском и английском языках.

На верхнем правом углу статьи в размере “12” pt жирными и заглавными буквами указываются имя и фамилия автора (авторов), ниже с интервалом 1, прописными буквами в размере “12” pt название организации, ещё ниже с интервалом 1 адресс электронной почты автора (авторов) обычными строчными буквами. Ниже после одной пустой строки указывается название статьи с заглавными буквами, в размере “12” pt жирным шрифтом.

Далее, пропуская одну строку приводится резюме с ключевыми словами на языке статьи, а в конце резюме и ключевые слова в двух других языках. Перед резюмах на других языках на правом углу указываются с жирными заглавными буквами в размере ”12” pt имя и фамилия автора (авторов), называние статьи, а сама резюме – строчными буквами. Ключевые слова не должны превышать 10 слов. Словосочетание «ключевые слова» пишется жирными буквами.

Резюме и список использованной литературы пишется с интервалом 1, а текст статьи -1,5.

Следует указать ссылки на научные источники по данной теме. Список использованной литературы указывается сразу после статьи перед резюме, с размером “12” pt, с интервалом 1, методом кодирования и в алфавитном порядке.

Слово «литература» пишется в середине страницы, в размере “12”pt жирными и заглавными буквами.

Представленные в редакцию статьи (CD и печатный вариант) не подлежат возврату.

Статьи должны быть представлены вместе с рекамендательным письмом руководителя отдела и кафедры с места работы автора или с отзывом действительного члена или члена-корреспондента Национальной Академии Наук Азербайджана.

Статьи представляются в программе WinWord, шрифтом Times New Roman, на белой бумаге А4.

**Адрес редакции:**
**Нахчыван – Az 7000**
**Бабек. Университетский**
**городок НУ**
**Тел: (+99436) 550 83 41**
**E.mail:elmieserler@nu.edu.az**

\

**TO THE INFORMATION OF AUTHORS**

Scientific journal accepts articles on economics, philology, history, geography, pedagogy and psychology, mathematics, still not published and having research results at a scientific level.

The total volume of the article including graphic materials, photographs, tables, references and a summary should not exceed 10-12 pages.

The number of co-authors of the article should not exceed 3 persons.

The author is directly responsible for the quality of the article and the accuracy of the facts indicated in the article..

Articles can be submitted in Azerbaijani, Russian and English.

The name and surname of the author (s) should be formatted in the right corner of the provided article by font size of "12" pt in bold and in capital letters. Immediately under the name with an interval of 1, the name of the organization should be indicated in capital letters by font size of 12 pt. Skipping 1 interval, the email address of the author (co-authors) should be indicated. After that, skipping one blank line should be given the title of the article in bold and in capital letters, in font size of "12" pt.

Further, skipping one line is a summary with keywords in the language of the article, and at the end of the summary and keywords in two other languages. Prior to the summary in other languages on the right corner should be indicated the author’s (co-authors) name and surname of the author(s) and the title of the article in bold and in capital letters, and then the summary should be given in lower case letters in the font size of “12” pt. Keywords should not exceed 10 words. The phrase "keywords" ishould be written in bold letters.

Summary and bibliography should be written with an interval of 1, and the text of the article -1,5.

Reference should be linked to the sources related to the The list of used literature is indicated immediately after the article before the summary, with a size of “12” pt, with an interval of 1, and encoded in alphabetical order.

The wordcombination “list of literature” should be written in the middle of the page, in the font size of “12” pt, in bold and capital letters.

Articles submitted to the editors (CD and printed version) are not refundable.

Articles should be submitted together with the recommendation letter of the head of the department and the department from the place of work of the author or with the response of the full member or corresponding member of the National Academy of Sciences of Azerbaijan.

Articles are presented in the program WinWord, font Times New Roman, on white A4 paper.

**Editorial address:**
**Nakhchivan - Az 7000**
**Babek . University**
**town NU**
**Tel: (+99436) 550 83 41**
**E.mail:** elmieserler@nu.edu.az

**“Naxçıvan” Universitetinin “Nuh” nəşriyyatında çap olunmuşdur**

**Nəşriyyat direktoru: LEYLA TAĞIYEVA**